MEANS OF ARTISTIC EXPRESSION IN 20TH CENTURY AZERBAIJANI PROSE: MONOLOGUES AND DIALOGUES

XX YÜZYIL AZERBAYCAN NESRİNDE SANATSAL ANLATIM ARAÇLARI: MONOLOG VE DİYALOGLAR

XX ƏSR AZƏRBAYCAN NƏSRİNDƏ BƏDİİ İFADƏ VASİTƏLƏRİ: MONOLOQ VƏ DİALOQLAR

Prof. Hacer Huseynova

Azerbaycan Devlet Pedagoji Üniversitesi, Filoloji Fakülte

ORCID ID: https://orcid.org/0000-0002-3223-427X

ABSTRACT

It is impossible to imagine any work of art without monologue and dialogue. Especially prose and drama. Monologues and dialogues express important stylistic features in fiction. In this article, we will discuss the features of the development of these language units in the works of Mir Jalal, a prominent writer of twentieth-century Azerbaijani literature.

Mir Jalal paid special attention to the natural and effective language of his works of art, the expression of ideas through monologues and dialogues in order to increase the emotional harmony of speech. Features such as conciseness in the author's narration, simplicity from the vernacular, clear expression of the mood of the image, lyricism, sincerity in rhetorical questions, writer's intervention, organic connection between the external details of the portrait and the inner world make the author's language colorful, sweet, fluent, expressive and lively are the main qualities that make it possible [2. p.160].

Just as Mir Jalal's story is unique, the language of the characters is also specific. The writer speaks of each image in accordance with his worldview, cultural level and character. The level of images is clearer and fuller in monologues and dialogues.

First of all, let's pay attention to monologues: through monologues the psychological state of the characters, their thoughts, etc. The monologues created by Mir Jalal are diverse, real and natural in terms of subject matter. Sometimes the thoughts of the characters, their attitude to events or other images are determined by monologues. However, these monologues, although not as clear and sharp as in the plays, are presented in the form of the inner speech and thoughts of the characters.

Keywords: artwork, monologue, dialogue, syntactic unit, style ...

ÖZET

Monolog ve diyalog olmadan herhangi bir sanat eseri hayal etmek imkansızdır. Özellikle düzyazı ve drama. Monologlar ve diyaloglar, kurgudaki önemli üslup özelliklerini ifade eder. Bu makalede, yirminci yüzyıl Azerbaycan edebiyatının önde gelen yazarlarından Mir Celal'in eserlerinde bu dil birimlerinin gelişiminin özelliklerini tartışacağız.

Mir Jalal, eserlerinin doğal ve etkili diline, fikirlerin monologlar ve diyaloglar yoluyla ifade edilmesine, konuşmanın duygusal uyumunu artırmak için özel önem verdi. Yazarın anlatımındaki özlülük, yerelden sadelik, görüntünün ruh halinin net ifadesi, lirizm, retorik sorularda samimiyet, yazarın müdahalesi, portrenin dış detayları ile iç dünya arasındaki organik bağlantı gibi özellikler yazarın dilini oluşturur. renkli, tatlı, akıcı, etkileyici ve canlı olması bunu mümkün kılan başlıca niteliklerdir .

Mir Jalal'in hikayesi benzersiz olduğu gibi, karakterlerin dili de kendine özgüdür. Yazar her imgeyi kendi dünya görüşüne, kültürel düzeyine ve karakterine göre konuşur. Monologlarda ve diyaloglarda görüntülerin seviyesi daha net ve daha dolgundur.

Her şeyden önce, monologlara dikkat edelim: monologlar aracılığıyla karakterlerin psikolojik durumu, düşünceleri vb. Mir Celal'in oluşturduğu monologlar, konu bakımından çeşitli, gerçek ve doğaldır. Bazen karakterlerin düşünceleri, olaylara veya diğer görüntülere karşı tutumları monologlarla belirlenir. Ancak bu monologlar, oyunlardaki kadar net ve keskin olmasa da, karakterlerin iç konuşmaları ve düşünceleri biçiminde sunulur.

Anahtar kelimeler: sanat eseri, monolog, diyalog, sözdizimsel birim, üslup...

XÜLASƏ

Hər hansı bir bədii əsəri monoloq və dialoqsuz təsəvvür etmək mümkün deyil. Xüsusilə də nəsr və dram əsərlərini. Monoloqlar və dialoqlar bədii ədəbiyyatda mühüm üslubi cəhətlər ifadə edir. Biz bu məqalədə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nasiri Mir Cəlalın bədii əsərlərində həmin dil vahidlərinin işlənmə xüsusiyyətlərindən bəhs edəcəyik.

Mir Cəlal bədii əsərlərinin dilinin təbii və təsirli olması, danışığın emosional ahənginin artırılması üçün fikrin monoloq və dialoqlar vasitəsilə ifadəsinə xüsusi önəm vermişdir. Yazıçının təhkiyəsindəki yığcamlıq, xalq danışıq dilindən gələn sadəlik, obrazın əhval-ruhiyyəsini aydın şəkildə ifadə, lirik ricət, ritorik suallardakı səmimiyyət, yazıçı müdaxiləsi, portretin zahiri detalları ilə daxili aləmi arasındakı üzvi bağlılıq kimi xüsusiyyətlər müəllif dilinin rəngarəngliyini, şirin, səlis, ifadəli və canlı olmasını şərtləndirən əsas keyfiyyətlərdir [2. s.160].

Mir Cəlalın təhkiyəsi özünəməxsus olduğu kimi, personajların da dili spesifikdir. Yazıçı hər bir obrazı öz dünyagörüşünə, mədəni səviyyəsinə və xarakterinə uyğun şəkildə danışdırır. Obrazların səviyyəsi isə monoloq və dialoqlarda özünü daha aydın və dolğun göstərir.

İlk növbədə, monoloqlara diqqət yetirək: monoloqlar vasitəsi ilə personajların psixoloji durumu, düşüncələri və s. diqqətə çatdırılır.Mir Cəlalın yaratdığı monoloqlar mövzu etibarilə müxtəlif, real və təbiidir. Bəzən personajların düşündükləri, hadisələrə və ya digər obrazlara münasibəti monoloqlar vasitəsilə müəyyənləşir. Lakin bu monoloqlar dram əsərlərində olduğu kimi, aydın, kəskin verilməsə də,obrazların daxili nitqi, düşüncələri şəklində təqdim edilmişdir.

Açar sözlər: bədii əsər, monoloq, dialoq, sintaktik vahid, üslub...

GİRİŞ

Hər hansı bir bədii əsəri monoloq və dialoqsuz təsəvvür etmək mümkün deyil. Xüsusilə də nəsr və dram əsərlərini. Monoloqlar və dialoqlar bədii ədəbiyyatda mühüm üslubi cəhətlər ifadə edir. Biz bu məqalədə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nasiri Mir Cəlalın bədii əsərlərində həmin dil vahidlərinin işlənmə xüsusiyyətlərindən bəhs edəcəyik.

Mir Cəlal bədii əsərlərinin dilinin təbii və təsirli olması, danışığın emosional ahənginin artırılması üçün fikrin monoloq və dialoqlar vasitəsilə ifadəsinə xüsusi önəm vermişdir. Yazıçının təhkiyəsindəki yığcamlıq, xalq danışıq dilindən gələn sadəlik, obrazın əhval-ruhiyyəsini aydın şəkildə ifadə, lirik ricət, ritorik suallardakı səmimiyyət, yazıçı müdaxiləsi, portretin zahiri detalları ilə daxili aləmi arasındakı üzvi bağlılıq kimi xüsusiyyətlər müəllif dilinin rəngarəngliyini, şirin, səlis, ifadəli və canlı olmasını şərtləndirən əsas keyfiyyətlərdir [2. s.160].

Mir Cəlalın təhkiyəsi özünəməxsus olduğu kimi, personajların da dili spesifikdir. Yazıçı hər bir obrazı öz dünyagörüşünə, mədəni səviyyəsinə və xarakterinə uyğun şəkildə danışdırır. Obrazların səviyyəsi isə monoloq və dialoqlarda özünü daha aydın və dolğun göstərir.

ARAŞDIRMA

İlk növbədə, monoloqlara diqqət yetirək: monoloqlar vasitəsi ilə personajların psixoloji durumu, düşüncələri və s. diqqətə çatdırılır.Mir Cəlalın yaratdığı monoloqlar mövzu etibarilə müxtəlif, real və təbiidir. Bəzən personajların düşündükləri, hadisələrə və ya digər obrazlara münasibəti monoloqlar vasitəsilə müəyyənləşir. Lakin bu monoloqlar dram əsərlərində olduğu kimi, aydın, kəskin verilməsə də,obrazların daxili nitqi, düşüncələri şəklində təqdim edilmişdir:

Qədir öz yuxusundan oyanıb yenicə çiçəklənən düzlərə, yamaclara baxdıqca, bahar havasını udduqca dərindən köks ötürürdü: "Gedirəm, bu ayrılıq mənə daha ağırdır. Çörək, yalnız bir loxma çörək üçün ailəmdən və əziz körpəmdən ayrılıram. Nə edək, güzəranımız belədir. Bəlkə, biz də bir gün görək".

Qədir ürəyində dediyi bu sözləri dilinə gətirməkdən qorxurdu [3. I.24].

Verilmiş monoloq dərin psixoloji sarsıntı keçirənQədirin ürəyinin səsidir.Obrazın mənəvi narahatlığı, kədər və ümidsizliyi, Bəbir bəyin təklifinə qarşı inamsızlığı öz təsirli ifadəsini monoloqda- verilən nümunədə monoloji daxili nitqdə tapmışdır.

Bəbir bəy ... Qədirin ölümünü, kəbinin kəsildiyini yadına salıb öz-özünə deyirdi: " Bəs bu bəxtin açılması deyil, nədir? Bəxt sənə dəftərxana qapısı deyil ki, açılıb örtüləndə cırıldasın.Bəxt belə səssiz-səmirsiz açılır da. Açılmağın daha buynuzu olmaz ki? Ürəyimdən keçənlər bir-bir göyərir. Buna nə söz. Yox, naşükürlük bir şey deyilş Mən yaradandan razıyam" [3. I .71].

Verilmiş monoloq səciyyələndirici. Fərdiləşdirici funksiyanı yerinə yetirən vasitə rolunu oynayır. Öz heyvani hisslərinin əsiri olan, başqasının bədbəxtliyi üzərində xoşbəxtliyini qurmağa çalışan Bəbir bəyin Qədirin "ölümünə" sevinməsi, özündən razılıq hissi monoloqla emosional bir şəkildə, bəzən ritorik sual cümlələrinin nəqli cümlələrlə əvəzlənməsi, özünün verdiyi suallara özünün verdiyi cavablarla-eqoist cavablarla öz gözəl ifadəsini tapmışdır.

Axşam Qumrunu daha ağır bir kədər almışdı: "Nə üçün insan qara günləri öz əlilə yoğurur? Bu nədir? Nə üçün mən Qədiri gözləyən fəlakəti görmədim? Nə üçün kor oldum? Nə üçün öz əlimlə onu qızıl güllə qabağına göndərdim? Qulağıma belə bir pıçıltı gəlsə idi: "Buraxma, Qədir ölümə gedir, buraxma!" Faxiräni ayaqları altına atar. Qollarımıboynuna salıb yalvarardım" [3.I. 73].

Nümunə göstərdiyimiz monoloq vasitəsilə Mir Cəlal yuxu və istirahətini, həyata ümidini itirmiş Qumrunun ümidsizliyini, köməksizliyini oxucuya çatdırmış. Silsilə ritorik sual cümlələri obrazın hiss və həyəcanının, qədirin ölümündə özünü günahkar saymasının, psixoloji sarsıntısının, daxili gərginliyinin poetik, obrazlı şəkildə ifadəsinə nail olmuşdur.

Axund: "Mənə də sarıqlı molla deyərlər. Qoy Bəbir bəyin həsrətdən canı çıxsın. Qədir kəfən yırtıb məzardan xortlasın. Amma haqq öz yerini alacaq. Cəhənnəm əzabında çırpınan Qumru, cənnət əvəzində mənim Quran kitablı sinəmdə yatacaq. Bundan sonra heç yatmasa nə olar, necə deyərlər, "gülünü dər, tikanı ver!" [3.I. 100].

Bəzi hallarda yazıçının fərdi üslubuna xas olaraq monoloqlar obrazı fərdiləşdirməyə, tipikləşdirməyə xidmət edir. Yuxarıdakı monoloqda şəhvani hisslərinə əsir olan, "elin axundu"-nun, evində əmanət qoyulan Qumruya tamah salması onun öz monoloqu vasitəsilə oxucuya çatdırılır. Monoloq birbaşa obrazın xarakterinin açılmasına xidmət edir. Başqa bir nümunəyə nəzər salaq:

Nağıllarda söylənən tilsimli gecələr Tapdığın (Kərbəlayı) yadına düşdü. Göyə baxdı. Səliqəsiz səpələnmiş ulduzlar ona qızıl onluqları xatırlatdı: ...nə ola bu qızıllar göydən qopa, qızıl yağışı yağaydı. Nə qapaqap olardı, fələk! Qıllı papağımı başıma basıb, bir yüzcə dənə yığsaydım, birtəhər olardım. Şəhərin göbəyində bir mülk alardım, ya da Namazlıların bağını ələ keçirərdim, ildə on beş-iyirmi min manatlıq təkcə "Təbriz üzümü" satardım. Onda Durmuş da paxıllıqdan çatlardı... Qoy onda mənim lə ha bəhsə girsin!..." [3.I.228].

Obrazın daxili dünyası, düşüncəsi. Mənəviyyatı haqqında oxucuya dəqiq, düzgün məlumat vermək, personajın daxili aləmini bütün incəlikləri ilə oxucuya tanıtmaq üçün monoloqdan gözəl linqvistik ifadə vasitəsi, üslubi vasitə ola bilməz. Çünki burada nə müəllif, nə də digər bir personaj onun haqqında mənfi, ya da müsbət fikir söyləmir. Obrazın öz düşündükləri, söylədikləri onun özü haqqında hər şeyi açıb deyir.

Göstərilən nümunədə Mir Cəlal həmin üslubi priyomu əsas götürmüş, Kərbəlayı Tapdığın monoloqu vasitəsilə onun nə qədər adi, pula, var-dövlətə həris bir insan olduğunu, mal üçün hər kəsə, hətta doğma qardaşına (Durmuş onun qardaşıdır-H.H) belə kələk gələ bilən bir adam olduğunu göstərmişdir. Deməli, həmin monoloq obrazın səciyyəvi cəhətlərinin açılmasında, fərdiləşdirilməsində mühüm rol oynayan ən uyğun üslubi vasitədir.

Ax, dərsə gedən uşaq nə xoşbəxt idi. Mən razı olardım hər gün sürüşüb yıxıldım. Qolum sına, gözüm yaralana... Təki dərsə gedəydim. Qoltuğumda çanta, əlimdə qələm tutaydım, dərs yolunda quldur da, canavar da, ayı da, ilan da dayansa, qorxmazdım [3. IV. 54].

Yenə yetim qızcığazın əlçatmaz arzularının, oxumaq həvəsinin təsirli şəkildə, poetik dillə təsvir olunması üçün ən uyğun üslubi vasitə olaraq monoloq seçilmişdir.

Mİr Cəlalın yaratdığı monoloqlardan bəziləri sinifli cəmiyyətin yaratdığı ziddiyyətlərə qarşı personajların üsyan səsidir:

Sona ana: "Nədən doğma oğlumun dağdan ovladığı ceyran bizə yaraşmadı, nədən öz əlimlə toxuduğum xalça mənə yaraşmadı? Kimdir bunlar? Bu kəlləpaşa kimi ütülmüşlər, qızıllı törənmiş şapqınçılar kimdir? Haradan basa-basa çapovula gəliblər, nə üçün? Nə üçün? [3.I.106].

Mir Cəlal sadə, zəhmətkeş, kimsəsiz azərbaycanlı qadının-Sonanın monoloqu vasitəsilə həmin dövrün ictimai-siyasi rejiminə qarşı üsyan etmişdir. Sona ana həm övladları, həm də ana vətəni üçün həyəcan keçirir, öz-özünə verdiyi suallara cavab tapa bilmir. Elə bu cavabsız suallarla yazıçı həm monoloqa təsirli, emosional çalar vermiş, həm də oxucunun özünü bu suallara cavab tapmaq üçün düşünməyə vadar etmişdir.

Əsərdə başqa bir monoloq isə Mərdanın dilindən verilmişdir. Həcminə görə digər monoloqlardan böyük olan monoloqda Mərdanın nökərçilikdə, kimsəsizlik üzündən, məşəqqətli həyat içində məhv olan, əslində pulun hökmran olduğu cəmmiyyətin növbəti qurbanlarından biri olan qardaşı Baharın taleyindən narahatlığı, onun üçün bəslədiyi arzuları əks olunmuşdur:

"Bahar, mələr quzum, sən hardasan? Qalx, qardaşım, buzlu torpaqlar altında olsan da, ailəmizə bax! Məsum baxışına, talesiz həyatına, günahsız ölümünə and olsun ki, sən bütün arzularına layiq idin. Sən bir qarın üçün səhərini çöllərdə açır, axşamını dağlarda qalardın. Lakin qapılarda sənin üzünə gülən, qabağına süfrə açan, bir mehriban dindirən yox idi... Çünki sən kasıb idin...

Bahar, yetim qardaşım, sən hardasan? Qalx anana təsəlli ver. Mən də səsimi yazıq anamın səsinə qatıb ağlasam, yeri var! Lakin mən daha ağlamayacağam! Mənə yaraşmaz. Sənin təmiz adını könlümdə bir oğul kimi bəsləyəcəyəm. Yeni nəslə, gənclərə və gəncliyə həmişə xidmət edəcəyəm. Ürəyimə dağ çəkən qüssələrini isə polad kimi bir nifrət zərbəsi edib düşmənlərin başına çaxacağam!

Bahar, ay Bahar! Ömrümüzün yazı açılmışdır. Həyat gülür, təbiət gülür. Düz-dünya bəzənib. Lakin sənin acı xatirən lalənin qəlbinə çəkilən dağ kimi ürəyimi yandırır! Mən kəndimizin uşaqlarını yığıb sənin yanıqlı həyatını danışacağam... Onlar o köhnə dünyanın murdar qanunlarına nifrətlə böyüyəcəklər!" [3.I.237].

Monoloqdan ixtisarla verdiyimiz üç parça xarakterinə, intonasiyasına, ruhuna görə bir-birindən kəskin şəkildə fərqlənir. Mir Cəlal elə bir üslubi priyom seçmişdir ki, tək bircə bu monoloq vasitəsilə ümumilikdə əsərin inkişaf xəttini əks etdirməyə nail olmuşdur. Yəni olduqca kədərli, ümidsiz, çarəsiz notlarla monoloqa başlayan Mərdanin ikinci hissədə artıq münasibətinin dəyişdiyini görürük. Mərdan bu hissədə daha qətiyyətlidir, münasibəti kəskinləşir, daha ağlamayacağına and içir. Üçüncü hissədə isə artıq hiss olunur ki, bu mübarizədə xalq qələbə çalmış, müstəqillik, azadlıq qazanmışdır. Bahar olmasa da, "Baharlar" ağ günə çıxmışdır. Mərdan qardaşının ruhu qarşısında verdiyi sözü yerinə yetirmiş, kimsəsiz uşaqların məktəbə getməsi, xoşbəxt olması üçün əlindən gələni etmişdir.

Sadə bir monoloq vasitəsilə Mir Cəlal cəmiyyəti dəyişməyin yolunu da göstərmiş, xalqın mübarizəsinin, inkişafının gözəl bir nümunəsini yaratmışdır. Əsərin əsas ideya xətti də elə bundan ibarətdir və yazıçının, mövcud cəmiyyətə etiraz səsidir.

Mir Cəlalın təbii, sadə, emosional bir dildə yaratdığı monoloqları həyəcansız oxumaq mümkün deyil. Bu parçaları sadəcə, oxumursan, əsərə daxil olub həmin hadisələri yaşayırsan. Personajların keçirdiyi hissləri keçirirsən. Çünki Mir Cəlal böyük yazıçıdır, "əsl sənətkardır, yaradıcıdır. Onun romanlarının hər bir sözü öz avtobioqrafiyasının bir hissəsi kimi görünür, canlı və səmimi həyəcanı dərhal oxucuya təsir edir: kitabı oxuyub örtdükdən sonra adama elə gəlir ki, özünün dünənki həyatının həyəcan və sevinclərini sənə nağıl edən qızğın və həyəcanlı bir adamla bir neçə saat maraqlı söhbət etmisən" [6.s.73].

Yazıçının əsərlərində diqqəti cəlb edən digər bir maraqlı dil vahidi-sintaktik vasitə isə dialoqlardır. Akademik L.Şerba belə hesab etmişdir ki, monoloq "süni dil"dir. Guya dil özünün həqiqi varlığını dialoqlarda tapır. Yeni sözlər, formalar, tərkiblər, əsasən, dialoqlarda aşkar edilir. Çünki dialoqlarda personajlar, cəmiyyətin müxtəlif təbəqələrinin nümayəndələri arasındakı ziddiyyətlər daha obrazlı şəkildə əks olunur. "Bədii əsərlərin dili şifahi və yazılı nitqin çoxobrazlı formasının qarşılığı olan müxtəlif tipli monoloq və dialoqların cəmindən ibarətdir".

Mir Cəlal bədii yaradıcılığında məzmunu, keyfiyyəti. üslubi funksiyası baxımından bir-birindən fərqli olan orijinal strukturlu dialoqlar yaratmışdır. Həmmin dialoqlar vasitəsilə əsərlərin dilinə sadəlik, yığcamlıq və ən əsası isə təbiilik gətirmişdir.

-Gözəl qız, adın nədir?

-Qəşəng oğlan, hava ayazdır.

-Aybəniz qız, adını bəyan eylə!

-Qoçaq oğlan, məramını aç,söylə! [3.I.267].

Verilmiş dialoqda xalq dastanlarının ruhu hiss olunur. Bu, adi, quru sual-cavab deyil, dialoqda mətnaltı məna, eyham vardır. Adı Ayaz olan qız öz adını bir qədər sirli şəkildə, işarə ilə (hava ayazdır) oğlana başa salır. Dialoq səmimiliyi ilə, təbiiliyi ilə, eyni zamanda qafiyəli nəsr nümunəsi olması ilə yadda qalır.

Mir Cəlalın bədii əsərlərində dialoqlar məzmun və quruluş baxımından olduqca rəngarəngdir. Bu əsərlərdə personajların hər biri öz xarakterinə uyğun danışır. Obrazların səviyyəsi dialoqlarda özünü daha çox göstərir. Yazıçının yaratdığı dialoqlar da digər dil vahidləri kimi, olduqca real və təbiidir. Nümunəyə baxaq:

-Nə cürətlə ona yaxınlaşırsan, ay qodux?

- O məni niyə yıxır?

-Yalan danışma itin küçüyü!

-O məni itələyib ağacdan saldı.

-Kəs səsini!

-Atamın qəbri haqqı!

-Görüm atan səni yanına çıksin! [3. II.12].

Dialoqun məzmunundan personajların bir-birinə münasibəti aydınlaşır. "Bir gəncin manifesti" əsərində Qarınca xanımın kasıb, yetim uşaq olan Baharı hədələ- məsi, ona– onun simasında bütün kasıblara, zəhmətkeş xalqın nümayəndələrinə münasibəti dialoqun əsas məzmununu təşkil edir. Dialoq vasitəsilə personajların bir-birinə münasibəti aydınlaşdığı kimi, oxucunun da personajlara münasibəti formalaşır. Xanımın Bahara mənfi münasibəti dialoqda metaforik xitablarla (itin küçüyü, qodux), əmr formasında işlənmiş feillər (yalan danışma, kəs səsini) və daha çox əmr, təkid intonasiyası ilə yadda qalır, mürəkkəb konfliktlər dialoq vasitəsilə reallaşır.

Yazıçının yaratdığı bəzi dialoqlar səmimi söhbət əsasında qurulsa da, bəziləri konflikt zəminində yaranır və əsərin ümumi məzmunu ilə səsləşir:

-Vuran əlin qurusun.

-Qızıl gülləyə gələsən!

-Ay ibniziyad uşağı, ay şümürdən beşbetər!

-Çırağın sönsün! (3. III. 53)-dialoqu ekspressiv-emosional sözlər-qarğışlar əsasında qurulmuş, nida cümlələrindən təşkil olunmuşdur. Dialoqda canlı xalq danışıq dilinin ifadə vasitələri və bədii təsvir vasitələrinin ustalıqla əlaqələndirilməsi yolu ilə güclü ekspressiya yaradılmışdır. Ritmli dialoqda mənfi ekspressiyalı sözlərin sadalanması xüsusi effekt yaratmışdır. Psixoloji vəziyyəti əks etdirən monoloq və dialoqlarda təsirli sözlərin yanaşı işlənməsi fikrin dəqiqliyini təmin etmişdir. Başqa bir nümunə:

-*Uy!*

-*Vay!*

-*Of!*

-*Uf!* [3.III. 464].

Bu dialoqda isə, göründüyü kimi, replikalar yalnız nidalardan ibarətdir, bir kəlmə də olsun müstəqil söz işlənməmişdir. Bədbəxt hadisəni- "Lirika" hekayəsində bir məktəblinin tramvayın altında qalması hadisəsini görənlərin keçirdiyi hiss-həyəcanı, ürəklərindəki təlatümü təsirli ifadə etmək üçün sözsüz, yalnız nidalardan-ekspressiv vahidlərdən ibarət dialoqun verilməsi müəllifin çox müvəffəqiyyət lə seçdiyi bir formadır. Burada nidalar dialoqun təsirliliyini, baş verən hadisənin həyəcan çalarını daha da artırmağa xidmət etmişdir: sözün bitdiyi yerdə nidalar əhəmiyyətli, ən uyğun dil vahidi hesab edilmişdir.

NƏTİCƏ

Monoloq və dialoqlarda ifadə edilən emosiyanın əsası cəmiyyətdən gəlir. Bu sintaktik vasitələrlə yazıçı bəzən obrazı başa salmaq, hadisələrdən xəbərdar etməklə yanaşı, dialoqlar həm də aforizmlərlə, frazeoloji vahidlərlə, məcazlarla, bəzən kinayəli, eyhamlı sözlərlə zənginləşdirilmiş nitq parçalarıdır. Bu parçalar vasitəsilə əsərin dilinin təbiiliyi təmin edilir. Mir Cəlal: "Mirzə Cəlilin dil məsələlərinə, şanlı insanların təsviri, sadəlik və fəallıq məsələlərinə dair qeydləri çoxdur",- deyərək L.Tolstoyun "yazılar aşbaz və faytonçuların senzurasından keçirilməlidir" fikrinə üstünlük verərək, bu ifadəni "yəni xalq dilində yazsınlar" şəklində şərh etmiş və bu sadəliyi, təbiiliyi bütün Azərbaycan yazıçılarında görmək istəmişdir.

QAYNAQLAR

1.Dəmirçizadə Ə. Zərbaycan dilinin üslubiyyatı.Bakı. 1962

2.Hüseynov Ə. Mir Cəlalın hekayələri.nam. dis. Bakı.1960.

3.Mİr Cəlal. Seçilmiş əsərləri. I-IV cildlər. Bakı. 1967, 1968.

4.Mİr Cəlal. Cəlil Məmmədquluzadənin sənətkarlıq xüsusiyyətləri. İnqilab və mədəniyyət. N11-Bakı.1947

5.Mİr Cəlal. Füuli sənətkarlığı. Bakı. 1994.

6.Rıkaçyov E. Manifest molodoqo çeloveka. Literaturnaya qazeta. Moskva 1940.

TÜRK DÜNYASI KULTUROLOJI DÜŞÜNCƏSİNDƏ QLOBALLAŞMANIN ALTERNATIV İNKIŞAF MODELLƏRI

(Türkiyə, Azərbaycan və Qazaxstan nümunəsində müqayisəli təhlil)

ALTERNATIVE DEVELOPMENT MODELS OF GLOBALIZATION IN THE CULTURAL THOUGHT OF THE TURKIC WORLD

(Comparative analysis on the example of Turkey, Azerbaijan and Kazakhstan)

Yeganə ƏLİYEVA

Azərbaycan, Bakı,

AMEA, Memarlıq və İncəsənət İnstitutu, İncəsənətin qarşılıqlı əlaqələri şöbəsi,

böyük elmi işçi, kulturologiya üzrə fəlsəfə doktoru, dosent

ORCID ID: 0000-0002-4496-5598

XÜLASƏ

Qloballaşma prosesləri fonunda sivilizasiyalararası dialoqunun yeni inkişaf tendensiyalarının formalaşadığı müasir dönəmdə Şərq kulturoloji fikir tarixinin dialoq və dialoji təfəkkür kontekstindən öyrənilməsini aktual edir. Tarixən Şərq kulturoloji fikri opponent olduğu Qərb dünyasının çağırışlarına özünəməxsus cavabı ehtiva edən sivilizasiyalararası dailoq modelinin konseptual həlli təcrübəsini toplamışdır. Artıq XXI əsrdə Şərq təfəkkürü cəsarətlə bəşəriyyətə Qərbin qloballaşma (mədəni ekspansiya) layihəsinə alternativ inkişaf modellərini təklif edir. Bu gün dialoqizm tək Qərbin deyil, Şərqin də fəlsəfi, kulturoloji düşüncəsini müəyyən edən amildir. Kulturoloji fikir tarixi bilik sahəsinin problem dairəsindən çıxış edərək Şərq təfəkkürünün qloballaşan dünyada mədəniyyət hadisəsinə refleksiyaların konseptləşdirməsinin zəruriliyi avroposentrizm ideya cərəyanın, habelə Qərbin üstünlüyü ideyasının nə dərəcədə əsassız olduğunu nümayiş etdirməkdədir.

Təqdim etdiyimiz araşdırmamızın məqsədi Türk dünyası kulturoloji düşüncə mozaikasını qlobal ideyalar dialoqunda vahid portret formasında rekonstruksiya etməkdir. Tədqiqatımızda Qərb dünyası ilə bərabərhüquqlu dialoq aparan Türk dünyası intellektuallarının kulturoloji ideyalarını təhlil obyektinə cəlb etmişik. Qloballaşma şəraitində müasir fövqalsivilizasiyaların təmas arealı böyük əhəmiyyət kəsb edir. Türk dünyası arealı İslam, pravoslav, çin və Qərb sivilizasiyasının görüş yeridir. Sovet imperiyası dağıldığdan sonra bir çox Türkdilli dövlətlərin müstəqillik qazanması ilə onların passionarlığı, başqa sözlə yaradıcı enerjisi daha da artdı. "XXI əsr - Türk əsri"dir ideyası öz təsdiqini tapmaqdadır.

Qənaətimizə görə, hazırda türkdilli dövlətlər Qərbin mədəni qloballaşma ideyalarına alternativ olan inkişaf modellərini təklif etməkdədirlər. Türkiyə intellektuallarının bədii-fəlsəfi fikrində mədəni müxtəlifliyin qorunması (İlber Ortaylı, İ.Kuçuradi), milli mədəni dəyərlərə arxalanaraq Türk - İslam düşüncəsi üzərində tərəqqiyə nail olmaq, neosmanlıçılıq (Zülfi Livaneli) ideyaları inkişaf etdirilir. Azərbaycan düşüncə sahibləri multikulturalizm və tolerant birgəyaşam ideyalarını ("Bakı Prosesi"), Qazaxıstan mədəniyyətlərarası dialoqu təşviq edən "Mənəvi gəlişim" (harmonik birgəyaşam) ideyasını gündəmə gətirməkdədirlər.

Açar sözlər: kulturoloji fikir, dialoq, Şərq, Türk dünyası.

ABSTRACT

The formation of new trends in the development of dialogue among civilizations in the light of globalization processes makes it urgent to study the history of Eastern culturological thought from the context of dialogue and dialogical thinking.

The purpose of our research is to reconstruct the mosaic of cultural thought of the Turkic world in the form of a single portrait in the Global Dialogue of ideas. In our research, we attracted to the object of analysis the ideas created by the Turkish world intellectuals conducting an equal dialogue with the Western world. In the context of globalization, the areas of contact of modern superhuman acts are of great importance. The areal of the Turkic world is the meeting place of Islamic, orthodox, Chinese and Western civilizations. After the collapse of the Soviet empire, with the independence of many Turkic states their creative energy increased. Thus, the idea of "XXI century is the Turkic century" is reaffirmed.

According to the result obtained, today Turkic-speaking states are offering development models that are alternative to the ideas of cultural globalization of the West. The idea of preserving cultural diversity (Ilber Ortaylı, I.Kuchuradi), the idea of achieving cultural progress according to the Turkish-Islamic type of thinking, as well as the idea of cultural neo-Ottomanism (Zulfi Livaneli) find their development in the artistic and philosophical thought of Turkish intellectuals. Azerbaijani thinkers keep on the agenda the ideas of multiculturalism and tolerant coexistence ("Baku process"). Today, Kazakhstan declares to the world community the idea of "Spiritual arrival" (harmonious coexistence) promoting intercultural dialogue.

Keywords: culturological thought, dialogue, East, Turkic world.

GİRİŞ

Həpimiz bir günəşin zərrəsiyiz,

Həpimiz bir yuva pərvərdəsiyiz.

Ayramaz bizləri təğyiri-lisan,

Ayramaz bizləri təbdili-məkan,

Ayramaz bizləri İncil, Quran,

Ayramaz bizləri sərhəddi-şahan...

Ayramaz Şərq, Cənub, Qərb, Şimal,

Yetişər kinü ədavət daşımaq!

Abdulla Şaiq. 1910

Müasir dövrdə mədəniyyətlərin dialoqu fonunda ümumi universal dəyərlərə əsaslanan qlobal ideyalar mübadiləsi Şərq və Qərb sivilizasiyaların harmonik birgəyaşayış taktikası və strategiyasını müəyyən etməyə qadirdir. Müxtəlif sahələrdə dialoq əsas anlayış statusunu əldə edib mədəni, siyasi maraqları nəzərə alaraq xalqların, millətlərin, müxtəlif mədəniyyət və sivilizasiyaların faydalı əməkdaşlığının əsasında durur. Məlumdur ki, BMT-nin əsas məqsədi mədəniyyətlərarası, sivilizasiyalararası dialoqu təşviq etməkdir. İlkin mərhələdə BMT-nin təşəbbüsü ilə keçirilən "Sivilizasiyaların Alyansı"nın əsas məqsədi Qərbi Avropa və İslam dünyası arasında dialoqun yaradılması olsa da, daha sonra digər formatlarda da qlobal dialoqun başlanğıcına səbəb olmuşdu.

2009-cu ilin 6-7 aprel tarixlərində keçirilən Sivilizasiyalar Alyansının II Forumunda Türkiyənin baş naziri Rəcəb Təyyip Ərdoğan Türk dünyasını nəzərdə tutaraq *"Bizi birləşdirən amillər, ayıran amillərdən çoxdur. Harmoniya, qarşılıqlışəfqət və dözümlülük insan təbiətinə xasdır. Bizə həmin təbiəti sadəcə fəal etmək lazımdır"* söyləyərək Şərq aləminin qlobal transformasiyalara biganə mövqedə durmamasını qeyd etmişdir. Həmin forumda, Qazaxstanın dövlət xadimi, diplomat, siyasi elmlər doktoru Qasım-Comart Tokayev vurğulamışdır ki, *"dünyanın gündən-günə daha da müxtəlifləşən mənzərəsində heç bir dövlət öz linqvistik, mədəni və mənəvi ənənələrindən imtina etməyəcəkdir. Lakin dünya düşmənçiliyə səbəb ola biləcək milliyyətçiliyin müxtəlif formalarına qarşı olmalıdır"* [1].

Ən yeni tarixi mərhələdə sivilizasiyalararası forumların keçirilməsi təşəbbüsünün məhz Şərq aləminin intellektualları tərəfindən irəli gəlməsini nəzərə alsaq qlobal ideyalar dialoquna Türk dünyasının verdiyi tövhənin fəlsəfi-kulturoloji təhlilinin aktuallığını əsaslandırmış olarıq. Qloballaşma

prosesləri fonunda sivilizasiyalararası dialoqunun yeni inkişaf tendensiyalarının formalaşdığı müasir dönəmdə Şərq kulturoloji fikir tarixinin dialoq və dialoji təfəkkür kontekstindən öyrənilməsini aktual edir.

Tarixən Şərq kulturoloji fikri opponent olduğu Qərb dünyasının çağırışlarına özünəməxsus cavabı ehtiva edən sivilizasiyalararası dailoq modelinin konseptual həlli təcrübəsini toplamışdır. Artıq XXI əsrdə Şərq təfəkkürü cəsarətlə bəşəriyyətə Qərbin qloballaşma (mədəni ekspansiya) layihəsinə alternativ inkişaf modellərini təklif edir. Bu gün dialoqizm tək Qərbin deyil, Şərqin də fəlsəfi, kulturoloji düşüncəsini müəyyən edən amildir. Kulturoloji fikir tarixi bilik sahəsinin problem dairəsindən çıxış edərək Şərq təfəkkürünün qloballaşan dünyada mədəniyyət hadisəsinə refleksiyaların konseptləşdirməsinin zəruriliyi avroposentrizm ideya cərəyanın, habelə Qərbin üstünlüyü ideyasının nə dərəcədə əsassız olduğunu nümayiş etdirməkdədir.

Təqdim etdiyimiz araşdırmamızın məqsədi Türk dünyası kulturoloji düşüncə mozaikasını qlobal ideyalar dialoqunda vahid portret formasında rekonstruksiya etməkdir. Tədqiqatımızda Qərb dünyası ilə bərabərhüquqlu dialoq aparan Türk dünyası intellektuallarının kulturoloji ideyalarını təhlil obyektinə cəlb etmişik.

Qloballaşma şəraitində müasir fövqalsivilizasiyaların təmas arealı böyük əhəmiyyət kəsb edir. Türk dünyası arealı İslam, pravoslav, çin və Qərb sivilizasiyasının görüş yeridir. Sovet imperiyası dağıldığdan sonra bir çox Türkdilli dövlətlərin müstəqillik qazanması ilə onların passionarlığı, başqa sözlə yaradıcı enerjisi daha da artdı. Belə ki, "XXI əsr - Türk əsri"dir ideyası öz təsdiqini tapmaqdadır.

TƏDQİQAT VƏ NƏTİCƏLƏR.

Azərbaycan düşüncə sahiblərinin multikulturalizm və tolerant birgəyaşam ideyaları ("Bakı Prosesi").

"*Azərbaycan mədəniyyəti dialoq mədəniyyətidir*" ifadəsini yanılmayaraq istifadə edən professor Aydın Talıbzadə tamamilə haqlı olaraq qeyd edir: "*Azərbaycan coğrafi baxımdan da Qərblə Şərqin, Avropa ilə Asiyanın təmas nöqtəsindədir və "İpək yolu" nun üstündədir. Deməli, coğrafi parametrlərdə, yəni məkan koordinatlarına görə Azərbaycan dialoqa modullaşdırılıb. Azərbaycan tarixən ötürücü missiyasını yerinə yetirərək, öz coğrafi sərhədləri civarında çoxsaylı mədəniyyətlərin bərabərhüquqlu dialoqunun – təminatçısı kimi çıxış edib, mədəniyyətlərin aktiv təmasına söykənən unikal multikultural bir mədəniyyət sistemi yaradıb ki, indi də bu mədəni təcrübəni dünya ilə paylaşır*" [2]/

Bu gün mədəni-intellektual məkanımızda Azərbaycan Şərq və Qərb sivilizasiyalarını qovuşdurmaq və müxtəlif mədəniyyətlərin inteqrasiyasına nail olmaq kimi tarixi missiyasını uğurla həyata keçirir. Qlobal və regional səviyyədə dövlətimizin həyata keçirdiyi siyasətinin əsas məqsədi dünyanın bütün dövlətləri ilə əməkdaşlığı genişləndirmək, digər dövlət və xalqlarla sülh və əminamanlıq şəraitində birgə yaşamaqdır. Azərbaycanın təşəbbüsü ilə keçirilən beynəlxalq miqyaslı forumlar bir daha təsdiq edir ki, ölkəmiz mədəniyyətlərarası dialoqda fəal iştirak edir. Bununla da tarixi coğrafi və mənəvi-mədəni missiyasını reallaşdırır. Azərbaycan bu gün insanları birləşdirən və barışdıran dəyərlərdən çıxış edərək mədəniyyətlərarası dialoqun qurulmasını və inkişaf etirilməsini özünə prioritet hədəf seçib.

2008-ci ildən Azərbaycan Respublikası mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli və effektiv dialoqun qurulmasına xidmət edən "Bakı Prosesi" qlobal hərəkatın təşəbbüskarıdır. 2008-ci ilin 2-3 dekabrında Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin konfransı Azərbaycanın təşəbbüsü ilə yeni formatda təşkil olundu. Mədəniyyət nazirlərinin konfransına ilk dəfə idi 10 islam ölkəsi dəvət edildi. Konfransda Avropa və ona qonşu regionlardan 48 ölkənin, 8 beynəlxalq təşkilatın və bir sıra beynəlxalq qeyri-hökumət təşkilatlarının yüksək səviyyəli nümayəndələri iştirak edirdi. Həmin Avropa və ona qonşu regionların mədəniyyət nazirlərinin "Mədəniyyətlərarası dialoq Avropa və onun qonşu regionlarında davamlı inkişafın və sülhün əsasıdır" mövzusunda keçirilən konfransda "Mədəniyyətlərarası dialoqunun təşviqinə dair "Bakı Bəyannaməsi" qəbul edildi.

"Bakı Prosesi"nin davamı olaraq 2009-cu il 13-15 oktyabr tarixində İslam ölkələrinin mədəniyyət nazirlərinin VI Konfransı Bakıda keçirildi və Azərbaycanın təşəbbüsü ilə bu tədbirdə 10-dan çox Avropa dövləti də iştirak etdi. Konfransda Avropa Şurasına üzv dövlətlər ilə İslam Konfransı Təşkilatına üzv dövlətlər arasında mədəniyyətlərarası dialoqa dair birgə kommunike imzalandı. 23 sentyabr 2010-cu il tarixində BMT-nin Baş Assambleyasının 65-ci sessiyasında Azərbaycan Respublikasının Prezidenti

İlham Əliyev Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun keçiriləcəyini elan etməklə "Bakı Prosesi" qlobal hərəkat statusunu aldı.

Ümumiyyətlə, Azərbaycan mədəniyyətlərararsı və sivilizasiyalararası dailoqu təşviq edən 2010-cu ilin 26-27 aprel tarixlərində Dünya Dini Liderlərinin Sammiti, 2011-ci, 2013-cü, 2015-ci, 2017-ci və 2019-cu illərdə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları, 2011, 2012, 2013, 2014, 2016 və 2018 illərdə Bakı Beynəlxalq Humanitar Forumları, 2013, 2014, 2015, 2016, 2017, 2018 və 2019-cu illərdə Qlobal Bakı Forumları, eləcə də 2016-cı ilin 25-27 aprel tarixlərində BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumuna ev sahibliyi etmişdir. Avropa Şurasının Baş Katibinin müavini Qabriella Battaini Draqoninin "Bakı Prosesi" haqında dedikləri: "*Bəli, 2008-ci ildə bu, bir xəyal idisə, indi "Bakı Prosesi" bir reallığa çevrilib. "Bakı Prosesi" və mədəniyyətlərarası dialoq forumları bizlərə çox mükəmməl bir fürsət yaratmışdır ki, bir yerdə toplaşıb dünyamızı narahat edən məsələləri müzakirə edək... Cənab Prezident, Sizə, Birinci vitse-prezident xanım Mehriban Əliyevaya üz tutaraq xahiş edirəm ki, "Bakı Prosesi"nin məşəlini heç zaman sönməyə qoymayaq. Çünki indi dünyanın sülhə, harmoniyaya, birgəyaşayışa daha çox ehtiyac var*"[3].

"Bakı Prosesi"nin başlıca məqsədi mədəniyyətlər ararsında anlaşmanın, dialoqun, tolerantlığın və o cümlədən, Müsəlman və Qərb cəmiyyətləri arasında qarşılıqlı əlaqələri inkişaf etdirməkdir. Xalqlar arasında dini və mədəni gərginliyi aradan qaldırmaq üçün sülhməramlı qüvvələrə dəstək olaraq mədəniyyətlər arasında hörmət və qarşılıqlı anlaşmanın qurulması "Bakı Prosesi"nin strateji hədəfidir. Ümumiyyətlə, "Bakı Prosesi"nin böyük gələcəyini görən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumununun açılış mərasimində söylədiyi nitqində demişdir: "*Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir*" [4].

"Bakı Prosesi"nin unikallığı ondadır ki, o bununla kifayətlənməyərək, mədəniyyətin, mədəni irsin və incəsənətin potensialından mədəniyyyətlərarası dialoq və əməkdaşlıqdan optimal istifadə edir. Qarşılıqlı anlaşma və dialoqun qurulması prosesində yaradıcılıq və incəsənət adamlarının təkanverici qüvvəsi ön plana çəkilir. Belə ki, "Sənətçilər dialoq naminə" layihəsi "Bakı Prosesinin" inkişafına hədəflənmişdir.

Qeyd etdiyimiz kimi, "Bakı Prosesi"nin prioritet hədəfinə sadiq qalaraq Forumda mədəniyyətlərarası dialoqun qurulmasında mədəniyyətin və incəsənətin potensialına da müraciət olunmuşdur. Yaradıcılıq və incəsənət adamları da bədii dil vasitəsilə ümumbəşəri dialoqa dair ideyaları ilə bölüşə bilmişdirlər. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində Heydər Əliyev Sarayında nümayiş olunan "Küləyin nağılı" tamaşasının ümumi konsepsiyası diqqəti cəlb edir. Qlobal mədəni dialoq ideyasını tərənnüm edən layihənin ideya müəllifləri Litvadan Eqmontas Bjeskas (musiqili tamaşanın rejissoru), Azərbaycandan Təranə Muradova (xoreoqraf) və Rəşad Həşimov (bəstəkar) idi. Müasirliyimizin bu üç intellektual - sənətkarı layihənin başlıca ideyasını aşağıdakı bədii formada izah edir: "*Mən küləyəm: buludlardan yüksəklərə qalxaraq, bütün dünyanı dolaşaram. Mən sizə gözəl və rəngarəng planetimiz, eləcə də dünyanın oxuyub, rəqs etməyə necə başlaması haqqında öz nağılımı söyləyəcəyəm. Mən Xəzər dənizinin və küləklər şəhəri Bakının səmasına yüksələrək öz səyahətimə başlayıram! Mən bütün dünyanı dolaşıram! Baxın! Görün, o nə qədər əsrarəngiz, nə qədər gözəl çalarlıdır.. Nağıl Azərbaycandan başlayır, sonra bütün dünyanı dolaşır... və yenidən Azərbaycana qayıdır....*" [5] Əslində isə Azərbaycanın böyük Şərq sivilizasiyasının parçası olaraq XXI əsrdə yenidən mədəni İntibah dövrü yaşadığını sübuta yetirir. Azərbaycan qədim zamanlardan külək və odlar diyarı kimi tanınır. Layihənin həmmüəllifi Xalq artisti Təranə Muradova tamaşada küləyin azadlıq və yaradıcılıq simvolu kimi təqdim edir. Razılaşmaq olar ki, bəşəriyyətin beşiyi olan Şərq sivilizasiyası Qərbin ekspansiyasından və müstəmləkəçilik buxovlarından azad olaraq XXI əsrdə qlobal mədəni dialoqda öz kreativ sözünü və münasibətini bildirməyə hazırdır. Bundan əlavə, Müasir Şərq dünyası, o cümlədən Azərbaycan tolerant və harmonik birgəyaşam modelini dünya ictimaiyyətinə təklif etməklə qlobal ideyalar dialoqun iştirakçısıdır. Tamaşanın "Dünya yaranır" mücərrəd sürrealist düşüncələrə söykənən birinci hissəsində, zənnimizcə "Külək" məhz Şərq dünyasını ənənəvi cəmiyyətdən modernləşməyə doğru irəliləməsinə təkan verən nəhəng güvvədir: *"Zülmətdən azadlığa çıxan, ağ və*

pak səmaya qalxan külək qaranlıqdan, oddan, sudan, havadan və torpaqdan həyatı yaradır". "Küləyin nağılı" tamaşası "Dünya canlanır" adlı ikinci hissədə rəqsin dili ilə Şərq və Qərb xalqlarının universal ümübəşəri idealları daim üstün tutmaları, digər mədəniyyətlərə hörmətlə yanaşma ənənələri ali mədəni dəyər kimi tərənnüm olunur. Nəhayət, tamaşanın "Sülhsevər dünya" üçüncü hissəsində "Bayatı-Şiraz" sədaları altında muğamın dili ilə bəşəri idealların Vətənə qayıtdığı bəyan edilir.

21 dekabr 2017-ci il tarixində Heydər Əliyev Mərkəzində "İslam Həmrəyliyi İli"nin yekünlaşmasına həsr olunan "2017 – İslam Həmrəyliyi İli: Dinlər və Mədəniyyətlərarası dialoq" mövzusunda beynəlxalq konfransda müqəddəs "Qurani-Kərim"dən ayələrin oxunması ilə başlanması İslamın sülh və mərhəmət dini olduğu barədə bəşəriyyətə ünvanlanan mesaj idi. Azərbaycan ilk ölkə olaraq İslamın sülh və mədəniyyət dini olduğunu siyasi səviyyədə, sivil təbliğat mexanizmləri vasitəsilə bütün dünyaya əyani nümayiş etməyə nail olub. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev İslam həmrəyliyi təşəbbüsünü irəli sürərək qlobal problemlərin, böhran və münaqişələrin dialoq müstəvisində konstruktiv həlli yollarının axtarışına yol acıb. Umümbəşəri dəyərlərə tarixən bağlı olan Azərbaycan Şərqlə Qərb arasında mədəni dialoqu təşviq edir. İslam dininin birgəyaşayış və sabitlik kimi ali dəyərlərinə sadiq qalaraq ölkəmiz qloballaşan dünyada sülhyaradıcı, barışdırıcı və vəhdətyaradıcı missiyasını yerinə yetirir.

Türkiyə aydınlarının milli mədəni dəyərlərə arxalanan Türk - İslam düşüncəsi və neoosmanlıçılıq ideyaları (Zülfi Livaneli).

XIX - XXI əsrin əvvəllərini əhatə edən tarix kəsiyində Türkiyənin ictimai-siyasi, tarixi-kulturoloji və fəlsəfi fikrinin inkişafı əsasən İslamın, dünyanın İslami prizmadan qavranılması ilə sıx bağlıdır. Türkiyənin bir çox aydınları (intellektualları) bu günün özündə belə İslamı həyatın mənbəsi hesab edir. Tarixən İslam türklərin mənəvi zənginləşmə çeşməsidir. İslam insanlararasında qardaşlığı təbliğ edir, insanları mənəvi və əxlaqi cəhətdən zənginləşdirir. Dini-fəlsəfi fikir istiqamətinin təmsilçiləri olan islamçılar hesab edir ki, İslam da milli məzhəb daha parlaq şəkildə əks olunub. Elmi və mədəni cəsarətilə fərqlənən, Türk və İslam tarixini türkçülük prizmasından araşdıran alim İsmayıl Hami Danışmənd (1889-1967) "Türklər və müsəlmanlıq (Türk irqi nə üçün müsəlman olmuşdur?)" (İstanbul, 1959) monoqrafiyasında Quran ayələrinə istinadən proqnoz verir ki, zaman gələcək "*ərəb həqiqətinin yerini başqa bir icmanın həqiqəti*"[6] tutacaqdır. O, göstərir ki, 1058-ci ildə Allahın əmrilə Abbasilər xilafətinin İslam aləmi üzərindəki cismani hömranlığı Türk irqinə təhvil verilmiş və bu tarixdən etibarən Türk xaqanı bütün İslam aləminin hökmdarı olmuşdur. Türklər ərəblərlə çoxsaylı müharibələrdə qalib olmalarına baxmayaraq məğlub olanların dinini könüllü qəbul etmişdir.

İsmayıl Hami Danışməndin "Qərb mənbələrinə görə Qərb mədəniyyətinin mənbəsi olan İslam mədəniyyəti" (İstanbul,1961) əsərində Qərbə pərəstiş edən, Qərb mədəniyyətini təqlid etməyə və öz mədəniyyətini aşağı tutan türk xalqının nümayəndələrinə bu hisslərdən qurtulmağı dəvət edir. İ.H.Danışməndin "Qərb mənbələrinə görə əski türklərin səciyyəsi və əxlaqı" (İstanbul,1961), "Qərb mənbələrinə görə əski türk demokratiyası" (İstanbul,1961),"Qərb mənbələrinə görə Qərb elminin Quran-i-Kərim heyranlığı" (İstanbul,1961) monoqrafiyalarında türk mədəniyyətinin Qərbin, ümumiyyətlə bəşəriyyətin inkişafına verdiyi töhfələr konkret faktlar üzərində göstərilir.

XX əsrin 60-cı illərində milli özünüdərk problemlərinə toxunan İsmail Danışməndin Qərb mədəniyyətinin üstünlük təşkil etdiyi dönəmdə milli mənliyin necə qorunmasına dair ideyaları maraqlıdır. Onun qənaətinə görə, milli mənliyin "*tamamilə yox olmaqdan qurtarmaq istəyiriksə, bir şeyi bilməliyik "Qərb mədəniyyəti" Qərbin özünün yaratdığı bir hadisə deyildir, elmlərin və sənətlərin mürəkkəb məcmusudur ki, onun Qərb və Qərbliliklə heç bir əlaqəsi yoxdur*" [7]. Danışməndin qəti fikrinə görə, Qərb mədəniyyəti "*hər şeydən əvvəl bir İslam əsəridir*". İ.Danışmənd "*Qərb mədəniyyəti əslində Şərq mədəniyyətidir*" tezisisi ilə Qərb elminin Şərqdən mənimsədiyi elmi bilikləri bir araya toplamağa dəvət edir. Bu türk və müsəlman xalqlarına milli özünüidentifikasiyasına motivasiya edəcəkdir. Belə ki, Danışmənd hesab edir ki, "*biz gerilədikcə özümüzü unudub Qərbləşirik, indi isə yalnız irəli getdikcə özümüzə qayıdıb Şərqləşə biləcəyik*" [7]. "Türk milli kültürü" (1977) əsərinin müəllifi doktor, professor İbrahim Kafesoğlu yazırdı: "*Hər millət maddi imkanları və mənəvi dəyərləri ilə bir kültür bütünüdür*" [8] və məhz İslam dini insanları mənəvi cəhətdən zənginləşdirir.

Türkiyənin ideoloji mənzərəsi tarixən olduğu kimi bu gündə rəngarəngdir. Bu gün türk fikir adamlarını düşündürən məsələlər sırasında cəmiyyətdə milli mədəniyyətə, mənəvi dəyərlərə münasibət mövzusu

aktual olaraq qalır. Milli mədəni ənənənin və müasir təcrübənin sintezi gündəmdə olan bir ideyadır. Milli mədəniyyəti yenidən kəşf etmək və müasirliyin tələblərinə uyğunlaşdırmaq türk aydınlarını daim düşündürən problemdir. Sözügedən problemin həllində bir-birlərinə əks, müxtəlif və hətta ziddiyyətli ideya-dünyagörüşləri gündəmdədir.

Türkiyə ziyalılarının əksəriyyəti ölkənin müasir mədəniyyətinin inkişafında milli mədəni dəyərlərin, onun ənənələrinin mühüm əhəmiyyətini vurğulayırlar. Mədəniyyətə bu kimi milliyətçi yanaşmanın müsbət tərəfləri ilə yanaşı mənfi cəhəti də vardır. Belə ki, milli mədəniyyətə dar çərçivədə baxış Türkiyə mədəniyyətini ümumilikdə ümumbəşəri mədəniyyətə qarşı qoyur. Bunun səbəbini araşdırsaq görürük ki, bu yanaşmanın ideoloqları Qərb mədəniyyətini tənqid etdiyi zaman bu kimi kəskin nəticəyə gəlmiş olur və ölkənin radikal, reaksion qruplarının ideyalarını təcəssüm etdirirlər. Onların qənaətinə görə yalnız əski milli mədəni dəyərlərə, dini əxlaq ənənələrinə və ənənəvi incəsənətə qayıdış türk mədəniyyətinin yenilənməsini şərtləndirə bilər.

Yeni Osmanlıçılıq Türkiyə intellektuallarının fikir mübadiləsi meydanı kimi.

Bu gün Türkiyə cəmiyyətində mövcud fikir axınları sırasında üstünlük təşkil edən **Yeni Osmanlıçılığa** bir ideologiya kimi marağın artması (Neoosmançılıq) XX əsrin 80-ci illərində Turgut Özalın Osmanlı imperiyasının dini, mədəni və siyasi irsinin dirçəldilməsi ilə bağlı çağırış ideyaları ilə bağlıdır. 1983-1989-cu illərdə Türkiyənin Baş Naziri, 1889-1993-cü illərdə Prezidenti olan Turqut Özal neosmanlıçılığın ilk ideoloqu hesab olunur. Yaradıcı təfəkkür sahibi, islam dəyərlərinə sadiq dövlət xadimi Turqut Özal siyasi baxımdan Amerika və Osmanlı İmperiyasının oxşar cəhətlərini müəyyən edirdi. Onun qənaətinə görə, hər iki imperiyada yaşayan əhalinin müxtəlif mədəniyyətlərə mənsub olmaları, onların dini, etnik, siyasi azadlığa malik olmaları kimi oxşar cəhətləri vardır.

1990-ci illərdə Turqut Özalın liberal demokratik islahatları fonunda "neosmançılıq" ideyası Türkiyə intellektuallarının arasında qızğın polemikaya səbəb oldu. Həmin illərdə bu fikir mübahisəsinə qatılan bir çox intellektuallar arasında diqqətimizi bəstəkar, yazıçı, kinorejissor, tanınmış ictimai-siyasi xadim, YUNESKO-nun Sülhməramlı səfiri Ömer Zülfü Livanelinin (1946, Konya, Ilgın) bədii-fəlsəfi fikirləri və önə çəkdiyi "osmanlı hinterland" [9] anlayışı diqqətimizi cəlb etdi. "Hinterland" sözü alman dilindən tərcümədə mərkəzə qaçan ərazi mənasını verir ki, Z. Levaneli Türkiyənin mədəni irsinin cazibə qüvvəsinin gücünü vurğulayaraq Osmanlı imperiyasına daxil olan ərazilərlə mədəni əlaqələrin daha da inkişaf etdirilməsinə ehtiyac olduğunu bildirirdi. "Sabah" qəzetində dərc etdirdiyi esselerde Zülfü Livaneli qeyd edir ki, Neoosmançılıq hazırda keçmiş Osmanlı torpaqlarını yaşayan müasir xalqlarla mədəni həmrəylikdən kənara çıxmamalıdır.

Zülfü Livaneli Türkiyənin mədəniyyət, incəsənət və ictimai-siyasi həyatında tanınmış intellektuallardan biridir. Onun istər yaradıcı istərsə də ictimai-siyasi fəaliyyəti mürəkkəb tarixi dövrə təsadüf edir. Livanelinin musiqiçi-bəstəkar kimi fəaliyyətindən bəhs edərkən 300 yaxın bəstəsi, 30-a yaxın film musiqisi qeyd edilməlidir. Türkiyədə onun Nazim Xikmətin sözlərinə yazılan mahnıları populyarldı (1978-ci ildə "Nazim Türküsü" albomu). Bundan başqa Z.Livaneli balet və 5 teatr tamaşasına musiqi bəstələmişdir. Yazıçı kimi Levaneli 14 bədii və publisistik yazıların müəllifidir. "Yer Dəmir Gök Bakır", "Duman", "Şahməran" və "Vida" filmlərinə kinorejissor kimi quruluş verib. Z.Levaneli Valensiya Film Festivalının "Qızıl Palma", 1989-cu ildə Montpelier Film Festivalının "Qızıl Antiqona" mükafatına layiq görülüb. "The Fog" ("Duman") filmi "Ən yaxşı Avropa Film Mükafatı"na namizəd olub. Sənətçinin filmləri Türkiyə, ABŞ, Fransa, Almaniya, İsveçrə və Yaponiyada nümayiş etdirilərək BBC, WDR, İspan, Kanada və Yaponiya televiziyaları kimi bir çox televiziya şirkətlərinə satılıb. Elia Kazan, Cek Lanq, Vanessa Redqreyv, Artur Miller, Mikis Teodorakis kimi məşhurlarla əməkdaşlıq edən Z.Livaneli dünya mədəniyyətinin tərəqqisinə və dünya incəsənətinin inkişafına töhvə vermişdir.

Z.Livaneli çoxşahəli sənətkar olaraq müasiri olduğu hər bir tarixi mərhələnin ictimai, siyasi, mədəni problemlərini intellektual həssalığı ilə əsərlərində ifadə edə bilmişdir. 1980-ci illərdən sonra Z.Livaneli bədii və bədii-publisistik ədəbiyyata yeni nəfəs verən yazıçıdır. Roman, hekayə və esselerinin mövzu diapozonuna gender, məhəbbət, özünü axtarış, azadlıq, tarix, din, repressiya, ekoloji tarazlıq, Şərq-Qərb dialoqu kimi müasir problemlər daxildir. Z.Livanelinin bədii-fəlsəfi baxışları intellektualizm və sosial-mədəni dəyişikliklər, modernizm, sosial dəyişikliklərin dinamikası, azadlıq mövzusu, intellektual və yadlaşma problemlərinin həllinə yönəlmiş fikirlərlə zəngindir.

2019-cu ildə Z.Livaneli dərc etdiyi "Livanelinin pəncərəsindən: Qərbin təkəbbürü ilə Şərqin cahilliyi arasında" kitabından irəli sürülən əsas ideyalardan biri də məhz "*hər şeydən öncə öz mədəniyyətimizi, özümüz kimi olmağı öyrənməliyik*" fikridir. Livanelinin qənaətinə görə, hər hansı bir mədəniyyət nə dərəcədə yüksək inkişaf edirsə belə unudulmamalıdır ki, bu dünyada təcrid olunmuş şəkildə inkişaf etmək qeyri mümkündür. Müasir dönəmdə xüsusilə mədəniyyətlər onu əhatə edən toplumların təsiri altında inkişaf istiqaməti götürür. Verdiyi müsahibələrinin birində Zülfü Livaneli bütün insanların bərabər hüquqlara və universal humanist dəyərlərə sahib olmalarına baxmayaraq fərqli dini, mədəni cəhətlərə də malik olduqlarını qeyd edir. Z.Livaneli bu məqamda Yahudi ateizminin müsəlman ateizmindən fərqli olduğunu, ənənələrin belə oxşar olmadığını vurğulayır. O, öz nümunəsində müasir dövrdə harmonik inkişaf etmiş insanın hansı mədəni dəyərlər üzərində formalaşdığını təsvir edir: "Bizim kültür tariximiz məni yuxarı çəkdi. Sadəcə Qərb ədəbiyyatının əsərlərini oxuyaraq, Qərb musiqisini dinləyərək yetişmədim. Kollecdə təhsil aldığım zaman minlərlə xalq türküsü bilirdim, Şərq ədəbiyyatının vurğunu idim. Sədi Şirazi, Feruddin Atarı oxuyurdum. Düşündüyümə görə tamamilə Qərbə meylimi salmadım. Yunus İmrə, Şeyx Qalib, Pir Sultan, İtri, Nefi, Yaxya Kamal, Nazim Hikmət məni mən edən dahilərdi. Bu ölkədə böyük mədəniyyət var. Öncə öz mədəniyyətimizi öyrənməliyik, özümüz olmağı bacarmalıyıq"[10].

Z.Livaneli Türkiyənin Şərq və Qərb arasında bipolyar mövqeyini özəl durum kimi dəyərləndirir. O, təəsüf edir ki, mənsub olduğu cəmiyyətdə Şərq anlamı gerilik, Qərb isə modernizasiya anlayışları ilə assosiasiya olunur. Türkiyənin Şərqdən Qərbə doğru irəliləyən dövlət olduğunu bildirərək Z.Livaneli XX əsrin əvvəllərində Atatürkün adı ilə bağlı Osmanlı imperiyasında baş verən modernizasiya proseslərinin mədəni inkişafın başlanğıcı hesab etmir. Çünki vaxt var idi ki, Qərb dünyanın üstün mədəniyyət hesab olunmur və bütün dünyanı idarə etmək iqtidarında belə deyildir. Livaneliye görə, bu gün Qərbin təkəbbürü onun özünə ziyan yetirir. Qərbin üstünlüyünü Maarifçiliyə, bilik kapitalına, savada xüsusi önəm verməsində görür. Şərqin cahilliyinin, müxtəlif həyat sferalarında gerililiyinin səbəbi kimi də İslamın düzgün olmayan interpretasiyasında görür: "Abbasi Həlifələri məğlub olduqdan sonra İslamın ölkəsi Osmanlı oldu. 1485-ci ildə Avropalı tacirlər II Bəyazidə kitab çap edən mətbəə təklif etdilər. Padşah "üləmadan soruşmaq lazımdır" deyir... Üləma "zinhar yasaqdı" deyərək cavab verir... İslam aləmində 300 il mətbəədən istifadə olunmadı"[10]. Z.Livanoğlu bu tarixi hadisəyə müasir günümüzdə sanki internet və mobil telefonların istifadəsindən imtina kimi təsəvvür edir və bu atdımın cəmiyyətin inkişafında hansı böhranlı nəticələrlə üzləşdiyini göz önünə gətirir.

Payızda havaların soyuması ilə əlaqədar, gövdədə suyun və qidalı maddələrin hərəkəti zəfləyir. Tədricən yarpaqla əlaqə kəsilir. Beləliklə, xəzan hadisəsi başlayır; yarpaqlar tökülüb xəzələ çevrilir. Bu zaman zoğlar oduncaqlaşır. Qışa hazrlıq prosesi gedir. Yazda isə hələ yarpaqlamazdan əvvəl küləklə tozlanan bitkilərin çoxu çiçəkləyir. Beləliklə, yazın ilk əlamətləri görünməyə başlayır. Havalar getdikcə isinir. Ona görə də cücülər yuvalarından çıxır, köçəri quşlar qayıdır. Quşlar kütləvi şəkildə balaçıxarmaya hazırlaşır, bitkilər isə yarpaqlayır və çiçəkləyir.

Aşığın "*Duman, gəl - get bu dağlardan, Bahar gəldi, qar əylənməz*" [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c., s.96] gəraylısında yazın əhəmiyəti canlıların həyatında reproduksiya dövrü kimi xarakterizə edilir.

Budur gəldi bahar fəsli,

Dağların lala vaxtıdır [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c., s.99].

Bizə görə, yuxarıdakı misralarda qeyd olunan fikirlər elmi cəhətdən doğrudur, çünki yazda gün uzun, yem bol olduğundan bəzi bitkilərin çiçəkləməsi ilə heyvanların balalaması eyni vaxtda olur.

Aşıq Abbas Tufarqanlının yaradıcılığı digər ustad aşıqlarımızda olduğu kimi insan ekologiyasını əks etdirən qiymətli fikirlərlə zəngindir Bu baxımdan onun "Olmaz"adlı qoşması ibrətamizdir:

Özündən böyüyün saxla yolunu,

Düşən yerdə soruş ərzi-halını,

Əmanat, əmanat qonşu malını,

Qonşu yox istəyən, özü var olmaz [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c., s.107].

Sari Aşiq (XVI-XVII əsr). El arasında üst-üstə yığılıb qalan qara "qurd düşüb" deyirlər. Yayı yaylaqda keçirən elat adamları müşahidə ediblər ki, uca zirvəli dağlarda ard-arda yağan qar o qədər üst-üstə yğılıb qalır ki, hətta iqlimin sərt olması səbəbindən yayda da əriməyə imkan tapmır. Dağlarda qarın qalaq-qalaq yığılıb qalması aşağıdakı bayatıda bu cür təsvir edilmişdir:

Dağlarda qar qalandı,

Yağdıqca qar qalandı.

Qarğalar laçın oldu,

Laçınlar qarğalandı [Sarı Aşıq, 2018: s.92].

Bu bayatıda biz quş adlarına da rast gəlirik. Şifahi xalq ədəbiyyatında, qarğa həmişə mənfi obtraz kimi, laçın isə mərdlik və fədakarlıq nümunəsi kimi təqdim edilir. Bayatıda göstərilir ki, zəmanə dəyişib, indi hər şey tərsinədir; laçınlar yerini qarğaya, qarğalar isə yerini laçına verib. Bu, insan ekologiyasına yaxşı misaldır. Yuxarıdakı bayatıda da sonuncu iki misra insan ekologiyası ilə bağlıdır; bir-birindən ötrü darıxmaq, narahat olmaq, etibarlılıq, sədaqətlilik rəmzi mənəvi dəyərlərin çalarları kimi qiymətlidir. Aşığın bir bayatısında oxuyuruq**:**

Mən Aşıq, av almasın,

Çaxmağı qav almasım.

Səni vuran avçunun,

Leyləyi av almasın [Sarı Aşıq, 2018: s.133].

Göründüyü kimi, bu bayatıda aşıq ovçunu heyvanları öldürməkdən çəkindirmək üçün qarğış elementlərindən idtifadə edir. Xalq bayatılarında və atalar sözlərində buna oxşar nümunələr az deyildir. Rəsmi qadağaların olmadığı dövrlərdə təbiətə bu cür münasibət onun qorunmasında əhəmiyyətli iş görüb. [Mahmudov, 2014: s.157-186]. Bu bayatıda aşıq həm də ovetmə üsulunu göstərir. Qeyd etdiyimiz kimi, o zaman bir heyvan başqa bir iri yırtıcı heyvan vasitəsilə ovlanırdı. Burda ley iri yırıcı quşlara xalq tərəfindən verilən ümumi addır.Yəni ovcul quşun ov edə bilməsin, heyvanları öldürməsin - təbiətə zərər dəyməsin.

Başqa bir bayatısında Sarı Aşıq maralı ovlamaq üçün busquda duran ovçudan yayınmağa, qorunmağa səsləyir; daldalan, silah tutmayan yerdə gizlən, deyir. Burada aşıq həm də, həqiqətən maralın yaşayış məskəninin düzənlik deyil, dağlıq ərazilər olduğunu bildirir.

Mən Aşıq, Qısır dağı

Köşbəyin Qısır dağı.

Dalda gəz, ay maralım,

Ovçular busur dağı [Sarı Aşıq, 2018: s.98]

Daha bir bayatıya baxaq:

Mən Aşıq düzə ceyran,

Meh vurar üzə, ceyran.

Qorxmur namərd ovçudan,

Çıxıbdı düzə ceyran.

Bu bayatıda ovçunun namərd kimi verilməsi göstərir ki, ceyranların azalmasında ovçunun təsiri böyükdür. Müasir dövrdə ceyranların qorunub artırılması üçün dövlət qoruqlarının yaradılması da bununla bağlıdır. Bayatıda ceyranın düzənlik ərazidə yaşayan heyvan olduğu da bildirilir.

Qaracaoğlanın (1606-1680) şeirlərində canlı və cansız təbiətə aid fikirlər maraqlı şəkildə təqdim edilir. O, ceyranın düzənlik heyvanı olmasını aşağıdakı misrada dəqiq verib.

Körpə ceyran çəmən gəzər, çöl gəzər [Qaracaoğlan, 2006: s.106].

“Körpə ceyranın çəmən-çöl gəzməsi” ifadəsi taksonun doğulduğu düzənlk ərazidən həm də, yaşayış vasitəsi kimi istifadə etdiyini göstərir. Ceyran düzənlik heyvanıdır. Burada qidalanır, nəsl verir. Onun yeganə özünümüdafiə vasitəsi sürətlə qaçmasıdır. Ona görə də sürü təhlükəni dərhal hiss etməli və ləngimədən uzaqlaşmalıdır. Bu, yalnız düzənlik ərazidə mümkündür.

Qaracaoğlan, heyvanın davranış xüsusiyyətlərinin bəzi məqamlarını aşağıdakı misrada düzgün, həm də qabarıq ifadə edib. O, burada ceyranın təhlükəyə həssaslığını, ovçu və ov münasibətlərini vemişdir:

Ceyran kimi yad ovçunu sezərsən...[Qaracaoğlan, 2006: s.244].

Ovçuluğun heyvanlara mənfi təsiri Qaracaoğlanın şeirlərində ən çox rast gəldiyimiz məsələlərdən biri kimi diqqəti cəlb edir. O, ovçuların istifadə etdiyi köməkçi vasitələrin də adlarını çəkir:

Ovçular şahinli, köhlən atları,

Elləri gördüm də bulandım bu gün [Qaracaoğlan, 2006: s.113].

"Məhzun" şeirində müəllif ceyranların kütləvi qırılmaya məruz qaldıqlarını, el-obanın viranəyə çevrildiyini, dünyanın "dağıldığı"nı göstərir.

Obası, elləri olmuşdur viran,

Ceyranları getmiş, dağılmış cahan [*yenə orada*].

Bizə görə, həmin dövrdə baş verən müharibə və çəkişmələr yalnız insanların tələfatı ilə bitmir, həm də heyvanların, o cümlədən ceyran kimi ov heyvanlarının kütləvi qırılmasına səbəb olur.

Yazın gəlişi təbiətdə canlanma yaradır, hər tərəf yaşıllaşır, heyvanlar fəallaşır. Qışda yem tapmaq çətinliyi və soyuqla əlaqədar cənuba köçən quşlar öz doğma yurduna qayıdır, yuva qurur, bala çıxarırlar. Bu zaman onların səs-küyü ətraf aləmdə qəribə duyğular yaradır. Quşların sahə əldə etmə, yuvaqurma, balaçıxarma və bəsləmə, qidalanma kimi mürəkkəb davranış xüsusiyyətləri təzahür edir. Qaracaoğlan müşahidə etdiyi bu hadisəni "Sular çağlar indən belə" şeirində oxuyuruq. Göründüyü kimi, müəllif fəsil dəyişkənliyi ilə bağlı canlı orqanizmlərin həyatında baş verən bu prosesi düzgün verib.

Qatar-qatar oldu köçlər,

Donun geyindi ağaclar,

Kəsk-kəsik ötən quşlar

Dilmi saxlar indən belə? [Qaracaoğlan, 2006: s.232].

"Kitabi-Dədə Qorqud"da, digər dastan və nağıllarımızda olduğu kimi bəzən aşıq şeirlərində işi çətinə düşən aşığın təbiəti qınadığını, hətta onu qarğadığını görürük. Bizə görə onların təbiətə bu cür yanaşmaları nisbidir və həmin anda yaranmış durumla bağlıdır.

Uca dağlar, nə dayanıb susursan?

Aşdı derlər, nazlı yarım başından...

...Balta dəysin, ormanların qurusun,

Xəzəl olsun, yarpaqların çürüsün,

Topa-topa cüyürlərin yerisin,

Ovçuların ovun alsın peşindən [Qaracaoğlan, 2006: s.83].

Qaracaoğlan baharın gəlişilə yalnız mövsüm hadisələrinə toxunmur, həm də şəfalı bitkilərin insan sağlamlığına təsirindən danışır. Bu cür şəfalı çiçəklər uca dağların bəzəyidir, eyni zamanda müalicə əhəmiyyətinə malikdir.

Uca dağ başında can otu bitər,

Dərdlinin, xəstənin hovuna yetər [Qaracaoğlan, 2006: s.96].

İnsan sağlamlığı hər zaman öndə olub. Ona görə də aşıqların, şairlərin sözündə, mahnılarda insanın sağlıq faktoru unudulmur.

Xəstə Qasım Tikmədaşlı (1684-1760). Canlıların həyatında reproduksiya, yemlənmə və bu kimi zəruri məsələlərə aid müxtəlif davranış xüsusiyyətləri aşıq ədəbiyyatında az deyil. Məsələn, Xəstə Qasımın Ləzgi Əhmədlə (XVII-XVIII əsrlər) dəyişməsində qurbağanın reproduksiyası (çoxalma və inkişaf mərhələləri) elmi baxımdan doğru verilib. Aşığın verdiyi suallar və aldığı cavablar elmi-məntiqi baxımdan realdır [Mustafayev, Məmmədov, Mahmu-dov, 2017: s.206]:

1. "*O necə quşdu ki, yaz gələr bağa?"* (kənd qaranquşu, qaranquş yazda gəlir).

2. "O necə quşdu ki, qayada səkər, Caynağı neştərdir, qanımı tökər?" (qayalıq qaraquşu- yırtıcı)

3. "*O necə quşdu ki, anasın əmər*?" (adi yarasa – məməli heyvan. Yarasa uçur, amma süd əmir). Ola bilsin ki, yarasa uçduğu üçün quş hesab edilib.

Aşıq ədəbiyyatında ovçuluq barədə fikirlər də az deyildir. Məsələn, qoşmalarının birində Xəstə Qasım "Ovçu olan bəslər alıcı quşu" dedikdə ovçuların ov zamanı öyrədilmiş yırtıcı quşlardan istifadə etdiklərini bildirir [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c., s.174]. Yaxın yüzil-liklərə qədər, yırtıcı heyvanlardan, məsələn, qaplan, şahin və s. geniş istifadə olunmuşdur. "Kəkliklər" şeirində fərə (dişi) kəklikliyin daş başında "səs elədiyini", qaqqıl-daşıb bir-biri ilə bəhsə girdiklərini, ovlağının (yaşayış sahəsinin) "qayalar başı" olduğunu, "əllərinin qızıl qana" batdığını göstərir. Kəklik dağlıq, qayalıq ərazidə yaşayan, burada yuvalayıb çoxalan quşdur. Çoxalma dövründə dişi fərd bir çox quşlar kimi erkəyin diqətini cəlb etmək üçün uca-dan "oxuyur". Daha yaxşı eşidilmək üçün iri daşın üstünə qonur ki, ətrafdakı erkək kəklik-lərin hər biri onu eşidə bilsin. "Əllərin qızıl qana batması" fikri, şifahi xalq ədəbiyyatında "ayaqları xınalı kəklik" kimi də ifadə edilir. Xəstə Qasımın bu bənzətməsi kəkliyin arxa ətraflarının pəncə lüləsi və barmaqlarının açıq-qırmızı rəngdə olması ilə əlaqədardır. O, kəkliklərin təhlükə hiss edən kimi uçub oradan uzaqlaşdığını, bununla da müdafiə instinktinə malik olduqlarını bidirir:

Heç bilmirəm ovçusunmu görübdü,

Üz tutdular biyabana, kəkliklər [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c, s.177].

Aşığın əsərlərində dölsüzlüklə bağlı nümunələrə də rast gəlirik. Bu, daha çox onun uzunmüddətli müşahidələrinə əsaslanırdı.

Sərv ağacı hər ağacdan ucadı

Əsli qıtdı, budağında bar olmaz [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c., s.163].

Sərv - çılpaqtoxumlu bitkidir. Meyvə əmələ gətirmədiyinə görə aşıq ona "əsli qıtdır, budağında bar olmaz"- deyib. Lakin sərv də digər çılpaqtoxumlular (şam, küknar, qaraçöhrə, sidr, tuya və b.) kimi toxumla çoxalır. "Əsli qıt" olsaydı, sərv və onun mənsub olduğu bitki qrupu nəsil verə bilməzdi. Əlbəttə, bu fikir elmi baxımdan səhvdir. Sadəcə, bu bitkilər çiçəkləyib meyvə əmələ gətirmədikləri üçün "barsız-bəhərsiz" (dölsüz) kimi təqdim edilmişdir.

Aşıq Valeh (1722-1822) bir qoşmasında hazırda nəsli kəsilmiş bitki növlərindən birinin adını çəkir:

Nəstərən, bənövşə çalışa yüz il,

Çətindi ömrünə yetəndə müşkül,

Əgər zülflərinlə bəhs etsə sünbül,

Düşər ayaqlara qərabət çəkər [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: s.202].

Maraqlıdır ki, qoşmada lalə, bənövşə, nərgiz kimi bitkilərlə bərabər, o dövrün florasında mövcud olmuş nəstərənin də adı çəkilir.

Bədii sənətdə qadın gözəlliyini təbiətdəki ən gözəl çiçəklərə bənzətməsi, aşığın təbiətə vurğunluğun nəticəsidir:

Lalə yanağından, nərgiz üzündən,

Qonça gülüşündən nədamət çəkər...[Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c, s.202].

Sələfləri kimi Aşıq Valeh də canlı təbiətin obyektləri olan ceyran və kəkliyin adlarını çəkmir, onların bir bioloji növ olaraq yayıldıqları, məskunlaşdıqları əraziləri göstərir, onların burada bol ehtiyatları olduğunu bildirir:

Dağları kəklikdi, düzləri ceyran [*yenə orada*].

Aşıqların təbiətə tez-tez müraciət etməsi səbəbsiz deyil. Onlar təbiətin hər cür halından ehtizaza gəlir, duyğulanır, şeirə, sənətə qucaq açır, könül verirlər. Təbiəti sevir və sevdirirlər, təbliğ edir və daha yaxından tanıtdırırlar. Təbiət özü də onları ununtmur, borclu qalmır, əvəzini qaytarır. Bir "Müxəmməs"ində dediyi kimi başlarına "tac qoyur.":

Aşıq Valeh bu sənətlə

Məşhur olub ucalıbdı.

Hər ümmana qəvvas olub,

Təbiətdən tac alıbdı [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c., s.207].

Aşıq Alı (1801-1911). Aşıq ədəbiyyatında təcnisləri, qoşma və gəraylıları, müxəmməs və divaniləri, bayatıları və s. janrda mükəmməl şeirləri ilə özünə məxsus yeri olan Aşıq Alı təbiətə, onun gözəlliklərinə lageyid qalmayıb:

Səda salsan kimsə çıxmaz eşiyə,

Bərələrdə təkə durub keşiyə.

Bərqin yenə atəş salıb meşəyə,

Zərbindən səcərin nar ala dağlar [Aşıq Alı, 2013: s.59].

Aşıq Alının şeirlərində abiotik faktorların ətraf mühitə təsirini əks etdirən nümunələr daha qabarıq və realdır. Aşıq vəsf etdiyi dağları bütövlükdə təbiətin simvolu kimi təqdim edir. Yazda göy gurultusu, şimşəyin çaxması canlılarda vahimə yaradır; qaranlıq meşə bir anlıq işıqlanır, sürünü təhlükələrdən qoruyan təkə keşikdə dayanıb... Təbiət hadisələri yalnız insan həyatına deyil, təbiətin özü üçün də qorxulu məqamlar yaradır, onun harmoniyasını pozur, ətraf mühitə dağıdıcı təsir göstərir. Ən qədim dövrlərdən başlayaraq təbiətdə baş verən anomal dəyişikliklərin əsas səbəblərindən biri də daşqınlar, zəlzələ və vulkanlar, meşə yanğınları ilə müşayiət olunan təbiət hadisələri olmuşdur. Aşıq Alının yuxarıda nümunə gətirdiyimiz "Dağlar" şeiri bu baxımdan səciyəvidir: Havada baş verən güclü elektrik boşalması şaqqıltı ilə müçayiət edilən ildırımın yaranmasına və gözqamaşdırıcı şimşəyin çaxmasına səbəb olur. Əmələ gələn yüksək gərginlikli cərəyan nəticəsində ətrafda yanğın baş verir, ağacların gövdə və budaqları qırılır, kökü zədələnir, parçalanıb məhv olur. Uzun müddətli yanğınlar meşənin biomüxtəlifliyinə (flora və faunasına) çox ciddi neqativ təsirlər göstərir.

"*İnciməsin*" qoşmasında aşıq doğru olaraq hər hansı bir həşəratın müəyyən bir bitki növünü tozlandırmaq üçün uyğunlaşdığını deyir. Onun fikrincə, zənbur - arı "hər gülü sev-məz". "*Uçurma gül üstdə şeyda bülbülü*" deyəndə görünür, aşıq bunu nəzərdə tutub:

Zənbur adətində sevməz hər gülü,

Bağban bağı sevdi, süsən sünbülü.

Uçurma gül üstdə şeyda bülbülü,

Cəh - cəhlə yad olub bağ inciməsin [Aşıq Alı, 2013: s.95].

Aşıq Alı da digər klassik aşıqlarımız kimi, təbiətə yalnız gözəllik, zövq oxşamaq cəhətdən deyil, eyni zamanda şəfa mənbəyi kimi baxır. Şahdağ kimi uca dağlar yalnız əzəmətli, füsunkar deyil, həm də loğmandır, dərdlər dərmanıdır. Nənələrimizin min bir dərdin dəvası kimi ətirli çiçəklərdən hazırladıqları məlhəmlər bu gün biokimyəvi preparatlar formasında tibb sənayesində geniş istehsal edilir və təbabətdə tətbiq olunur. Aşıq Alı hələ o vaxt deyirdi ki:

Şahdağı əzəldən dağlar xanıdı,

Büsatından aşıq Alı tanıdı.

Çiçəkləri dərdlərimin sanıdı,

Loğmandı, məlhəmdi varı dağların [Mirzəyev, 1993: s.59].

Ətraf mühitə qayğıkeş münasibət, onu neqativ təsirlərdən qorumaq bütün dövrlərdə ağıllı insanları düşündürüb, bundan çıxış yolları axtarılıb. Canlı təbiətə antropogen təsir iki - üç əsr öncə daha çox ovçuluqla bağlı idi. Odur ki, bəzi növlər məhz həmin dövrdə faunamız-dan yox edilib [Mahmudov, Məmmədov, 2014: s.89-94]. Aşıq Alının yaradıcılığında belə nümunələr yetərincədir. "*Dağlar", "Maral", "Kəklik*" və s. qoşmalarında bu fikir aydın duyulur:

Səyyad çaşır, hədyan atır, zay vurur,

Əliboş səbiri darala dağlar.

Və ya:

Xəlq oldu zibalar birincisindən,

Nahaq qan oxudum birinci sindən,

Cəllad qərq olaydı oxuna, maral [Mirzəyev, 1993: s.57].

Zəhriylə doldurram nəf sinisini,

Nifrinlər səyyada mar, Alı, kəklik [Mirzəyev, 1993: s.58].

Göründüyü kimi, bu üç numunədə aşıq səyyadı - ovçunu qınayır, onu cəllada, əməllərini isə zəhərə bənzədir. Bununla da o, sanki əhalini təbiətə qənim kəsilən ovçuların bədniyyət əməlləri ilə tanış edir və onları təbiətin mühafizəsinə səsləyir.

A.Alının şeirlərində heyvanların yaşayış məskənləri ilə bağlı yanlış ifadələrə rast gəlmirik. O, ceyranın düzdə, cüyür və maralın, kəkliyin, təkənin dağda, kiçik balıqların çayda, iri su heyvanlarının dəryada (dəniz və okean kimi böyük su hövzələrində) yaşadıqlarını, tərlan və şahin kimi yırtıcı quşların qənimətlərini havada ovladıqlarını qeyd edir [Aşıq Alı, 2019: s.39, 40, 50, 113, 136]. Ovçuluğun ətraf mühitə təsiri Aşıq Alı yaradıcılığında da yox deyildir:

Nadan qurdu tərlan üçün tor, gedək [Aşıq Alı, 2019: s.73]. Yaxud, -

Naşı səyyad, səndən kamil atan var,

Bərəni bilməzsən, ata bilməzsən [Aşıq Alı, 2019: s.50].

Aşığa görə yalnız "kamil səyyad (ovçu) maralı ram eləyə bilər [Aşıq Alı, 2019: s.111]. Beləliklə, pərgar ovçunun heyvanların azalmasında təqsiri daha çox olub.

Aşıq Alının yaradıcılığında faydalı qazıntılara da toxunur və dağlarda onların zəngin ehtiyatı olduğuna işarə edir: "Ləl-gövhər bu dağların tayıdı", - deyir. "Mən bir dürrəm, vəhşi-ümman içində" [Aşıq Alı, 2019: s.61]. Burda dərin su hövzələrində sədəf ilbizlərinin çanağına düşmüş qum dənəciklərinin üzərinə ifraz etdikləri xüsusi mayedən qiymətli mirvarı əmələ gəldiyi bildirilir.

Məlumdur ki, çoxalma vaxtı vəhşi təbiətdə heyvanlar nikah ritualları həyata keçirirlər. Dişi fərdlərin əhatəsində bir çox heyvanlar güclərini nümayiş etdirirlər. Ona görə də aşıq deyirdi ki, "Sınaq meydanında nərə nər gərək" [Aşıq Alı, 2019: s.40]. Bu zaman qalib gələn erkəyi dişi seçir və onunla cütləşməyə razılıq verir. Belə heyvanlardan əmələ gələn bala sağlam və güclü olur. Bu, növün saxlanması və nəslin davam etdirilməsi üçün çox vacibdir.

Aşığın şeirlərində insan ekologiyasına aid fikirlər də çoxdur [Aşıq Alı, 2019: s.32, 34, 36, 37, 38, 53, 97, 117, 118].

Aşıq Ələsgər (1821-1826) yaradıcılığında təbiət ünsürlərindən bol-bol istifadə etməklə, ətraf mühitin qorunmasını ifadə edən çoxlu fikirlər söyləyib. Onların arasında bəzi bioloji növlərin nəslinin kəsilməsi fikri diqqəti cəlb edir:

Tülkü havalanıb, deyir aslanam,

Tur dağından ac aslanlar itibdi [Aşıq Ələsgər, 2004: s.56]

Burada nadir növlərdən birinin - aslanın (şirin) vaxtilə Azərbaycan təbiətində mövcud olduğu, sonra isə həmin növün faunadan itdiyi bildirilir. Həqiqətən, hazırda aslan yerli faunada nəsli kəsilmiş növlərdəndir:

Yapalaqlar kəklik alıb yeyibdi,

Laçın ölüb, o tərlanlar itibdi [*yenə orada*].

Bu misralarda isə ərazidə laçın və tərlan kimi yırtıcı quşların geniş yayldlğı, lakin sonralar müxtəlif səbəblərdən onların bir növ kimi kökünün kəsildiyi qeyd olunur.

Aşıq Ələsgər həmçinin orqanizmin keyfiyyət əlamətlərinin irsiyyət amilləri vasitəsilə gələcək nəslə ötürülməsini aşağıdakı misralarda dəqiq təsvir edib:

Nütfəsindən əyri olan tez göstərər isbatın;

Hər ağac kökündə bitər, hər meyvə gözlər zatın [Aşıq Ələsgər, 2004: s.121].

Aşığın yaradıcılığında iqlim sərvətlərinə münasibət də diqqəti cəlb edir. A.Ələsgərin aşağıda qeyd etdiyimiz təcnisi bu cəhətdən səciyyəvidir:

Var olsun, Qarabağ, əcəb səfadı,

Başa Xaçın axar, ayağa - Qarqar.

Göyçə qar əlindən zara gəlibdi,

Muğan həsrət çəkər: a yağa qar, qar [Aşıq Ələsgər, 2004: s.89].

Aşıq Ələsgər bu şeirində həmin dövr üçün səciyəvi olan hava şəraiti barədə də məlumat verilr.

Gəldi yaz ayları, həsrət çəkər xak,

Deyər: - Neysan gələ a yağa – yağa [Aşıq Ələsgər, 2004: s.101].

Aşıq yaratdığı bu dodaqdəymzədə bitkilərin inkişafı üçün torpaqla bərabər, suyun da əhəmiyyətini göstərir. O, quraq ərazilərdə yazın gəlişi ilə yağışların yağacağı, torpağın islanacağı, bitkilərin normal inkişafından ötrü optimal şəraitin yaranacağı qənaətinə gəlir.

Təbiətdə faktorların təsiri bir - birindən asılıdır. 1940 - cı ildə alman aqronomu Y.Libix kəşf etdi ki, bitkilərin məhsuldarlığı torpaqda bol olan qida maddələrindən yox, minimal miqdarda olan maddələrdən asılıdır. Bitkiyə lazım olan bir maddə çatışmayan torpaqda digər qida maddələrinin bolluğu faydasızdır, hətta zərərlidir [Mustafayev, Məmmədov, Mahmudov, 2017: s.210] Libixin "Minimal tələb" qanunu faktorların hamısına aid edilə bilər [Əliyeva, Mustafayev, Hacıyeva, 2006: s.143].

Aşıq Ələsgərin çoxcəhətli yaradıcılığında ov heyvanları və ovçuluqla bağlı fikirlər çoxdur: "Kamil ovçu yəqin görüb maralı, Gedir bərəsinə ay sinə-sinə [Seçmə aşıq şeiri, 2011: s.82], Səyyadsan, tor qurubsan, Dağı gözlə, gözlə sən! [Aşıq Ələsgər, 2004: s.115], "Ovçu tək bərədə durdu" [Aşıq şeirindən seçmələr, 2005: II c., s.5], "Tərlansan, ovlatma sarı, dur gedək" [Aşıq şeirindən seçmələr, 2005: II c., s.28], "Kamil ovçu ölməyincə usanmaz, "Əldən qoymaz belə sərxoş maralı" [Aşıq Ələsgər, 2004: s.5]. Misal gətirdiyimiz bu nümunələrdə ovçunun bacarığı diqqəti cəlb edir. Bu cür sərişləli ovçuların fəaliyyəti əhalinin dolanışığında faydalı bir peşə kimi dəyərləndirilsə də, təbiətə vurduğu ziyanı da qiymətləndirmək lazım gəlir. "Gördüm" şeirində Aşıq Ələsgər ovçunun nişan alıb vurduğu heyvanla bağlı ağrılı bir mənzərəni gözlərimiz önündə necə də real canlandırıb:

Zalım ovçu onu alıb nişana,

Dəlib ürəyini, boyayıb qana,

Yıxılıb çevrilir o yan, bu yana,

Kəsilibdi səbri qəralı gördüm [Seçmə aşıq şeirləri, 2011: s.84].

Aşıq aşağıdakı misralarda maraqlı bir fikir irəli sürür: ovçuluq xüsusi qabiliyyət tələb edən sənətdir, lakin həm də bu peşə ilə məşğul alan adamlarda bəxt, naxış gərək olsun. Bizə görə A.Ələsgər bu fikri qədən qabardıb və demək istəyib ki, əgər bacarmırsansa vaxtını boş keçirmə, ovun ardınca qaçma. O, bununla həm də, sərişləsiz ovçunu ovu təqib etməkdən çəkinməyə çağırıb. Yəni burada aşıq müəyyən qədər da olsa, canlı təbiətə dəyə biləcək zərərin qarşısını almağa çalışıb.

Ov keçdi bərədən, ata bilməzsən,

Uçdu getdi əldən, tuta bilməzsən,

Yerisən, yüyürsən, çata bilməzsən,

Görürsən ki, bəxtin yatdı, sən də yat [Aşıq Ələsgər, 2004: s.32]

Beləliklə, ətraf mühitin antroppogen faktorlarından biri kimi təbiətdə bu şəkildə təzahür edən ovçuluq fəaliyəti, yaxud "insan-təbiət" münasibətləri biomüxtəlifliyin azalmasına səbəb olmuşdur.

Qeyd etmək lazımdır ki, ovçuluq insan meydana gəldiyi ilk vaxtlardan onun həyatında əsaslı rol oynamış, əhalinin qidasını, geyimini və s. təşkil etmişdir. Nəticədə heyvanların mütamadi və qaydasız şəkildə ovlanması nəinki onların sayca azalmasına, hətta bəzi növlərin nəslinin tamamilə kəsilməsinə gətirib çıxarmışdır.

Aşıq Şəmşir (1843-1980). Torpaq ekologiya elmində biokos maddə kimi qəbul olunur. Canlı və cansız orqanizmlərin sintezindən əmələ gəldiyinə görə onu belə adlandırımışlar. Torpaq canlılar üçün zəruri ekoloji faktordur. Torpağın münbitliyi onun məhsuldarlığı üçün əsas şərtdir. Təsadüfi deyildir ki, yararsız torpağın məhsulverimi çox aşağı olur, ya da heç olmur. Əsas səbəblərindən biri torpağın aqrotexniki qaydada düzgün becərilməməsidir. "Torpağının qəhrin unudum niyə?" [Seçmə aşıq şeirləri, 2011: s.121] deyəndə Aşıq Şəmşir buna işarə edirdi. Aşığın yaradıcılığında ətraf mühitə ciddi münasibət vardır.

Lalədi, nərgizdi evim, eşiyim,

Köynəyim sıx meşə - qoymur üşüyüm [Seçmə aşıq şeirləri, 2011: s.120].

Meşələrin insan həyatında misilsz əhəmiyyətini konkret bir misra ilə bundan gözəl necə ifadə etmək olar? Laləni və nərgizi ev-eşiyi, meşəni köynəyi bilən aşıq həm estetik, həm də sağlamlıq cəhətdən onları düzgün qiymətləndirir. Haqlı olaraq aşıq təbiətə vurğunluğunu gizlətmir:

Öpdüm yasəməni, sevdim lalanı,

Göy meşəli, gül bulaqlı talanı [Seçmə aşıq şeirləri, 2011: s.121].

Aşq Şəmşirin təbiət şeirlərində onun ecazkar gözəlliklərinə izhar da var, məftunluq da, qorunmasına çağırış da.

Şairin xatırı Şəmşirdə barat,

Turacı ellərə verib amana.

Daha təbiətə olmaz xəyanət.

Bənzəməsin qərib qonağa ceyran [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: II c., s.228].

Ceyranı bədii ədəbiyyatda bəzən təbiətin gözəl qızı adlandırırlar. Ona qıyanı, ovlayanı yamanlayır, qarğış tökürlər. Poeziyada və dastanlarda belə nümunələr az deyil. Şəmşir də elə bunu deyir, həm də ceyranların yaşayış yerini elmi baxımdan doğru ifadə edir. Ceyran həqiqətən düzənlik heyvanıdır və ba barədə artıq qeyd etmişik. Aşıq həmçinin balalama dövründə heyvanın ovlanmasına qarşı çıxır: "ceyrana güllə atma, balasından uzaq düşər"

Aman ovçu, düzdə qurma tələni,

Hayıfdı, düşməsin uzağa ceyran.

Gəl atma gülləni qana bələnsin,

Düşər balasından uzağa ceyran [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: I c., s.228].

Aşıq Şəmşirin doğulub böyüdüyü, ömrünün sonunadək yaşadığı Kəlbəcər rayonu əsrarəngiz təbiətinə görə hər zaman diqqəti özünə cəlb edib. Burada faydalı qazıntı yataqları, zəngin mineral su ehtiyatı aşığın diqqətindən yayınmayıb.

Cəvahirdi Azərbaycan torpağı,

Qızıl, gümüş – hər sərvətin yatağı... [Seçmə aşıq şeirləri, 2011: s. 120].

Müalicə əhəmiyyətinə görə yalnız Çexiyadakı Korlovı-Varı mineral suları ilə müqayisə oluna bilən məhşur İstisu və digər mineral bulaqları şeirlərində qeyd edir, onların şəfaverici xüsusiyyətlərindən danışır.

Xəstələrə dərman olan

Təbib bulaqlı Kəlbəcər.

İstisuyu səda salan,

Səsli-soraqlı Kəlbəcər [Seçmə aşıq şeirləri, 2011: s.118].

Gələn burda tapar şəfa... [*yenə orda*]

Aşağıdakı bənddə şair bu cür zənginliyi ərazinin coğrafi mövqeyi, relyefi, fauna və florası, digər təbii sərvətlərinin bolluğu ilə əlaqələndirir.

Qartal düşüncəli, şair xəyallı,

Tərlan yuva salan dağlar oğluyam.

Anam İstisudu, atam Dəlidağ,

Murov, Lilpar, Qonur, Qoşqar oğluyam [Seçmə aşıq şeirləri, 2011: s.120].

Qeyd etmək lazımdır ki, aşığın ata yurdu Kəlbəcər və daha 7 rayon 30 ilə yaxın işğalçı Ermənistanın tapdağı altinda qalıb. Yalnız iki il öncə rəşadətli Azərbaycan Ordusunun igid

əsgərləri tərəfindən işğaldan azad edilib. Bu illər ərzində talançı düşmən bölgənin təbii sərvətlərini talan etməklə məşğul olub.

A.Şəmşirin poeziyasında insan ekologiyasına aid tipik nümunələrə onun ibrətamiz nəshiətəri, ustadnamələri misal ola bilər. Biz belə nümunələrə aşığın bütün yaradıcılığı boyu rast gəlirik:

Dünya malı bu dünyada qalandı,

Çoxlarının taxtı-tacı talandı.

Doğruluqdan qeyri nə var yalandı,

Məhəbbət vəfalı dostdu demişlər [Azərbaycan aşıq şeirindən seçmələr, 2005: II c., s.221].

Molla Cümə (1854-1920). Aşığın əsərlərində ətraf mühitin qorunması və təbiət təsvirinə dair maraqlı fikirlərə rast gəlirik. Bənövşə bitkisinin xoş ətirli, gözəl görnüşlü çiçəklərinin hədsiz dərilməsi onun azalmasına səbəb olur. Aşıq bellərini zalım, insafsız hesab edir və qarğıyır: "qolun qurusun", deyir.

Mən sənə nə dedim, zalım, bimürvət,

Qoy qurusun qolun, üz bənövşəni... [Molla Cümə, 2006: s.78].

Təbiətdə növmüxtəlifliyinin azalmasının əsas səbəblərindən biri ətraf mühitə antropogen amillərin təsiridir. Məlumdur ki, ibtidai insanların yaşayış şəraiti yığıcılıq və ovçuluqla bağlı idi. Ona görə də ovçuluğun ətraf mühitə təsirini birinci hesab etmək olar. Sonra əkinçilik və heyvandarlıq təbiətə ciddi təsir göstərdi. Lakin elm və texnikanın yaranması və inkişafı təbiətə daha çox zərbə vurdu. Düzənlik heyvanı olan ceyranların növ sayının 50-ci illərdən başlayaraq birdən-birə azalması bizə görə, bu səbəblə bağlıdır. Hələ buna qədər Molla Cümə haqlı olaraq deyirdi:

Ceyran ürkdü, viran qaldı düzlərim [Molla Cümə, 2006: s.143].

Texniki qurğuların və kənd təsərrüfatı maşınlarının sahələrə cəlb olunması, əkin-biçin işlərinin, heyvandarlıq təsərrüfatı üçün otlaq sahələrinin, biçənəklərin getdikcə genişlənməsi ceyran sürülərinin ərazidən uzaqlaşmasına səbəb olurdu. Yeni yaşayış mühitinə uyğunlaşa və burada, yem tapa bilməyənlər məhv olub gedirdilər. Beləliklə, ceyranların sayı müvafiq dövlət təbiət qoruqları yaradılana qədər olduqca az idi və nəsllərinin kəsilmək qorxusu yaranmışdı. Aşıq "ceyran ürkdü, viran qaldı düzlərim" deyəndə bunu nəzərdə tuturdu.

Fəsil dəyişkənliyi heyvanların həyat tərzində baş verən mövsüm hadisəsidir. Bülbül, zağca, qaranquş, durna, sarıköynək və s. kmi quşlar payızın sonlarına doğru isti ölkələrə köçüb gedir, bahar fəslində geri dönürlər. Bunu Molla Cümə iki misrada çox dürüst ifadə edib.

Gedibdir zimistan, gəlibdir bahar,

Yatırsan bixəbər, gəlsənə, bülbül! [Molla Cümə, 2006: s.79].

Alma meyvələrin içərisində həmişə seçilib; həm dadı və görnüşünə, qida və müalicə əhəmiyyətinə görə onu təbiblər dərman buyurublar. Alma süfrələrin bəzəyi hesab edilib, qonaq üçün ehtiyat saxlanıb. Bütün bunlar almanın kiyəvi tərkibcə vitamin və minerallarla, mikroelementlərlə zəngin olduğuna görədir. Aşağıdakı şeirində Molla Cümə almanın tibbi cəhətdən faydasına diqqəti cəlb edir, müşahidələrinə söykənərək düzgün qərara gəlir.

Haqq səni yaratdı dal budağında,

Xəstənin dərdinə dərmanə alma.

Müxtəsər olmusan dost otağında,

Ehtiyat durursan mehmanə, alma [Molla Cümə, 2006: s.66].

O, "Sərçə" şeirində bu quşun qidalanması, həyat tərzi, bioekoloji və morfoloji xüsusiyətlərini açıqlayır, bizi onunla tanış edir [Molla Cümə, 2006: s.209]. Bir sözlə, digər aşıq və şairlərimiz kimi Molla Cümənin yaradıcılığı da əhalinin ətraf mühitə münasibətiin düzgün formalaşmasında əhəmiyyət kəsb edir.

Aşıq Şenlik (1850-1913). Aşıqlarımızın şeirlərində genetik mülahizələrin yürüdülməsi faktı maraq doğurur. Aşıq Şenlik haqlı olaraq bu qənaətə gəlir ki, söyüddən bar almaq mümkün deyil:

Öz dərdini özün üyüt,

Alma, heyva verməz söyüd.

Anlamazlar almaz öyüd -

Şahmar olub çalasan da [Seçmə aşıq şeirləri, 2011: s.93].

Məlum olduğu kimi, hər bir növ yalnız öz növündən olanla cütləşir. Ali heyvanların növləri başqa növlə cütləşmir, cütləşsə nəsil vermir, nəsil alınsa da dölsüz olur. Məsələn, at ilə eşşəyin cütləşməsindən alınan qatır dölsüzdür. Genetika elmi bu həqiqəti birmənalı qəbul edir. Hər bir bioloji növ valideynlərindən aldığı əlamətləri irsən nəsildən - nəsilə ötürür. Ona görə də aşıq bunun əksi olan fikri mümkünsüz sayır.

Aşıq Şenliyin insan ekologiyasına aid düşüncələri daha çox dərd-qəmə söykənir. Bu, onun həyat tərzi, düşdüyü vəziyyətlə bağlıdr. "Çəkər" şeiri bu cəhətdən səciyyəvidir.

Hicran alayları doymaz qanımdan,

Görən ibrət alar Nuh tufanımdan.

Cəllad kimi tutub gireyvanımdan,

Nə alar canımı, nə də əl çəkər [Seçmə aşıq şeirləri, 2011: s.92].

Aşıq Veysəl (1894-1973). Böyük türk ozanı Aşıq Veysəlin yaradıcılığında canlı və cansız təbiətə münasibət xüsusi yer tutur:

Bir ulu ağacdan bir yarpaq düşsə,

O saat acısın duyar, inləyər [Veysəl, İmrə, 1982: s.105]·

Aşıq Veysəlin "*Qara torpaq*" şeirində torpağın həmişə xeyirli olması bildirilir. "*İşgəncə verdikcə mənə gülərdi*" deməklə aşıq torpağa dəyən zərəri qeyd edir. Ancaq əvəzində, torpağın sədaqətli olduğunu vurğulayır:

"Bir çəyirdək əkdim, dörd bostan verdi,

Mənim sadiq yarım qara torpaqdı," – deyir [Veysəl, İmrə, 1982: s.107].

O, bununla münbit torpağın əkin üçün yararlı olduğunu, toxumun bu cür torpaqda daha yaxşı cücərdiyini və cücərtinin normal inkişaf etdiyini, nəticədə bol məhsil verdiyini söyləmiş olur. Aşqı Veysəlin ətraf mühitin başlıca faktorlarından biri kimi torpağa münasibəti orjinaldır, elmidir. Torpaq da sankı canlıdır: şumlyarsan, əkərsən, becərərsən bol məhsul verər, səni sevindirər.

Qarnın yardım qazmaynan, belinən,

Üzün yırtdım dırnağınan, əlinən.

Yenə məni qarşıladı gülünən,

Mənim sadiq yarım qara torpaqdı [Veysəl, İmrə, 1982: s.106].

Aşıq Veysəlin "*Ağaclar*" şeirində əhalinin təsərrüfat fəaliyyətinin meşələrə mənfi təsiri, ağacların kütləvi qırılması öz əksini tapıb "*Balta dəyib yatağından yad edər*" - deyən aşıq, ağacdan hazırlanan kamanın, udun və qavalın doğmasından ayrı düşüb, sanki, yanıqlı səslə fəryad qopardıqlarını söyləyir [Veysəl, İmrə, 1982: s.108-109].

Aşıq Veysəl "Meşə" şeirində "Cümlə xəstəliyə sipər" və ya "Selləri udar əmərək" deməklə meşələrin əhəmiyyətini göstərib. Meşənin elmi cəhətdən canlı orqanizmlər üçün faydalı olduğunu aşıq aşağıdakı şeir parçasında daha dəqiq ifadə edib:

Günəşdən aldığı həzlər

Necə havanı təmizlər!

Onun sağıyıq bax, bizlər,

Meşədəki varlığa bax! [Veysəl, İmrə, 1982: s.186].

YENİLİKLƏR

Tədqiqat prosesində aşıq şeirləri təbiət-insan münasibətləri çərçivəsində təhlil edilib və ekoloji fikirlər açıqlanıb. Problemin həlli ekologiyanın tarixini öyrənmək məqsədilə ekologiya və folklor qovuşuğunda aparılaraq aşıq yaradıcılığı nümunələri əsasında aşağdakı yeniliklər əldə olunub:

- ekoloji fikrlərin reallıq səviyyəsi öyrənilib və qiymətləndirilib;

- ətraf mühitə təsir edən başlıca faktorlar ilkin bazis baxımından öyrənilib;

- təbii və anropogen faktorların ətraf mühitə təsirinin əsas istiqamətləri və səbəbləri elmi baxımdan araşdırılıb;

- insan ekologiyası xüsusi hal kimi açıqlanıb;

- bir sıra təbii sərvətlər, bəzi nadir və nəsli kəsilmiş bioloji növlər elmi cəhətdən araşdırılıb.

NƏTİCƏ

Azərbaycan aşıq sənəti şifahi xalq yaradıcılığında geniş profilli sənət növlərindən biridir. Apardığımız araşdırmalar göstərir ki, bu yaradıcı sənət növü yalnız ictimai-siyasi hadisələrə, o cümlədən təbiət və təbiət hadisələrinə münasibət bildirməklə yekunlaşmır, ekologiyanın müxtəlif aspektlərinə yönəlik məsələləri işıqlandırılır. Ətraf mühitin qoruması tarixi istiqamətində maraqlı fikirlər ortaya çıxır. Məqalədə Dirili Qurbanidən başlamış bir sıra ustad aşıqlarımızın yardıcılığı lakonik şəkildə tədqiqata cəlb olunur, onların əsərlərində diqqəti cəlb edən ətraf mühit amilləri ekoloji aspektdən təhlil edilir və qiymətləndirilir. Burada canlı və cansız aləmin mövcud olduğu, uzun illər mübahisə və müzakirə predmetinə çevrilmiş həyatın yaranması və insanın mənşəyi kimi problem məsələlər də öz əksini tapıb.

Tədqiqat nəticəsində canlıların yaşayış şəraiti, qidalanması, mühitə uyğunlaşmaları, davranış xüsusiyyətləri kimi vacib həyati amilləri əks etdirən nümunələri aşıq şeirlərində çox görürk.

Apardığmız araşdırmalar göstərir ki, həyatın əmələ gəlməsi haqqındakı klassik fikirlər aşıq şeirlərində də davam edir və məzmunca elmi nəticələrə çox yaxındır. Biz bunu Yunis Əmrənin, Dirili Qurbaninin, Aşıq Ələsgərin şeirlərində daha aydın görürük. İnsan faktorunun təbiətə zərərli təsirləri, xüsusla ovçuluq, meşələrin qırılması, torpaqların yararsız hala salınması kimi bu gün də aktual olan ekoloji problemlərə klassik aşıqlarımızın (məsələn, Aşıq Veysəlin) əsərlərində də geniş rast gəlirik. Müəlliflər qoşqularında faydalı hərəkətləri öyür, zərərli vərdişləri pisləyir. Beləliklə, digərlərinə ibrət dərsi verməklə, təbiəti təbliğ etmək və tanıtmaqla ekoloji maarifçilik missiyası ilə çıxış edirlər.

Ali canlı orqanizmlərin hər bir cəhətdən kamil forması olan "insan mənəviyyatı" anlayışı - çağdaş elmin qəbul etdiyi insan ekologiyası bu gün xeyli dərəcədə qloballaşmış ekoloji aktual məsələdir. Bu problem demək olar ki, bütün dövrlərin aşıqlarında ən çox təzahür edən yaradıcılıq hədəfidir, obyektidir. Harda ki, insanı kamil olmağa, arınmağa çağıran müraciətlər, hikmət dolu nəshiətlər varsa, orda mənəviyyatın ekologiyası, insan ekologiyası var. Dirili Qurbani Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Əlsəgər, Aşıq Şəmşir və b.-da olduğu kimi.

ƏDƏBİYYAT

Aşıq Alı. Əsərləri / Tərt. ed. Zimistanoğlu Q., Bakı: "OL" MMC, 2013, 348 s.

Aşıq Alı. Nə qaldı / Tərt. ed. Qəhrəman İ., Bakı: Qanun, 2019, 400 s.

Azərbaycan aşıq şeirindən seçmələr. İki cilddə, I c. / Tərt. ed. Axundov Ə., Abbaslı İ., İs-mayılov H., Bakı: Şərq-Qərb, 2004, 376 s.

Azərbaycan aşıq şeirindən seçmələr. İki cilddə, 2 c. / Tərt. ed. Axundov Ə., Abbaslı İ., İsmayılov H., Bakı: Şərq-Qərb, 2004, 376 s.

Aşıq Ələsgər. Əsərləri / Tərt. ed. Əlsgər İ., Bakı: Şərq-Qərb, 2004, 400 s.

Aşıq Veysəl, Yunis İmrə. İki zirvə. Şeirlər/Tərt.ed. Aslan M., Bakı: Yazıçı, 1982, 141 s.

Dirili Y. Dirli Qurbaninin yaradıcılığında ətraf mühitə münasibət / Bir ağacın budaqları. Dirili Qurbani Məclisinin almanaxı (Elmi, ədəbi-bədii toplu). Bakı: Təfəkkür, 2006, s.313 – 318

Əliyeva R.Ə., Mustafayev Q.T., Hacıyeva S.R. Ekologiyanın əsasları. Bakı: BDU, 2006, 536 s.

Kazımov Q.Ş. Qurbani və poetikası. Bakı: ADPU, 1996, 200 s.

Qaracaoğlan. Şeirlər / Tərt. ed. Ömərоğlu İ., Namazov Q. Bakı, "Şərq-Qərb", 2006, 256 s.

Qurbani. Əsərləri / Tərt. ed. Kazımov Q., Bakı: Şərq-Qərb, 2006, 232 s.

Mahmudov Y.M., Məmmədov A.T. Azərbaycan folklorunda ovçuluğun ətraf mühitə təsiri tarixinə dair // Pedaqoji Universitet xəbərləri, № 3. Humanitar elmlər bölməsi. Bakı: 2014, s.89-94

Mahmudov Y.M. Azerbaycan Folklorunda Tebiet ve Etraf Mühitin Korunması Meseleleri // Asia Minor Studies (Uluslararası Hakemli Sosial Bilimler Dergisi). Kilis 7 Aralık Universitesi Edebiyyat Fakultesi Tarih Bölümü. C. 2, S.4, KİLİS, Temmuz 2014, S.157-186

Mirzəyev M. Doğma yurdu gəzə - gəzə. Bakı: Maarif, 1993, 216 s.

Molla Cümə. Əsərləri / Tərt. ed. Əfəndiyev P., Bakı: Şərq-Qərb, 2006, 648 s.

Mustafayev. Q.T., Məmmədov A.T., Mahmudov Y.M. Ekologiyadan əvvəlki "ekologiya". Bakı: Elm və təhsil, 2017, 520 s.

Sarı Aşıq. Gül dəftəri / Tərt. ed. Qəhrəman İ., Bakı: Qanun, 2018, 279 s.

Seçmə aşıq şeirləri. / Tərt. ed. İlkin İ., Bakı: Nurlan, 2011, 208 s.

TÜRK DÜNYASI ÇOCUK EDEBİYATI VE ÇOCUK FOLKLORU ALANINDA TÜRKİYE'DE HAZIRLANAN TEZ ÇALIŞMALARININ ANALİTİK BİBLİYOGRAFYASI ÜZERİNE BİR DENEME

AN ATTEMPT ON THE ANALYTICAL BIBLIOGRAPHY OF THESIS STUDIES MADE IN TURKEY IN THE FIELD OF CHILDREN'S LITERATURE AND CHILDREN'S FOLKLORE IN THE TURKISH WORLD

Yaşar SÖZEN

Uzman, Doktora Öğrencisi.

Pamukkale Üniversitesi, İnsan ve Toplum Bilimleri Fakültesi, Çağdaş Türk Lehçeleri ve Edebiyatları Anabilim Dalı, Denizli/TÜRKİYE.

ORCID ID: 0000-0002-6801-6442

ÖZET

Türk dünyası; sahip olduğu kültürü, edebiyatı, edebî ürünleri, lehçe ve ağızlarıyla ilim adamları ve araştırmacılar için büyük bir çalışma sahasını oluşturmaktadır. Bu çalışma sahalarından biri de Türk topluluklarının kültüründen, edebiyatından ve dilinden teşekkül ederek meydana gelen çocuk edebiyatı ve çocuk folklorudur. Çocuk edebiyatı ve çocuk folkloru bağlamında bakıldığında Türk dünyası; gerek şair ve yazarlarıyla, gerek var olan sözlü ve yazılı edebî birikimiyle, gerekse kaleme alınan her türlü edebî ürünle zengin bir geleneğin temsilcisi olarak karşımızda durmaktadır. Bu bağlamda çalışmada, Türk Dünyası Çocuk edebiyatı ve Çocuk folkloruyla ilgili Türkiye'de hazırlanan tez çalışmalarına yer verilerek analitik bir bibliyografya oluşturulmuştur. Yapılan araştırmalar neticesinde tespit edilen otuz iki tez çalışması, çocuk edebiyatı ve çocuk folkloru olmak üzere iki başlık altında incelenmiştir. Her tez çalışması farklı başlık altında değerlendirilerek çalışmanın amacı, kapsamı ve kavramsal çerçevesi hakkında bilgi verilmiştir. Sonuç olarak Türkiye'de Türk dünyası edebiyatlarıyla ilgili birçok farklı çalışma ve eser meydana getirilirken, Türk Dünyası Çocuk edebiyatı ve Çocuk folkloru sahalarında yapılan çalışmaların nitelikli ancak sayısal olarak yeterli olmadığı tespit edilmiştir.

Anahtar Sözcükler: Türk Dünyası, Çocuk Edebiyatı, Çocuk Folkloru, Bibliyografya.

ABSTRACT

Turkish world; with its culture, literature, literary products, dialects, it constitutes a great field of study for scholars and researchers. One of these fields of study is children's literature and children's folklore, which is formed by the culture, literature and language of Turkish communities. In the context of children's literature and children's folklore, the Turkish world; It stands before us as the representative of a rich tradition with its poets and writers, with its existing oral and written literary accumulation, and with all kinds of literary works. In this context, an analytical bibliography has been created by including the thesis studies prepared in Turkey on the Turkish World Children's Literature and Children's Folklore. Thirty-two thesis studies, which were determined as a result of the researches, were examined under two headings as children's literature and children's folklore. Each thesis study was evaluated under a different title and information was given about the purpose, scope and conceptual framework of the study. As a result, while many different studies and works related to Turkish world literatures were created in Turkey, it was determined that the studies conducted in the fields of children's literature and children's folklore in the Turkish world were qualified but not numerically sufficient.

Keywords: Turkish World, Children's Literature, Children's Folklore, Bibliography.

1. GİRİŞ

1. 1. Türk Dünyası Çocuk Edebiyatı ve Çocuk Folkloru Alanında Türkiye'de Hazırlanan Tez Çalışmaları

Türk dünyası edebiyatları içinden teşekkül ederek gelişen ve varlığını günümüze kadar devam ettiren Türk Dünyası Çocuk edebiyatı ve Çocuk folkloru, zengin bir edebî geleneğe sahiptir. Bu edebî gelenek çerçevesinde meydana getirilmiş edebî ürünler; birçok araştırmacı, ilim adamı ve akademisyen tarafından bilimsel olarak incelenmiştir. Bu bağlamda Türkiye'de birçok araştırmacı, hem Türk Dünyası Çocuk edebiyatı hem de Çocuk folkloru alanında birçok ilmî ve edebî eser kaleme almıştır. Türkiye'de Türk Dünyası Çocuk edebiyatı ve Çocuk folkloru sahalarında yapılan çalışmaların, kaleme alınan ilmî ve edebî eserlerin, nitelikli ancak sayısal olarak yetersiz olduğu görülmektedir. Türk dünyası edebiyatlarıyla ilgili birçok ilmî çalışma meydana getirilmişken, Türk Dünyası Çocuk edebiyatı ve Çocuk folkloru sahalarının ihmal edildiği anlaşılmaktadır. Ancak bu alanlarda hazırlanan bilimsel çalışmalar ve kaleme alınan ilmî ve edebî eserler az da olsa vardır.

Bu eserlerin bir kısmı ise üniversitelerde hazırlanan tez çalışmalarıdır. Dolayısıyla kaleme aldığımız tebliğ metninin kavramsal çerçevesini, Türk Dünyası Çocuk edebiyatı ve Çocuk folkloru alanlarında üniversitelerde hazırlanan tez çalışmaları meydana getirmektedir. Öncelikle yapılan araştırmalar neticesinde 20 farklı üniversiteden, 3 farklı enstitüden ve 10 ayrı anabilim dalından toplam 32 tez çalışması tespit edilmiştir. Tespit edilen tez çalışmalarının 28'i yüksek lisans; 4'ü ise doktora niteliğindedir. Tespit edilen bu tez çalışmaları, *Türk Dünyası Çocuk Edebiyatı Alanında Hazırlanan Tez Çalışmaları* ile *Türk Dünyası Çocuk Folkloru Alanında Hazırlanan Tez Çalışmaları* olmak üzere iki başlık altında incelenmiştir. 24 tez çalışması çocuk edebiyatı; 8 tez çalışması ise çocuk folkloru sahası kapsamında değerlendirilmiştir.

Tespit edilen çalışmalar, yayım yıllarına göre tasnif edilerek sıralanmıştır. Her çalışmanın başlığı altında çalışmanın amacını, kapsamını ve kavramsal çerçevesini ortaya koyan bilgilere yer verilmiştir. Böylelikle çalışmalarla ilgili analitik bir bibliyografya meydana getirilmiştir. Ancak tespit edilen 3 tez çalışması, Kırgızistan'da bulunan Kırgızistan-Türkiye Manas Üniversitesinde hazırlanmıştır. Manas Üniversitesi, Türkiye ile Kırgızistan'ın ortak bir eğitim kurumu olduğu için, çocuk edebiyatı ve çocuk folkloru alanında bu üniversitede hazırlanan tez çalışmaları çalışmamızın kapsamı içerisinde değerlendirilmiştir. Ayrıca tespit edilen bazı tez çalışmaları, çocuk edebiyatı ve çocuk folkloru alanlarından ziyade dil ve üslup incelemesi kapsamına girmektedir. Üzerinde inceleme yapılan yazar, şair veya eserler çocuk edebiyatı ya da çocuk folklorunun bir yazarı ve edebî verimi olduğu için, tespit edilen bu eserler Türk Dünyası Çocuk edebiyatı ve Çocuk folkloru dairesi kapsamında değerlendirilmiştir.

2. ARAŞTIRMA VE BULGULAR

2. 1. Türk Dünyası Çocuk Edebiyatı Alanında Hazırlanan Tez Çalışmaları

Bu başlık altında Türk Dünyası Çocuk edebiyatı sahasında hazırlanan 24 tez çalışmasına yer verilmiştir. Bu çalışmalardan 20'si yüksek lisans; 4'ü ise doktora niteliğindedir. Her tez çalışması hakkında genel bilgiler verilerek çalışmanın amacı, kapsamı ve kavramsal çerçevesi ortaya konulmuştur. Türk Dünyası Çocuk edebiyatı sahasında Türkiye'de hazırlanan tez çalışmaları şunlardır:

1. Orhan, Mustafa. (1998). Türkmenistan Çocuk Edebiyatı ve Kasım Nurdanov. Yüksek Lisans Tezi, Kırıkkale Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili ve Edebiyatı Anabilim Dalı, Kırıkkale.

Kasım Nurdanov, Türkmenistan Çocuk edebiyatında önemli bir yere sahiptir ve bu sahanın önde gelen şahsiyetlerinden biridir. Bugüne kadar çalışmalarıyla Türkmenistan Çocuk edebiyatına büyük katkılar sağlamıştır. Çalışmada Nurdanov'un eserleri ve yazar hakkında kaleme alınan yazılar verilerek, Türkmenistan Çocuk edebiyatı içerisindeki konumu tespit edilmeye çalışılır. Nurdanov'un hayatı, edebî şahsiyeti ve eserleri, Türkmenistan Çocuk edebiyatı dairesi içinde değerlendirilerek incelenir. Ayrıca çalışmada başlangıçtan günümüze kadar Türkmenistan Çocuk edebiyatının durumu araştırılır. Yapılan araştırmaların neticesinde Türkmenistan Çocuk edebiyatının yüz yıla yakın tarihî bir geçmişe sahip olduğu tespit edilir.

2. İzci, Serpil. (1999). Galimcan Gıylman'ın ''Sabantuy'' Adlı Derlemesinin Gramer İncelemesi. Yüksek Lisans Tezi, Sakarya Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili ve Edebiyatı Anabilim Dalı, Sakarya.

Çalışma konusu olan *Sabantuy* adlı kitap, Galimcan Gıylman tarafından toplanıp derlenmiştir. Kitapta edebî icat ile uğraşan ve *Sabantuy* gazetesi sayfalarında sürekli yayımlanan Tatar çocuk şiir, masal ve hikâyeleri derlenip sunulur. Bu eser, *Tataristan Kitap Neşriyatı* tarafından 1993 yılında Kazan'da neşredilir. Kitabın tamamında halk arasından seçilmiş yetenekli çocukların samimi, içten ve halk diliyle yazdıkları şarkı, şiir, masal ve hikâyelerine yer verilir. Kısaca araştırma; inceleme ve çalışma malzemesini Tatar Türklerinin Çocuk edebiyatı sahasından alır. Kitabı inceleyen bu çalışma ise; *transkripsiyon, aktarma, gramer* ve *sözlük* bölümlerinden oluşur.

3. Erol, Ali. (1999). Abdulla Şaik Hayatı, Sanatı ve Şiirleri. Doktora Tezi, Gazi Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dili ve Edebiyatı Anabilim Dalı, Ankara.

Abdulla Şaik, Azerbaycan Çocuk edebiyatının önde gelen önemli şahsiyetlerinden biridir. Çocuk edebiyatı kapsamında çocuklar için kaleme aldığı birçok şiir ve hikâyesi vardır. Dolayısıyla Abdulla Şaik'in hayatı, sanatı ve şiirlerini inceleyen bu çalışma, Türk Dünyası Çocuk edebiyatı dairesi kapsamında da değerlendirilebilir. Ali Erol tarafından hazırlanan çalışma; Azerbaycan edebiyatı hakkında bilgi veren bir giriş ile *Abdulla Şaik'in Hayatı ve Sosyal Dünyası, Abdulla Şaik'in Sanat, Edebiyat ve Dil Anlayışı, Abdulla Şaik'in Şiirleri* adlı üç bölümden meydana gelir. Çalışmada şairin kaleme aldığı çocuk şiirleri de şekil, dil, üslup ve muhteva bakımından incelemeye tabi tutulur.

4. Kaya, Hatice. (2002). Modern Kırgız Edebiyatı Şairi Alıkul Osmanoğlu'nun Hayatı, Sanatı ve Şiirleri. Yüksek Lisans Tezi, Ege Üniversitesi Sosyal Bilimler Enstitüsü Türk Dünyası Edebiyatları Anabilim Dalı, İzmir.

Kırgızların Puşkin'i unvanıyla anılan Alıkul Osmanov, 20. yüzyılın ilk yarısında yaşanan birçok siyasi, sosyal ve edebî gelişmenin şahidi olarak Kırgız edebiyatında önemli bir yer tutar. Kırgızistan Çocuk edebiyatının esaslarının belirlenmesinde etkin bir rol oynayan Osmanov, kaleme aldığı birçok eserinde genç neslin eğitim ve terbiye konusuna öncelik tanır. Osmanov'un hayatı, sanatı ve şiirlerinin inceme konusu yapıldığı bu çalışma, şairin aynı zamanda kısa bir ömür sürmesine rağmen Kırgız Çocuk edebiyatının edebî temellerini atması ve ilmî esaslarını belirlemesi bağlamında Türk Dünyası Çocuk edebiyatı sahasında yapılan çalışmalar kapsamında değerlendirilmiştir.

5. Ocakbeği, Mustafa. (2007). Aali Tokombayev'in Ezginin Sırrı ve Yaralı Yürek Hikâyelerinin Türkiye Türkçesine Aktarılması ve Hikâyelerde Çocuk Konusunun İncelenmesi. Yüksek Lisans Tezi, Kırgızistan-Türkiye Manas Üniversitesi Sosyal Bilimler Enstitüsü Türkoloji Anabilim Dalı, Bişkek.

Çalışmada Sovyet Kırgız edebiyatının önemli yazarlarından biri olan Aaalı Tokombayev'in *Ezginin Sırrı* ve *Yaralı Yürek* adlı iki önemli eseri, Türkiye Türkçesine aktarılır ve bu eserlerde çocuk konusu incelenir. *Ezginin Sırrı* adlı hikâye, daha çok folklorik devri yansıtır ve hüzünlü bir aşk hikâyesini konu alır. *Yaralı Yürek* ise, 1916-1917 yıllarında Kırgız Türklerinin Çin'e kaçışını ve 1917 Rus İhtilali sonrasında sosyal hayattaki değişimleri işler. *Yaralı Yürek*, yazarın bu dönemde yaşadıklarını kaleme alması yönüyle tarihî gerçekliği olan bir eserdir.

6. Tarhan, Aslı. (2012). Balkanlar'daki Türk Edebiyatı Yayınlarında Çağdaş Kosova Türk Çocuk Edebiyatının Yeri. Yüksek Lisans Tezi, Çanakkale Onsekiz Mart Üniversitesi Eğitim Bilimleri Enstitüsü Türkçe Eğitimi Anabilim Dalı, Çanakkale.

Aslı Tarhan tarafından yapılan araştırmada, Balkanlar'daki Türk Çocuk edebiyatı alanında yapılacak çalışmalara ışık tutabilecek Kosova'daki Çocuk edebiyatı ile ilgili kaynak oluşturmaya çalışılır. Dört bölüm ve çeşitli alt başlıklardan meydana gelen çalışmanın *Giriş* başlıklı birinci bölümünde, problem durumuna ve alt problemlere yer verilerek araştırmanın amacı, önemi ve sınırlılıkları üzerinde durulur. Çalışmanın *Kavramsal Çerçeve* adlı ikinci bölümünde, kavramsal çerçeve çizilerek; sosyal kimlik, kültür, kültürel asimilasyon, kültürel miras, çocuğa görelik, kişilik gelişimi ve edebiyat ilişkisi kavramları açıklanır.

Yöntem başlıklı üçüncü bölümde, araştırmanın yöntemine yer verilerek araştırma modeline, evren ve örneklemin seçimi ile veri toplama teknikleri ve çözümlemesine değinilir. *Bulgular ve Yorum* adlı dördüncü bölümde, yapılan araştırmalar sonucunda elde edilen bulgular ışığında öncelikle Balkan Coğrafyası ve Türklerin bu topraklara yerleşme sürecinden bahsedilir. Devamında Kosova Türk edebiyatı ele alınarak, Çağdaş Kosova Türk Çocuk edebiyatı ve çocuk edebiyatının türlere göre gösterdiği gelişmeler hakkında detaylara değinilir. *Sonuç, Öneriler ve Tartışma* başlıklı beşinci bölümde ise, bu araştırmayla varılan sonuçlar nedenleriyle birlikte ortaya konularak, bu sonuçlar doğrultusunda gerekliliği düşünülen öneriler üzerinde durulur.

7. Özgür, Aynur. (2012). Kosova'da Türk Çocuk Edebiyatı. Yüksek Lisans Tezi, Dokuz Eylül Üniversitesi Eğitim Bilimleri Enstitüsü Ortaöğretim Sosyal Alanlar Eğitimi Anabilim Dalı, İzmir.

Aynur Özgür tarafından hazırlanan çalışmada, 1945 ila 2000 yılları arasında Kosova'daki Türk Çocuk edebiyatı incelenmeye çalışılır. Araştırmada, Kosova'daki Türk Çocuk edebiyatının ortaya çıkışı ile eğitim, siyasi ve toplumsal değişmelerle olan bağlantısı, tarihsel verilerden de faydalanılarak ortaya konulur. İnceleme, dört bölüm ve çeşitli alt başlıklardan meydana gelir. *Giriş* başlıklı birinci bölümde, Balkan adının çeşitli anlamlandırmalarına ve kullanım alanlarına yer verilir. İkinci bölümde *İlgili Yayın ve Araştırmalara*, üçüncü bölümde ise *Araştırma Modeli, Evren ve Örneklem, Veri Toplama Araçları ve Veri Çözümleme Tekniklerine* değinilir. Çalışmanın esasını *Balkanlar* adlı dördüncü bölüm oluşturur. Bu bölümün ilk kısmında Balkanların coğrafyası ve genel tarihi hakkında bilgi verilir. İkinci kısmında ise Balkan ülkelerinin tarihi ve coğrafi özellikleri tek tek ele alınır. Balkanlar'daki eğitim faaliyetleri özetlendikten sonra, Kosova'daki eğitim hayatı ayrıntılarıyla anlatılır. Devamında Balkanlar'daki Türk edebiyatı hakkında bilgiler verilerek Kosova'daki Türk Çocuk edebiyatı incelenir.

8. Öztürk, Gözde. (2012). Makedonya'da Türk Çocuk Edebiyatı. Yüksek Lisans Tezi, Dokuz Eylül Üniversitesi Eğitim Bilimleri Enstitüsü Ortaöğretim Sosyal Alanlar Eğitimi Anabilim Dalı, İzmir.

Axundzadə Qarabağın ikinci bir görkəmli şəxsiyyətinin, tarixçi alim Mirzə Camal Cavanşirin yazdığı "Qarabağ tarixi" əsərinin (10) də geniş ictimaiyyətə çatdırılmasında mühüm rol oynamışdır. Ədib həmin əsəri A. Berıe ilə rus dilinə çevirərək hissə-hissə "Kavkaz" qəzetində (11) dərc etdirmiş və onun müəllifi haqqında da oxuculara geniş məlumat vermişdir. Mirzə Camalın əsərinin Rusiya İmperator Akademiyasına göndərilməsində də Axundzadənin xüsusi rolu olmuşdur.

Axundzadənin Qarabağ ədəbi mühitində yaxın təmasda olduğu maarifçi ziyalılardan biri də Həsənəli xan Qaradağı idi. Onun himayədarı olan əmisi Məhəmmədhüseyn ağa dövrünün tanınmış ziyalılarından idi. O, ana dilindən başqa rus, ərəb, fars və fransz dillərini də yaxşı bilirdi. Məhəmmədhüseyn ağa 1862-ci ildə Tiflisə köçmüş və orada Qafqaz canişinliyinin baş idarəsində dövlət əmlak departamentində xidmət edərkən Axundzadə ilə yaxın dost olmuşdur. Həsənəli xan da Axundzadə ilə Tiflisdə tanış olmuş, və sonralar aralarindakı yaş fərqinə baxmayaraq bu tanışlıq dostluğa çevrilmişdir. Axundzadə səmimiyyət əlaməti olaraq istər yazdığı məktublarda və istərsə də danışıq zamanı Həsənəli xana "qardaşoğlu " deyə, müraciət edirdi. Həsənəli xan istedadlı şair olmaqla yanaşı tərcüməçi, aktyor, təzkiräçi alim, müxbir və müəllim kimi də Qarabağda məşhur idi. O, 1870-ci ildə Şuşada ana dilində yeni tipli üsuli-cədıd məktəbi açmış, ilk dəfə olaraq parta və yazı taxtasından istifadə etmişdir. Təbii ki, onun maarifçi kimi formalaşmasında Mirzə Fətəlinin böyük rolu olmuşdur.

Axundzadənin Qarabağda yaradıcılıq əlaqəsində olduğu şəxslərdən biri də Mirzə Məhəmməd Katib idi. O, klassik və aşıq şeiri üslubunda şeirlər yazan istedadlı şair və gözəl xəttat idi. Təbiətcə son dərəcə mehriban və səmimi olan şairin çoxlu sayda dostları olmuşdur. Onların sırasında böyük mütəfəkkir Mirzə Fətəli Axundzadə ilə dostluğu xüsusi yer tutur. Axundzadə Şuşada ezamiyyətdə olarkən Katibin əsərləri ilə tanış olmuş, hətta onu Tiflisdə təşkil edəcəyi "Məclisi-xas"a üzv olmağa dəvət etmişdir. O, həmçinin Katibdən əsərlərini toplayıb nəşr etdirmək üçün ona göndərməsini də xahiş etmişdir. Lakin Katib tufanlı bir gündə Kür çayını keçən zaman içərisində şeir dəftəri olan xurcunu suya düşüb axdığı üçün Axundzadəyə verdiyi vədi yerinə yetirə bilməmiş və ona bir neçə şeir göndərməklə kifayətlənmişdir. Katibin əlimizdə olan şeirləri içərisində Axundzadəyə yazdığı 20 bənddən ibarət bir mənzuməsi də vardır (12, s.10). Burada şair öz vəziyyəti, başına gələn hadisələrlə əlaqədar məlumat

verməklə yanaşı Axundzadənin xalq üçün gördüyü işlərdən, onun xeyirxahlığı və alcənablığından, "şairlərin piri-süxəndanı", "aqillərin sərvəri, sultanı" olmasndan da söz açır, yazdığı əsərlərin başdan-ayağa hikmət olmasını fərəhlə qeyd edir. Hiss olunur ki, Katib Axundzadənin bəzi əsərlərini oxumuşdur. Ümumiyyətlə, Axundzadənin əsərlərinin, xüsusilə komediyalarının ilk oxucuları qarabağlı ziyalılar olmuşdur. Bunun başlıca səbəbi ədibin Qarabağa və onun ziyalılarına xüsusi rəğbətlə yanaşması və onlarla uğurlu qarşılıqlı yaradıcılıq əlaqəsi yarada bilməsindən ibarət idi. Bu qarşılıqlı yaradıcılıq əlaqələrindən təkcə qarabağlı ziyalılar deyil, Axundzadənin özü də kifayət qədər bəhrələnmişdir. Görkəmli tədqiqatçı Kamran Məmmədovun dili ilə desək: "Zakirin satiraları müstəqil ədəbi cərəyana çevrilən şeirin vuran qəlbi və düşünən beyni olmuşdur desək heç də səhv etmərik. O da diqqətə layiqdir ki, həmin işdə Axundov kimi dahi sənətkara müəllimliyi Qasım bəy Zakir və Mirzə Şəfi Vazeh etmişdir"(13. s.84).

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

1. Zakir Q. Əsərləri. B., EA Nəşriyyatı, 1964.

2. Axundov M.F. Əsərləri, 3cilddə, II c. B., Elm, 1988.

3.Mirzə Yusif Qarabağı. Məcmueyi-Vaqif və müasirini-digər. B., Şuşa, 1999.

4. Berje A. Məcmueyi- əşari- şüərayi- Azərbaycan. Leypsiq, 1867

5.Köçərli F.Azərbaycan ədəbiyyatı, I c., B., Elm,1978

6. AMEA ƏYİ, F-2,s.v.174/2

7. Mümtaz S. Azərbaycan ədəbiyyatının qaynaqları. B., Yazıçı, 1986

8. Mirzə Adıgözəl bəy Qarabağnamə . B., Yazıçı, 1989

9.Axundov N. Qarabağ salnamələri. B.,Yazıçı, 1989

10. "Kavkaz" 1855, s.61-69

11. Mirzə Camal Cavanşir. Qarabağ tarixi. B.,Yazıçı, 1989

12. Mirzə Məhəmməd Katib. Şeirlər. B., 2004. Şuşa Nəşriyyatı (Tərtib edən və nəşrə hazırlayan Samirə Gəncəli.)

13. Məmmədov K. XIX əsr Azərbaycan şeirində satira. B., Elm, 1975.

A. BAKIXANOVUN ELMİ, BƏDİİ YARADICILIĞI

Pərixanım Soltanqızı (Hüseynova)

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının dosenti

"Xan qızı Natavan", "Qızıl qələm" mükafatları laureatı

ORCID ID: https: //orcid.org/0000-0001-9473-6745

Xoşbəxt Əliyeva

Ədəbiyyatın tədrisi texnologiyası kafedrasının baş müəllimi

ORCID ID: https: //orcid.org/0000-0002-6511-7002

A.Bakıxanov Yaxın Şərqdə, Azərbaycan elmində ensiklopedik biliyə malik alim kimi şöhrət qazınmışdır. O, Azərbaycan ədəbiyyatında tənqidi realizmin inkişafında ilk çığır açan, XIX əsr maarifçi realizm cərəyanının nümayəndələrindən biri olmuşdur. M.F.Axundovun "Kəmalüddövlə məktubları"nda qoyduğu bir sıra fəlsəfi məsələləri ondan öncə Bakıxanov "Təhzibi-əxlaq" əsərində irəli sürmüşdür.

XIX əsr Azərbaycan maarifçiliyinin güclü və zəif tərəfləri ədibin əsərlərində öz təzahürünü tapır. A.Bakıxanov xalqına, vətəninə bağlı sənətkar olmuşdur. Ədəbi, elmi-fəlsəfi fəaliyyəti də bu məqsədə xidmət etmişdir; vətənə, xalqa, sevgi, ictimai zülmə və əsarətə qarşı mübarizə.

A. Bakıxanovun uşaq ədəbiyyatının yaranması və inkişafında əhəmiyyətli rolu olmuşdur. Onun elmi ədəbi fəaliyyətində pedaqoji və etika məsələləri xüsusi yer tutur ("Qanuni Qüdsi", "Təhzibi-əxlaq", "Kitabi-Nəsihət", mənzum hekayələri, təmsilləri və s).

Həyatı

A.Bakıxanov Bakı xanlarının nəslindən olan ikinci Mirzə Məhəmməd xanın ailəsində 1794-cü ildə iyun 21-də keçmiş Bakı qəzasının Əmir Hacıyan kəndində doğulub. O, Mirzə Məhəmməd xanın ailəsində dünyaya gələn ilk övladdır. Uşaqlığı Əmir Hacıyan, Balaxanı, Maştağa kəndlərində keçir. Daha sonra isə Qubada, atasının Əmsar kəndindəki malikanəsində yaşayır. O burada özünə Qubalı dostları qazanır. Bakıda aldığı təhsili Qubada davam etdirən Qüdsi Quba ruhanilərindən fars, ərəb dillərini mükəmməl öyrənir. Bu dillərin vasitəsilə Firdovsi, Xəyyam, Nizami, Xaqani, Rumi, Sədi, Hafizin əsərlərini əğz edir. Yaxın Şərqin alim və mütəfəkkirlərinin əsərləri ilə tanış olur və öz yaradıcılığında da onlardan istifadə edir. Gənc yaşlarında rus dili ilə maraqlanır, lakin bu dili Tiflisdə mükəmməl öyrənə bilir.

1819-cu ildə Bakıxanov Qafqazın baş hakimi general A.P. Yermolovun idarəsində Şərq dilləri üzrə mütərcim vəzifəsinə təyin olunur. Tiflis gənc alim və yazıçının ictimai fikri inkişafında əhəmiyyətli rol oynayır. Tiflis həyatı ona rus dili vasitəsilə dünya mədəniyyətinə pəncərə açır, digər tərəfdən isə Zaqafqaziyadakı dekabrist dostları vasitəsilə dekabrist Rusiyasının qabaqcıl ictimai fikrilə tanış olur. Bakıxanovun ziddiyyətli maarifçi dünyagörüşü də bu şəraitdən təzahür edir.

A.Bakıxanov Tiflisdə rəsmi dövlət qulluğunda çalışdığı zaman ucqar ölkələrdə baş qaldıran kəndli üsyanlarını yatırırdı. Çar hökuməti Zaqafqaziyada hakimiyyətini bərkitmək üçün İran və Türkiyə dövlətlərilə müharibələr aparırdı. Qudsi hərbi səfərlərdə iştirak edir, bacarığına görə ildən-ilə (praporşik, poruçik, ştabs-kapitan, kapitan, mayor, podpolkovnik polkovnik) hərbi vəzifələrə yüksəlirdi.

1823-cü ildə Bakıxanovun Yermalov tərəfindən Qarabağ əyalətini tədqiq edən komissiyanın üzvü təyin olunması gələcək "Gülüstani- İrəm" əsərinin yaranmasında zəmin rolunu oynayır. Bu bölgədə olduğu zaman o, Qarabağın qədim tarixini, coğrafiyasını, etnoqrafiyasını öyrənməklə kifayətlənmir, topladığı məlumatları da qeydə alırdı.

Qüdsi Bakıxanovun şansı Yermolovun Paskeviçlə əvəz olunması ilə gətirir (1827). Belə ki, 1826-1829-cu illərdə Rusiya-İran, Rusiya-Türkiyə dövlətləri arasında müharibələr gedirdi. Paskeviçin bu dövlətlərlə sülh danışıqlarında Bakıxanov tərcüməçi kimi iştirak edirdi. Onun diplomatik fəaliyyəti və Qriboyedovla dostluğu da buradan başlayır.

Cənubi Azərbaycanda, Dehxarqanda açılan Rusiya-İran dövlətləri arasındakı Sülh Məclisində Bakıxanov Rusiya dövlətinin nümayəndəsi kimi iştirak edir. (Məclisin sədri Paskeviç, katibi Qriboyedov). O burada Fazilxan Şeyda ilə tanış olur. Cənubi Azərbaycan şairini Paskeviçlə də tanış edir.

Ərdəbildə rus qoşunlarının əlinə keçən zəngin kitabxana Tiflisə köçürülür. Cənubi Azərbaycanda ikən həmin kitabxananın tədqiqilə məşğul olan Bakıxanov tədqiqatını davam etdirir. Şərq ədəbiyyatının (müəlliflərin bədii əsərlərinin) kataloqunu tərtib edir və "Dərbəndnamə"nin qısa şərhi və rus dilində olan tərcüməsi üzərində elmi iş aparır. Zaman keçdikcə Bakıxanovu rəsmi işdən daha çox elmi və ədəbi fəaliyyət maraqlandırırdı. Müharibələr bitdikdən sonra o, rahat bir şəraitdə sırf elmi yaradıcılığını davam etdirir. 1831-ci ildə "Qanuni-Qüdsi"ni yazır. Coğrafiya və Astronmiya ilə maraqlanır. Bu məqsədlə də Rusiyaya səyahət edir. Varşavada feldmarşal qraf Raskeviçlə görüşür. Bakıxanov ondan dövlət xidmətindən işdən azad edilməsinə köməklik göstərməsini xahiş edir. Lakin Raskeviç onun maaşı saxlanılmaqla işdən azad olunması şərti ilə xarici işlər naziri B.K.Nesselrodeyə xahişnamə göndərir. Xahişnaməyə I Nikolay tərəfindən baxılmış, ehtiyac yarandıqda rəsmi dövlət qulluğuna geri qaytarılması və əmək haqqısı ödənilməsi təqdiri ilə ona ömürlük məzuniyyət verilmişdir. Bakıxanov Varşavada olarkən A.S.Puşkinin ailəsilə tanış olur. Özünə çoxlu dostlar qazanır və azərbaycanlı alim Mirzə Cəfər Topçubaşovla ilk tanışlığı da burada olur. Rusiyaya səyahəindən sonra 1835-ci ildə Qubaya atasının malikanəsinə dönür. Və burada "Təhzibi-əxlaq", "Kitabi-nəsihət", "Kitabi-Əsgəriyyə", "Mişkatül-ənvar" əsərlərini yazır və "Gülüstan" adlı ədəbi-məclis təşkil edir. 1841-ci ildə fars dilində "Gülüstani-İrəm" əsərini yazır, onu rus dilində tərcümə və çap etdirmək üçün Tiflisə gələrək, müəyyən vaxtlarla burada yaşmalı olur. Burada M.S.Vazehlə, onun tələbəsi alman şairi F.Bodenştedtlə, M.F.Axundovla, fransız səyyahı qraf Syuzanne, alman alimi prof. Karl Kox, Qazan universitetinin alimi, prof. İ.N.Berezinlə tanış olur. M.Ş.Vazehin "Divani-hikmət" məclisində iştirak edir.

Zaqafqaziyaya səyahət etdiyi zaman Qraf Syuzanne Qubaya gəlmiş (1840) özünün "Səyahət xatirələri" əsərində "Gülüstani-İrəm" əsərindən də bəhs edərək Bakıxanovu tarix elmi sahəsində görkəmli bir alim kimi səciyyələndirmşidir.

Karl Kox "Şərqə səyahət" əsərində (1845-1847) Bakıxanovdan danışaraq onu astronomiyanı mükəmməl bilən alim, orijinal mütəfəkkir kimi yüksək dəyərləndirir.

Bakıxanov bilik və məlumatlarını genişləndirmək üçün səyahət etməyi sevirdi. O, 1846-cı ildə Şərqə səyahət edir, öncə İrana, sonra Təbrizə, Tehrana gedir. Tehranda olarkən burada İranın dövlət adamları, alim, yazıçıları, mədəniyyəti və incəsənəti ilə tanış olur. Tehrandan Ərzurum yolu ilə İstambula gəlir. Burada Türkiyə sultanının qonağı olur. "Əsrarül-məlәkut"un ərəb dilində əlyazmasını sultana verir. Qısa bir zamanda əsər türk dilinə Həyatizadə Seyid Şərəf tərcüməsi ilə "Əfkarül-Cəbərut") adı ilə çap olunur (ərəbcə mətni ilə birgə). Burada bir ay qalır, sonra ərəb ölkələrinə, Misirə, Qahirəyə Məkkəyə səyahət edir, şəhərləri gəzir. Mədinə ilə Məkkə arasındakı Vadiyi-fatimə adlanan məkanda 1847-ci ildə 53 yaşında vəba xəstəliyindən vəfat edir. Və həmin yerdə də dəfn edilir.

A.A.Bakıxanov olduğu ölkələrdən, şəhərlərdən onların tarixindən, elmindən, mədəniyyətindən, incəsənətindən, coğrafiyasından, etnoqrafiyasından, insanlarından, alimlərdən və s. haqqında özünün elmi-fəlsəfi tarixi səyahətnaməsini qələmə alacaqdır. Fəqət, bu ona qismət olmadı. Vaxtsız ölüm ona imkan vermədi.

Yaradıcılığı

Elmi yaradıcılığı. "Qanuni Qüdsi" (Qüdsinin Qanunları)" Bakıxanovun ilk elmi əsəridir. Bu onun fars dilinin qanun və qaydalarından bəhs edən sərf və nəhv əsəridir. Əsərdə qısa girişdən sonra dilin tərifi verilir. Əsərin niyə, hansı şəraitdə və nə kimi prinsiplər əsasında yazıldığı qısa şərh olunur.

"Qanuni-Qudsi"i üç fəsildən, fonetika, morfologiya və sintaksisdən ibarət məktəb şagirdləri üçün dərslikdir. Sərf və nəhv qanunlarının yadda qalması üçün əyanilik prinsipi gözlənilmiş, bu məqsədilə misraların çoxu seçilmiş şeir parçalarından ibarətdir. Əsəri yazarkən rus və ərəb sərflərindən istifadə

olunmuşdur. Bu sərf qanunları və nitq hissələrindən bəhs olunan bölmələrdə özünü ifadə edir. II fəsildə cümlənin şərhi verilmişdir. Müəllif bu zaman cümlənin şərhini ərəb sərflərinə uyğun qurmuş, habelə burada fars dilində işlənən ərəb sözlərinin izahının da verilməsi unudulmamışdır.lll fəsildə isə nitq hissələrinin bölgüsü verilmişdir.

"Qanuni-Qüdsi" 1828-ci ildə yazılmış, 1831-ci ildə farsca əsli, 1841-ci ildə isə rus dilində tərcüməsi Tiflisdə çap olunmuşdur. A.A.Bakıxanov "Qanuni Qüdsi" - əsəri ilə nəinki Azərbaycan, Yaxın Şərq dilçilik elmində və onun inkişafında böyük iş görmüş, bu sahədə tədqiqatçılara önəmli bir miras qoymuşdur.

"Əsrarül-mələkut" Bakıxanovun kainat haqqında elmi-nəzəri əsəridir. Əsər müqəddimə, üç müxtəlif hissə və nəticədən ibarətdir. Qüdsi müqəddimədə astronomiya elminin tərifini verir. Klavdi Ptolomeyin (era, II əsri) geosentrik sistemi ilə polyak alim Nikolay Kopernikin astronomik sistemini müqayisə edir.

Ptolomeyə görə Yer kürə şəklində kainatın mərkəzində sakit halda dayanır. Günəş, Ay və başqa kürələr Yerin ətrafında müxtəlif məsafələrdə hərəkət edərək fırlanırlar. Kopernikə görə isə Günəş hərəkətsizdir. Planetlər, Yer də daxil olmaqla onun ətrafında fırlanırlar. Apardığı elmi tədqiqatlarla A.A.Bakıxanov kainat haqqında öz nəzəriyyəsini yaradır. Elmi kəşflərini, Kopernikin heliosentrik sistemi əsasında aparan alim Günəşin astronomik şərhini verir. Günəşin sabit olması barədə Koperniklə razılaşmır. Günəşin daim hərəkətdə olmasını isbat edir.

"Təhzibi-əxlaq" təlim-tərbiyə mövzusunda yazılmış fəlsəfi əsərdir. Burada müəllif əxlaq normalarından, qidanın normal şəkildə insanın qəbul etməsi, onun insan sağlamlığına xeyirli ziyanlı və s. məsələlərindən bəhs edir. Əsərin "Etidala riayət", "Yaxşı işlərin fəziləti" "Can sağlığının qazanılması", "Şöhrətin bəyanı" fəsillərində əxlaq normalırını şərh edir. Bakıxanov əxlaq nəzəryiyəsində orta həddi əsas götürür. Ondan aşağı və yuxarı həddi qəbul etmir. O burada Nizaminin

Bir İnci saflığı varsa da suda,

Artıq içiləndə dərd verir o da.

normal əxlaq kodeksi ilə birləşir. Bakıxanovun da əxlaq nzəriyyəsində az yemək insanı taqətdən salan kimi çox yemək də zərərlidir. Yəni hər şey normasında olarsa faydalı olar, bir şey normadan aşağı, normadan artıq olarsa faydasızdır, insanın səhhətinə xeyir yox, bəla gətirər.

Bakıxanov hər bir əxlaqi məsələyə ikinci tərəfdən yanaşır. Onların xeyirli və ziyanlı tərəflərini göstərir. Məsələn xəsisliyi pis xasiyyət kimi pisləyirsə, digər tərəfdən həddi aşan israfçılığı da qəbul etməyərək pisləyir. Bu məsələni daha sonra M.A.Axundov "Hacı Qara" komediyasında göstərmişdir.

Elmdə nəzəriyyənin təcrübəyə tətbiqindən bəhs edərkən nəzəriyəyə üstünlük verir. A.Bakıxanov kainatın maddi varlıqdan ibarət olması ididasını irəli sürür və sübut edir ki, varlıqda heç bir şey yox olmur.

"Kitabi-nəsihət"i "Təhzibi-əxlaqi" əsəri ilə ideya və məzmun baxımdan səsləşir. Burada ədibin əxlaqi fikirləri əsərin əsas ana xəttini təşkil edir. İnsanı özündən böyüklərə, qohumlara hörmət etmək, onlarla mehriban olmaq, valideynlərə ehtiram və sevgi, dostluqda sədaqətli olmaq, ədalətli olmaq, düzgün danışmaq, mərd, zirək, cəsarətli olmaq, tənbəlliyə alışmamaq, pis insanlardan uzaqlaşmaq, elmli və təhsilli olmaq və s. bu kimi əxlaqi keyfiyyətləri təbliğ edir.

"Gülüstani-irəm" tarixə istinadən yazılıb. Onun tarix elminin inkişafında böyük əhəmiyyəti var. Burada ədibin tarixə baxışı, Azərbaycanın və Dağıstanın coğrafi təsviri, xalqlarının mənşəi, dini, dili haqqında məlumatlar verilib. "Glüstani-İrəm"də "Tarixi-Təbəri","Tarixi Güzidə", "Nizamüt-təvarix", qədim Şərq mənbələrinə istinad edilən Nuhun tufanı, övladları-Yasəf, Yəcuc və Məcuc, skiflər, massaketlər, xəzərlər, sasani hökmdarlarının Azərbaycanda hakimiyyəti, Azərbaycanın və Dağıstanın ərəblər tərəfindən işğal olunması, Babək üsyanı, hülakilərin və teymurilərin hakimiyyəti, şirvanşahlar, ağqoyunlular və qaraqoyunlular haqqında, N.Tusi ilə bağlı tarixi maraqlı məlumatlar gənclərin tarixi məlumatlarını daha da zənginləşdirir. "Gülüstani-İrəm" həmçinin Səfəvi padşahları və onların süqutundan sonra hakimiyyətə gələn Nadir şah Əfşarın hakimiyyəti dövrü, Türkiyə və Rusiya qoşunlarının Azərbaycana və Dağıstana hücumu, məşhur Çaldıran döyüşü (Sultan Səlimlə Şah İsmayıl arasında gedən müharibə) və s. haqqında gənclərə yalnız tarxi elmi məlumatlar verməklə məhdudlaşmır, onların Azərbaycanın tarixi ilə balı bilgilərini genişləndirərək zənginləşdirir.

Əsərin son hissəsində Nadir şahın ölümündən "Gülüstan" sülhünə kimi olan 60 illik bir dövr əhatə olunur (Gülüstan müqaviləsi bağlanarkən sədlərin çəkilməsində şairin özü iştirak etmişdir). Azərbaycan xanlıqlarının tarixi, onların arasındakı çəkişmələr, xanların siyasi fəaliyyətləri, A.M.Şah Qaçarın Azərbaycana hücumu, xanlıqların Rusiya tərəfindən işğalı və s. tarixi məsələlər haqqında geniş elmi məlumatlar verilir. Habelə "Gülüstani-İrəm"də məşhur alim və şairlər haqqında da məlumatlara rast gəlinir.

"Eynəl-mizan" fəlsəfi məzmuna malik olan, ərəb dilində yazılmış əsərdir. Əsərdə məntiq məsələləri şərh olunub. A.Bakıxanovun yaradıcılığı və fəlsəfi görüşlərini tədqiq edən məhrum alim,professor Ənvər Əhmədov əsərin bir nüsxəsini Leninqrad kitabxanasından tapıb Azərbaycan dilinə tərcümə etdirib.

Bakıxanovun bədii yaradıcılığını "Mişkatül-ənvar" (farsca külliyatı), "Miratül-cəmal", "Riyazül-Qüds", "Təbriz əhlinə xitab" "Kitabi-Əsgəriyyə", Azərbaycan, fars, ərəb dillərində yazılmış şeirlərindən ibarət "Divan"ı, mənzum hekayə və təmsilləri, mənzum məktubları, elmi əsərlərində pərakəndə formada verilmiş beyt və qitələri, fars və ərəb dilində yazılmış şeirləri əhatə edir.

"Riyazül-Qüds" A.Bakıxanovun yaradıcılığının ilk dövrünə aiddir. Azərbaycan dilində 1820-ci ildə gənc yaşlarında yazılıb. Əsasən mərsiyə xarakteri daşıyır. Qubada İmam Hüseyn üçün təziyyə verənlərin xahişi ilə qələmə alınsa da burada dinlə əlaqəsi olmayan lirik şeirlər də verilmişdir.

"Təbriz əhlinə xitab" şeri ilə sənətkar XIX Azərbaycan realist ədəbiyyatında ictimai satiranın əsasını qoydu. Şer həm o dövr həm də Bakıxanovun yaradıcılığında ali silk və islam cəhalətpərəstliyi əleyhinə yazılımış ilk ictimai satirik nümunədir.

Şerin əsas tənqid hədəfi İran şahlığının tabeliyində olan Cənubi Azərbaycanın mədəni geriliyi, feodalizm qayda-qanunları, dini mövhumatın əsrinə çevrilmiş sadə kütlələrin savadsızlığı, avamlığı, ona səbəb olan xanlar və ondan öz məqsədləri üçün əlverişli istifadə edən ikiüzlü din nümayəndələridir. Şair onların əsil simalarını açıb göstərərək ifşa edir.

A.A.Bakıxanov tərəfindən əsası qoyulan ictimai satiranı M.Ş.Vazeh, Nadim, Şakir, Zakir, S.Ə.Şirvani, Fazil xan Şeyda (Cənubi Azərbaycan) M.Ə.Sabir və b. ənənə şəklində davam etdirərək onu inkişaf etdirdilər. XIX əsrin II yarısında S.Ə.Şirvani ona nəzirə, "Qafqaz əhlinə xitab" şerini yazdı.

"Kitabi-Əsgəriyyə"də iki gəncin məhəbbəti təsvir olunur. aşiqlərin romantik təsvirləri klassik məhəbbət qəhrəmanlarını Leyli və Məcnunu xatırladır. Fərq bundadır ki, onların hər ikisi sadə ailənin övladları idi və məhəllənin köhnə fikirli təbəqəsinin qınağı ilə üz-üzə gəlsələr də arzularına çatırlar.

Sənətkar iki aşiqin keçirdiyi hissləri, həyəcanı, daxili dünyalarını qəzəl janrına müraciət etməklə açır. Köhnə fikirli insanlar Əsgərin aşiq olmasını şəriətə zidd hesab edirlər. Əsgər yeni düşüncəli bir gəncdir hər iki gənc şəriət qanunlarının məngənəsində sıxılır. Ağlayır, göz yaşı tökür, dua edir, lakin vəziyyətdən müvəqqəti, olsa da çıxmağı bacarırlar. Əsgərin sevgilisi Leyli kimi öz hüquqsüzlüğünü anlayır. Onunla mübarizədə acizdir. Müəllif onların yolunda bitən qara tikanları, ictimai mühiti, dini ehkamları kəskin şəkildə tənqid atəşinə tutur.

Əsgər XIX əsr Azərbaycan ədəbiyyatında qaranlıqda parlayıb tez də sönən sadə kütlə içərisindən çıxmış ilk gənc ziyalı obrazıdır. Əsər nəsr və nəzmlə yazıldığından müəyyən formada dastan şəklindədir. Lakin A. Bakıxanov bu əsəri ilə XIX əsr Azərbaycan ədəbiyyatı tarixində bədii nəsrin təməlini və povest janrının əsasını qoyur.

"Miskatül-ənvar" A.Bakıxanovun farsca külliyyatıdır. Burada verilən mənzum hekayə və təmsilləri onun vətəninə, xalqına bağlı, azad fikirli şair olduğunu göstərir. O, özündən əvvəlki Azərbaycan klassiklərinin və XIX əsr rus realistlərinin yolunu bir ənənə kimi davam etdirmiş, hökmranlıq edən hakimləri tənqid edərək, sadə xalq kütlələrinin mənafeyini müdafiə edir, "Xudpəsənd əmir və tənqidçi" "Kəndlinin şaha şikayəti", "Şahın bir şəxsi döydürməsi" və s. mənzum hekayələrində ədalətsiz, zülmkar şahlara qarşı çıxır, onları kəskin satirik qələmi ilə qamçılayır. "Haqq sözü" hekayəsində isə şahı islah edir və s.

"Şahın bir şəxsi döydürməsi" hekayəsində döyülən şəxs şaha yalvarmaq əvəzinə onu tərifləyir. Bundan təəccüblənən şah onu nə üçün tərif etdiyini soruşur. Şəxs, ona ixtiyar sahibi olduğunu, onu öldürmədiyinə görə təşəkkür edir. "Kəndlinin şaha şikayəti"ndə feodal-şahlıq üsuli-idarəsi kəskin

tənqid olunur. Kəndlinin şikayətlərinə baxılmır. Zülm və zorakılıq baş alıb gedir. Bu hekayədə qonşular arasında olan çəkişmələrin təsvirində avam məzlum kəndlilər gülüş hədəfinə çevrilirlər. Qonşunun camışından narazı olan kəndli camışın onun bostanını talan etməsindən şaha şikayət edir. Şah da cavabında qonşu ilə arasında çəpər çəkməsini məsləhət görür. "Haqq sözü", mənzum hekayəsində isə şah əxlaqi cəhətdən islah olunur. Belə ki, Şahın məşuqəsi öz gözəlliyilə öyünür şahın onun əsiri olduğunu, ona hətta səcdə etdiyini, istədiyini gördürə biləcək qüdrətində olduğunu deyir. Bunu eşidən şah pərişan olub hakimiyyətdən əl çəkir. Bu hekayə Bəhramı xatırladır (N.Gəncəvi "Yeddi Gözəl").

Şah qafil yaşasa xalqdan, dövlətdən,

Zövq alsa ancaq o, eysü-işrətdən,

Dövlətin əsası verilər yelə.

"Hindistan padşahının hekayəsi"nin mövzusunu qədim hind mənbələrindən götürüb. Bu hekayədə ədibin ədalətli şah və onun ölkəsində xoşbəxt yaşayan xalq arzusu ifadə olunur. Məqsədi də bunu təsvir etmək olmuşdur. Buna görə də ədib bir-birinə qarşı qoyulan ədalətli şah, ədalətsiz şah, ağıllı, nəcib vəzir və hiyləgər, rüşvətxor vəzir obrazlarını yaradır. Əsərin əsas ideyası da bu problemin açılmasına xidmət edir. Şah ölkəni ədalətlə idarə edərsə və yanında ağıllı vəzir olarsa, o ölkə bolluq içində olar xalqı da xoşbəxt yaşayar. Şah ölkəni başlı-başına, hiyləgər, rüşvətxor vəzirin ixtiyarına buraxıb, özü eyş-işrətlə məşğul olarsa ölkəsi də dağılar, xalqı da əziyyət və zülmətə düşər.

Hər zalım şah ölkəsində zülm edərsə adət,

Heç bir zaman xalq içində hökm sürməz ədalət.

Hekayənin məzmunu: Hindistanda ədalətli bir hökmdar var. Onun ədalətli olması xəbəri hər tərəfə yayılıb. Bu hökmdar vətənini, xalqını sevir onun vəziri də tədbirli, ağıllıdır. Şahına ölkəni ədalətlə idarə etməsində kömək edir. Əgər bir gün şah qəzəblənib ədalətdən uzaq bir fərman verərsə tədbirli vəzir onu fikrindən uzaqlaşdırır. Buna görə də şah və xalq onun işindən razı qalır. Lakin bir gün şah ölür. Yerinə onun ağıldan "kəm", mərifətsiz oğlu çıxır. Yaltaqlar, ikiüzlülər onun yanında yer alır. Onların təsirilə hökmdar dövlət işlərindən uzaqlaşır, gününü eyş-işrətlə keçirir. Vəzir nə qədər səy edirsə də ona təsir edə bilmir. Paxıllar, vəziri məhv etmək üçün bir kahinin vasitəsilə hiylə qururlar, guya o, ölən şahı yuxuda görüb, ona burada çox darıxdığını və vəzirini onun yanına göndərməsini istəyib, hökmdar da ölən atasının arzusunu yerinə -yetirmək üçün vəziri onun yanına göndərmək istəyir. Ağıllı vəzir hiyləni başa düşür, özünün də belə bir yuxu gördüyünü söyləyir, Lağım atanı çağırıb ona çoxlu ənam verir. Evindən yandırılacağı meydanın ortasına lağım atdırır. Vədə tamam olanda o odunların arasında oturub tüstü hər yanı bürüyəndə gizli yolla evinə gəlir. Evdən bayıra çıxmır. Lakin ölkədə baş verən işlərdən xəbərdar olur. O zamana kimi ki, xalq çətin ölkə bərbad vəziyyətə, düşür, Vəzir görür ki, ölkə artır əldən gedəcək. Düşmənlər də baş qaldırıb. Bu vəziyyəti görən şah da vəzirin qiymətini bilir, onu atasının yanına göndərməsindən peşimanlıq yaşayır.

Vəzir ölkənin, xalqın başının üstünü alan təhlükəni görüb düşmənlərinin ona qarşı işlətdiyi fitnəni onlara qarşı işə salır. Hörmətli bir kahini yanına çağırıb ona çoxlu qızıl verib şahın yanına göndərir. Kahin cahil hökmdara atasını yuxuda gördüyünü, yuxuda onunla danışdığını, vəziri yanına gətirtməklə hökmdar oğlunu tək qoyduğuna çox peşiman olduğunu, Vəzirin gəldiyi yerdən geri dönəcəyini mərhum şahın da fərmanını ona gətirəcəyini deyir. Şah bunu eşitcək çox sevinir. Meydana gəlir. Vəzir həmin yerdən çıxır şahla görüşüb, fərmanı ona verir. Fərmanda ata oğluna vəzirə hörmət etməyi, məsləhətlərini dinləməyi və tək qalmamaq üçün beş nəfər şənlik sevəni onun yanına göndərməyi tapşırır. Hökmdar oğul atasının tapşırığını yerinə yetirir. Hekayənin sonunda haqq-ədalət öz yerini tapır.

Onda xalqın xeyri üçün böyük bir hikmət vardı.

Şaha sadiq idisə də, Xalqa da havadardı.

"**Kələkbazlar**" mənzum hekayətində müəllif əxlaqsızlığı tənqid edir. Söylənilir ki, Misirli kişi kənddən şəhərə gəlir, gələrkən gözəl surətli bir gənclə rastlaşır. Ondan adını soruşur isminin Məhəmməd olduğunu eşidən kimi gözlənilməz halda oğlana sarılır. Gözlənilməz bu münasibətdən qəzəblənən gənc haray salır, kəndlini tutub şahın yanına aparırlar. Şah qəzəblə kəndlidən, Nə üçün zülm etdin - cavana? soruşur. Kəndli kələk işlədərək yalana əl atır, guya gənci adının Məhəmməd olduğuna görə qucaqlayıb öpüb. Şah ona inanmayıb çirkin, üzü, qapqara Məhəmməd adında bir nökəri çağırtdırıb onu da

öpməsini əmr edir. Kəndli şaha baş əyib yenə hiylə işlədərək onu başqa bir müsəlmanın öpüb feyz almasını söyləyir.

"**Avamın nöqsan axtarması"** hekayəsində cəhalət, nadanlıq, avamlıq başqasında eyib axtaranlar tənqid edilir, hekayədə bir kişinin eşşəyə minib oğlu ilə yol getməyi nəql olunur. Kişi ətrafın tənəsinə məruz qalır. Ona özünün eşşəyə minib oğlunun piyada getməsinə görə rişxənd edirlər. Kişi uşağı eşşəyə mindirib özü piyada gedir. Bu dəfə onun yaşlı olduğu halda piyada getdiyinə, oğlunu isə eşşəyə mindirdiyinə görə tənə edirlər. Bunu eşidən qoca özü də eşşəyə minir. Bədxahlar ona yenə rişxənd edirlər: Zülmdür bir eşşəyə minərsə iki adam – bu sözü eşitcək ata eşşəkdən düşür oğlunu da eşşəkdən düşürüb piyada gedirlər. Əlacçız qalan kişi eşşəyi buraxırsa da yenə ona lağ edirlər. Kişi tənədən xilas olmaq üçün son bir çarəyə əl ataraq eşşəyin qol-qıçını bağlayır, dallarına alıb gülə-gülə yollarına davam edirlər. Kişi düşünür ki, zarafat etdiklərini başa düşüb bəlkə onlardan əl çəkələr.

Əhvalatdan çıxan tərbiyəvi nəticə budur ki, öz eybini görməyənlər başqasında eyib tapacaqlar. Bu əhvalat xalq kəlamını xatırladır. Öz gözündə tiri görməyib başqasında axtarır.

"Ümidin boşa çıxması" mənzum hekayəsində saray əyanları və şaha inanan kəndlinin sadəlövhlüyü, tamahkarlığı tənqid edilir. Söylənilir ki, Həsən adlı bir kəndliyə təsadüfü tanışlıqdan tanımadığı birisi ona alma toxumu verir. Günlər keçir alma yetişir. Alma ətri, təravəti, rəngi, gözəlliyi, eşqdən xəbər verən görnüşü ilə heyranedicidir. Həsənin qəlbindən çox, niyyətlər keçir. Çox fikirləşir onu kimə ərməğan etsin, dosta, tanışamı, yoxsa versin əhli-əyala? Yox, dedi Hökmdara verər, əvəzində mükafat alar ömrünün sonuna kimi ona bəs edər, firavan yaşayıb ömür-gün sürər.

Bu niyyətlə saraya gəlib şahı bu işdən agah edir. Şah səfərə hazırlaşdığı üçün sarayda qalıb gələnədək onu gözləməsini, mükafatını alacağını deyir. Lakin saray əyanları onu zindana salır. Günlər, aylar keçir hökmdar gəlir Həsəni hüzuruna çağırır. Həsənin başına gələn zülmü, zilləti dinləyib təəssüflənir. Onun könlünü almaq üçün əmr edir ki, xəzinənin qapısını açıb yalnız Həsəni ora salsınlar. Könlü nə istəyir götürsün. Həsənin balta və quran götürməsi hökmdarı təəccübləndirir. Səbəbini soruşduqda Həsən balta ilə həmin ağacı kökündən kəsəcəyini, bir də sultanlara ümid bağlamamağa görə nəsli- nəcabətinə Qurana əl basdıracağını deyir.

Şair burada tamahkarlığı pisləyir. O zamana kimi alma söhbəti yox idi. Həsən xoşbəxt yaşayırdı. çox sadə idi və zəhməti ilə ailəsini saxlayırdı. Tamah onu iştahına çəkməmişdir. Elə ki qəribə rast gəldi. Onun verdiyi alma toxumu yetişdi. Xam xəyallar onu ağuşuna aldı, tamahın toruna düşdü. Şaha bel bağladı. Ümidi, xəyalı boş oldu, müsibətlərlə üzləşdi. Səhvini anladı, xam xəyallardan əl götürdü, hətta nəslini də saraylara, hökmdarlara bel bağlamamağa qurana əl basdırdı, Atalar əbəs yerə deməyib ki,artıq tamah baş yarar.Real həyatda hələ tamahın qalib gəldiyini eşidən olmayıb.

"**Hikmətin fəziləti"** mənzum hekayəsində ağıl, məntiq təqdir olunur, tamah, xəbislik, lovğalıq, mənfəətgüdənlər pislənir. Hekayədə nəsihətnamis bir rəvayətdən bəhs olunur. Bir iranlı qoca həkim ölüm yatağında ikən şaha xəbər göndərir ki, onun üzüyünü müdrik bir şəxsə yadigar versin. Şah ağıllı, tədbirli idi. Düşünür ki, necə etsin həkimin vəsiyyətini həyata keçirtsin. Çünki hər kəs, dövlətli, kasıb, nadan, cahil özünü ağıllı hesab edir.

Odur ki şah kütləni bu məsələdən xəbərdar edir. Kütlə meydana yığılır. Şah üç sual verəcəyini, kim həmin suallara düzgün cavab verərsə üzüyü ona verəcəyini bildirir. Şah soruşur ki, ən xeyirli nədir? Tamahkarlar zər, vergi toplayanlar xərac, tacirlər alver və rəvac deyirlər. Şah razılaşmır, kütlənin sırasında dayanan bir qoca isə hər bir şeydən xeyirlinin hünər olduğunu söyləyir. Şah qocanın cavabından razı qalıb ikinci sualını ünvanlayır.

- Dünyada hər şeydən yaxşı deyin, nə?

Yerlərdən gələn şahın razılığı, şadlıq, firavan bu kimi səslər şahı yenə qane etmir. Bu dəfə də onu qocanın verdiyi hər şeydən yaxşıdır, yaxşılıq özü. Çünki yaxşı sifət olarsa səndə?Afərin söyləyər dost da, düşmən də cavabı razı salır. Hökmdar:Ən lazım nədir insana? - sonuncu sualını verir.

Yenə də hər kəs öz mənfəətinə uyğun cavablandırır. Şah həmin qocaya diqqət etdikdə, qoca,ən lazımlı şeyin həqiqət olduğunu, həqiqətin olmadığı yerdə nizam intizamın olmadığını, bütün dünya intizamın üzərində bərqərar tutar fikrini səsləndirir. Qocanın fikirlərindəki hikmət şahın xoşuna gəlir.

Qocaya hörmətlə təzim edərək üzüyü ona təqdim edir və ağıllı qocaya vəzir rütbəsini verir. Şahın tədbiri kütlə arasında narazılıq yaratmır. Hökmdar ədalətli davranaraq doğru düzgün qərar verir. Belə bir tədbirli, hikmətli mötəbər şəxslə ölkəni idarə edir. Sonunda hər ölkədə belə bir şahla vəzirin olması fikri şairin arzu və istəyi idi. Çünki iki tədbirli, aqil şəxsiyyətin birgə hakimiyyəti dövlətinə xeyir gətirər, xalqı da, ondan fayda görər.

"Nəfsin qorunması"nda hər bir insana nəfsinə sahib olmağı, nəfsin artıqlığının insanı hörmətdən saldığını ədəbini, həyasını, mərifətini əlindən aldığını, onun kimsəyə xeyir gətirmədiyini tövsiyə edir. "Məqsədin kəşfi"ndə hər kəsin qarşısında xeyirli, faydalı bir məqsədin olmasını, məqsədi olmayanın sonunun fəlakətlə nəticələnəcəyini, xeyirli məqsədlə görülən işlərin dövlətə də, insanlara da fayda gətirəcəyini tövsiyə edir. Şair bu fikirlərilə xalq, dövlət, cəmiyyət üçün xeyirli işlər görməyin əhəmiyyətli olacağını göstərir. Hakim təbəqələri xalq üçün xeyirli işlər görməyə çağırır.

"Məqsədin kəşfi", "Nəfsin qorunması"nın xüsusən də yeniyetmə və gənclər üçün "əxlaqi- tərbiyəvi əhəmiyyəti böyükdür.

"Qarı və Harun" hekayəsində sadə bir qarının hekayətindən danışılır. Harun sarayını genişləndirir, lakin sarayın yaxınlığında yaşayan qarının daxması sarayın gözəlliyinə xələl gətirir. Buna görə daxmanın sökülməsi lazım gəlir. Lakin qarı əvəzində ona nə qədər ənam veriləcəyi təqdirdə, bununla razılaşmır, daxmasının qiymətli olduğunu söyləyir. O, qınaq obyektinə çevrilir. Dəlisən, nəsən, getmirsən bu uçuq boş viranədən deyənlərə, qarı Mən dəliyəm, bəs Harun niyə, Belə çox pul verir bu viranəyə cavabını verir. Qarı öz doğma kasıb daxmasından, onun isti divarlarından, ətrafında olan qonşularından ayrılmaq istəmir. Onlar onun üçün hər biri qiymətli cəvahiratdan dəyərlidir. Yerləşdiyi məkan onun yurdudur, torpağıdır. Harun onu satın ala bilmir həm də Qarı öz zəkası ilə Haruna qalib gəlir. Hekayədə sadə kasıb qoca qarı ilə Harun qarşı-qarşıya qoyulur. Əsərdən çıxan nəticə budur; yurd rütbəylə, var-dövlətlə satın alınmaz. Burada vətənə, torpağa bağlılıq, sevgi motivləri əsərin əsas ideyasını təşkil edir.

"Xeyirli işin faydası"nda əmək, əməyə məhəbbət tərənnüm olunur. **"Məşvərətin şərtləri"** əsərində düzlük, həqiqət əsərin ideyasını təşkil edir. **"Uşaq və günəş"** hekayəsində qaranlıq cəhalət və nadanlığın rəmzi kimi göstərilir, Günəş isə elmin, təhsilin rəmzi olaraq təqdir olunur.

Təmsilləri

Bakıxanovun bədii yaradıcılığında təmsilləri də əhəmiyyətli yer tutur. O Krılovun "**Eşşək və bülbül"** təmsilini Azərbaycan dilinə tərcümə etmişdir. Özünün **"Yersiz iftixar", "Qurd və İlbiz", "Tülkü və Qoyun"** kimi əxlaqi-tərbiyəvi əhəmiyyət kəsb edən təmsillərini yaratmışdır. Bundan əlavə ədibin **"Mişkatül-ənvar"** külliyyatına daxil edilmiş təmsilləri də var.

Tülkünün simasında insanların xislətində olan hiyləgərliyi, Qurdun simasında tamahkarlığı, **"Çinar və Küdü dəni"**ndə özündən böyüyə hörmətsizliyi, yersiz lovğalığı və özündən razılığı tənqid edərək onun acı nəticələrini göstərir.

"Tülkü və Qoyun" Tülkü gəzərkən bir Qoyunun otladığını görür. Ac olduğuna görə sevinir. Lakin qoyuna gücü çatmayacağını da görür. Onu ələ keçirmək üçün hiyləyə əl atır. Dişlərini qıcayıb qoyuna qəzəblə babasına məxsus ərazidə otladığını, onu virana qoyduğunu söyləyir. Qoyun bu səhranın sahibi olmadığını, minlərlə onun kimi qoyunun burada otladığını bildirir. Tülkü ona şahidi olduğunu, bu işi təhqiq edəcəyini, deyib şahidini gətirməyə, Qoyunsa pərişan halda evə gəlir. Əhvalatı ev sahibinin itinə danışır. Bu it də pələngdən də artıq gücə malik idi. İt Qoyunla dostluq edirdi. İtlə Qoyun həmin məkana gəlirlər. İt Qoyuna tapşırır ki, Tülkünü ocağa and içmək üçün onu yanına gətirsin. Tülkü qoca bir Qurda əhvalatı danışır. Qurd iştaha gəlir. Onlar da o əraziyə gəlirlər. Qoyun Tülküyə ancaq ocağa and içəcəyi təqdirdə ona inanacağını bildirir. Tülkü çuxura yaxınlaşanda çuxurda iki gözün parıldadığını görüb geri çəkilir. Qurda ocağa and içməyin onların nəslinə düşmədiyini deyir. Qurd onun hiyləsini başa düşür. Lakin Tülküyə hər hiylənin gücün qarşısında qüvvəti olmadığını deyib qürrələnir. Qurd çuxura yaxınlaşanda İt onun boğazından yapışır. Qurd nəticədə tamahının qurbanı olur. Bu təmsildə Qurd güclü, Tülkü hiyləgər, Qoyun isə zəif və gücsüz təbəqəni təmsil edir. Əsərin sonunda hər iki tərəfə, güclü və hiyləgərə zəif və gücsüz qalib gəlir. Qoyuunun İtin vasitəsilə qalib gəlməsi səmimi dostluqda bir nümunəni əks etdirir. Həm də burada şairin hikməti özünü ehtiva edir. Güclü gücsüzü əzə bilməz. Hətta bir İt də olsa belə onun qisasını alacaq. Özgəsinə quyu qazanın özü həmin quyuda boğular.

Tamahkarın aqibəti sonda Qurdun acı aqibəti ilə nəticələənər. Əsər belə bir ibrətamiz əxlaqi nəticə ilə tamamlanır.

Ümumiyyətlə A. Bakıxanovun hekayə və təmsillərinin sonunda əxlaqi-tərbiyəvi fikirlərin verilməsi ədibin bədii yaradıcılığının əsas xüsusiyyətlərindəndir.

"Yersiz iftixar" təmsilində Küdü dəni Çinar ağacının dibinə düşür. Çinara sarmaşır. Çinar onu yağış, qar, borandan qoruyur. Küdü dəni boy atır, Çinarın hesabına ucalır. Bunu görən Küdü dəni lovğalanıb Çinarı ötməsi ilə öyünür. Hətta,Çinara deyir ki, onunla qucaqlaşsa kiminsə ona çata biləcəyinə şübhəsi belə yoxdur. Küdü dəni Çinarın sayəsində salamat qalıb boy atdığını bilir, lakin təkəbbürlük onun gözlərini kor etmiş. Çinara minnətdarlıq əvəzinə onun qarşısında lovğalanır. Hatta meyvə gətirəcəyi ilə də öyünür. Çinar isə ona gülüb deyir, Hünər məlum olar xəzan əsən də.

Əsər şairin tərbiyəvi-əxlaqi fikri ilə tamamlanır,

Güman etdi o bir fərmanpəvadır,

Bilmədi ki, yazıq fəqət gədadır.

"Qurd və ilbiz" təmsilində də yersiz lovğalıq, təkəbbürlülük və onun acı nəticəsi ilə bitən sonluq təsvir olunur.

Bir gün gözlənilmədən fələk yenə öz oyununu davam etdirir. Külək qopur Alma budağından yerə düşür. İçindəki Qurd da yerə dəyir. Qurd qorxub ah-nalə çəkir. Sağ qaldığını görüb ətrafa sakitcə nəzər salır, qəhramanam, küləyin, tufanın gücü çatmaz mənə deyərək öyünür. Lazımlı olduğu üçün Allah məni ölümdən qurtardı deyə lovğalanır Yaxınında olan bir İlbizin ona baxdığını görüb daha da lovğalanır. Almanın üstünə qalxır, dikəlib İlbizi səsləyərək deyir ki, Minarəyəm mən Yaxın gəl, ta sayəmdə qorunarsan küləkdən ilbiz isə lovğalanan Qurdu təəcüblə süzür. Birdən yenidən güclü külək əsərək Ağacdan bir almanı yerə salır. Alma düz Qurdun başına düşür, Qurd əzilib həyata əlvida deyir. Hava sakitləşəndə yuvasından çıxan İlbiz Qurdun aqibətini görüb deyir:

Budur şöhrətin sonu,

Yersiz öyünmə, qürür məhv etdi, axır onu.

"**Eşşək və Bülbül"** təmsilində cəhalət, gerilik, yaxşı ilə pisi ayıra bilməyən insanlar tənqid olunur. Eşşək belələrinin ümumiləşdirilmiş tipik obrazıdır. Eşşəklə bağlı xalq deyimləri də mövcuddur.

Bülbülü görən Eşşək onun tərifini eşitməsinə baxmayaraq qəlbində bir şübhə qaldığını söyləyir. Şəxsən onu eşitməsi üçün oxumasını istəyir ki, qəlbi şad olub, feyz alsın. Eşşəyin sözünü qəbul edən Bülbül oxuyur. Eşşək onu dinləyib təəssüf hissini bildirir. Səhərlərin qızı Xoruzun ondan yaxşı oxuduğunu, ürəyini şad etdiyini, onun isə tərifinin cəfəngiyat olduğunu, Xoruzun ondan təlim almadığına sevindiyini söyləyir.

Bülbül

Xoşdur sənə həmişə nəfir!

Ləhni-sövtim edər cahana əsər,

Sənə təsir etmədi, ey xər?! –

Səsim aləmə, bütün cahana xoş gəldiyi halda sənə təsir etməz. Çünki, sən eşşəksən, uzunqulaqsan, qanmazsan – deyib onu tərk edir. Bu təmsil şairin ideya baxımından "Nöqsan axtaranlar" mənzum hekayəsi ilə səsləşir.

Göründüyü kimi A. Bakıxanov özündən sonrakı dövrlərdə də elmi ədəbi fəaliyyəti ilə dərin iz qoyub. Müasir ruhlu, düşüncəli ədib XIX əsrin II yarısı Azərbaycan ədəbiyyatında realist-demokratik, maarifçi cərəyanının ilk nümayəndələrindən biri, görkəmli mütəfəkkir M. F. Axundovun şərəfli sələfidir.

A. Bakıxanovun pedaqoji və etika məsələlərinə aid əsərləri, dərsliyi, əxlaqi-tərbiyəvi fikirləri, öyüd və nəsihətləri və habelə bütövlükdə bu dəyərlərin məcmusunu özündə ehtiva edən mənzum hekayələri, təmsiləri və s. bu gün də, sabah da uşaq ədəbiyyatının inkişafında bir örnəkdir.

Ədəbiyyat

1.Abbasquluağa Bakıxanov Qüdsi. Seçilmiş əsərləri. Bakı, "Yazıçı" 1984.

2.Abbasquluağa Bakıxanov. Seçilmiş əsərləri. Bakı, "Avrasiya press" 2005.

3. Bilal Həsənli. Azərbaycan uşaq ədəbiyyatı. Bakı, "Müəllim" 2015.

4. Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər). III cilddə. I cild. Bakı, "Nasir" 2001.

5. Şöhrət Məmmədova. Azərbaycan uşaq ədəbiyyatı antalogiyası.III cilddə.I cild. Bakı, "ADPU" 2018

İKİNCİ QARABAĞ MÜHARİBƏSİ: AZƏRBAYCAN- TÜRKİYƏ ƏLAQƏLƏRİNDƏ YENİ MƏRHƏLƏNİN BAŞLANĞICI

THE SECOND KARABAKH WAR: THE BEGINNING OF A NEW PHASE IN AZERBAIJAN-TURKEY RELATIONS

Mətanət MƏMMƏDOVA

Bakı Dövlət Universiteti

Tarix üzrə fəlsəfə doktoru, dosent

Şəhla MƏHYƏDDİNLİ

Bakı Dövlət Universiteti

Tarix fakültəsi, bakalavr, IV kurs

Eyni irq, dil, din və tarixi paylaşan Azərbaycan və Türkiyə tarixi köklərə söykənən etnik, siyasi və mədəni əlaqələrə malikdir. Əvvəllər Sovet Sosialist Respublikaları İttifaqının tərkibində olan, həmin dövlətin zəifləməsi ilə, 1980-ci illərin sonlarından Milli Azadlıq Hərəkatına başlayan və nəhayət 1991-ci il oktyabrın 18-də müstəqilliyinə yenidən qovuşan Azərbaycan Respublikasını ilk tanıyan, həmçinin onun ən böyük dəstəkçisi, heç şübhəsiz, Türkiyə Cümhuriyyətidir. Bu dəstək, qarşılıqlı əlaqələr, müstəqilliyini elan etdiyi ilk günlərdən etibarən Ermənistanın işğalçılıq siyasətinə məruz qalan, bununla da Dağlıq Qarabağın və 7 rayonun itirilməsi ilə nəticələndikdən sonra daha da artmışdır. BMT Təhlükəsizlik Şurasının bu işğalı pisləyən 4 qətnaməsi qəbul edilsə də, onlara əməl edilməmiş, Ermənistan Respublikası işğalçılıq siyasətini davam etdirmişdir. Ermənistan tərəfinin 27 sentyabr 2020-ci il tarixində başlatdığı hücum əməliyyatı 2020-ci il noyabrın 10-dək davam edən İkinci Qarabağ müharibəsinə səbəb olmuşdur. 44 gün davam edən müharibə Azərbaycan tərəfinin tarixi qələbəsi ilə başa çatmış və işğal altında olan ərazilərin mühüm hissəsi işğaldan azad edilmişdir. Hərbi əməliyyatların ilk günlərindən Azərbaycanın ədalətli mübarizəsində dəstəkləmiş Türkiyə, ona siyasi, hərbi və diplomatik yardımlar göstərmişdir və bu, müharibədə qələbənin əldə olunmasında xüsusi rol oynamışdır. Bu müharibə hər iki dövləti bir-birinə daha da yaxınlaşdırmışdır. Bunun nəticəsidir ki, müharibə başa çatdıqdan sonra Azərbaycan və Türkiyə dövlətləri arasında hər cür əlaqələr daha da inkişaf etmiş, müxtəlif protokollar, "Şuşa Bəyannaməsi" (15 iyun 2021-ci il) kimi mühüm sənədlər imzalanmış və geniş miqyaslı birgə layihələrə imza atılmışdır. Qeyd edilənlər Ümummilli lider Heydər Əliyevin "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir" və böyük Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" ifadələrinin doğruluğunu bir daha təsdiq edir. Məqalədə İkinci Qarabağ Müharibəsi gedişində Azərbaycan-Türkiyə əməkdaşlığının bütün sahələrdəki əlaqələrindən, onların Kütləvi İnformasiya Vasitələrində işıqlandırılmasından və bugünkü zamana qədər yeni müstəvidə davam etməsindən bəhs ediləcək, müqayisəli-tarixi metod əsasında hər iki dövlətin imzaladığı tarixi sənədlərdən, onların əhəmiyyətindən danışılacaqdır.

Açar sözlər: Azərbaycan, Türkiyə, Qarabağ, Müharibə, Regional Təhlükəsizlik

Sharing the same race, language, religion and history, Azerbaijan and Turkey have ethnic, political and cultural ties based on historical roots. The Republic of Azerbaijan, which was formerly part of the Union of Soviet Socialist Republics, started the National Liberation Movement in the late 1980s with the weakening of that state, and finally regained its independence on October 18, 1991,was firstly recognized and supported undoubtedly by the Republic of Turkey. This support and mutual relations increased even more during subjection to occupation policy of Armenia from the first days of its decleration of independence, which resulted in the loss of Nogorno-Karabakh and 7 regions. Althought 4 resolutions of the UN Security Council condemning this occupation were adopted, they were not followed, and the Republic of Armenian side on September 27, 2020 led to the Second Karabakh War, which continued until November 10, 2020. The 44-day war ended with the historic victory of the

Azerbaijan side, and an important part of the occupied territories were liberated. Turkey, which supported Azerbaijan in its struggle from the first days of military operations, provided political, military and diplomatic assistance to it, and this played a special role in celebrating the victory in the war. This war made both countries come closer to each other. As a result of this, after the end of the war, all kinds of relations between the stsates of Azerbaijan and Turkey have further developed, various protocols, important documents such as the "Shusha Declaration"(June 15, 2021) have been signed, and large-scale joint projects have been signed. Aforementioned confirms the truth of Heydar Aliyev's "Azerbaijan and Turkey are one nation, two states" and great leader Mustafa Kamal Ataturk's statements, "Azerbaijan's joy is our joy, its sorrow is our sorrow". In the article, Azerbaijan-Turkey cooperation in all fields during the Second Karabakh War, their coverage in the Mass Media and their continuation at a new level until today, signed historical documents by both states and their importance will be discussed which based on the comporative-historical method.

Keywords: Azerbaijan, Turkey, Karabakh, War, Regional security.

Giriş

Azərbaycanın xarici siyasətində xüsusi yer tutan Türkiyə Respublikası dostluq və qardaşlıq siyasəti çərçivəsində hər zaman Azərbaycanın yanında olmuşdur. Azərbaycan Respublikası müstəqilliyinə yenidən qovuşduqdan sonra müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanması, Qarabağ probleminin həll edilməsi, Beynəlxalq qurumlarla inteqrasiya, həmçinin, bazar iqtisadiyyatına keçid Respublika qarşısında duran ən başlıca, təməl istiqamətlər sırasında idi. Bütün bunların həyata keçirilməsində Türkiyə Respublikasının rolu inkar edilməzdir və daha sonrakı mərhələdə həyata keçirilən işlər bu yaxınlığı strateji tərəfdaşlıq səviyyəsinə çatdırmışdır. Bu vəziyyət sosial, iqtisadi və siyasi sahədə öz təsirini göstərmiş və iki ölkə ortaq hərəkət edərək bölgə siyasətinə istiqamət vermişdir. Türkiyə-Azərbaycan əlaqələrində ara-sıra gərginliklər də yaşanmışdır ki, bu Türkiyə-Ermənistan yaxınlaşmasında özünü açıq olaraq göstərmişdir. Türkiyə və Ermənistan arasında imzalanan protokollar Azərbaycan-Türkiyə əlaqələrinin gərilməsinə səbəb olsa da, ümumilikdə, Azərbaycan-Türkiyə əlaqələri dostluq və sülh içərisində olmuşdur. Azərbaycan Prezidenti İlham Əliyev 2014-cü ildə Aİ-nin Şərq Tərəfdaşlığı Sammitində Ermənistan prezidentinin Türkiyəyə qarşı çıxışına cavab olaraq, "Burda Türkiyə yoxdur, amma mən varam" dedi və onu susdurdu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da 2021-ci ilin iyun ayında Milli Məclisdə çıxışı zamanı bəyan etdi ki, "Türkiyə həm dövlət, həm də millət olaraq bütün qəlbi ilə Azərbaycanın yanındadır". Bütün bunlar birliyimizin göstəricisidir. Bu əlaqələrin möhkəmliyinin ən bariz nümunəsi uzun zaman öncə, XX yüzilliyin əvvəllərindən başlayaraq hökm sürən Qarabağ problemində də özünü göstərmişdir. Hələ Birinci Qarabağ müharibəsində Azərbaycana yardımlar etmiş, Kəlbəcərin Ermənistan tərəfindən işğalına cavab olaraq sərhədlərini həmin dövlətə bağlamış Türkiyə, Azərbaycana dəstəyini bir daha nümayiş etdirmişdir. Birinci Qarabağ müharibəsi 1994-cü il Bişkek sazişi ilə başa çatmışdır. Birinci Qarabağ müharibəsinin üzərindən illər keçməsinə baxmayaraq, BMT Təhlükəsizlik Şurası və problemin həll edilməsi üçün yaradılan ATƏT-in Minsk qrupu disfunksiyalı qalmışdır. Ermənistanın irredentist siyasətini davam etdirməsi Azərbaycanın 2010-cu ildə Qarabağ probeminin həll edilməsi yolunda hərbi, siyasi və diplomatik, bütün yollara baş vuracağını özündə ehtiva edən hərbi doktrina qəbul etməsi ilə nəticələnmişdir. Lakin işğalçı siyasətini davam etdirən Ermənistanla Azərbaycan arasında münasibət daha da gərginləşmiş və bu 2016-cı ildə silahlı qarşıdurmaya səbəb olmuşdur. "Aprel döyüşləri"kimi tarixə düşən bu münaqişə nəticəsində strateji əhəmiyyət kəsb edən 3 yüksəklik və 2 kənd, xüsusi əhəmiyyət kəsb edən yollar işğaldan azad edilmişdir. Bu isə Azərbaycanın işğal altında olan ərazilərini hərbi yolla azad edə biləcəyinin göstəricisi idi. 2018-ci ildə Ermənistanda iqtidara gələn Nikol Paşinyan Azərbaycana qarşı təxribatçı və təcavüzkar siyasəti davam etdirmişdir. Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması ilə çıxış etməsinə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsilə qarşılıq vermişdir. Ermənistanın belə təxribatçı hərəkətləri iki ölkə arasında gərginliyin daha da artmasına, nəhayətində 44 gün davam etmiş İkinci Qarabağ Müharibəsinə səbəb olmuşdur. Hərbi əməliyyatların Ermənistan tərəfindən başladılması Azərbaycanın müharibəyə daxil olmasına qanuni zəmin yaratmışdır. BMT Təhlükəsizlik Şurası və ATƏT-in Minsk qrupunun işğal üzərindən illər keçməsinə baxmayaraq problemin həlllində nəticəsiz qalması və alınan qərarların həyata keçirilməməsi

Qarabağ probleminin diplomatik yollarla həll edilməsinin mümkünsüzlüyünü ortaya qoymuşdur. Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilan kimi strateji əhəmiyyət kəsb edən rayonlar və onlara aid olan kəndlər işğaldan azad edilmişdir. Qarabağ ərazisində xüsusi rolu olan və Qarabağın döyünən ürəyi hesab edilən Şuşa şəhərinin işğaldan azad edilməsi Rəsmi İrəvanı məğlubiyyəti qəbul etməyə məcbur etmişdir. İkinci Qarabağ müharibəsi Azərbaycan Respublikası Prezidenti İlham Əliyev, Ermənistan Baş Naziri Nikol Paşinyan və Rusiya Federasiyası Prezidenti Vladimir Putin tərəfindən imzalanan 10 noyabr 2020-ci il Bəyanatı ilə Azərbaycanın tarixi qələbəsilə başa çatmışdır. Müharibə gedişində, həmçinin qələbənin əldə edilməsində Türkiyə istehsalı Pilotsuz Uçuş Aparatlarının və digər hərbi avadanlıq və texnikalardan istifadənin xüsusi təsiri olmuşdur. Bu qələbə nəticəsində 30 ilə yaxın bir müddətdə düşmən tapdağı altında olan torpaqların təxminən 80 %-i işğaldan azad edilmişdir. İkinci Qarabağ müharibəsi iki ölkə arasında möhkəm təməllərə söykənən əlaqələri fərqli bir məcraya daşımışdır. Müasir dövrdə Azərbaycanın etibarlı strateji tərəfdaşı olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan dövlətinin xarici siyasətinin çox mühüm tərkib hissəsidir. Tarixi köklərə və qardaşlığa söykənən, hər zaman həmrəylik nümayiş etdirən Azərbaycan və Türkiyə arasında əlaqələr siyasi, iqtisadi-ticari, humanitar, hərbi və s. bütün sahələrdə çox uğurla inkişaf etməkdədir. İki dövlətin rəhbərlərinin müntəzəm xarakter almış qarşılıqlı səfərləri ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın inkişafında əhəmiyyətli rol oynamaqda və müsbət nəticələr verməkdədir.

– “*vermək, uzatmaq, irəli uzadıb vermək, təqdim etmək*” mənalarında işlənmişdir; bu feil “Kitabi-Dədə Qorqud”dan başlayaraq XVIII əsrə qədər ədəbi dildə işlənmişdir. Hal-hazırda Qərbi Azərbaycan dialekt və şivələrində məhdud şəkildə işlənsə də, tarixən ədəbi dildə yüksək işlənmə tezliyinə malik olmuşdur. S.E.Malov kitabının lüğət hissəsində *sunmaq* feilini *“vermək, əlini uzadaraq vermək”* mənasında izah etmişdir (3, səh.423). “Qədim türk lüğəti”ndə *sunmaq* feili “*əlini uzadıb vermək: kedinki qadahqa sunup zähr qatar – növbəti qədəhi uzadaraq zəhər əlavə etdi; kiši utruqï ašqa sunma ęlig – başqa adamın önündəki yeməyə əl uzatma”* (4, səh.514) kimi izah olunur. M.Kaşğari bu feillə əlaqədar *“ol manqa ətmək sundı – o mənə çörək təqdim etdi, verdi”* (5, II, səh.55) nümunəsini vermişdir. *Sunmaq* feilinin *“vermək, uzatmaq, əlini vermək”* mənalarında uyğur, karaim, altay, teleut, lebedin, qırğız, koman, şor, türk, Krım tatarları və b. dillərdə işləndiyi (6, səh.762; IV, səh.538,590) də qeyd olunur. N.Namazov *sunmaq* feilini “həm müasir Azərbaycan ədəbi dili, həm də canlı danışıq dili üçün tamam arxaikləşmişdir” (7, səh.63-64) kimi xarakterizə etmişdir. Lakin bu feilin, məhdud şəkildə də olsa, işləndiyini müşahidə etdik. Qədim türk dilində, klassik Azərbaycan poeziyasında geniş şəkildə işlənməsinə baxmayaraq, bu feil müasir ədəbi dildə tamamilə arxaikləşmiş, dialekt və şivələrdə də işləklikdən çıxmışdır, yalnız Göyçə dialektinin Çəmbərək şivəsində məhdud şəkildə işlənməkdədir.

Təpməx` feili İrəvan, Zəngəzur dialektlərində *“irəli soxulmaq”* mənasında işlənir; məs.: *Hara təpirsən öznü, görmürsən yermiz yoxdu?* (Ved.)*; Şəkil öznü irəli təpdi ki, ona da pay düşsün* (Zəngib.)*; So:xdan evə təpildilər hamsı* (Üçk.). Bu feil Dərələyəz dialektində *təpilmək* fonovariantında işlənir. Göyçə dialektində “*acgözlüklə yemək, udmaq*” mənasında *gözünə təpmək* ifadəsi intensiv işlənir. Bundan əlavə, həmin dialektdə “*vurub uzaqlaşdırmaq*” mənasında *balasını təpmək* ifadəsi işləkliyinə görə seçilir; məs.: *Ayı potasını təpdi* (Çəm.).

Bu feil tarixən ədəbi dildə “Kitabi-Dədə Qorqud” dastanında intensiv işlənmişdir: *“Ana haqqı-Taŋrı haqqı” deŋilməsəydi, qalqubanı yerimdən duraydım, yaqaŋla boğazıŋdan tutaydım, qaba ökcəm altına salaydım, ağ yüzüŋi qara yerə* ***dəpəydim****, ağzuŋ ilə burnuŋdan qan şorladaydım, can datlusın saŋa göstərəydim!* (1, səh.45); *Cılasun yigitləriylə Qarabudaq sola* ***dəpdi*** (1, səh.93);

Naxçıvan şivələrində *təpilməx* feili *“soxulmaq”* mənasındadır: *“Belə hiss elədim ki, canavar bir yannan, sel də bir yannan davarı heç-piçа çıxaracaq, həm də canavar da üsdən təpiləcək qoyuna”* (8, səh.80). Dialektoloji ədəbiyyatda (9, səh.492; 10, səh.370; 11, səh.224, 12, səh.168; 13, səh.139; 14, səh.190) bu feilin Qərbi Azərbaycan şivələrində və Azərbaycan dilinin müxtəlif dialekt və şivələrində digər mənalarda işlənməsi də qeydə alınmışdır. “Qədim türk lüğəti”ndə (4, səh.552), M.Kaşğarinin (5, II, səh.33,145), V.V.Radlovun (6, III, səh.1687) lüğətlərində də bu feil qeydə alınmışdır. Yakut dilində də “*ayaqla vurmaq*” mənasında “теп” feili işlənir (15, səh.36).

Varmaq feili Ağbaba, Göyçə, Dağ Borçalısı dialektlərində işlənir, müasir ədəbi dilimiz üçün arxaikləşmiş feildir, “*getmək*” mənasını ifadə edir. Şivələrdə işlənən bu arxaik feil tam müstəqil işlənə bilmək xüsusiyyətini bir qədər itirdiyi üçün mürəkkəb feillərin tərkib hissəsi kimi, çox zaman *getmək* feili ilə qoşa şəkildə işlənir; məs.: *Varıf gedirəm, gəlməssən özüŋ bilərsəŋ* (Çəm.)*; Vardı getdi işiniŋ dalıncax* (All.). Linqvisik ədəbiyyatda da (16, səh.24,100,123; 10, səh.399; 11, səh.234 və s.) bu feil eyni mənada qeydə alınmışdır. *Varmaq* feili də klassik bədii örnəklərdə, o cümlədən “Kitabi-Dədə Qorqud”da çox geniş şəkildə işlənmişdir: *Əvvəl yigirmisi* ***vardı****, Dirsə xana bu xəbəri gətürdi* (1, səh.28); *Dəxi kəndüsi tavla-tavla atlarına* ***vardı*** (1, səh.60); Bu feil digər türk dillərində və onların ayrı-ayrı dialektlərində də işlənir. Eyni mənada, ***ƀa:p/va:r*** variantında uyğur dialektlərində; ***ƀap-/bar-*** variantında türkmən, krım tatarları, karaim dillərində, karaim dilinin trakay və qalis dialektlərində, qumıq, balkar, qaraçay-bolqar, qırğız, qazax, noqay, qaraqalpaq, tatar, başqırd, özbək, uyğur, lobnor, altay dillərində, xakas dilinin koybal dialektində; ***vār-*** variantında türk dialektlərində; ***ƀap-/var-*** variantında türk, qaqauz, sarı uyğur, altay, tuva, yakut, çuvaş (17, səh.64-65) dillərində və onların ayrı-ayrı dialektlərində işlənir. D.Q.Tumaşeva barabin tatarlarının şivəsində də *varmaq* feilinin işləndiyinə aid misallar vermişdir, lakin bu şivədə *varmaq* feili *paarmaq* fonovariantında işlənir: “*нараты> нарыты> наа`ртыı – o gedir. Məsələn: Ķalaй наартыŋ? – Hara gedirsən?; Отысынцы йылны нарганым – Mən otuzuncu ildə getmişdim*” (18, səh. 68,70). N.A.Baskakovun topladığı şifahi xalq ədəbiyyatı nümunələrində altay (oyrot) dilinin tuba-kiji dialektlərində *varmaq* feilinin işləndiyinə rast gəlirik: *«Йанъыс налам анда барып өлөр болор. (Mənim yeganə oğlum, yəqin gedib orda ölər.)»* (19, səh.17). Karaim dilində *бардыŋ* feili “*getdin*” (20, səh.235) mənasındadır. N.Z.Hacıyeva türkmən dilinin çovdur dialektində

varmaq feilinin işləndiyini qeyd edir, bu dialektdə həmin feil *barmaq* fonovariantında işlənir: "baradır – o gedir" (21, səh.172).

A.M.Şerbak da *varmaq* feilini *barmaq* fonovariantında qeydə alaraq *"getmək"* mənasında izah etmişdir: "*bardïŋ* "*getdin*" və *bardïŋïz* "*getdiniz*"" (22, səh.124). L.A.Pokrovskaya qaqauz dilində *varmaq* feilinin *getmək* mənasında işləndiyini göstərir: "*Kapakupda da вapacын, Истеduu рuба гuйäсuн – Qaraqurda gedəsən, İstədiyin geyimi geyəsən*" (23, səh.211). Yakut dilində də *bar* (15, səh.31) feili işlənir. Qədim türk yazılı abidələrində də bu feil "*getmək*" mənasında işlənmişdir: *"Ol yirgärü* ***barsar****, türk bodun, öltäçisän (tərcüməsi: türk xalqı, o yerə (tərəf) getsən məhv olacaqsan)"* (24, səh.188).

Yortmaq feili Ağbaba, Göyçə dialektlərində *"getmək, iti yerişlə getmək, sürətlə hərəkət etmək, at sürmək"* mənalarında işlənir; məs.: *Pütünnü günü yüyürür-yortur bizim qız orda, sağol deən də yoxdu* (Çəm.)*; Yortuf gəlif kin, iş bilmişəm* (Ağb.). Dialektoloji ədəbiyyatda bu feillə bağlı nümunələrə rast gəlirik: "*Ay bajı, ildən-iləyə bey-beyvax yüyürürəm-yorturam, qəzrim yox, qiymətim yox; Qərəmçə (həmişə) yüyürrüf-yortuf Zalı malıŋ dalıncan; Alı, həmeyşə yüyrersıŋ-yortorsıŋ* (2, səh.172); *Binnət at minməx`dən ötrüm ölür, hər gün at yortur* (11, səh.243)". Nümunələrdən də göründüyü kimi, bu feil bir çox hallarda *yüyürmək* feili ilə birgə işlənir. Lakin dilimizin qədim yazılı abidələrini araşdırdıqda görürük ki, *yortmaq* feili vaxtı ilə təklikdə, həm də məhsuldar şəkildə işlənmişdir; məs.: *Qırq yigidin boyına aldı, babasınıŋ ardınca* ***yortub*** *getdi* (1, səh.34); *Gəldügi yolı əlinə alub* ***yortdı*** (1, səh.87); *At üstündə əglənməyib* ***yortan****, Qazan, sənin beliŋ olmuş* (1, səh.92); *Atası-anası: "****Yort****, oğul! Uğuruŋ açıq olsun, sağ-əsən varub gələsən, gələcəgiŋ varsa!" – dedilər* (1, səh.149);

V.V.Radlovun (6, IV, səh.97; III, səh.423,427) lüğətlərində *yortuş, yorıt, yort* fonovariantlarında qeydə alınaraq, "*getməyə məcbur etmək*", "*getməyə icazə vermək*", "*sürətli addımlarla getmək, sürətlə getmək, çapmaq*" mənalarında izah olunmuşdur.

Qərbi Azərbaycan dialekt və şivələrinin əksəriyyətində (Göyçə, Dərələyəz, Ağbaba, İrəvan və b.) işlənən ***qaŋrılmax*** feili *"geriyə çevrilmək, dönmək"* mənasını ifadə edir; məs.: ***Qaŋrıla*** *bilmirəm, belim tutup* (Dər.)*; Geryə* ***qaŋrılanda*** *dədəmi gördüm, bağrım yarıldı* (Gərn.). Bu feil tarixən ədəbi dildə məhsuldar şəkildə işlənməmişdir: ***Qanrıluban*** *baqışıŋdan, ağam Beyrəgə bəŋzədürəm, ozan, səni!* (1, səh.70). Dastanın dilində də *qanrılmaq* feili eyni mənanı ifadə edir.

Qeyd edək ki, Qərbi Azərbaycan şivələrində bu feillə eyni kökdən olan *qaŋırmax* feili də işlənir, *"burmaq, əyib qatlamaq, arxaya əyib burmaq"* mənalarını ifadə edir, lakin həmin feilə ədəbi dil materiallarında rast gəlinmir. *Qaŋrılmax* feilinin həm Qazax, Tovuz, İmişli dialekt və şivələrində (9, səh.276-277), həm də Qərbi Azərbaycan şivələrində (11, səh.144; 10, səh.227; 12, səh.104) işlənməsi dialektoloji ədəbiyyatda da qeydə alınmışdır. "Qədim türk lüğəti"ndə bu feil *"tərpənmək, laxlamaq, burulub düşmək"* (4,səh.456), M.Kaşğarinin lüğətində *"burub qoparmaq"* (5,III,səh.340), V.V.Radlovun lüğətində *"rədd etmək, geriyə göndərmək"* (6,II,səh.83) mənalarında izah olunmuşdur.

Siŋməx` feili Ağbaba, İrəvan, Göyçə dialektlərində *"aşağı əyilmək, oturmaq, gözə dəyməmək, gizlənmək üçün aşağı əyilmək"* mənasını ifadə edir; məs.: *Aşağı* ***siŋdim*** *kin, heşkim görməsin* (Ağb.)*; Damıŋ arxasında yerə* ***siŋif*** *tülküyü gözətdədi* (Çəm.). Yazılı ədəbiyyatda az hallarda işlənmişdir: *Köpək Qazanıŋ atınıŋ ayağına çap-çap düşər, siŋ-siŋ* ***siŋlər*** (1, səh.42);

"Azərbaycan dilinin dialektoloji lüğəti"ndə bu feil aşağıdakı mənalarda izah olunmuşdur: "Sinməx` (Ağdam, Gədəbəy, Şəmkir, Tərtər, Tovuz) – 1. gizlənmək məqsədilə aşağı əyilmək; 2. qısılmaq. – *Dədəm gəlir, aşağı siŋ; - Canavar kirimiş gələr, siŋər sürünün qava:na* (Şəmkir); - *Oye:dəndə qavaxcan bərələrə siŋerix`, elə kin qavağımıza çıxer cü:r, əlvəsa:t çəkerix` çaxmağı* (Gədəbəy); - *Ə:, şağı siŋ, Mirzəli gəldi* (Tərtər); - *Bu, barının divinə siŋer* (Tovuz)" (9, səh.439). Qərbi Azərbaycan şivələrinə aid lüğətlərdə (10, səh.333; 12, səh.152; 11, səh.206) də həmin mənalarda izah olunmuşdur. Azərbaycan dilinin qərb qrupu dialekt və şivələrində, daha dəqiqi Qazax rayonunun Muğanlı kəndində ***sıŋer-sıŋer*** ifadəsi işlənir ki, mənası *"gizlənə-gizlənə"* deməkdir: *"Alabaxda sıŋer-sıŋer qaçer"* (25, səh.236). Dialekt tələffüzünə uyğun olaraq, i~ı səsdəyişməsi baş vermişdir: siŋ~ sıŋ.

"Qədim türk lüğəti"ndə *siŋ* feili dörd mənada izah olunmuşdur, qeyd edək ki, *siŋmək* feili Qərbi Azərbaycan şivələrində həmin mənalarda da işlənir: ürəyə siŋmək – ürəyə yatmaq mənasında; siŋmək//siŋirmək – yeməyin həzm olunması mənasında; gizlənmək, gözdən yayınmaq mənasında – *ördək qamišqa siŋdi – ördək qamışlıqda gizləndi* (4, səh.500).

Bu feillə bağlı M.Kaşğarinin lüğətində belə bir məlumat verilmişdir: "ördək kamışka sinqdi = ördək qamışın, çör-çöpün arxasına girərək gizləndi (bir adam ev yiyəsindən xəbərsiz onun evinə və ya başqa bir yerə girib gizlənsə, yenə belə deyilir) (5,III, səh.339); ol anı əvgə sinqdürdi = o, onu evdə gizlətdi (5,III, səh.345). V.V.Radlovun lüğətində də (6, I, səh.686,693) həmin mənalarda izah olunmuşdur. Yakut dilində *сын* "*qarnı üstdə sürünmək*" mənasındadır (15, səh.31,37).

Çovmax feili İrəvan şivəsində *"o tərəfə - bu tərəfə qaçmaq, dayanmadan çalışmaq",* Ağbaba, Zəngəzur dialektlərində *çavımax* fonovariantında *"özünü oda-közə vurmaq, əlləşib-vuruşmaq, çox işləmək"* mənasında işlənir; məs.: *Qızım gejdən durub pütün günü çovur, baldızı genə də narazıdı* (Ved.)*; Xanı kişi uxartana çavır ki, heyi qalmer* (Meğ.). Göyçə (Çəmbərək) şivəsində isə bir qədər fərqli mənada, *"güllənin maneəyə dəyib yan keçməsi"* mənasında *çovumax* fonovariantında işlənir. Bu feil ədəbi dildə tarixən çox az işlənmişdir: *Kafirlər Uruzuŋ üzərinə* ***çovuxdu*** (1,səh.83). Dastanda *çovuxmax* feili *"düşmək, üstünə düşmək, üstünə tökülüşmək, hər tərəfdən qaçıb üstünə tökülüşmək"* mənalarında işlənmişdir. Ədəbi dilin sonrakı mərhələlərində bu feilə, şivələrdə olduğu kimi, *çovmaq* variantında rast gəlirik; məs.: *Bir igidin dövlət-varı olmasa, Yeləksiz ox kimi* ***çovar*** *deyərlər* (26,s.268). Bu nümunədə *çovmax* feili eyni fonosemantika ilə işlənmişdir. Dialektoloji ədəbiyyatda (10, səh.109; 11, səh.54) da qeydə alınmış bu feil nə tarixən, nə də müasir dövrdə məhsuldar olmamışdır.

Dəbərtməx`*** feili Ağbaba dialektində "*yerindən oynatmaq, tərpətmək*" mənasında işlənir; məs.: *Həx` verdilər, amba daşı* ***dəbərtməx`*** *mümkün olmadı* (Ağb.). İrəvan şivəsində *dəbərməx`, dəbələmməx`* şəklində işlənən bu feil "*tərpənmək, yavaşca hərəkət etmək*" və "*eşələnmək*" mənalarını ifadə edir; məs.: *A gədə,* ***dəbələmmə *day* (Əşt.). Ədəbi dildə məhsuldar olmayan bu feil "Kitabi-Dədə Qorqud" dastanlarında işlənmişdir: *Sancubanı yerə çaldı,* ***dəbərtmədin*** *başın kəsdi* (1, səh.93). Dastanın dilində bu feil Ağbaba dialektində hal-hazırda işlənən fonosemantika ilə işlənmişdir. "Oğuznamə"nin dilində də eyni mənadadır: *Acla işləmə, toqla* ***dəbərtmə*** (27, səh.41).

Yasdanmax feili İrəvan dialektində işlənir və *"işini-gücünü atıb haradasa boş-boşuna oturmaq"* mənasını ifadə edir; məs.: *Yasdanıb qalıb dədəsi əvində* (Ved.). Dialektoloji ədəbiyyatda bu feilin Cəbrayıl şivəsində *"oturub qalmaq"* (9, səh.542), Qərbi Azərbaycan şivələrində *"sərələnib uzanmaq"* (12, səh.183; 10, səh.409) mənalarında işləndiyi qeydə alınmışdır. Bədii örnəklərdə bu feilə kifayət qədər rast gəlmək olur: ***Yastanıban*** *üzərinə yanı yetdi* (1,səh.64); Ədəbi dildə *yastanmaq// yasdanmaq// yaslanmaq* fonovariantlarında, lakin eyni semantika ilə işlənən bu feil yüksək işlənmə tezliyinə malik olmuşdur. S.Əliyeva *yastanmaq* feili barədə yazır: "Yastanmaq feilinin kökünün müasir ədəbi dilimizdə və xalq dilində ümumişlək sözlərdən olan yastıq sözünün kökündə (yas-) öz qədim izini saxlaması ehtimalı da ola bilər" (28, səh.221). M.Cavadova *yastanmaq* feilini Ş.İ.Xətainin dilində "qıvrılmış vəziyyətdə uzanmaq" kimi izah edir, bu sözün ümumxalq dilində "yastana-yastana gəzmək" ifadəsinin tərkibində qaldığını qeyd edir (29, səh.96).

M.Kaşğari (5,III, səh.271) bu feili *yasta* fonovariantında qeydə almış, "Qədim türk lüğəti"ndə *yasta, yastal* və *yastan* variantlarında verilmişdir: *"jasma – söykəmək, qoymaq: ol aŋar jastuq jastadï – o, ona yastıq qoydu; jasman – söykənmək, qoymaq: čögäsin töšänmiš jiŋin jastanur – o, çuxasını öz altına sərdi və onun qolunu öz altına qoydu* (4, səh.245). Bu feili V.V.Radlov: *"jacmaн – nəyisə yastıq kimi istifadə etmək, nəyisə başın altına qoymaq, yastığa dirsəklənmək, söykənmək"* (6, IV, səh.50; III, səh.222); L.Budaqov *yastanmaq* "*başın altına nə isə qoymaq, yastığa dirsəklənmək, söykənmək, yatmağa meyillənmək*" (30, səh.329-330) kimi izah etmişlər. S.E.Malov (3, səh.386) da bu feili təxminən həmin mənalarda izah etmişdir.

Yayxammax feili Ağbaba, Göyçə, İrəvan dialektlərində işlənərək *"rahat oturmaq, ayaqlarını geniş açaraq oturmaq"* mənasını ifadə edir; məs.: *Savahdan* ***yayxanıb*** *otudu, bir işin sahıbı olmadı* (Əşt.). Tarixən ədəbi dildə bu feil məhsuldar olmamış, az-az hallarda işlənmiş, *"yaxalanmaq, çalxalanmaq"* mənasını ifadə etmişdir: ***Yayqandığında*** *yağ dökülən bol nemətlü!* (1, səh.71). *Yayxammax* feili Oğuz şivəsində *"lovğalanmaq"* (9, səh.543) mənasında işlənir.

Sığamax feili Göyçə və Zəngəzur dialektlərində *"əl ilə möhkəm-möhkəm, bərk formada sığallamaq"* mənasında işlənir: *Sən qolumu sığadın deyin arğısı azaldı* (Qaf.). Həmçinin, *sığamax* feili ilə eyni kökdən olan *sığarramax* feili İrəvan dialektinin İrəvan, Üçkilsə, Vedibasar, Zəngibasar şivələrində *"sığallaya-sığallaya ovuşdurmaq"* mənasında işləkdir. Linqvistik ədəbiyyatda (10, səh.326) da qeydə alınan bu feil tarixən ədəbi dildə, az da olsa, işlənmişdir: *Oğlan anda yıqıldıqda Boz atlu Xızır oğlana*

hazır oldı, üç qatla yarasın əliylə ***sığadı*** (1, səh.32); *Boz atlu Xızır maŋa gəldi, üç kərrə yaramı* ***sığadı****, "Bu yaradan saŋa ölüm yoqdur, dağ çiçəgi, anaŋ südi saŋa mərhəmdir," – dedi* (1, səh.33);

Çalmax feili Göyçə, İrəvan dialektlərində "*vurmaq, döymək, incitmək*" mənalarında işlənir; məs.: *De͡ən əlindəki daşı çaldı Noyruzuŋ başna, inta:sı yaxşı görəmmədim* (Bas.); *Yanı dəlinsin, əlnə düşəni çaldı uşağın təpəsinə* (Zəngib.). Bundan əlavə, Qərbi Azərbaycan dialekt və şivələrində bu feil *"oğurlamaq"* (İr., Ağb., Göy.); *"qatıq çalmaq – südü mayalamaq", "ot çalmaq – otu biçmək", "mismar çalmaq – mıxlamaq"* (əks.şiv.); *"süpürmək"* (Göy.) mənalarında da işlənməkdədir. Çoxmənalı feillərin konkret bir qrupa aid edilməsi çətinlik törətsə də, biz Qərbi Azərbaycan dialekt və şivələrindəki polisemantik feillərin tarixən ədəbi dildə işlənmiş, müasir ədəbi dildə arxaikləşmiş, lakin şivələrdə işlənən mənalarını əsas götürərək, onları müəyyən qrupa aid etmişik. Bu baxımdan, *çalmaq* feilinin yuxarıda qeyd etdiyimiz mənaları olsa da və bu mənalarına görə iş feili qrupuna aid edilsə də, "*vurmaq*" mənasında həm tarixən, həm də indi işlənir və biz həmin mənanı əsas götürərək, *çalmaq* feilini hərəkət feilləri qrupuna daxil etmişik. Dərələyəz şivəsində bu feildən yaranmış *çalğı* sözü işlənir, "*iri süpürgə, həyəti süpürmək üçün süpürgə*" mənasını ifadə edir. Dialektoloji ədəbiyyatda bu feil bir neçə mənada izah olunur: *süpürmək; oğurlamaq, xəlvəti götürmək; mayalamaq (südü); döymək, vurmaq; oxşamaq, bənzəmək; eşitmək, xəbər tutmaq* (9, səh.88; 11, səh.52; 2, səh.176; 10, səh.94). R.Rüstəmov dialekt və şivələrdə bu feilin iki mənada: 1.süpürmək; 2.oğurlamaq, soymaq mənalarında işləndiyini qeyd etmişdir (16, səh.30). Lakin Qərbi Azərbaycan şivələrində, həmçinin Azərbaycan dilinin digər dialekt və şivələrində bu feilin daha geniş məna spektrinə malik olduğunu müşahidə edirik.

Bu feil klassik ədəbiyyatda – ədəbi dil nümunələrində də "*vurmaq, xəsarət yetirmək*" mənalarında işlənmişdir: *Oğlan yumruğıyla buğanıŋ alnına qıya tutub* ***çaldı*** (1, səh.27); *Dəmir qapu Dərvənddəki dəmür qapuyı dəpüb alan, altmış tutam ala göndəriniŋ ucında ər bögürdən Qıyan Selcik oğlı Dəli Dondar çapar yetdi: "****Çal*** *qılıcıŋ, ağam Qazan, yetdim!" – dedi* (1, səh.49); *Hasar qapusına girmişkən qara polat uz qılıca əŋsəsinə eylə* ***çaldı*** *kim, başı tob kibi yerə düşdi* (1, səh.123).

Çalmaq feili "Qədim türk lüğəti"ndə (4, səh.137), M.Kaşğarinin (5, II, səh.50), V.V.Radlovun (6, III, səh.1875) lüğətlərində qeydə alınmışdır. Müasir türk dilində *çalmak* feili *"vurmaq, döymək",* həmçinin *"oğurlamaq"* mənasını ifadə edir.

Çəkişməx` feili Göyçə dialektində "*dalaşmaq, döyüşmək, mübahisə edərək dalaşmaq*", həmçinin Ağbaba, Göyçə, İrəvan dialektlərində "*mərcləşmək*" mənasında işlədilir; məs.: *İkicə qardaşdılar, elə hey* ***çəkişillər****, yola gedəmmillər* (Çəm.); *Kimnən* ***çəkişsəm*** *də, həməşə mən aparıram* (Zəngib.). Tarixən ədəbi dildə işlək olmuşdur; *Buğa ilə oğlan bir həmlə* ***çəkişdilər*** (1, səh.27); *Ya Qadir Allah, birligiŋ, varlığıŋ haqqıyçun, Əzrayili mənim gözümə göstərgil, savaşayım,* ***çəkişəyim,*** *dürişəyim, - yaxşı yigidiŋ canın qurtarayım* (1, səh.95).

Savaşmax feili İrəvan dialekti üçün daha xarakterikdir; məs.: *Ərim pütün günü* ***savaşırdı*** *mənnən, yanı dəlinsin onun* (Zəngib.); *İki qonşu* ***savaşdı****, ziyannıx ma: dəydi* (Ved.). *Savaşmaq* feili tarixən ədəbi dildə də "*dalaşmaq, döyüşmək*" mənasında işlənmişdir; *Uruzuŋ üzərinə çoq* ***savaşdılar*** (1, s.83).

Yeŋməx`*** feili Ağbaba, Göyçə dialektlərində *"qalib gəlmək, udmaq"* mənalarında işlənir; məs.: *Qız yeŋdi məni, o:nçü özmə gələmmirəm* (Çəm.). Həmçinin Ağbaba dialektində *yeŋdirməx`* feili də işlədilir, "*saymaq, hörmət etmək*" anlamını ifadə edir; məs.: *Əli çörəyə çatannan heş kimi yendirmir* (Ağb). Ədəbi dildə ***yeŋməx` sözü *"qalib gəlmək, məğlub olmamaq"* mənasında işlənmişdir: *Nə oğlan* ***yenər****, nə buğa* ***yenər*** (1, s.27). Bu feil ədəbi dildə orta işlənmə tezliyinə malik olmuşdur.

Qeyd edək ki, Başkeçid, Borçalı şivələrində də ***yeŋməx`*** "*yarışda, oyunda udmaq, qalib gəlmək*" mənasını bildirir (9, səh.548). Bu feil "Qədim türk lüğəti"ndə (4, səh.256), M.Kaşğarinin (5, III, səh.339), V.V.Radlovun (6, IV, səh.69) lüğətlərində qeydə alınmışdır. Müasir Azərbaycan ədəbi dilində *yenmək* feili tam arxaikləşsə də, bu feildən yaranmış *yenilməz* (*yenilməz ordu, yenilməz batalyon*) sözü işləkdir.

Nəticə

Hal-hazırda müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş olan bu feillər vaxtilə ədəbi dilimizdə, klassik Azərbaycan ədəbiyyatında çox məhsuldar şəkildə işlənmişdir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan klassik ədəbiyyatı ədəbi dil tariximizin öyrənilməsi üçün zəngin material mənbəyidir. Klassik ədəbiyyatımızın ayrı-ayrı nümayəndələrinin bədii irsini araşdırarkən müasir Azərbaycan dili

baxımından arxaikləşmiş, işləklikdən çıxmış xeyli miqdarda leksik vahid diqqəti cəlb edir ki, bu arxaik leksik vahidlər müasir ədəbi dildə işləkliyini itirsə də, Azərbaycan dilinin dialekt və şivələrində, həmçinin tədqiq etdiyimiz Qərbi Azərbaycan şivələrində bu gün də işləkdir.

Ədəbiyyat:

1.Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Bakı, "Öndər nəşriyyat", 2004, 376 s.

2.Kərimov Ş. Azərbaycan dilinin Çənbərək və Karvansaray şivələri. Bakı, "Nurlan", 2004, 362 s.

3.Малов С.Е. Памятники древнетюркской письменности. Тексты и исследования. Изд. Академии Наук СССР, Москва-Ленинград, 1951, 447 стр.

4.Древнетюркский словарь. Л., Наука, 1969, 676 стр.

5.Kaşğari M. Divanü lüğat-it-türk. Dörd cilddə. I c., Bakı, "Ozan", 2006, 512 s.; II c., Bakı, "Ozan", 2006, 400 s.; III c., Bakı, "Ozan", 2006, 400 s.

6.Радлов В.В. Опыт словаря тюркских наречий. т.I, ч.1, СПб, 1893, 968 стр.; 1896, т.I, ч.2, 762 стр.; т.II, ч.1, СПб, 1893, 968 стр.; т.III, ч.1, СПб, 1893, 968 стр.; т.III, ч.2, СПб, 1893, 968 стр.

7.Namazov N. M.Füzulinin "Leyli və Məcnun" poemasında feillər. Filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün müdafiəyə təqdim olunmuş dissertasiya. Bakı, 1965, 201 s.

8.Əhmədov M. Naxçıvan şivələrinin lüğəti. Atalar sözləri. Bakı, "Atilla", 2001, 170 s.

9.Azərbaycan dilinin dialektoloji lüğəti, Bakı, "Şərq-Qərb", 2007, 568 s.

10.Bayramov İ. Qərbi Azərbaycan şivələrinin leksikası. Bakı, "Elm və təhsil", 2011, 440 s.

11.Bayramov A., Bayramova A. Ağbaba şivəsi sözlüyü. Sumqayıt, 2014, 280 s.

12.Ələkbərli Ə. Qərbi Azərbaycanın dialektoloji lüğəti. I kitab. İrəvan çuxuru (Vedibasar, Gərnibasar, Zəngibasar mahalları və İrəvan şəhəri). Bakı,"Ağrıdağ", 2009, 192 s.

13.Cəfərov C. Müasir Azərbaycan dili (leksikologiya, morfologiya, sintaksis məsələləri). Bakı, "Orxan", 2016, 228 s.

14.Bağırov Q. Ermənistan SSR Sisyan rayonu azəri şivələri. Filoloji elmlər namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiya. Bakı, 1966, 326 s.

15.Харитонов Л.Н. Типы глагольной основы в якутском языке. Изд. АН СССР, Москва-Ленинград, 1954, 312 стр.

16.Rüstəmov R. Müasir Azərbaycan ədəbi dili üçün arxaikləşmiş fellər. Dilçilik məcmuəsi. XVIII c., Bakı, 1963.

17.Севортян Э.В. Этимологический словарь тюркских языков. Общетюркские и межтюркские основы на букву «Б». Издательство «Наука», Москва,1978,348 стр.

18.Тумашева Д.Г. Система глагольных времен в говоре барабинских татар.

19.Баскаков Н.А. Северные диалекты Алтайского (ойротского) языка. Диалект черневых татар (туба-кижи). Москва, Издательство «Наука», 1965, 340 стр.

20.Баскаков Н.А. Введение в изучение тюркских языков. Москва, «Высшая школа», 1962, 332 стр.

21.Гаджиева Н.З. Основные пути развития синтаксического строя тюркских языков.

22.Щербак А.М. Грамматический очерк языка тюркских текстов X-XIII вв. Из Восточного Туркестана. Москва-Ленинград, Издательство Академии Наук СССР, 1961, 204 стр.

23.Покровская Л.А. Грамматика гагаузского языка. Фонетика и морфология. Москва, Издательство «Наука», 1964, 298 стр.

24.Xudiyev N. Qədim türk yazılı abidələrinin dili. Bakı, "Elm və təhsil", 2015, 596 s.

25.Azərbaycan dilinin qərb qrupu dialekt və şivələri. I c., Bakı, Azərbaycan SSR EA nəşriyyatı, 1967, 281 s.

26.Azərbaycan klassik ədəbiyyatından seçmələr. Üç cilddə. III cild. XVII-XVIII əsrlər Azərbaycan şeri. Bakı, "Şərq-Qərb", 2005, 456 s.

27.Oğuznamə. Bakı, "Şərq-Qərb", 2006, 216 s.

28.Əliyeva S. "Kitabi-Dədə Qorqud"un söz yaradıcılığında alınmalar (ədəbi dilin təşəkkülü kontekstində). Bakı, "Elm və təhsil", 2014, 216 s.

29.Cavadova M. Şah İsmayıl Xətainin leksikası ("Dəhnamə" poeması üzrə). Bakı, "Elm", 1977, 215 s.

30.Будагов Л. Сравнительный словарь турецко-татарских наречий. Типография Императорской Академии Наук. т. I, С-Пб, 1869, 810 стр., т. II,С-Пб.,1871,417 стр.

“KİTABİ-DƏDƏ QORQUD” AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ

“KITABI-DADE GORGUD" IN AZERBAIJAN SCHOOLS

Soltan HÜSEYNOĞLU

pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Filologiya fakültəsi, Ədəbiyyatın tədrisi texnologiyası lafedrası

Bakı/ Azərbaycan

ORCID NO: 0000-0003-4182-6653

ÖZƏT

Oğuz türklərinin ulu və möhtəşəm abidələrindən olan “Kitabi-Dədə Qorquq”un Azərbaycan ümumtəhsil məktəblərində öyrədilməsi tarixi qədim deyildir. Bu dastan ötən yüzilliyin ikinci yarısından başlayaraq məktəb proqramlarına daxil edilmişdir; sonuncu sinifdə dastan haqqında ümumi məlumat verilmiş, bir boyun əhatəli tədrisi həyata keçirilmişdir. Ölkəmizdə dövlət müstəqilliyi bərpa olunandan sonra dastanın orta məktəblərdə öyrənilməsinə daha çox diqqət yetirilmişdir. Belə ki ədəbiyyatın məktəbdə tədrisinin hər iki mərhələsində – V-IX və X-XI siniflərdə dastandan nümunələrin öyrənilməsinə imkan yaradılmışdır. Dəqiq deyilsə, VI sinifdə “Basatın Təpəgözü öldürdüyü boy”, VIII sinifdə “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”, XI sinifdə isə “Salur Qazanın evinin yağmalandığı boy” tədris olunmağa başlanmışdır. Təbii ki, XI sinifdə yalnız bir boyun tədrisi ilə kifaytlənilmir. Bu sinifdə dastanın öyrənilməsinə ayrılmış beş saatın biri epos haqqında ümumi məlumatın verilməsinə həsr edilir. Bu dərsdə, həmçinin şagirdlərin aşağı siniflərdə, eləcə də digər fənlərin (tarix və s.) tədrisində, sinifdənxaric oxu prosesində dastanla bağlı öyrəndikləri ümumiləşdirilir. Bu məqsədlə “Dastanla bağlı bildiklərinizi yada salıb yığcam müzakirə aparın” sualı əsasında diskussiya təşkil edilir. Dərslikdəki məlumat xarakterli materialın həmin dərsdə oxusu, əlavə mənbələrlə tanışlıq aşağıdakı suallara müstəqil cavabların hazırlanmasına imkan yaradır: Epos nə vaxt yaranmışdır? Onun yaranma tarixinin mübahisəli olmasına səbəb nədir? Epos hansı mövzudadır? Onun ədəbiyyat tariximiz üçün əhəmiyyəti nədir? Dastanda əksini tapmış mühüm problemlər və başlıca ideyalar hansılardır? Dastanın mükəmməl bədii gözəlliyini necə əsaslandırmaq olar?

Göründüyü kimi, suallar dastan haqqında ümumi təsəvvürün qazanılmasına imkan yaradır. Bu təsəvvürün dərinləşdirilməsi və zənginləşdirilməsi üçün şagirdlərin müstəqil araşdırma aparmaları da məqsədəuyğundur.

Bəs ayrı-ayrı boyların tədrisində başlıca diqqət hansı cəhətlərə çəkilməlidir?

Bunun doğru elmi izahı şagirdlərin yaş və bilik səviyyəsinin nəzərə alınmasını tələb edir. Söz yox ki, VI sinifdə “Basatın Təpəgözü öldürdüyü boy”un tədrisində tətbiq olunan iş növləri, sual və tapşırıqlar, metod və texnikalar VIII sinifdə, eləcə də XI sinfdə tətbiq edilənlərdən fərqlənəcəkdir. Özətdə əksini tapmayan bu məsələlər məqalədə əhatə olunmuşdur.

Açar sözlər: epos, boy, məktəb, tədris, müstəqil iş

ABSTRACT

The history of "Kitabi-Dada Gorguq", which is one of the great and magnificent monuments of the Oghuz Turks, is taught in Azerbaijan's secondary schools. This saga has been included in school programs since the second half of the last century; in the last class, general information about the epic was given, and comprehensive teaching was carried out. After the state independence was restored in our country, more attention was paid to the study of the saga in secondary schools. Thus, at both stages of teaching literature at school - V-IX and X-XI classes, it is possible to study examples from the epic.

If it is not accurate, "The Story of Basat Tepagozü Killed" in the VIth Grade, "The Story of the Prisoner of Uruz Bey, son of Ghazan Bey" in the VIIIth Grade, and "The Story of the Looting of Salur Ghazan's House" were taught in the XIth Grade. Of course, it is not enough to teach only one subject in class XI. In this class, one of the five hours allocated to the study of the epic is devoted to providing general information about the epic. This lesson also summarizes what students have learned about the epic in the lower grades, as well as in the teaching of other subjects (history, etc.), in the process of reading outside the classroom. For this purpose, a discussion is organized on the basis of the question "Remember what you know about the epic and conduct a brief discussion". The reading of the informative material in the textbook in that lesson, familiarization with additional sources allows to prepare independent answers to the following questions: When was the epic created? What makes its date of origin controversial? What is the topic of the epic? What is its significance for our literary history? What are the important problems and main ideas reflected in the epic? How to justify the perfect artistic beauty of the saga?

As you can see, the questions help to get a general idea about the epic. In order to deepen and enrich this idea, it is also appropriate for students to conduct independent research.

But what aspects should be focused on in the teaching of different ages?

The correct scientific explanation of this requires taking into account the age and knowledge level of the students. It goes without saying that the types of work, questions and tasks, methods and techniques used in the teaching of "Basatin Tepagozü killed" in the VI grade will differ from those applied in the VIII grade as well as in the XI grade. These issues, which are not reflected in the summary, are covered in the article.

Keywords: epos, height, school, teaching, independent work

Oğuz türklərinin ulu və möhtəşəm abidələrindən olan “Kitabi-Dədə Qorquq”un Azərbaycan ümumtəhsil məktəblərində öyrədilməsi tarixi qədim deyildir. Bunun obyektiv səbəbləri vardır. Ümumiyyətlə, SSRİ-nin tərkibində olan xalqların tarixinə, keçdikləri tarixi inkişaf yoluna həmin dönəmdə qısqanc, əslində, düşmən münasibət hökm sürürdü. Bu xalqların xoşbəxt, firavan həyat yoluna yalnız sovet dövründə düşdüyünə insanları inandırmaq, yeni tipli sovet adamı tərbiyə etmək kommunist ideologiyasının əsas prinsipi idi.

Türk xalqlarının birliyini, vahid soy-kökünü, qəhrəmanlıqla dolu keçmişini əks etdirən “Kitabi-Dədə Qorqud” abidəsi belə bir quruluşda yaşaya bilməzdi və o, yasaq edilmişdi. Eposun araşdırılması, öyrənilməsi Azərbaycanda, ümumən SSRİ-də qadağan olunmuşdu. Eposa düşmən münasibətin dərin və davamlı olmasına Stalin və Mikoyan cütlüyünün mənfur mövqeyini xüsusi qeyd etmək lazımdır.

Bu dastan ötən yüzilliyin ikinci yarısından başlayaraq məktəb proqramlarına daxil edilmişdir; sonuncu sinifdə dastan haqqında ümumi məlumat verilmiş, bir boyun əhatəli tədrisi həyata keçirilmişdir. Ölkəmizdə dövlət müstəqilliyi bərpa olunandan sonra dastanın orta məktəblərdə öyrənilməsinə daha çox diqqət yetirilmişdir. Belə ki ədəbiyyatın məktəbdə tədrisinin hər iki mərhələsində – V-IX və X-XI siniflərdə dastandan nümunələrin öyrənilməsinə imkan yaradılmışdır. Dəqiq deyilsə, VI sinifdə “Basatın Təpəgözü öldürdüyü boy”, VIII sinifdə “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”, XI sinifdə isə “Salur Qazanın evinin yağmalandığı boy” tədris olunmağa başlanmışdır. Təbii ki, XI sinifdə yalnız bir boyun tədrisi ilə kifaytlənilmir. Bu sinifdə dastanın öyrənilməsinə ayrılmış beş saatın biri epos haqqında ümumi məlumatın mənimsənilməsinə həsr edilir.

Aydındır ki, boyların ayrı-ayrı siniflərdə tədrisi şagirdlərin yaş və bilik səviyyəsi nəzərə alınmaqla həyata keçirilir. Buna təhsil proqramının – kurikulumun tələbləri (məzmun standartları) istiqamət verir. Lakin hər üç boyun tədrisində nəzərə alınmalı olan ümumi cəhətlərin olduğunu unutmaq olmaz. Bunlar ilk növbədə bütün boylarda əksini tapmış mühüm xətlərin nəzərə alınmasıdır. Bu xətlərin daha əsas olanları aşağıdakılardır.

– Dastanda qədim oğuzların birliyi, yurd sevgisi geniş bədii lövhələrlə əks etdirilmişdir.

– Dastanda oğuzların adət-ənənələri, inam və görüşləri ifadəsini tapmışdır.

– Eposda oğuz türklərinin məişəti, həyatı barədə çağdaş oxucuda aydın təsəvvür yaradan əhatəli təsvirlər vardır.

– Boylarda oğuzların ailə dəyərləri, ata-anaya, qadına münasibətləri barədə qiymətli məlumatlara yer verilmişdir.

– Boylarda oğuz insanlarının nəcib sifətləri, igidliyi maraqlı bədii boyalarla əks olunmuşdur.

Tədris prosesində bu xətlərin üzərində dayanılması, onlarla bağlı hər üç boydakı təsvirlərin müqayisə edilməsi həm təlimi, həm də tərbiyəvi baxımdan əhəmiyyətlidir. Həmin işin gerçəkləşdirilməsinin səciyyəvi məqamlarını bir xəttin (Dastanda qədim oğuzların birliyi, yurd sevgisi geniş bədii lövhələrlə əks etdirilmişdir) timsalında nəzərdən keçirək. Altıncı sinifdə "Basatın Təpəgözü öldürdüyü boy"un öyrədilməsində həmin xətlə bağlı kifayət qədər material vardır. Oğuz elinin başının üstünü təhlükə alır. Təpəgöz oğuz elinə qənim kəsilir. Oğuzlar bunu ümumi bəla, hamı üçün fəlakət sayırlar. Maraqlıdır ki, yurdlarını tərk etmək heç onların ağlına belə gəlmir. Təpəgözə qarşı birlikdə mübarizə aparmağı qərarlaşdırırlar. Boyda deyildiyi kimi, "oğuzlar yığışıb onun üstünə gəldilər". Bu xətt VIII sinifdə "Qazan bəyin oğlu Uruz bəyn dustaq olduğu boy"da da özünü qabarıq göstərir. Əsir düşmüş övladını xilas etmək üçün düşmən üstünə getmiş Qazan bəyin köməyinə oğuz eli yetişir. Say-seçmə igidlər "Çal qılıncını, xanım Qazan, çatdım!" sözləri ilə döyüşə qatılırlar.

Oxşar vəziyyət X sinfdə tədris olunan "Salur qazanın evinin yağmalandığı boy"da da müşahidə edilir. Naməd düşmənin qəfil hücumu Oğuz elinə ağır zərbə vurur: yurd dağıdılır, var-dövlət talan edilir, insanlar əsir aparılır. Qazan xan yalnız bir nəfərlə – Qaraca çobanla düşmən üzərinə gedir. Lakin oğuzlar onu bu dəfə də köməksiz qoymur, elliklə onun kömyinə gəlirlər. Boyda onların çoxunun adı bircə-bircə çəkilir. Bu qəhrəmanların təqdimi də maraqlıdır:

– Qaradərə ağzında qara buğa dərisindən beşiyinin yerliyi olan, acığı tutanda qara daşı kül eləyən bığını boynu dalında yeddi dəfə düyünləyən, igidlər igidi, Qazan bəyin qardaşı Qaragünə çaparaq yetişdi: "Çal qılıncını, qardaşım Qazan,yetdim!"– dedi.

– Dəmir qapı Dərbənddəki dəmir qapını hücumla alan, altmış tutamlı böyük nizənin ucunda igidləri böyürdən Qıyan Səlcik oğlu Dəli Dondaz çaparaq yetişdi: "Çal qılıncın, ağam Qazan, yetdim!"– dedi.

– Amidlə Mərdin qalasını vurub-yıxan, Dəmir yaylı Qıpçaq Məliyə qan qusduran, gələrək Qazanın qızını mərdliklə alan, oğuzun ağ saqqallı qocaları görəndə o igidə "əhsən" deyən, al məxmər şalvarlı, atı mavi qotazlı Qaragünə oğlu Qarabudaq çaparaq yetişdi: "Çal qılıncını, ağam Qazan, yetdim!"– dedi...

Müxtəlif siniflərdə boyların tədrisinə, məlumdur ki, məzmun standartları istiqamət verir. Standartların tələbləri isə müxtəlif və rəngarəng olub, fərqli bilik və bacarıqların mənimsənilməsinə yönəlikdir. VI sinifdə – "Təpəgöz" boyunun öyrənilməsində ilk növbədə "dastan" janrı haqqında təsəvvürün yaradılması vacibdir. Bu, məzmun standartının tələbidir. Əsərin elə ilk oxusundan şagirdlərin diqqəti janrın özəlliyinə cəlb olunur. Başqa sözlə, şagirdlərin diqqəti daha çox aşağıdakı cəhətlərin üzərində cəmləşdirilir:

– dilin şirinliyi, aydınlığı;

– məcazların, xüsusən mübaliğənin bol-bol işlənməsi;

– nəsrlə nəzmun bir-birini izləməsi.

Oxu və məzmun üzrə iş prosesində janrla bağlı mənimsənilənlər təhlil mərhələsində daha da dərinləşdirilir. Bu, ayrıca məzmun standartının (1.2.1. Bədii nümunələri – əfsanə, nağıl, dastan, təmsil, hekayə – janr xüsusiyyətləri baxımından müqayisə edir) tələbinə əsasən gerçəkləşdirilir. Boyun təhlilində obrazların səciyyələndirilməsinə, ideya-bədii xüsusiyyətlərin araşdırılmasına ayrıca diqqət yetirilir. Bu sinifdə ədəbi qəhrəmanların səciyyələndirilməsində onların davranış və əməllərinə xüsusi diqqət yetirilir. Standartın obrazlarla bağlı bu tələbi VIII sinifdə – "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"un tədrisində fərqli və daha dərinləşmiş məzmunda olur. Başqa sözlə, obrazların sinifdə təhlilində nitqlərinə və bağlı olduqları məişət təsvirlərinə daha çox diqqət yetirilir. Bunun gerçəkləşdirilməsinə isə həmin boyun məzmunu zəngin material verir.

Dastan haqqında geniş məlumatın mənimsənilməsinə, təbiidir ki, X sinifdə daha əlverişli imkan yaranır: aşağı siniflərdə dastanla bağlı öyrənilənlərin bu sinifdə dərinləşdirilməsi, ümumiləşdirilməsi və yekunlaşdırılması mümkün olur. İkinci tərəfdən şagirdlərin qavrama səviyyəsi dastanın tarixi-ədəbi əhəmiyyəti barədə daha əhatəli iş aparmağa imkan verir. Təsadüfi deyildir ki, epos haqqında ümumi məlumatın öyrənilməsinə həmin sinfədək mənimsənilənlərin müzakirəsi ilə başlanılır. Bu məqsədlə dərsin başlanğıcında yığcam müzkirənin aparılması məqsədəuyğundur. Sinfə ilk suallarını ünvanlayan müəllim şagirdləri dastanla bağlı bildiklərini xatırlamağa yönləndirir. Öyrənilmiş boyların mövzusu, onlarda əksini tapmış mühüm problemlər, obrazların səciyyəsi və s. əhatə olunur.

Mövzunun öyrənilməsində növbəti addım şagirdlərin müstəqil işləmələri üçün tapşırıqların təqdim edilməsi ola bilər. Müstəqil iş üçün tapşırığın bir variantını aşağıdakı məzmunda müəyyənləşdirmək mümkündür.

1. Eposun yaranması hansı dövrə təsadüf edir? Fikrinizi faktlarla əsaslandırın.
2. Eposda diqqəti çəkən başlıca mövzuları müəyyənləşdirin.
3. Dastanda əksini tapmış başlıca problemlər hansılardır?
4. Dastanın qəhrəmanlar üçün səciyyəvi olan cəhətlər hansılardır?
5. Dastanın bədii gözəlliyini təmin edən başlıca vasitələri müəyyənləşdirin. Fikrinizi nümunələrlə əsaslandırın.

Göründüyü kimi, suallar dastan haqqında ümumi təsəvvürün qazanılmasına imkan yaradır. Bu təsəvvürün dərinləşdirilməsi və zənginləşdirilməsi üçün şagirdlərin əhatəli araşdırma aparmaları məqsədəuyğundur. Doğrudur, tapşırığın icrasına dərslikdəki material tutarlı istiqamət versə də, araşdırma üçün bu, kifayət deyildir. Deməli, şagirdlər zəruri ədəbiyyatla təmin olunmalıdırlar. Dastanın sadələşdirlmiş variantı da şagirdlərin əlinin altında olmalıdır.

İşin kiçik qruplarda icra olunması faydalıdır. Lakin şagirdlərin hər biri cavabın hazırlanmasına öz töhfəsini verməlidir. İşin yerinə yetirilməsi prosesində şagirdlərdə müxtəlif məlumat mənbələri ilə işləmək bacarığının inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir.

Hazırlanmış cavabların məzmununda hansı cəhətlərə önəm verilməlidir?

Dərslikdəki materialın öyrənilməsi, eləcə də digər mənbələrin araşdırılması şagirdlərə eposun yaranma tarixi ilə bağlı fərqli fikirlərin olduğunu müəyyənləşdirməyə imkan verir. Əlavə mənbələrdən aydınlaşır ki, eposun yaranma tarixinin islamiyyətdən əvvələ aid olduğunu deməyə əsas var. Eləcə də dastanın VI-VII yüzilliklərdə yaranıb formalaşdığını əsaslandırmağa çalışan tədqiqatçılar da az deyildir.

Tapşırıqdakı ikinci sualın cavabı ilə bağlı mənbələrin araşdırılması dolğun cavabın hazırlanmasına imkan verir. Eposda əksini tapmış məsələlər çoxdur: oğuz türklərinin həyatı, məişəti, adətləri, ənənələri, inancı, həyata baxışı, dünyagörüşü, yaşatdıqları dəyərlər, yurd sevgisi, birliyi, düşmənə münasibətləri, mənəvi aləmləri və s. Bəzən bu və ya digər boyda ayrı-ayrı oğuz igidi ilə bağlı hadisə aparıcı olur – onun mövzusu kimi ön plana çıxır. Yaxud oğuz elinin başının üstünü təhlükə alır, bu ayrıca boyun mövzusu qismində özünü göstərir.

Beləliklə, tapşırıqdakı hər bir sualın tutarlı cavabını dərslik və mənbələr əsasında hazırlamaq mümkün olur.

Qeyd olunduğu kimi, X sinifdə dastanın "Salur Qazanın evinin yağmalandığı boy" geniş tədris olunur. Onun öyrənilməsinə dörd saat ayrılmışdır. Boyun oxusuna, məzmununun öyrənilməsinə ayrılmış iki saatın səmərəli təşkili təhlilin effektli olmasına imkan yaradır. Boydan müəyyənləşdirilmiş hissə ilə şagirdlər birinci dərs saatında fasilələrlə oxunun tətbiqi əsasında tanış olurlar. Fasilələrlə oxunun təbiqi qaydalarını bilən şagirdlər ilk parçanı (başlanğıcdan "Qazan dedi: "Oğlum Uruz üç yüz igidlə evimin keşiyində dursun" cümləsinədək) yoldaşlarından birinin ifasında dinləyirlər. Parça ilə bağlı suallara cavab verəcəklərini bilən şagirdlər oxunu diqqətlə dinləyirlər. Parçanın oxusu tamamlandıqdan sonra müəllim aşağıdakı suallarla şagirdlərə müraciət edir:

1. Salur Qazan oxuculara necə təqdim edilir?
2. Bu təqdimatın əhatəli olmasının səbəbini necə izah edərsiniz?

3. Onun təşkil etdiyi məclis necə təsvir edilir?
4. Qonaqlığın belə dəbdəbəli təşkilinin səbəbini necə izah edərsiniz?
5. Salur Qazan bəylərə nə təklif etdi?
6. Onun təklifinə kimlər münasibət bildirdilər?

Göründüyü kimi, sualların bir qismi yalnız məzmunun əhatəli öyrənilməsi ilə məhdudlaşmır, ilkin təhlil elementlərini də özünə daxil edir. Bu, boyun tədrisinin sonrakı mərhələlərinin, xüsusən təhlilin səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir. Bu mərhələnin mühüm cəhətlərindən biri müəllimin suallarının cavablandırılmasında mümkün qədər çox şagirdin iştirak etməsidir.

Boyun ikinci hissəsi ("Endilər" cümləsindən "Bilmədik, hansıdır" cümləsinədək olan parça) ilə tanışlıq proqnozlaşdırılmış oxunun tətbiqi ilə reallaşdırılır. Hadisələrin necə davam edəcəyi ilə bağlı ehtimallar söyləyəcəklərini bilən şagirdlər oxuda daha diqqətli olurlar.

Təcrübə göstərir ki, oxu nə qədər səmərəli təşkil edilsə də, məzmunun dərindən dərk edilməsi üçün əlavə işlərin aparılmasına ehtiyac duyulur. Məhz buna görə də oxu tamamlandıqdan sonra aşağıdakı məzmunda işlərin aparılması məqsədəuyğundur:

– tanış olmayan sözlər və məcazlarla bağlı qənaətlərin müzakirəsi;

– boyun ayrı-ayrı parçalarındakı mühüm fikirlərlərin müəyyənləşdirilməsi və onlara münasibət bildirilməsi;

– obrazların nitqi üçün səciyyəvi olanların müəyyən edilməsi və qeyd olunması.

İcra olunan bütün bu işlər təhlilə həsr olunmş dərsin keyfiyyətinə əhəmiyyətli dərəcədə təsir edir. Təhlil üzrə işi fərqli variantlarda təşkil etmək olar. Məsələn, müəyyənləşdirilmiş tədqiqat sualının kiçik qruplarda araşdırılması, nəticə ilə bağlı məlumat mübadiləsi və müzakirənin aparılması şagirdlərin fəallığının və əməkdaşlığının təmin edilməsi baxımından faydalıdır. Əlbəttə, təhlilin necə təşkil edilməsi, hansı təlim metodlarından iş formalarından istifadə olunması dərsin məqsədindən, seçilmiş məzmun standartlarından xeyli dərəcədə asılıdır. Deməli, təhlil üzrə dərsi fərqli variantlarda təşkil etmək mümkündür. Məntiqi təfəkkürün inkişaf etdirilməsi məqsədilə hazırlanmış variantlardan birinə nəzər salaq. Dərslikdəki materialın və mətnkənarı sualların əsasında hazırlanan bu variant işə bütün sinfin cəlb edilməsinə imkan yaratması baxımından faydalıdır.

Dərslikdəki təhlil materialı aşağıdakı qaydalara əməl edilməklə oxunur.

– şagirdlərdən biri ilk mətnkənarı sualın cavabını – dərslikdəki mətni aramla, ucadan oxuyur;

– o, mətndəki əsas fikri bir neçə cümlə ilə ifadə edir – ümumiləşdirir.

– sonra şagirdlərə mətnlə bağlı sullar verir;

– suallar əsasında aparılan müzakirədə çətin, izahına ehtiyac duyulan məsələlərə bütün sinfin iştirakı ilə aydınlıq gətirilir;

– sonda mətnə hansı məzmunda əlavələrin edilməsinin vacib olması barədə nəticə çıxarılır və bəndlərlə yazılır;

– digər mətnkənarı suallarla bağlı cavabların – mətnin oxusu da bu qayda ilə həyata keçirilir;

– işin yekunlaşdırılması və nəticənin çıxarılması üzrə təqdimatlar dinlənilir və müzkirə edilir.

Göründüyü kimi, bu variant oxunun diqqətlə dinlənilməsini təmin etməklə bərabər, mətnin məzmununun mənimsənilməsinə, ona münasibət bildirilməsinə də imkan yaradır. Əlbəttə, bu prosesi müəllimin necə idarə etməsindən çox şey asılıdır. Mətnin aydın, anlaşıqlı oxusu, onda ifadə olunmuş başlıca fikirlərin bacarıqla ümumiləşdirilməsi, müzakirədə bütün sinfin iştirakının təmin edilməsi, təqdimatların məzmunca dolğun olması və diqqətlə dinlənilməsi, müzkirənin səmərəli keçməsi müəllimin diqqət yetirməli olduğu başlıca məsələlərdir.

Şagirdlərin tədqiqatçı mövqeyinin üstünlük təşkil etdiyi digər bir variantın səciyyəvi məqamlarına nəzər salaq. Şagirdlər boyun mətni, dərslikdəki material və mənbələr əsasında aşağıdakı tapşırıqların üzərində işləyirlər. Tapşırıqlar kiçik qrupların arasında bölüşdürülür.

1. Salur Qazanın xarakterindəki başlıca cəhətləri müəyyənləşdirin. Onun nitqindən, davranış və əməllərindən nümunələr göstərməklə fikirlərinizi əsaslandırın.

2. Burla xatun obrazı hansı xüsusiyyətləri ilə diqqətinizi çəkdi?

3. Boyda ifadəsini tapmış problemlərdən hansılarını daha mühüm hesab edirsiniz?

Əsərdə əksini tapmış problemlər	Onlardan daha mühüm olanlar

4. Dastanda oğuz türklərinin hansı əxlaqi-mənəvi dəyərləri əksini tapmışdır?

5. Əsərdə işlənmiş bədii təsvir və ifadə vasitələrinin fikrin təsir gücünün artmasındakı rolunu aydınlaşdırın.

Bədii təsvir və ifadə vasitəsinin növü	Mətndən nümunələr	Fikrin təsir gücünün artmasında rolu

Dərslikdəki təhlil materialı, eləcə də mənbələrdəki məlumatlar tapşırığa tamamlanmış, əhatəli cavabların hazırlanması üçün kifayət deyildir. Ən mühüm olan bədii mətnin özünə müraciət edilməsi, tutarlı nümunələrin seçilməsidir.

Bu qəbildən dərsdə qruplararası məlumat mübadiləsinin səmərəli təşkilinə xüsusi diqqət yetirilməlidir. Bu, digər suallar üzrə əldə edilmiş nəticələrlə – boyun təhlili ilə şagirdlərin əhatəli tanış olmalarına imkanı yaradır. Eləcə də müzakirənin canlı keçməsinə, daha çox şagirdi əhatə etməsinə səy göstərilməlidir.

Dastndan ümumtəhsil məktəblərundə öyrədilən boyların sayı az deyil. Bu onların tədrisi ilə bağlı xüsusi tədqiqatın aparılmasına imkan verir. Yaxud qəhrəmanlıq dastanlarının məktəbdə müqayisəli öyrədilməsi üzrə xüsusi tədqiqatın aparılması mümkündür. Hər iki halda "Kitabi-Dədə Qorqud" dastanının gənc nəslə öyrədilməsinin səmərəli yollarının müəyyənləşdirilməsinə şərait yaranır.

Ədəbiyyat

1. Cəmşidov Ş. "Kitabi-Dədə Qorqud". Bakı, 1977.

2. Ədəbiyyat (5-ci sinif üçün dərslik). Bakı: Bakınəşr, 2019.

3. Ədəbiyyat (10-cu sinif üçün dərslik). Bakı: Bakınəşr, 2020.

4. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar:fəal/interaktiv təlim. Bakı: Bakınəşr, 2009.

5. "Kitabi-Dədə Qorqud". Bakı: Yazıçı, 1988.

6. Səfərli Ə., Yusifov X. Azərbaycan türk ədəbiyyatı. Ankara, 1993.

RİTÜELDEN KÖY SEYİRLİK OYUNUNA: KARS İLİ ÖRNEĞİNDE KÖSE OYUNU

FROM RITUAL TO THEATRICAL VILLAGE PLAY: THE KÖSE PLAY IN THE CASE OF KARS

Şerife Seher EROL ÇALIŞKAN

Doç. Dr., Bartın Üniversitesi, Edebiyat Fakültesi, Türk Dili ve Edebiyatı Bölümü

Gülhan Buse GÜRBOĞA

Yüksek Lisans Öğrencisi, Bartın Üniversitesi, Lisansüstü Eğitim Enstitüsü, Türk Dili ve Edebiyatı Anabilim Dalı

ÖZET

İnsanlık tarihine baktığımızda ilk insandan beri değişmeyen bir olgu olarak karşımıza 'taklit' unsuru çıkmaktadır. Doğayı ve evreni anlamaya, daha sonrasında da ona yön vermeye çalışan insan her türlü çabasına ilk önce taklit ile başlamıştır. Bu taklitler bir nevi canlandırma vazifesi görmüş ve zamanla oyun kavramı ortaya çıkmıştır. İlk insandan bugüne kadar süregelen taklit unsuru beraberinde diğer sanat dallarını ve özellikle de tiyatro gibi bir sanatı ortaya çıkarmıştır. Tiyatronun, bugünkü son şeklini alana kadar geçirdiği evrelerden bir tanesi de köy seyirlik oyunlarıdır. Köy Seyirlik Oyunları halkın kendi kendini eğlendirebildiği ve inanışlarını, ritüellerini yaşatabildiği en önemli faaliyetlerden birisi olmuştur. Bugün Türkiye'nin pek çok bölgesinde bu oyunlar az çok değişiklikle varlığını halen sürdürmektedir.

Kars ili, halk kültürü açısından zengin bir bölgede yer almaktadır. Geleneksel olan korunmuş ve yaşatılmaya özen gösterilmiştir. Bölgede tespit edilen köy seyirlik oyunlarında da bu açıkça görülmektedir. Mitoloji ise, insanların ilkel zamanda evreni anlamlandırma çalışmalarının sonucu olarak karşımıza çıkmaktadır. Zaman içerisinde değişmelerle mit ve mitik unsurlar yaşamın her alanına yayıldığı gibi halk edebiyatı türlerinde de yerini almıştır. Bu çalışmada 2020 yılında Kars ilinden derlenen Köse Oyunu içerisinde yer alan mitik motifler tespit edilmiş ve değerlendirilmiştir.

Anahtar Kelimeler: Köy Seyirlik Oyunları, Ritüel, Şamanizm, Mitoloji, Kars.

ABSTRACT

When we look at the history of humanity, the element of 'impersonation' emerges as a phenomenon that has not changed since the first human being. Trying to understand nature and the universe, and then to give direction to it, man first started all his efforts with impersonation. These impersonation served as a kind of animation and over time the concept of play emerged. The element of impersonation, which has continued from the first human to the present, has brought forth other branches of art and especially an art such as theater. One of the phases that the theater went through until it took its final form today is the village theatrical plays. Village Theatrical Plays have been one of the most important activities where people can entertain themselves and keep their beliefs and rituals alive. Today, these plays still exist in many regions of Turkey with more or less changes.

Kars province is located in a region rich in folk culture. The traditional has been preserved and care has been taken to keep it alive. This is clearly seen in the village theatrical plays found in the region. Mythology, on the other hand, emerges as a result of people's efforts to make sense of the universe in primitive times. With the changes over time, myth and mythical elements have spread to all areas of life and have taken their place in folk literature genres. In this study, the mythical motifs in the Köse Play compiled from Kars province in 2020 were determined and evaluated.

Keywords: Theatrical Village Plays, Ritual, Shamanism, Mythology, Kars.

GİRİŞ

verir. Kompozisiyanın mərkəzi hissəsində iri planda ölümcül yaralanmış oğlu üzərində ana təsvir edilmişdir. Kənarda köhlən bir at sanki kişnəyərək fəryad qoparmaqdadır. Əsas kompozisiyanın ətrafında başqa epizodlar, o cümlədən Dirsə xanın öz qadını ilə söhbəti, onların oğlunun buğa ilə vuruşması, Dədə Qorqudun ona Buğac adı verməsi mərasimi təsvir olunmuşdur...

"Bayburanın oğlu Bamsı Beyrək boyunu bəyan edir" adlanan ikinci illüstrasiya da mürəkkəb kompozisiyaya malikdir. Onun mərkəzi hissəsində toy mərasimi əks olunmuşdur. Qırmızı köynək geyinmiş gəlinin sifətində qəmginlik duyulmaqdadır. Əlində qopuz tutaraq bir kənarda oturmuş ozan gəlinə baxır. Yuxarı hissədə tünd yaşıl çəmənlik, otlayan atlar, onların fonunda Beyrək və Bamsının at çaparaq yürüşməsi səhnəsi təsvir edilmişdir. Aşağı hissədə isə qədim Azərbaycan "Yallı" rəqsinə bənzər hərəkətlər verilmişdir...

Eposa çəkilmiş üçüncü illüstrasiya isə "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boyu bəyan edir" adlanır. Onun kompozisiyasını vuruş səhnəsi təşkil edir. Ön planda at üstündə, siyirmə qılınclı bir qadın düşmənə hucum etməkdədir. Qadının libası sarı-qırmızı, başının örtüyü isə ağ rəngdədir...

"Duxa Qoca oğlu Dəli Domrulun boyunu bəyan edir" adlanan növbəti illüstrasiyanın mərkəzində Domrulun can almağa gələn Əzraillə mübarizəsi təsvir edilmişdir. Kompozisiyanın yuxarı hissəsində - hər iki küncdə simmetrik bir şəkildə Dəli Domrulun məğrur obrazı işıqlı boyalarla, ortada isə hekayədə olduğu kimi körpü üzərində Əzrailin canını aldığı bir igidin cənazəsi üzərində ağlaması səhnəsi solğun, tutqun rənglər vasitəsilə əks olunmuşdur. Lap aşağı hissədə isə ailə-məişət məsələlərinə aid epizodlar təsvir edilmişdir...

Rəssamın çəkdiyi digər illüstrsiyalar da özünəməxsus kompozisiya həllinə malikdir. Onların birinin yuxarı hissəsində gözəl, qüvvətli bədənə malik bir cavan görüntüyə gətirilmişdir. Bir tərəfində buğa, o biri tərəfində pələng, arxa hissəsində isə dəvə təsvir edilmişdir. Ondan aşağıda cərgə ilə oturmuş əlvan geyimli kişilər öz nəzərlərini bu cavana çevirmişlər. Bunların arasında taxt üzərində oturmuş bir nəfər libasının zənginliyi ilə digərlərindən seçilir. Kompozisiyanın aşağı hissəsi iki yerə bölünməklə, yuxarısında bir dərədə vuruşma meydanı, o biri hissəsində isə yaşıl təpədə qəhrəmanın qızla təsviri verilmişdir.

"Basat Təpəgözü öldürdüyü boyu bəyan edir" adlanan illüstrasiyanın da bədii həllində miniatür ənənələri ilə səsləşən məqamlar kifayət qədərdir. Burada kompozisiyanın mərkəzi iki böyük hissəyə bölünmüş və hər iki hissədə Təpəgöz ayrı-ayrı vəziyyətlərdə təsvir edilmişdir. Birinci vəziyyətdə təsvir edilən Təpəgöz fantastik, fövqəladə gücə malik, iri gövdəli ağacı kökündən qoparıb, ondan uzaqda dayanıb dəhşətə gəlmiş adamların üzərinə atmaq istəyir. İkinci hissədə isə Təpəgöz gənc bir igidin qarşısında diz çökmüş vəziyyətdə təqdim olunmuşdur...

Rəssamın çəkdiyi yeddinci – sonuncu illüstrasiya "Salur Qazanın evi yağmalandığı boyu bəyan edir" adlanır. Burada Qaraca Çobanın bir qayanın üzərində dayanaraq sapand ilə düşmənin üzərinə qoyun-quzu atması əsvir olunub. Qayadan aşağıda hucum etmiş düşmənlərin çobandan aldığı tələfat, qoşun içərisindəki təşviş aydın hiss olunur...

Zamanında bu eposa əhatəli müraciət edənlərdən biri o vaxtlar hələ gənc olan Fəxrəddin Məmmədvəliyev olmuşdur. 1984-cü ildə AMEA-nın Əlyazmalar İnstitutunda rəssam işlədiyi vaxt ona burada yaradılan "Kitabi-Dədə Qorqud"un Bakı nüsxəsini bəzəyəcək illüstrasiyaların çəkilməsinin həvalə oluması ilk növbədə onun istedadına olan inamın ifadəsi olmuşdur. Lakin sonradan bu iş subyektiv səbəblərdən başqa rəssama tapşırılsa da, gənc rəssam bu yöndə axtarışlarını davam etdirməklə, bir-birindən maraqlı kompozisiyalar yaratmağa nail olmuşdur. Doğrudan da onun ərsəyə gətirdiyi "Gəlimli-gedimli dünya", "Dədə qorqudun elçiliyə getməsi", "Oğuz elində şadlıq mərasimi", "Təpəgözün dünyaya gəlməsi", "Qazan xanın evinin yağmalanması" və s. miniatürlərdə ən tələbkar tamaşaçını belə şaşırdacaq bədii ifadə mövcuddur.

"Qazan xanın evinin yağmalanması" əsəri digər lövhələrdə də izlənilən qeyri-adi ekspressiya ilə zəngindir. Rəssamın hadisəyə baxışındakı bu yüksək bədii-estetik tutumlu məziyyəti heç şübhəsiz həm də eposun dəyişgən hadisələrinin axıcılığına duyulası dinamika qatılması şərtləndirmişdir. Bu əsərlərin zahiri aldadıcı xaotikliyinin arxasında heç şübhəsiz, gənc rəssamın nümayiş etdirdiyi yüksək sənətkarlıq durur. Əslində onların ilğım kimi qəbul olunması müəllifin kompozisiyalara daxil etdiyi və hər biri etnoqrafik-tarixi dəqiqliyə tapınan müxtəlif detalların bir-birinə çox qəribə bir görkəmdə "arxa"

durması, əlaqəli görünməsindən keçir. Bu şaquli kompozisiyaların hər birinin ciddi çərçivə əhatəsində qalmayıb gah sağdan, gah da soldan səhifəyə "çıxış"ı, süjetin daxili tutumunu onun məzmununu şərh edəcək düzbucalı kiçik sahələrin ayrılması da rəssamın klassik miniatür ənənələrindən ardıcıllıqla bəhrələnməsinin göstəricisidir. Eposun maraqlı əhvalatlarından sayılan "Salur Qazanın evinin yağmalanması" süjetinə çəkilmiş iki əsərdə vurğuladığımız bədii məziyyətləri görmək mümkündür. Onların birində Salur Qazanın ova hazırlaşması təsvir olunub. Bu məqamda epos qəhrəmanının evini-yurdunu görüntüyə gətirən rəssam kompozisiyada Salur Qazanı onun igidləri ilə əhatələyb. Hər kəs yoladüşmə qayğıları ilə məşğuldur. Rəssam işıqlı qayalar arxasında gizlənərək oğuz elində baş verənlərə düşməncəsinə göz qoyan Şukili Məliyin adamını daxil etməklə, kompozisiyaya həm də dinamiklik bəxş edib. Bu qara geyimli, "qara niyyətli" adamın oğuz elinə gizlincə müşahidəsinin səbəbsiz olmadığına oxucuda – tamaşaçıda inam yaradır. Qədim eposun növbəti səhifələrini oxuyarkən oxucu zənnində yanılmadığına əmin olur...

Kompozisiyanı təşkil edən hər bir detalın çox tutumlu məzmun-rəmz daşıyıcılığı qarşlığında onun cəlbediciliyi ilə yanaşı, həm də düşündürücü qaynağa çevrilməsi birmənalıdır. Bu yerdə türk dünyasının özünəməxsus inanclarının, eləcə də bu gün çoxu muzey saxlanclarının malına çevrilmiş dekorativ-tətbiqi sənət nümunələrinin uğurla kompozisiyaya daxil edildiyini vurğulamaqla, onların oxucu – tamaşaçı düşüncələrini qanadlandırmaq gücündə olduğunu qeyd etmək istərdik. Elə Fəxrəddin Məmmədvəliyevin öz yaratdıqlarında buna nail olması da onun sözüm əsl mənasında miniatür ənənələrini layiqincə davam etdirməsinin ifadəsidir, desək, həqiqəti söyləmiş olarıq. Kompozisiya biçimi qədim miniatürlərin bədii prinsipləri ilə anım yaradan bu əsərin hər detalının ümumi siluetində ənənədən gəlmə şaşırdıcı axıcılıq və ifadəlilik duyulur. Onun rəng həllindəki qədim bədii prinsiplərlə gerçəkçi sənətin tələblərinin qovşağından əldə olunan lakonikliklə yumşaqlığın vəhdətini özündə yaşadan bu bədii görüntü bütünlükdə təsviri sənətimiz üçün yeni ola biləcək özünəməxsus bir nəticədir.

Fəxrəddin Məmmədvəliyevin "Kitabi-Dədə Qorqud" ünvamlı digər əsərlərində bu gün hər birimiz üçün qürur qaynağına çevrilmiş dastanın ayrı-ayrı, oxucu üçün maraqlı görünə biləcək səhifələrinə işıq salınıb. "Təpəgözün dünyaya gəlişi", "Çobanın mələklərlə əlaqəsi", "Dədə Qorqudun elçiliyə getməsi", "Dəli Domrulun Dədə Qorquda əl qalırması", "Oğuz elində şənlik" və "Dədə Qorqudun şadlıq mahnısı çalması" adlanan bu kompozisiyalarda rəssamın qədim ədəbi-tarixi materialın yaradıcılıqla "oxuya" bilməsinə şahidlik etmək mümkündür. Bu günün özündə belə daşıdığı qeyri-adi məna-məzmun tutumuna görə bizi hələ də səhifələrinin əfsanə-nağıl sehrindən xilas olmağa imkan verməyən dastana münasibətdə rəssamın ifadə olunanlara adekvat təsvir dili tapması bu lövhələrin cəlbediciliyini şərtləndirmişdir. Bu süjetlər müxtəlif olsalar da onların yağlı boya vasitəsilə gerçəkləşən görüntüləri zahirində ifadə etdikləri adilikdən uzaq görkəmlərini, mahiyyətlərində daşıdıqları zəngin tutumla tamamladıqlarını sərgiləməkdədirlər.

Kompozisiyaları təşkil edən müxtəlif fiqurlardan tutmuş heyvanlara qədər, eləcə də hər bir süjetə daxil edilən ayrı-ayrı əşyalar, əsərləri tamamlayan təbiət motivləri real olduqları qədər də irrealdırlar. Bütün bunları müəllifin məqsədli bədii priyomu kimi qəbul etməyimiz də yəqin ki, məntiqlidir. Çünki yalnız belə yanaşma ilə dastanın bəzən utopik qəbul edilə biləcək məqamlarına inandırıcılıq gətirmək mümkün idi. Odur ki, rəssamın bu seçiminin oxunaqlı dastanın oxucunu uzun müddət ədəbi materialın ifadə və məzmun sehrində saxlamaq məqsədi daşıdığını demək mümkündür. Fəxrəddin Məmmədvəliyevin bu əsərlərin bədii həllində qədim miniatür bədii prinsiplərinə yaradıcı münasibəti özünü kompozisiya və rəng həllinin təfsirində göstərir. Hər bir süjeti təşkil edən, onların təsirliliyini şərtləndirən çoxsaylı fiqurların kompozisiyada yerləşdirilməsi üst-üstə sıralanma və spiralvari prinsipə əsaslandığından onların kətan boyu düzülüşü inandırıcı və təsirli görünür. Əsərlərin rəng həllinin şərti-dekorativ biçimiin gerşəkliyə yönəli təqdimatı süjetlərin ovqatdəyişdirici rolunun əldə olumasında başlıca rol oynamışdır, desək, yanılmarıq...

Dədə Qorqud ünvanlı əsərlərin bir qismi bilavasitə eposun boylarına çəkilmiş illüstrasiyalardısa, bir çoxu isə özündə Dədə Qorqudun obrazını əks etdirən portretlərdir. Dastanın müxtəlif əhvalatlarına həsr olunmuş rəngkarlıq və qrafika əsərləri arasında tanınmış fırça ustası Elçin Aslanovla yanaşı, Elçin Məmmədov, Arif Mərdan, İsmayıl Məmmədov, Nazim Rəhmanov, Fəxrəddin Əliyevin və başqalarının çəkdiyi lövhələr diqqətçəkəndirlər.

Arif Mərdanın "Dədə Qorqud dünyası" eposa həsr olunmuş tablolar arasında qeyri-adi bədii həllinə görə seçilir. Bu əsər həm də çoxfiqurlu olması ilə cəlbedicidir. Oğuz elinin oğul-qızlarını iri kompozisiyada bir araya gətirən rəssam, onları xüsusi ritmlə kətan boyu yerləşdirməklə, ümumi görüntünün əhatəliliyini və möhtəşəmliyini əldə etmişdir. Sol tərəfdə el adamlarına müraciət edən Dədə Qorqudun və onu əhatə etməklə ona qulaq kəsilənlərin özünəməxsus təqdimatından əldə olunan birliyin qürurverici olması kifayət qədər görünəndir. Fəxrlə demək lazımdır ki, bu monumental tablo bədii Qorqudşünaslığa ən gğzəl töhfədir. Lakin zamansızlığa qovuşduğu birmənalı olan bu tablonun mərkəzi muzeylərin birinin ekspozisiyasında bu vaxta kimi yer almaması ancaq təəssüf doğurur...

Azərbaycan ədəbiyyatı nümunələrinə davamlı bədii müraciətləri yadda qalan İsmayıl Məmmədovun eposla bağlı yaratdığı silsilə əsərlər məna-məzmun yükünə və bədii şərhinə görə yaddaqalandır. Onun "Dirsə xan oğlu Buğac", "Salur Qazanın evinin yağmalanması", "Bayburanın oğlu Bamsı Beyrək", "Uzun Qoca oğlu Seyrək", "Duxa Qoca oğlu Dəli Domrul", "Qanlı Qoca oğlu Qanturalı" və digər illüstrasiyalarında ədəbi mətnə aydınlıq gətirməyə xidmət edən təsvirlər bədii ümumiləşdirmələri ilə yadda qalırlar.

Dədə Qorquda həsr olunmuş portretlər də bədii məziyyətlərinə görə yaddaqalandırlar.Bu mənada tanımış fırça ustası Tahir Salahov, Altay Hacıyev, Sakit Məmmədov və Vaqif Ucatayın çəkdiyi portretlərin adını qeyd etmək olar. Bu portretlərin hamısı 2000-ci ildə "Kitabi-Dədə Qorqud"un 1300 illiyinin qeyd olunması ilə əlaqədar elan olunmuş müsabiqəyə təqdim olunmuşdu. Subyektiv səbəblərdən həmin müsabiqə yekunlaşdırılmadığından bu günə kimi də biz Dədə Qorqudla bağlı tədbirləri onun rəsmi portreti olmadan keçirməkdəyik. Amma etiraf edək ki, rəsmi qəbul olunmasa da bütün nəşrlərdə obraz kimi mərhum Vaqif Ucatayın çəkdiyi portret təqdim olunmaqdadır. Müsabiqədə Tahir Salahovun çəkdiyi portretdə etno-ikonoqrafik əlamətlər az duyulsa da tanınmış fırça ustasının bu müsabiqəyə qatılması yadda qalan olmuşdur. Əlavə edək ki, rəssam bu portret əsasında xalça da toxutdurmuşdur.

Yeri gəlmişkən deyək ki, 2000-ci ildə Dədə Qorqudun heykəl obrazının yaradılması üçün də müsabiqə elan olunmuşdu. Elə onun da taleyi rəngkarlıq portreti ilə bağlı müsabiqə kimi nəticəsiz olmuşdur. Lakin Dədə Qorqudu əks etdirən heykəl-portret ictimailəşdirilməsə də, 2013-cü ildə Bakıda "Kitabi-Dədə Qorqud"a həsr olunmuş abidə ucaldılmışdır. Onun müəllifi Görüş Babayevdir. Çoxları onu bilavasitə Dədə Qorqudu əks etdirən abidə kimi qəbul edib, ünvanına bəzən tənqid fikirlər də səsləndirirlər. Amma demək lazımdır ki, ümumi forması açıq kitab şəklində həll olunmuş bu abidə bilavasitə eposu tərənnüm edir və orada Dədə Qorqudun qabarıq görünməməsi də təbiidir.

Əlavə edək ki, heykəltəraşlıq sahəsində Görüş Babayevdən başqa, Ramiz Məmmədov, Məzahir Avşar, Lətif Aslanov, Sahib Quliyev və Zakir Əhmədov da özünəməxsus plastikaya malik heykəllər yaratmışlar. Bu əsərlərdə Dədə Qorqudun bir-birindən maraqlı obrazları qarşılaşmaq mümkündür. Obraza olan ümumxalq məhəbbəti onun bölgələrdə də heykəlləşməsinə yol açmışdır. Hazırda Gəncə, Şirvan, Yevlax, Hacıqabul və Zaqatala şəhərlərində də Dədə Qorqudun heykəlləri ucalmaqdadır. Bütün bunlar xalqın ulu Dədə Qorqudun xatirəsinə hörmət və ehtiramının göstəricisi sayıla bilər.

Nəticə olaraq demək olar ki, təsviri sənət ustalarının Dədə Qorqud obrazına müraciətləri sayəsində ərsəyə gətirilən əsərlər toplusu ilk növbədə yaradıcılarımızın xalqının uzaq keçmişinə ehtiramı olmaqla yanaşı, şərəfli və qürurverici tariximizin gələcək nəsillərə ötürülməsi baxımından böyük əhəmiyyət kəsb edir.

ƏDƏBİYYAT

1.Azərbaycan incəsənəti (Monoqrafiya). Bakı,İşıq. 1992,344 səh.

2.Azərbaycan miniatürləri: ənənə və müasirlik. Bakı,Elm,2011,126 səh.

3.Əliyev Z.Fəxrəddin Seyfəddinoğlu.Bakı, Yeni Poliqraf MMC,2012,152 səh.

4.Kitabi-Dədə Qorqud.Bakı,Yazıçı.1988,265 səh.

5.Məmmədova Ə. Mikayıl Abdullayev.Bakı,Şərq-Qərb.2013,104 səh.

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ ƏHMƏD CAVADIN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK MOTİVLƏRİNİN ÖYRƏNİLMƏSİ

LEARNING PATRIOTIC MOTIVES IN THE CREATION OF AHMED JAVAD IN LITERATURE LESSONS

Bilal HƏSƏNLİ

Azərbaycan Dövlət Pedaqoji Universiteti. Filologiya fakültəsi. Ədəbiyyatın tədrisi texnologiyası.Bakı, Azərbaycan

ORCID ID: https://orcid.org/000-0002-6964-0546

XÜLASƏ

Ədəbiyyat dərslərində qüdrətli söz ustalarının həyat və yaradıcılığının öyrənilməsi böyük təlim - tərbiyə əhəmiyyətinə malikdir. Sənətkarın həyat yolunun öyrənilməsi onun yaşadığı dövrün xüsusiyyətlərini, hansı ictimai-siyasi mühitdə yazıb yaratdığını dərk etmək deməkdir. Böyük sənətkarın yaradıcılığında öz dövrünün başlıca cəhətləri öz əksini tapır. İctimai mühitin tələbləri və ideya mübarizələri şəraitində sənətkarın şəxsiyyəti, həyat mövqeyi, sənət idealları qabarıq şəkildə üzə çıxır.

Sənətkarın tərcümeyi-halının öyrənilməsi ədəbiyyat tarixinin ziddiyyətli, gərgin ideya mübarizələri ilə səciyyələnən mərhələlərinin aydınlaşdırılması ilə yanaşı, şagirdlərin ayrı-ayrı əsərlərin öyrənilməsinə zəmin yaradılması baxımından əhəmiyyətlidir.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Əhməd Cavad Axundzadə mürəkkəb, tələtümlü ictimai-siyasi hadisələrin baş verdiyi bir dövrdə yazıb-yaratmış, zəngin və çoxcəhətli poeziyasında milli mənəvi dəyərləri, xalqımızın vətənpərvərlik, türkçülük, azadlıq, müstəqillik ideallarını yüksək sənətkarlıqla tərənnüm etmişdir.

Açar sözlər: şair, ədəbiyyat, yaradıcılıq, dərs, həyat, metod, interaktiv, təhlil, müzakirə, repressiya

ABSTRACT

The study of the life and work of powerful masters of words in literature classes is of great educational importance. The study of the artist's life means understanding the features of the period in which he lived, in what socio-political environment he wrote and created. The main features of his time are reflected in the work of the great artist. In the conditions of the requirements of the social environment and the struggle of ideas, the artist's personality, position in life, ideals of art are prominent. The study of the artist's biography is important in terms of clarifying the stages of the history of literature, characterized by conflicting, intense struggle for ideas, as well as creating a basis for students to study individual works.

Ahmad Javad Akhundzadeh, one of the prominent representatives of XX century Azerbaijani literature, wrote at a time of complex, turbulent socio-political events, and in his rich and multifaceted poetry sang the national moral values, the ideals of patriotism, Turkism, freedom and independence. The study of the writer's life and creative path, the poem "Voice Girl" in the literature classes in the 11th grade plays an important role in the ideological and spiritual, aesthetic education of the young generation, the formation of their worldview.

Keywords: poet, literature, creativity, lesson, life, method, interactive, analysis, discussion, repression

GİRİŞ / İNTRODUCTİON

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Əhməd Cavad poeziyamızda insanın ülvi məhəbbət duyğularını, vətənpərvərliyini, azadlıq, müstəqillik ideallarını tərənnüm edən

sənətkardır. O, xalqımızın tarixinin gərgin ictimai-siyasi hadisələrlə səciyyələnən dönəmlərində fəal həyat mövqeyi, müstəqil dövlətçilik ideallarına sadiqlik nümayiş etdirmiş, Azərbaycan Xalq Cümhuriyyətinin nəğməkarı, Dövlət himnimizin müəllifi kimi şöhrət qazanmışdır. Ədibin yaradıcılığında milli istiqal, türkçülük, soykökünə bağlılıq motivləri aparıcı yer tutmuşdur.

Azərbaycan Respublikası Prezidenti İ.Əliyevin "Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında" Sərəncamında sənətkarın yaradıcılığı yüksək qiymətləndirilmişdir. Sərəncamda qeyd edilir ki, Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, böyük şair, tanınmış maarifçi və ictimai xadim Əhməd Cavad (Cavad Məhəmmədəli oğlu Axundzadə) Azərbaycan ədəbi-bədii fikri tarixində istiqlal şairi kimi özünəməxsus dəst-xətti ilə seçilən, müstəsna mövqeyə malik söz ustalarındandır. Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulmuşdur. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir. Əhməd Cavad daim ictimai-siyasi hadisələrin qaynar nöqtələrində olmuş, dövrün parlaq şəxsiyyətləri sırasında 1930-cu illərin ağır repressiyalarına məruz qalaraq, sovet totalitarizminin qurbanına çevrilmişdir.[7]

Gelişme. Repressiya qurbanı olan Əhməd Cavadın yaradıcılığının öyrənilməsi, əsərlərinin nəşri sovet hakimiyyəti illərində qadağan edilmişdi. Azərbaycan müstəqillik qazandıqdan sonra sənətkarın həyat və yaradıcılıq yolu tədqiq edilməyə başlanmış, əsərləri ümumtəhsil məktəb proqramlarına, dərsliklərinə daxil edilmişdir. Hazırda ədəbiyyat dərslərində ədibin "Azərbaycan, Azərbaycan" (V sinif), "Azərbaycan bayrağına" şeirləri (IX sinif) tədris olunur. XI sinifdə sənətkarın həyatı və yaradıcılıq yolu, "Səsli qız" poeması tədris olunur.

Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamına əsasən, şairin seçilmiş əsərləri kütləvi tirajla nəşr olunub məktəb kitabxanalarına hədiyyə edilmişdir. Bu dəyərli nəşrdən kurikulum üzrə ədəbiyyat dərslərində sənətkarın həyat və yaradıcılığı öyrənilərkən əlavə mənbə kimi istifadə edilməli, şagirdlərin böyük sənətkarın tərcümeyi-halı, yaradıcılığı haqqında biliklərə dərindən yiyələnməsi, onlarda azərbaycançılıq məfkurəsi, fəal həyat mövqeyi formalaşdırılması təmin olunmalıdır.

X sinifdə sənətkarın həyat və yaradıcılığının öyrənilməsi üzrə ədəbiyyat dərsinin motivasiya mərhələsində şagirdlərdə yeni mövzuya maraq yaratmaq məqsədilə internet şəbəkəsindən istifadə ilə (https://www.youtube.com/watch?v=rP8gzwJrw5w) "Əhməd Cavad" bədii sənədli filminin nümayiş etdirilməsi məqsədəuyğundur.

Eyni zamanda fəndaxili əlaqə yaradılaraq şagirdlərin şairin yaradıcılığı üzrə əvvəlki siniflərdə öyrənilmiş "Azərbaycan! Azərbaycan!"və "Azərbaycan bayrağına" şeirləri üzrə yığcam müsahibə aparılır. Müzakirə nəticəsində yeni mövzu ilə əlaqə yaradılır, tədqiqat sualı müəyyənləşdirilir: Əhməd Cavadın həyat və yaradıcılıq yolunda hansı məqamlar onu bir şəxsiyyət və sənətkar kimi səciyyələndirir?

Şairin həyatı haqqında məlumatda şagirdlərin nəzərinə çatdırılır ki, Şəmkir rayonunun Mehrili kəndində doğulan Əhməd Cavad kiçik yaşlarından hafizəsi, kitaba, mütaliəyə həvəsi ilə seçilmişdir. Gəncə Ruhani Seminariyasına daxil olmuşdur. Hələ tələbəlik illərində yazdığı şeirlər onu oxucular arasında istedadlı şair kimi tanıtdırmışdır. Seminariyanı bitirdikdən sonra o, müəllimlik etmişdir.

Müasirləri onu mərd, mehriban bir insan, həssas təbiətli bir şair kimi xatırlayırlar. Onun haqqında yazılmış xatirələrdə göstərilir ki, Ə.Cavad çox təmkinli, ağır adam idi. Onun duruşunda, yerişində, bütün hərəkətlərində bir ağayanalıq - nəcabət, şərafət vardı. Ona dərin ehtiramla salam verir, hörmətlə baş əyirdilər.

Şairin həyat yolunun müzakirəsi zamanı onun həbs olunması səbəbləri aydınlaşdırılır. Qeyd edilir ki, Ə.Cavadın həbs olunması müstəqil dövlət, azadlıq, milli tərəqqi, türkçülük idealları ilə bağlı idi. O, Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması uğrunda fəal mübarizə aparmışdır. "Yol ver türkün bayrağına", "Dan ulduzu", "Azərbaycan, Azərbaycan", "Dağlar", "Gəncəm, hey" kimi məşhur şeirlər məhz bu dövrün məhsulu idi.

Ədibin həmin dövrdəki yaradıcılığının zirvəsi isə məşhur bəstəkarımız Üzeyir Hacıbəyovla birlikdə

yaratdığı “Milli Azərbaycan Marşı” (Azərbaycanın Dövlət Himni) idi. Bu gün də Türkiyədə çox sevilən, milli marş kimi hər yerdə ifa edilən “Çırpınırdı Qara dəniz” şeirində qeyrətli qardaşlarımızın xalqımızı dar ayaqda qoymamasının, nicat yolu açılmasının doğurduğu sevinc, nikbin ovqat aydın görünməkdədir:

Çırpınırdı Qara dəniz,

Baxıb türnün bayrağına!

“Ah!..” deyərdim, heç ölməzdim,

Düşə bilsəm ayağına!

Ə.Cavadın "Qardaş" şeri çətin günlərini yaşayan Azərbaycan Demokratik Respublikasının Milli Şurasına müraciətlə yazılmışdır. Şair gənc respublikanı fidana bənzədir, onun pöhrələnməsi, qol-qanad atması, dərin qatlara kök atıb möhkəmlənməsi üçün çalışmağın gərəkliliyini vurğulayırdı.Əsərin mətin, insan qəlbinə nüfuz edən, onu silkələyən misraları ilə xalqımızın rəhbərlərini, soydaşlarımızı ruhdan dşməməyə, Vətən naminə mübarizəyə səsləyirdi:

Təmiz alnındakı tozu, torpağı,

Həqq üçün açdığın əllərinlə sil!

Vətən bir fidandır, yaşıl bayrağı,

Soldurmamaq sənin əlindədər bil.

Azərbaycanın 1920-ci ilin aprel ayında Qırmızı Ordu tərəfindən işğalına qədər Ə.Cavadın iki şeir kitabı — “Qoşma” və “Dalğa” kitabları nəşr olunmuşdur. Bu kitablarda doğma vətənimiz , onun gözəl təbiəti, xalqımızın dərdləri, arzuları öz əksini tapmışdır. Azərbaycan yenidən işğal olunduqdan sonra Ə.Cavad 1922-1937-ci illərdə ardıcıl təqib və işgəncələrə məruz qalmış, üç dəfə həbs olunmuşdur.Bu dövrdə onun öz vətənində orijinal kitabı nəşr olunmamışdır. Lakin qədirbilən qardaş Türkiyədə, İstanbulda 1928-ci ildə şairin «İstiqlal uğrunda» şerlər kitabı nəşr olunmuşdur. Sovet hakimiyyəti illərində bütün təqiblərə baxmayaraq, Əhməd Cavad yaradıcılığını davam etdirmiş, müəllim kimi fəaliyyət göstərmişdir. "Kür", "Pambıq dastanı", " Səsli qız" poemaları, "Göygöl" lirik şeri həmin dövrün məhsuludur.

Stalin repressiyası illərində xalqımızın bir çox ləyaqətli oğulları kimi böyük şair Əhməd Cavada da «xalq düşməni» damğası vurulmuş, o, həbs olunaraq 1937-ci ilin sonlarında - 45 yaşında qətlə yetirilmişdir. Yazıçı Nurəddin Babayev öz xatirələrində həmin məşum dövrü xatırlayaraq yazır: “1937-ci ilin avqust ayı idi. Məktəbdən qayıdanda gördüm ki, atalığım divar peçini qalayıb, özü də qabağında əyləşibdir.O, böyrünə yığdığı kitabları , köhnə qəzet və jurnalları bir-bir peçə tullayır, çathaçatla yanmağını gözləyirdi. Məni görəndə günahkar nəzərlərlə üzümə baxıb dedi: “Bala, hirslənmə, əgər məni tutsalar. Bu kitabların hər biri cəzamın bir il artmasına səbəb olacaqdır. Əhməd Cavadın kitabları kimi.”

1937-ci ilin yazı idi. Azərnəşrin böyründəki küçə ilə enirdim. Küçənin tinində Ə. Cavada rast gəldim. Bu şairi tanıyanlar yaxşı bilirlər ki, o, yalnız mehriban qəlbli, incə rübablı şair deyildi. Eyni zamanda mərd, şəxsiyyətli, qədd-qamətli gözəl bir insan idi. İndi onu görəndə tanımadım. Rəngi bomboz bozarmışdı. Mənə elə gəldi ki, kişinin qədd-qaməti də sınıb, beli bükülübdür. Daima həyat eşqi ilə qaynayan iri, ala gözlərində dərin bir kədər vardı. Salamlaşdıq. O, böyük idi, mənim kefimi soruşmalı idi: «Necəsən, bala?» deməli idi. Ancaq mən özümü elə itirdim ki, «Cavad Mirzə, necəsiniz?- deyə soruşdum. Dodaqları əsdi:

- - Bala,- dedi, - indicə məni Yazıçılar İttifaqından xaric etdilər… bir düşmən kimi.”[6, s.203]

1937-ci il repressiyası zamanı xalqımızın bir çox ləyaqətli oğulları kimi Ə.Cavada da “xalq düşməni” damğası vurulmuş, o, həbs olunaraq qətlə yetirilmişdir. Hələ neçə il əvvəl yazdığı “Qaldı” adlı şerində şair sanki öz gələcək faciəsini əvvəlcədən duymuş, acı taleyini qələmə almışdır:

Bir gül idim, açılmamış dərdilər,

Zəhmətimdən mənə bir tikan qaldı.

Əmək çəkdim, gün keçirdim, gül əkdim,

Əməyimdən mənə bir fidan qaldı.

Şairin həyat və yaradıcılıq yolu üzrə müzakirə zamanı "Susmaram" şeirinin yazılması və uzun illər gizli saxlanılması barədə məlumat verilir:" 1936-cı ildə repressiyaların çağlayan vaxtlarında Əhməd Cavad vaxtilə Gəncədə Kənd Təsərrüfatı İnstitutunda bir yerdə işlədiyi müəllim yoldaşıyla şəhər bağında gəzişirmiş. Söhbət zamanı şair yoldaşına deyir: "İndi sənə bir şeir verəcəyəm, onu oxu, əzbərlə və kağızı cır. Zamanı gələndə üzə çıxar."

Müəllim şairin sözlərinə əməl edir. 1937-ci ildə Əhməd Cavad həbs edilir. Bir müddət sonra 15-20 dəqiqə sürən "məhkəmə"nin hökmü ilə güllələnir...

Şairin müəllim yoldaşı uzun bir ömür yaşayır. Şeir də heç kəsə söylənmədən 54 il onun yaddaşında qalır. 1988-ci ildə ölümünə bir az qalmış müəllim oğlunu yanına çağırır və şeiri öz oğluna əzbərlədir. Hələ Sovet İttifaqı dağılmamışdı. Odur ki, ata oğluna şeiri yaddaşında saxlamağı xahiş edir. «Susmaram!» şeiri bu dəfə oğulun hafizəsinə köçür... 90-cı illərdə təhlükənin sovuşduğunu görən oğul şeiri ara-sıra məclislərdə səsləndirir. Nəhayət, bir xeyirxah təşəbbüslə şeir 68 ildən sonra 2004-cü ildə "Gəncəbasar" qəzetində çap olunur."[9]

Dərsdə şeirdən bir parça səsləndirilir və müzakirə edilir:

Mən Türk övladıyam,
Dərin əqlim, zəkam var,
Nə vaxtacan çiynimizdə
Gəzəcəkdir yağılar?

... Niyə susum, danışmayım,
İnsanlıqda payım var,
Mənim ana Vətənimdir
Talan olan bu diyar?!

Niyə susum, danışmayım,
Türk yurdudur bu torpaq?!
Oğuzların, Elxanların
Vətənində kimdir bax!

...Süd verərkən doğma anam
Belə demişdir mənə:
Səni qurban bəsləyirəm
Türk yurduna-- Vətənə!

Bu dünyada azadlığı
Şan-şöhrətdən üstün tut,
Alçaqlığı, yaltaqlığı,
Rəzilliyi sən unut!

Sənin sevgin Vətən olsun,
Millət olsun, mən olum,
Südüm sənə haram olsun
Xəyanət etsən, oğlum!

Dərsdə Ə.Cavadın yardıcılığının mövzu, ideya-bədii xüsusiyyətlərinə müzakirəsi zamanı qeyd edilir ki, şairin bədii irsində lirika aparıcı yer tutur. Böyük şairimiz Hüseyn Cavid öz tələbəsi Əhməd Cavadın istedadını yüksək qiymətləndirmiş, "İqbal" qəzetində çap olunmuş məqaləsində onun öz müəllimi Abdulla Sura həsr etdiyi şeiri bütövlükdə vermişdir:

Ey qardaşlar bir zamanlar elmsizlik dumanı,

Cəhalətin kor pəncəsi qaplamışdır hər yanı...

"Quran" nədir? Anlamadıq,

Vətən nədir? Bilmədik!

Qarşımızda yetimlərin göz yaşını silmədik.

Ağlanacaq bir hal idi, kəndimiz də görürdük,

Dilimizin, dinimizin getməsinə gülürdük...

Göründüyü kimi, gənc olmasına baxmayaraq, hələ o dövrdə Ə.Cavadın yaradıcılığında siyasi lirikaya meyil, fəal vətəndaşlıq mövqeyi özünü qabarıq şəkildə biruzə verirdi.

Əhməd Cavadın sadə dillə yazılmış, zəngin folklor ənənələrimizin təsiri açıq – aşkar duyulan lirik əsərlərində Azərbaycana, onun nadir təbiətinə həsr olunmuş şerlər mühüm yer tutur.Vaxtilə dillər əzbəri olan, məclislərdə aşıqlar tərəfindən ifa edilən "Azərbaycan! Azərbaycan!" şeri bu baxımdan səciyyəvidir. Bu əsər ədəbiyyatımızda "Azərbaycan" adlı onlarca əsərin yazılmasına səbəb olmuşdur. Onun maraqlı məzmunu, ölməz ideyası şairləri həmişə cəlb etmiş, bu mövzuda əsər yazmağa ruhlandırmışdır.

Dərsdə ədibin yaradıcılığında mühüm yer tutan "Göygöl" şeirinin müəllimin ifasında nümunəvi ifadəli oxusu səsləndirilir. Əsər üzrə söhbət zamanı aşağıdakı suallara diqqət yetirilir:

1. Şeirin, demək olar, bütün bəndlərində Azərbaycan təbiətinin gözəllikləri xatırladılır. Bunun səbəbini necə izah edərsiniz?

2. Ölkəmizin zəngin təbii sərvəti, nemətləri şeirdə bircə-bircə sadalanır. Şair bunu nə məqsədlə edir, onun niyyəti nədir?

3. "Qorxun yoxdur, düşmanın var" misrasına diqqət yetirin. Şairi haqlı saymaq olarmı?

4. Əsərdəki başlıca fikir – ideya nədir?

Müzakirə zamanı şairin yaradıcılığının tədqiqatçısı Əli Saləddinin fikirlərinə münasibət bildirilir: "Göygöl" şeirinin üstündə 1925-ci ildə Ə.Cavad 5-6 ay həbsdə saxlanılmışdır. Şeri hətta Moskvada yoxlamışdılar. Bu müddət ərzində şairin başına açılmadığı oyun qalmamışdır. Azərbaycan ədəbiyyatında klassik bir şer nümunəsi sayılan "Göy göl" əsəri öz keyfiyyətlərinə, bədii-estetik xüsusiyyətlərinə görə misilsiz əhəmiyyətə malikdir. Azərbaycanın ən gözəl guşəsinin qənirsiz gözəlliyini yüksək poetik incəliklə əks etdirir.

"Göygöl" şerinin möhürbəndi şairin beynəlmiləl təbiətindən doğur. O istəyir ki, bu gölün sorağı hər yana, hər tərəfə, bütün dünyaya yayılsın.Ona görə də soruşur ki, bəlkə onun bir sözü var, uzaq ellərə sifarişi var? Göy gölün üstündən əsən yellər onun çaparlarıdır, qərib-qürbət ellərə gedən elçiləridir". Çünki bu zaman Cənubi Azərbaycanla , bütün türk elləri ilə əlaqə kəsilmişdi. Hətta yasaq edilmişdi. Ə.Cavad bunlara dözə bilmirdi. Burada şair Göy gölü özünə qarşı qoyur, qəlbində oyanan etiraz motivlərini büruzə verir. Bildirir ki, şöhrəti dünyanı tutmuş, dünyanın bəzəyinə çevrilmiş Göygölün nə günahı var ki, indi belə unudulub. Bax, bu cəhət şairin qəlbini ağradarda, göynədirdi, Göygöl tək qaldığına görə onu narahat edirdi.

"Göy gölü" təbiətə aid şeir kimi qələmə verənlər səhv edirlər. Bu, bizim xalqımızın, torpağımızın rəmzidir, simvoludur. Biz burada təklənmiş vəziyyətdə qalmışdıq. Bunu hamıdan tez, hamıdan həssaslıqla Ə.Cavad duya bilmiş, yaxşı ki, onu klassik, ölməz bir şerlə vəsf etmişdir." [6, s.177-178.]

Əsər üzrə müzakirə zamanı"Qoynunda yer vardır ulduza, aya" misrasındakı mətnaltı mənanın müəyyənləşdirilməsinə, hansı bəndlərdə şairin kədərinin, nisgilinin hiss olunduğuna, Göygölün əvvəlki növrağının pozulması fikrinə, müəllifin bolşevik hakimiyyəti dövründə təbiətin bu nadir möcüzəsinin xoşbəxt həyatından bəhs etməməsunin səbəbinin aydınlaşdırılmasına xüsusi diqqət yetirilir.

Ədəbiyyat dərslərində "Səsli qız" poemasının öyrənilməsinə 4 saat ayrılmışdır :

- Əsərin məzmunun öyrənilməsi – 2 saat
- Poemanın təhlili – 1 saat
- Tətbiq . Müzakirə. Yaradıcı iş. – 1 saat

Poemanın məzmununun mənimsənilməsi üzrə üzrə ilk dərsdə əsərin oxusu üzrə iş təşkil edilir. Dərsin motivasiya mərhələsində Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilir. Motivasiyanın digər variantı internet şəbəkəsindən istifadə edilərək (https://www.youtube.com/watch?v=QAgF_7xqmoI) bədii oxu ustasının ifasında əsərdən bir parçanın dinlənilməsi ola bilər.

Sonra dərslikdəki parçaların oxusu üzrə iş təşkil edilir. Şagirdlər kiçik qruplarda əsərdə tanış olmayan sözləri seçir, lüğətlərdən istifadə ilə mənasını aydınlaşdırır, əsərin janrı haqqında ilkin mülahizələrini irəli sürür, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirir, poemanın oxunmuş hissələrinə ad verirlər. Əsərin məzmunu üzrə iş ikinci dərsdə evdə oxunmuş parçalar üzrə tapşırıqların icrası ilə davam etdirilir:

1. Qaniçən hökmdarın məğlub etdiyi ölkəyə gətirdiyi fəlakətlər əsərdə necə əks olunub?
2. "Əzmişdi insanlığı

Ordusuyla padişah.

...Haqsızlıq oldu qanun,

Yıxıldı xanimanlar" misralarındakı fikirləri necə başa düşürsünüz?

3. İşğal olunmuş ölkədə zalım şahın qarşılanması üçün hansı tədbirlər görüldü?
4. Saranın bağlara müraciətlə oxuduğu mahnıda hansı fikirlər öz əksini tapıb?
5. Sizcə, Saranı şahdan intiqam almağa nə sövq etdi?
6. Aşağıdakı misralarda hansı fikir

"Azadlıq" eşidincə,

Gülümsəmə belə şad;

Saranın məmləkəti

Köhnə mənada azad" misralarındakı fikri necə başa düşürsünüz?

Təhlil dərsində əsərin məzmunu üzrə ev tapşırıqlarının müzakirəsi, obrazlarla bağlı ilkin təəssüratların öyrənilməsi tədqiqat sualının müəyyənləşdirilməsi ilə nəticələnir: Bu poemanı yazmaqda sənətkarın başlıca niyyəti nə olmuşdur?

Kiçik qruplar yaradılır, iş vərəqlərindəki sual və tapşırıqlar üzrə tədqiqat aparılır.

1. Əsərin mövzusunu müəyyənləşdirin. Fikrinizi əsaslandırın.
2. Sizcə, şairi bu mövzuda poema yazmağa nə sövq etmişdir?
3. Əsərdəki hökmdar obrazını səciyyələndirin. Fikrinizi əsaslandırın.
4. Saranın xarakteri, əməlləri barədə nə düşünürsünüz?
5. Əsərdə işlənilmiş bədii təsvir və ifadə vasitələrinin obrazlılığın artırılmasındsa rolunu aydınlaşdırın.
6. Poemada başlıca fikir nədir?

Müzakirələrdə qeyd edilir ki, "Səsli qız" poeması tarixi keçmişə, xalqımızın azadlıq mübarizəsinə həsr olunmuşdur. Əsərin qəhrəmanı Sara öz gözəl, məlahətli səsi, oxuduğu mahnılarla hamını heyran edir. Lakin vətən təhlükəyə, qonşuluqdakı qəddar hökmdarın hücumuna məruz qalanda Sara azadlıq mübarizinə çevrilir, öz istedadından vətənin azadlığı naminə istifadə etmək qərarına gəlir. Onun ölkəsini qana bulaşdırmış, günahsız insanları alçaltmış,mənəviyyatını təhqir etmiş xaqan qarşısında Sara başqaları kimi eyş-işrət mahnısı deyil, matəm mahnısı oxuyur. Xaqanın badəsinə zəhər töküb onu layiqli cəzasına çatdıran bu qəhrəman qızın hərəkəti xalqın azadlıq mübarizəsinə başlaması üçün bir işarəyə çevrilir.

Xalqın bir çox igid övladları düşmənlə qanlı döyüşlərdə şəhid olsa da, vətəni düşməndən azad edir, azadlığa çıxır. Şair xalqın azadlıq mübarizəsinin önündə gedən Saranın bədii obrazını yaratmaqla

insanın azadlıq ruhunun sarsılmazlığını, güclü, amansız düşmənlə mübarizədə vətənin hər bir övladının səfərbər olması ilə qələbə çalmağın mümkünlüyünü yüksək sənətkarlıqla əks etdirmişdir.

Dərsin ümumiləşdrimə və nəticə mərhələsində Akademik B.Nəbiyevin "Əhməd Cavad" kitabından aşağıdakı fikir şagirdlərin diqqətinə çatdırılır: "M.Ə.Rəsulzadə hələ 1922-ci ildə İstanbulda nəşr etdirdiyi "Azərbaycan Cümhuriyyəti" kitabında Ə.Cavadı bir sənətkar kimi yüksək qiymətləndirmiş, onun adını S.Ə.Şirvani, M.Ə.Sabir, H.Cavidlə bir sırada çəkərək göstərmişdir ki, Azərbaycan oxucusu "Sədini, Tolstoyu və dünyanın digər məşhur ədiblərini anlamaq üçün əvvəlcə bu adı çəkilən öz sənətkarlarının yaradıcılığını öyrənməlidir".

"Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində isə Ə.Cavadın "Qoşma" kitabını ədəbiyyatımızın klassik nümunələrindən H.Cavidin "Şeyx Sənan", M.Hadinin "Eşqi-ilahi", C.Cabbarlının "Qız qalası" əsərləri ilə yanaşı tuturdu. M.Ə.Rəsulzadənin fikrincə, Azərbaycan xalqı öz tarixinin ən həyəcanlı günlərində milli respublika quruculuğu ilə məşğul ikən "ədəbiyyat bu həyəcana tərcüman olur, milli istiqlal günlərinə yaxınlaşmanın şövq və sevinci içində yaşayır, bütün ümidini böyük həssaslıqla tərənnüm edirdi". Milli qurtuluş hərəkatını qəlbin incə tellərinə təsir göstərən bir ustalıqla əks etdirmək keyfiyyətinə görə bu 128 kitabda Ə.Cavadın "Nədən yarandın?" şeri nümunə gətirilir və əsər lirizmin bariz nümunəsi kimi təqdir olunurdu." [5, s.127-128]

Nəticə /Conclusion

İstiqlal şairi Əməd Cavadın yaradıcılığında vətənin müqəddəratı üçün cavabdehlik, xalqın istiqalalı ideyası qırmızı xətt kimi keçir. Mürəkkəb tarixi şəraitdə, ictimai-siyasi hadisələrin burulğanında o, fəal həyat mövqeyi nümayiş etdirmiş, söz sənətimizin incisi olan əsərlərində milli -mənəvi dəyərləri, istiqlal, türkçülük, dövlətçilik ideallarını tərənnüm etmiş, oxucularını xalq işi uğrunda mübarizəyə səsləmişdir.

Şagirdlər ədəbiyyat dərslərində qüdrətli sənətkarın həyat və yaradıcılığı, parlaq şəxsiyyəti, poetik istedadı, xalqın xoşbəxt gələcəyi naminə məqsədyönlü fəaliyyəti, humanizmi, bədii irsinin mənəvi ideyalar xəzinəsi olması, istiqlal poeziyasının özünəməxsusluğu, barədə dolğun bilik əldə edirlər.

Şairin həyat və yaradıcılıq yolunun tədrisində interaktiv təlim texnologiyasının tətbiqi, internet şəbəkəsindən, sənətkar haqqınd atədqiqat əsərlərindən, xatirələrdən istifadə müsbət nəticə verir. Ədəbiyyat müəllimləri böyük sənətkarın həyat və yaradıcılıq yolu, ayrı-ayrı əsərlərinin təlim materialı kimi öyrədilməsi ilə kifayətlənməməli, şagirdləri latın qrafikası ilə çap edilib məktəb kitabxanalarına hədiyyə edilmiş " Seçilmiş əsərləri"nin sinifdənxaric oxusuna cəlb etməlidir.

İstifadə edilmiş ədəbiyyat / Referenses

1. Babayev N. Babam-nənım, atam-anam və biz. Bakı: Azərnəşr, 1988.
2. Cavad Əhməd.Seçilmiş əsərləri.Tərtib edəni: Əli Saləddin. Bakı: Şərq-Qərb, 2005. 296 s.
3. Həbibbəyli İ., Əliyev S., Həsənov B., Mustafayeva A. Ədəbiyyat. XI sinif üçün dərslik.Bakı: Bakınəşr, 2018 .208 s.
4. Həsənov B., Mustafayeva A.,Əliyev S. Ədəbiyyat. XI sinif. Müəllim üçün metodik vəsait. Bakı: Bakınəşr, 2018. 208 s.
5. Nəbiyev B. Əhməd Cavad. Bakı: Proqres, 201. 130 s.
6. Salədddin Ə. Əhməd Cavad.Bakı: Gənclik, 1992. 325 s.
7. https://president.az/az/articles/view/55850
8. https://www.youtube.com/watch?v=QAgF_7xqmoI
9. http://modern.az/az/news/32531/#gsc.tab=0

TÜRK KÜTÜPHANE KÜLTÜRÜNDE KIRIM TATARLARI

CRIMINAL TATARS IN TURKISH LIBRARY CULTURE

Yunus EKİCİ

Dr. Öğr. Üyesi, Osmaniye Korkut Ata Üniversitesi, Kadirli Sosyal ve Beşerî Bilimler Fakültesi, Bilgi ve Belge Yönetimi Bölümü, Osmaniye, Türkiye

ORCID ID: 0000-0001-6300-6555

ÖZET

Türk halklarının kültür tarihinin önemli bir kısmı kitap ve kütüphane kültürü ile ifade edilmektedir. İnsan toplumunun yarattığı ilk Sümer yazılarından modern zamanlarda kullanılan Latin alfabesine kadar Türk halkları zengin ve anlamlı bir tarihe sahip olmuştur. Bu sayede başarıları kısa sürede insani kazanımlar haline gelmiştir. Eski Sümerlerde ilk resimli yazı, çivi yazısı, Orhon-Yenisey yazısı ve Uygur alfabesi, İslam öncesi Türk halklarının yarattığı büyük kültürel anıtlardır. Geniş bir coğrafyada yaşayan Türk halklarının dünya kütüphanelerinde korunan yazılı ve sözlü, ilmî-edebî mirası, çeşitli bilim adamlarının araştırmalarına geniş ölçüde yansımaktadır. Halkın kültürel ve bilimsel mirasını toplama, koruma ve hizmet etme gelenekleri eski çağlardan beri oluşmuş ve gelişmiştir. Türk halklarının defter tutma tarihini ve kütüphane kültürünü incelediğimizde zengin kültürel mirasımızın ve kültürlü insan toplumunun gelişimindeki rolünü ve katılımını takdir ediyoruz. Bu bağlamda Volga Tatarları ve Kırım Tatarlarının araştırmaları dikkat çekmektedir. Kırım Tatarlarına karşı 1928 yılından itibaren ‘‘burjuva diktatörlüğü ve mücadelesi’’ adı altında uygulanan Rusya devlet politikası, ulusal kültürel kalkınmaya yönelik saldırılarla sonuçlanmıştır. Milli kültür hareketinin önünde duran şahsiyetlerin eserlerinin çoğu fiziki olarak yok edilmiş, önemli nüshaları kütüphanelerden kaldırılmış ve yasaklanmıştır. Kırım Tatarlarının ilmi kültürlerinin yok edilmesi gayesiyle 1928 yılında Kırımda Latin alfabesi kaldırılarak Kiril alfabesine geçilmiştir. Bu bildiride Kırım Tatarlarının kitap ve kütüphane kültürlerine verdikleri önem ile Rusların Kırım Tatarlarının ilmi kültürlerine karşı uyguladığı asimilasyon politikası üzerinde durulmuştur.

Anahtar Kelimeler: Kırım Tatarları, Kültür, Kütüphane, Türk Halkları.

ABSTRACT

An important part of the cultural history of the Turkish peoples is expressed by the culture of books and libraries. From the first Sumerian scripts created by human society to the Latin alphabet used in modern times, Turkish peoples have had a rich and meaningful history. In this way, their achievements have become human achievements in a short time. The first pictorial writing, cuneiform, Orkhon-Yenisei script and Uyghur alphabet in ancient Sumerians are great cultural monuments created by pre-Islamic Turkic peoples. Written and oral, scientific-literary heritage of Turkish peoples living in a wide geography, preserved in world libraries, is widely reflected in the researches of various scientists. The traditions of collecting, preserving and serving the cultural and scientific heritage of the people have been formed and developed since ancient times. When we examine the bookkeeping history and library culture of the Turkic peoples, we appreciate the role and participation of our rich cultural heritage and the development of a cultured human society. In this context, the researches of Volga Tatars and Crimean Tatars draw attention. The Russian state policy, which has been implemented against the Crimean Tatars under the name of "bourgeois dictatorship and struggle" since 1928, has resulted in attacks on national cultural development. Most of the works of the figures who stood in the way of the national cultural movement were physically destroyed, important copies were removed from libraries and banned. With the aim of destroying the scientific culture of the Crimean Tatars, the Latin alphabet was abolished in the Crimea in 1928 and the Cyrillic alphabet was adopted. In this paper, the importance given to the book and library cultures of the Crimean Tatars and the assimilation policy of the Russians against the scientific culture of the Crimean Tatars are emphasized.

Keywords: Crimean Tatars, Library, Culture, Turkic Peoples.

GİRİŞ

Eski Sümerlerin çivi yazısıyla başladığı kitap ve kütüphane kültürü, 5 bin yıllık bir gelişim yolu ile dünya kültürüne hizmet etmiştir. Türk halklarının atası olarak bilinen Sümerler, insan toplumuna yaptıkları tüm katkılarda dünyaya açık olmuşlar, yaptıklarını komşularıyla paylaşmışlar ve bin yıl boyunca hem bedenen hem de ruhen saygınlıklarını korumuşlardır. İlk yazıyı, ilk kitabı, ilk kütüphaneyi ve ilk okulu ortaya çıkaran insanlar olarak yaşadığı coğrafyadan bağımsız olarak dünyanın çok geniş bir coğrafyasına yayılmış, insan toplumuna yeni kazanımlar kazandırmış, dar edebiyat kompleksinden uzak, insan fikirleriyle 21. yüzyıla kadar ulaşmıştır (Kazımi, 2012, s.22).

Sümerlerin ortaya çıkardığı ilk yazıdan modern zamanlarda kullanılan Latin alfabesine kadar Türk halkları zengin ve anlamlı bir tarihe sahip olmuştur. Bu sayede başarıları kısa sürede dünya halkları için büyük kazanımlar haline gelmiştir. Eski Sümer'de ilk resimli yazı, çivi yazısı, Orhon-Yenisey yazısı ve Uygur alfabesi, İslam öncesi Türk halklarının ortaya çıkardığı büyük kültürel anıtlardır. ''Tarih Sümer ile başlar'' ifadesi bilim adamları ve araştırmacılar tarafından belirli gerçekleri alıntılayarak ifade edilmiştir. Eski Sümerlerin çivi yazısıyla başlattığı kitap ve kütüphane kültürü, 5 bin yıllık gelişim süreci boyunca dünya kültürüne hizmet etmiştir. İlk yazıyı, ilk kitabı, ilk kütüphaneyi ve ilk okulu oluşturan eski Türkler, dünyanın geniş coğrafyasına yayılarak insan toplumuna ve dünya kültürüne büyük yenilikler getirmişlerdir. Eski Sümerler bilgiyi yaymak, analiz etmek ve sözlü destanlarını ve şarkılarını kitaplara aktarmak için kil tabletler kullanmışlardır ***(Zerbaliyev, 2013).***

Geçmişte ortak Türk devleti ile kabile yapısı içinde aynı olan veya aynı topluluğa mensup olan komşular arasında yakın ilişkiler vardı. Arap alfabesiyle de bu mümkündü. 19. yüzyıla kadar Kafkas (Azerbaycan) ve Küçük Asya (Türkiye) kitap yazarlarının dil ve edebi gelenekleri nedeniyle Türk-Oğuz grubuyla yakından ilişkili olduğunu söyleyebiliriz. Kültürel ve edebi kaynakları ve el yazmaları derlemesi nedeniyle Türk-Oğuz grubuna dahil olan ''Türkmen kolu'' 14. ve 15. yüzyıllara kadar Azerbaycan ve Küçük Asya ile bütünleşmiş ve daha sonra Orta Asya bölgesi ile bağlanmıştır. Kırım Türkçesi el yazması kitap, diline, geleneğine, repertuarına ve düzenine göre Küçük Asya'nın bir kolu olarak bilinmektedir. 19. yüzyıla kadar Kırım'da Türkçe yazılan eserlerin Türk-Oğuz dilinde yazıldığı anlaşılmaktadır. Arşivdeki kaynaklara göre de Kırım Tatarcası ile yazılmıştır (Kazımi, 2012, s.5).

Kırım Tatarlarının Kütüphane Kültürü

Rus kuvvetleri ilk defa 1736 yılında Münnich kumandasında Kırım yarımadasını istila ettiğinde başşehir olan Bahçesaray zapt edilerek yakılmış ve yaklaşık iki bin ev ile hanların sarayı kül olmuştur. Bu arada Selim Giray'ın kurmuş olduğu zengin kütüphane mahvolmuştu. Bu münasebetle şehirdeki birçok sanat ve kültür eserleri harap olmuş, kütüphanelerdeki kıymetli el yazmaları Ruslar tarafından yok edilmiştir. Rusların, Rum ve Ermeni Kiliselerini de yağma ettikleri ve yıktıkları göz önünde tutulursa, Rus tahribatının derecesi hakkında kolayca bir hükme varılabilir. Bu Rus tahribatından sonra Bahçesaray bir daha eski haline getirilememiştir (Arabacı, 2006, s.9). Kırım Tatarlarının yazılı edebiyatı ya da resmi edebi dili Türkçe idi. Bu nedenle Kırım'daki yazarlar genellikle Türk edebiyatına aittir. Hatta aralarında Kırım hanlarının sarayında görev yapan Türkler de vardı (Kazımi, 2012, s.143).

Ruslar asimilasyon siyasetine karşı yerli halkın gösterdiği direncin mensup oldukları dinden kaynaklandığı inancı ile (Kazan, Türkistan ve Kafkasya'da olduğu gibi) doğrudan dini müesseseleri hedef seçmişlerdi. Sadece tahrif etmekle kalmadılar ve yok etmeye çalıştıkları kitaplar sadece Kuranı Kerim'den ibaret değildi. 1736-1833 yılları arasındaki savaşlarda Ruslar tarafından Kırım'da çok sayıda kütüphane neredeyse tamamen yakılmıştı. 1833'te aralarında dini, tarihi, felsefi, coğrafya türü kitaplarının da bulunduğu çok sayıda eser bu kez evlerden toplatılmak suretiyle imha edilmiştir (Arabacı, 2006, s.31).

Rusya, Kırım'ı 1783 yılında ilk işgalinin akabinde Kırım'ı Tatarsızlaştırmaya yönelik yıllar boyunca devam edecek politikasını uygulamaya başlamıştı. Bu açıdan yalnızca Kırım Tatar halkını anavatanından koparmak, göç etmeye zorlamak veya 1944 yılında topraklarından doğrudan sürgün etmek yeterli görülmemiştir. Zira Kırım'ı "her zaman Rus olmuş bir toprak" olarak göstermek isteyen Kremlin için Kırım Tatar halkını sadece fiziki olarak yok etmek kesinlikle yetmemiştir. Çünkü Kırım'da

fiilen tek bir Kırım Tatarı kalmasa bile yer isimlerinden çeşitli mimari eserlere kadar her şey bu toprağın tam Rus olmadığını devamlı hatırlatacaktır. Bu yüzden tüm Kırım Tatar kültürel izlerini yok etmek, tarihi Kırım Tatar coğrafi isimlerini Slavca isimleriyle değiştirmek, kütüphanelerini yakmak, Kırım Tatar kültürünün ve tarihinin herhangi bir izini bırakmamak "Tatarsız Kırım" projesi için aynı derecede çok önemliydi (Morkva, 2021, s.388).

Kırım Hanlığının 1783 senesinde Rusya İmparatorluğu tarafından işgal edilerek topraklarının ilhak edilmesinden, 1883 yılında İsmail Bey Gaspıralı'nın Tercüman Gazetesini neşretmeye başlamasına kadar geçen süreç, tarihçiler tarafından Kırım Tatarları için "Karanlık Yüzyıl" olarak adlandırılmaktadır. Bu yüzyılda Kırım'ı Tatarsız bıraktırmak için Kırım Tatarlarına idarî, siyasî ve iktisadî baskılar uygulanmıştır. Nitekim bu baskılar sonucunda Kırım'dan Anadolu ve Balkanlara kitleler halinde göçler gerçekleşmişti. Bu göçler Rusya tarafından da daima teşvik edilmiş ve çoğu zaman göçlerin artması için uyguladığı baskıları şiddetlendirmiştir. Göç etmeyip Kırım'da kalanlar ise millî kimliklerini muhafaza edebilecek tüm kurum ve imkânlardan yoksun kalmışlardı. Köhneleşmiş medreselerde okuyan talebeler, okuma yazma dahi öğrenemiyorlardı. Kırım Tatar çocukları iyi bir eğitim alabilmek için Osmanlı topraklarına göç etmek yahut Rus okullarında okumak zorunda bırakılmışlardı (Aykol, 2018, s.77).

1944 sürgünüyle Sovyet yönetimi Kırım Tatarlarını köklerinden söküp atmakla kalmamış, onlara ait eserlerini de büyük oranda yok etmişlerdir. 1945'te Sovyet hükûmeti Kırım Muhtar Cumhuriyeti'ni lağvettikten sonra Kırım'ın Tatar geçmişini hatırlatacak ne varsa ortadan kaldırmak üzere harekete geçerek onları silmeye çalışmışlardır. Kütüphanelerde ve evlerde bulunan Tatar kitapları yok edilmiş, Müslüman mezarlıkları, camiler ve çeşmeler tahrip edilmiştir. Sadece büyük camiler bu tahribattan kurtulabilmiştir. Akmescit'teki Kebir Camii, Gözleve'deki Cuma Camii, Kefe'deki Müftü Camii, Bahçesaray'daki Han Camii, Eski Kırım'daki Özbek Han Camii bu yıkımın dışında kalabilmiştir. Bunlar Sovyet döneminde ateizm müzeleri veya depolar olarak kullanılmıştır. Söz konusu kültürel tahribat, 1980'li yılların sonundan itibaren vatanlarına dönen Tatarlar tarafından telafi edilmeye çalışılmıştır. Büyük bir kısmı yok edilen tarihî mirası geri getirmek mümkün olmasa da Tatarlar elde kalan eski camilerini, mezarlıklarını, medreselerini, kütüphanelerini canlandırmaya, Rusçaya çevrilen yer adlarının Tatar asıllarını geri getirmeye çalışmaktadırlar. Türkiye, Rusya, Ukrayna ve Avrupa kökenli bazı uzmanlar ve kurumlar da Tatarların bu çabalarına yardımcı olmuşlardır. Türk kurumları, Bahçesaray'da bulunan tarihî eserlerin onarılması için cömert destekler vermiştir. Çeşitli projelerle Kırım Tatar eserlerinin envanterinin çıkarılması, muhafazasının sağlanması, mevcut mimari durumlarının tespit edilmesi ve restorasyonu amaçlanmaktadır. Petersburg'daki Hermitaj Müzesi ise Kırım'da düzenli bir şekilde arkeolojik keşifler yapmaktadır (Kanlıdere, 2016, s.234).

Ruslar Kırım'da gerek Çarlık gerekse Sovyet döneminde öncelikle İslâm dinini temsil eden abidelere saldırmışlardır. Camiler, medreseler ve mezarlıklar viraneye çevrilmiş kütüphanelerdeki el yazmaları bir yere toplanarak yakılmıştır. Böylece toplumun o zamana kadarki kültürel birikimini tek seferde yok edilmiştir. Sürgün sonrası pek çok alanda olduğu gibi sanatsal faaliyetlerin de gelişimi durmuştur. Tüm zor koşullara rağmen XX. yüzyılın başlarından itibaren Kırım Tatar Türkleri millî medeniyetlerini geliştirmek için çaba sarf etmişlerdir (Keskin, 2015, s.183).

Sovyet yönetimi Kırım Tatarlarının öncelikle yazılı birikimleri olan kütüphanelerini yok etmeye çalışmışlardır. Kırım Tatarları, büyük uğraşlar vererek Mart 1991'de Akmescit'te Kırım Milli Kütüphanesi oluşturmayı başarmışlar ve adını İsmail Bey Gaspıralı Kütüphanesi olarak belirlemişlerdir. Günümüzde de faaliyetleri aktif bir şekilde sürdüren kütüphane, eski Tatar eserlerini yeniden toparlamaya, eski Sovyetler Birliği'nin başka yerlerine dağılan eserleri yeniden bir araya getirmeye çalışmaktadır. Aynı tarihlerde Karasubazar'da da bir kütüphane kurulmuş ve Bekir Çobanzade'nin adı verilmiştir. Çarlık ve Sovyet dönemi sırasında yaşanan felaketler Kırım'ın diğer şehirlerinden birçok şeyleri alıp götürmüşse de Bahçesaray bu rüzgâra direnç göstermiştir. Tarihî ve mistik güzellikleriyle insanı geçmiş asırların derinliğine ve kültür zenginliğine götüren bu şehir, Kırım hanlarının gücünün ve ihtişamının merkezidir. Gaspıralı İsmail Bey'in Türk fikir hayatında çığır açtığı muhit burasıdır. Kırım hanlarının sarayı önceleri daha müstahkem ve yüksek bir yer olan Salacık'ta iken Mengli Giray sarayı buraya taşımıştır. Şimdi güzel bir müze olan sarayı Tatarlar büyük bir itina ile korumaya çalışmaktadırlar (Kanlıdere, 2016, s.236).

18 Mayıs 1944 tarihinde Kırım'dan başta Özbekistan olmak üzere Sovyetler Birliği bünyesindeki farklı bölgelere sürülen, bu sürgün sırasında on binlerce insanını kaybeden ve1980'lerden itibaren yeniden vatanlarına dönmeye başlayan Kırım Tatarları, yüzyıllar boyunca üzerinde yaşadıkları Kırım'ı tekrardan vatan kılmaya, milli kimliklerini bu topraklar üzerinde yeniden inşa etmeye çalışmışlardır. Halen geri dönüşün getirdiği sorunlarla boğuşan ve Kırım Özerk Cumhuriyeti'nde siyasi bir varlık göstermeye çalışan Kırım Tatarlarının milli kimliklerini yeniden inşa etme çabalarında başta milli aidiyet olmak üzere dil, edebiyat, kültür ve tarih araştırmalarının önemli bir yeri vardır. Günümüzde Kırım toprakları üzerinde 350.000 civarında Tatar yaşamaktadır. 1967 yılında başlayan ve 1980'lerin sonlarına kadar bin bir güçlükle devam eden fakat 1990'da Sovyetler Birliği'nin dağılmasından sonra dev dalgalar halinde Kırım'a dönen Tatarlar, günümüzde çeşitli cemaat teşkilatlarına, cemiyetlere, vakıflara, kültür, sanat ve eğitim kurumlarına, milli mekteplere, üniversiteye, Kırım Tatar dili ve edebiyatı bölümlerine sahiptirler. Sahip olunan bütün bu şeylere rağmen milli kimliğin, özellikle de bu kimliğin ana unsurlarından olan Tatarca'nın halen ciddi bir tehdit altında olduğunu belirtmek gerekir. Sadece bazı derslerin Tatarca okutulduğu milli mekteplerdeki Tatar dili ve edebiyatı ders saatlerinin giderek azaltılması ve ancak Rus dilinde eğitim alanların devlet kademelerinde iş bulabilmeleri nedeniyle Tatar ailelerin çocuklarının Tatar dili ve edebiyatı derslerini almaları konusunda isteksiz davranıyor olmaları özellikle de Tatarca'yı giderek zayıflatmaktadır. Üstelik 2014'ten sonra Rusya Federasyonu'nun Kırım'ı ilhakı, Tatarlar arasında geçmiş işgal ve sürgün anılarını canlandırması sebebiyle bir korku ve endişe oluşturmuş, böylece milli mekteplere ve Tatarca'ya olan ilgi daha da azalmıştır (Yolcu-Aça, 2015, s.116).

Tatarların geçmişiyle günümüz arasında sıkı bir bağ vardır. Kırım Tatarları bunu herhangi bir milletten daha fazla hissetmekte, günlük hayatlarında sürekli tarihle yüz yüze gelmekte, milli hafızalarının korunmasında tarih bilmenin gerekli olduğu gerçeğiyle karşılaşmaktadırlar. Bu yüzden Kırım tarihinin Tatar bakış açısıyla yeniden yazılması büyük önem arz etmektedir. 2013'te Rusça yayınlanan bir Kırım tarihi kitabında Tatarları II. Dünya Savaşı sırasında Almanlarla işbirliği yapmakla suçlayan ifadeler yer alıyordu. Aynı yılın ağustos ayında bu tartışmalar yeniden gündeme geldi. Kırımlı Tatar yazarlar bunun doğru olmadığını ispat etmek durumunda kalmaktadırlar. Bugün Kırım Tatarlarının karşılaştığı en büyük sorun, anadilin genç kuşağa öğretilmesidir. Kırım Tatarları bir millet olarak kabul edilmedikleri için kendi milli okullarını oluşturma imkânlarından mahrum kalmışlardır. Bu da yeni nesillerin kendi dillerinden ve dolayısıyla kültürlerinden kopmalarına yol açmakta, çoğu Tatar genci kendi dilini konuşamamaktadır. Tatar ileri gelenleri bu duruma bir çare bulmak için birçok girişim yapmışlarsa da şu ana kadar olumlu bir sonuç alamamışlardır. Bazı aileler büyük gayretler sarf ederek dillerini öğretmeye çalışsa da önemli bir kesim kendi ana dilini bilmeden yetişmektedir. Bunca eziyet çekerek anayurda dönen Tatar ailelerin temel endişelerinden biri budur (Kanlıdere, 2016, s.235).

Sonuç

Netice olarak Tatarların kendine ait etnik ve kültürel hayatlarını canlandırma çabaları, sürgün hayatları yüzünden sekteye uğrayan kültürel ve milli kimliklerini tekrardan oluşturma çalışmaları olarak ortaya çıkmaktadır. Çünkü Tatarların tarihî mirası onların milli kültürel kimliklerinin çok mühim bir eseridir.

Kaynakça

Arabacı, H.M. (2006). Türk Tarihi ve Kültürü Açısından Türkiye'de Bulunan Kırım Dernek ve Vakıflarının Önemi, İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Basılmamış Doktora Tezi, İstanbul.

Aykol, U. (2018). "Kırım Ahalî Cumhuriyeti ve Kırım'da İlk Bolşevik İşgali (1917-1918)." *Uluslararası Suçlar ve Tarih,* 19, ss.75-103.

Kanlıdere A. (2016). Kırım Tatarlarının Kültürel Kimliklerini Yeniden İnşa Çabaları, *Karadeniz Araştırmaları,* 51, Güz, ss.233-243.

Kazımi, P.F. (2012). Türk Xalqlarının Kitab və Kitabxana Mədəniyyəti, "ABC" Nəşriyyatı, Bakü.

Keskin, K. (2005). Kırım Tatar Türklerinin Kültürel Hayatı (XX. Yüzyıl ve Sonrası), İstanbul Üniversitesi Sosyal Bilimler Enstitüsü Basılmamış Doktora Tezi, İstanbul.

Morkva, V. (2021). Rusya'nın 2014 İlhakı Sonrası Kırım'da Kırım Tatar Halkının Durumu, *Türk Dünyası İncelemeleri Dergisi,* 21 (2), Kış, ss.375-397.

Yolcu, M.A.-Aça, M. (2015). Kırım Tatar Kimliğini Yeniden İnşa Etme Çabalarında Süreli Yayınlar ve Kitaplarda Yer Alan Folklor Ürünlerinin Rolü (1991-2014), *Türk Dünyası İncelemeleri Dergisi,*15 (1) Yaz, ss.115-129.

Zerbaliyev, C. (2013). Medeniyyet Qazeti, Türk Halklarının Kitap ve Kütüphane Kültürü, (Erişim Tarihi: 11.08.2022), https://medeniyyet.az/page/news/20823/Turk-xalqlarinin-kitab-ve-kitabxana-medeniyyeti.html.

ŞƏXSİYYƏTİN "MƏN" KONSEPSİYASI VƏ ÖZÜNÜDƏRKETMƏSİ

Qasımova Rəna Nürəddin qızı

ADPU-nun Ümumi psixologiya

kafedrasının baş müəllimi

XÜLASƏ

Yarandığı gündən bəşəriyyət nə qədər sosial təcrübə toplasa da, dünyaya gələn hər bir yeni nəsil üçün, hər bir fərdin öz həyat tərzinə, sosial,iqtisadi şəraitə uyğun olaraq özününgerçəkləşdirməyə zərurət yaranır. Bu zərurət ondan irəli gəlir ki özünüdərketmə şəxsiyyətdə təzahür edir. Digər tərəfdən isə özünüdərketmənin yaşa uyğun dəyişməsi, onların strukturunda yeni məzmun və formanın ortaya çıxması ayrıca götürülmüş bir proses olmayıb, şəxsiyyətin inkişafının ümumi cəhətlərini əks etdirməklə yanaşı onun özünüaktuallaşdırmasının istiqamətlərini müəyyənləşdirir.

Şəxsiyyətin özünüdərketməsi hər zaman psixoloqların diqqət mərkəzində olmuşdur. Aparılan tədqiqatlar özünüdərketməyə şəxsiyyətin mühüm komponenti kimi baxmağı düzgün hesab etmişlər. Onun vasitəsilə insan nəinki xarici aləmi dərk edir, həmçinin o sosial təcrübəni mənimsəyir.

İnsanların özünü şəxsiyyət kimi dərketməsində sosial amillərin rolu ideyası U.Ceymsə məxsusdur. Özünüdərketmə sahəsində ilk addımlar da ona məxsusdur. Onun "Mən Konsepsiası" haqqındakı fikirlərinin psixologiyada təməl kimi çıxış etdiyini deyə bilərik. Ceymsin əsərində vahid bir "mən"i yaradan tərkib hissələri və ya mənliklər üzərində işlənir. İnsanların "mən", "mənə" və "mənim" ifadələri ilə əlaqələndirdiyi şeylər bu və ya digər şəkildə bu və ya digər dərəcədə özünə sərmayə qoyuluşu ilə əlaqələndirilə bilər. Ceyms Özün dərkinin üç kateqoriyaya bölünə biləcəyini iddia edir: "1. Onun tərkib hissələri; 2. Onların oyatdıqları hisslər və emosiyalar,—Özünü hiss etmək; 3. Onların sövq etdikləri hərəkətlər – Özünü axtarma və Özünü qoruma" . Birinci kateqoriya, Özünü təşkil edən komponentlər daha sonra alt kateqoriyalarına bölünə bilər. "a.Maddi Özü; b. Sosial Mən; c. Mənəvi Mən; və d. Saf Eqo" . James daha sonra yuxarıda qeyd olunan dörd alt kateqoriyanın hər birini daha ətraflı izah edir.(15)

Xalqımızın əcdadlarının etnik xarakter xüsusiyyətlərini, davranışını, adət-ənənələrini, həyat tərzini əksetdirən "Kitabi-Dədə Qorqud" dastanında da özünüdərk və özünüqiymətləndirmə məsələləri aydın sürətdə nəzərə çarpır. Dastanın sosial-psixoloji və etnopsixoloji təhlilindən aydın olur ki, dastanda təsvir olunan oğuz etnosunda özünüdərketmə, etnosun öz mənsubiyyətini anlaması nəzərə çapır. İnsanın özünüdərketməsi onun yalnız özü haqqında deyil başqaları haqqında da biliklərə yiyələnməsinə gətirib çıxarır.Həmçinində etnosun özünüdərketməsi onun özü haqqında deyil başqaları haqqında biliklərə yiyələnməsi deməkdir .

Açar sözlər: şəxsiyyət, insan, özünüdərketmə, sosial, psixoloji, etnik.

ABSTRACT

No matter how much social experience humanity has accumulated since its inception, for each new generation, each individual needs to realize himself according to his lifestyle, social and economic conditions. This necessity arises from the fact that self-awareness is manifested in personality. On the other hand, the change of self-awareness according to age, the emergence of new content and form in their structure was not a separate process, it reflects the general aspects of personality development and determines the directions of its self-actualization.

Self-awareness of personality has always been the focus of attention of psychologists. The conducted research considered it correct to consider self-awareness as an important component of personality. Through it, a person not only understands the external world, but also assimilates that social experience.

The idea of the role of social factors in people's self-perception as a personality belongs to W. James. The first steps in the field of self-awareness belong to him. James' piece elaborates on the constituents,

or selves, that create one cohesive “self. What people associate with the terms “I,” “me,” and “mine,” can all in some way or another be associated with an investment of self to some degree or another. James claims that the understanding of Self can be separated into three categories: “1. Its constituents; 2. The feelings and emotions they arouse,—Self-feelings; 3. The actions to which they prompt,—Self-seeking and Self-preservation”. The first category, the constituents that constitute Self can then be further divided into sub-categories of “a. The material Self; b. The social Self; c. The spiritual Self; and d. The pure Ego” . James then further explicates each of the four aforementioned sub-categories.

The issues of self-awareness and self-esteem are evident in the epic "Kitabi-Dada Gorgud", which reflects the ethnic character traits, behavior, traditions, and lifestyle of our people's ancestors. From the socio-psychological and ethno-psychological analysis of the epic, it is clear that self-awareness of the Oghuz ethnos described in the epic is taken into account. Self-awareness of a person leads to his acquiring knowledge not only about himself, but also about others. Also, self-awareness of an ethnos means that he acquires knowledge about others, not about himself.

Key words: personality, human, self-awareness, social, psychological, ethnic.

GİRİŞ

Müasir dövrdə insanın daxili aləminin, özünüdərketməsinin öyrənilməsi bir sıra elmlərin mərkəzi problemlərindən biridir. Bəşəriyyətin keçdiyi tarixi inkişaf prosesində nə qədər sosial təcrübə toplanmasından aslı olmayaraq, hər bir fərd üçün yaşadığı mühitə uyğun şəkildə özünüdərketmə ciddi zərrurət kimi ortaya çıxır. Hal-hazırki dövrdə Azərbaycanda keçirilən təhsil islahatlarının qarşısında da əsas məqsəd məhz şagirdlərin özünü şəxsiyyət kimi təsdiq etməsi, özünüqiymətləndirməsi, öz milli mənliyini dərk etməsi məsələləri dayanır. Lakin bir məsələni qeyd etməliyik ki, bu problemə yanaşma ümumilikdə götürülür və xüsusi ilə gənclik yaş dövründə özünüdərketmə və özünüqiymətləndirmə prosesinin inkişaf dinamikasının hansı istiqamətlərdə getdiyini müasir dövrün yeniliklərinin elmi texniki tərəqqi prosesinin onların inkişafına necə təsir göstərdiyinə lazımı diqqət yetirilmir.

Məhz bu baxımdan gənclərdə özünüdərketmə və özünüqiymətləndirmənin psixoloji mexaniziminin təşəkkül və təzahür xüsusiyyətlərinin araşdırılılması şəxsiyyətin sturukturunda yaşla bağlı baş verən dəyşikliklərin tətbiqində, təlim fəaliyyətində xüsusi ilə də peşə fəaliyyətində ortaya çıxan neqativ halların aradan qaldırılması istiqamətində xüsusi aktuallıq kəsb edir. Bu aktuallıq isə bir çox zərurətlərlə şərtlənir. Əvvəla müasir gənclik də özünüdərketmə və özünəmünasibətin xarakteri müasir dövrün tələblərindən aslı olaraq bir sıra dəyişmələrə məruz qalıb. Bu gün Azərbaycan gəncliyi Mübarizlər, Fəridlər, Polad Həşimov, İlqar Mirzəyev kimi igid oğulların siması ilə tanınır. 44 günlük Vətən müharibəsi dövründə şəhid olan oğullarımız bu gün Azərbaycan gəncliyinin qürür duyduğu övladlardır. Yaşadıqları kiçik ömrü ancaq vətənin bölünməzliyinə həsr edən ŞƏHİDLƏRİMİZ müqəddəs amal uğrunda öz canlarını qurban verərək bu gün Azərbaycan gəncliyi üçün ən dəyərli nümunə olmuşlar. Elə buna görə də ənənəvi sterotiplərlərlə, yanaşma tərzləri ilə də məsələnin həllinə nail olmaq çətindir. İkincisi isə gənclərdə özünüdərketmənin inkişaf səviyyəsinin öyrənilməsi gənclik yaş dövrü ilə bağlı baş verən dəyişikliklərin konkret psixoloji mexanizmini açmağa və problemələri araşdırıb düzgün metodikanı seçərək, onların sağlamlıqlarının qayğısına qalmağa geniş imkanlar açır.

Hələ qədim Yunanıstanın Delfi məbədinin giriş qapısında “ özünüdərk et onda allahlarıda bütün kainatıda dərk etmiş olarsan” sözləri yazılmışdır. Bir neçə min illər bundan əvvəl söylənilmiş bu aforizmin əsas hikməti bir tərəfdən insanın kainatla tamlıq təşkil etməsi ilə digər tərəfdən isə insanın özünüdərketməsi onun kainatı dərk etməsi ilə bilavasitə əlaqədardır.

ARAŞDIRMA

Şəxsiyyətin özünüdərketməsi hər zaman psixoloqların diqqət mərkəzində olmuşdur. Aparılan tədqiqatlar özünüdərketməyə şəxsiyyətin mühüm komponenti kimi baxmağı düzgün hesab etmişlər. Onun vasitəsilə insan nəinki xarici aləmi dərk edir, həmçinin o sosial təcrübəni mənimsəməyir.

Şəxsiyyətin özünügerçəkləşdirməsin də onun özünü hansı səviyyədə dərk etməsi hansı səviyyədə qiymətləndirməsi mühüm rol oynayır. İnsanın özü haqqında biliklərinin dəyişkənliyi özünüdərketmə prosesində yeni məqamlar yaradır. Özünüdərketmə dinamik və çoxtərəfli bir prosesdir.

Özünüdərketmə “Mən konsepsiyası” ilə eynilik təşkil edib, fərdin özü haqqındakı təsəvvürlərinin az və ya çox dərəcədə dərk olunmasından ibarət olan nisbi, təkrarolunmaz sistemdir. Müxtəlif tədqiqatçılar psixoloji məfhumlar içərisində özünüdərketməni fərqli yerdə qəbul edirlər.

K.Rocers özünüdərketmədən danışarkən “Mən Konsepsiya” anlayışını önə çəkir. O, hesab edir ki, “Mən Konsepsiya”sı insanın özünə ətrafına digər insanlara münasibətin də əks olunur. İnsanda olan təsəvvürlər məqsəd və fikirlər onu müsbət və yaxud mənfi istiqamətə yönəldir. Rocersin “Mən konsepsiya”-sı insanın təkcə indiki anda olduğu kimi deyil həmdə gələcəkdə necə olacağı haqqında gümanları özünə daxil edir. Müəllif özünüdərketməyə şəxsin özünü qavrama nökteyi-nəzərindən yanaşır. İstənilən bir insan üçün başqalarının onu sevmələri və qəbul etmələri vacibdir. Rocersin fikrincə hər bir insanın özünə nəzər salması vacibdir. O həmdə belə hesab edir ki, insanın digər insanlar tərəfindən qiymətləndirilməsi onda özü haqqında müsbət və mənfi obraz yarada bilər. Bu baxımdan özünüdərketmə prosesinin formalaşması insanın ətrafdakı insanlarla qarşılıqlı münasibətindən daha doğrusu sosial münasibətlərindən yaranır (12, s.15).

R.Berns “Mən konsepsiya” ya insanın özünə istiqamətlənən yönəlişliyi kimi baxır;

1. Mən–obraz, insanın özü haqqındakı təsəvvürləridir. İnsanın qavrayışının predmeti onun bədəni, qabiliyyətləri, sosial münasibətləri və bir çox şəxsi keyfiyyətləridir.

2. Özünüqiymətləndirmə insanın özü haqqındakı fikirlərini müəyyənləşdirir (öz imkanları, fiziki və mənəvi gücü)

3. Davranış tərzi özünü davranışda biruzə verən reaksiyalarda göstərir. Daha doğrusu , “Mən-obraz”-ın və ya özünüqiymətləndirmənin yaratdığı hərəkətlərdə (13, s.27).

Özünüdərketmənin və “Mənlik şüuru”nun sistemli izahı V.V.Stolin tərəfindən verilmişdir. O, “Mənlik şüuru”-nun qurluşunu şaquli və üfüqi olmaqla iki yerə bölmüş, eyni zamanda şaquli qurluşu üç inkişaf səviyyəsini ayırd etmişdir; sosial, fərdi və şəxsiyyət səviyyələri. Fərdi səviyyədə insanın özünüdərketməsinin əsasında insanın fərdi xüsusiyyətləri durur. Sosial səviyyədə insanın özünü sosial dərketməsi yəni, sosial rollarının və qaydalarının dərkedilməsi nəzərdə tutulur. Şəxsiyyət səviyyəsində isə insanın özünün şəxsi xüsusiyyətlərini, xarakter, qabiliyyət, motiv və həyatın mənasını seçmək kimi cəhətlər durur (14, s.35).

L.S.Viqotski göstərirdi ki, şəxsiyyət, affekt və intellektin vəhdətidir. Şəxsiyyətin intellektual inkişafından bəhs edərkən isə özünüdərkin zəruriliyini irəli sürürdü. Uşaq özünüdərk edincə öz davranışı və psixikasını idarə etməyi öyrənir, onun xarici aləmdən asılılığı azalır. Onun nöqteyi-nəzərincə, özünüdərketmə inkişafla əlaqədardır. Bu zaman özünüdərketmənin meydana çıxması özünüinkişafa şərait yaradaraq, özünüintizama yönəlir. L.S.Viqotskinin mədəni-tarixi konsepsiyasından çıxış edərək demək olar ki, özünüdərketmənin qurluşu və inkişaf xarakteri sosial əhatənin təsiri altında dəyişir. O, özünün ideal formasına məxsus olaraq, fəaliyyətin daxili formalarını inkişafın real formaları ilə üzləşdirir. Viqotiskiyə görə, özünüdərk daxilə ötürülmüş sosial dərketmədir (11, s.43).

Müəyyən tarixi dövr ərzində ədəbiyyatçı alimlərin əsərlərində özünüdərketmə ümumiyyətlə şəxsiyyət, onun inkişafı haqqında maraqlı fikirlər söylənilmişdir.

Amerika sosioloqu, etnoqrafı və psixoloqu M.Mid müxtəlif mədəniyyətlərin nümunəsi əsasında uşaqların psixi inkişafında sosiomədəni amillərin təsirini öyrənərək belə qənatə gəlib ki, cinsi yetişkənlik, özünüqiymətləndirmə və özünüdərk ilk növbədə xalqın mədəni ənənələrindən, təlim-tərbiyənin xüsusiyyətlərindən və ailədə ünsiyyət üslübundan asılıdır. Midin baxışları şəxsiyyət psixologiyasının inkişafında mühüm rol oynayır. M.Mid uşağın özünüdərketməsində süjetli oyunların böyük əhəmiyyət kəsb etdiyini qeyd edirdi. Uşaq oyun prosesində oyun qaydalarını mənimsəyir, ona əməl edir.M(9, s.37).

Alman psixoloqu V.Şternin fikrincə, uşaq doğularkən onun potensial imkanlarını dərk etmək çətindir. O, hələ özünü və meyllərini dərk edə bilmir. Məhz özünüdərk etməkdə, daxili aləminin qurulmasında uşağa mühit yardımçı olur. Mənfi emosiyalar bir çox hallarda özünüdərkin inkişafı baxımından stimul rolunu oynayır.

Rus tədqiqatçısı A.E.Spirkinin fikrincə, özünüdərketmə insanın hərəkətlərini, onun nəticəsini, arzularını, hisslərini, həyatda öz mövqeyini dərk edib qiymətləndirməsidir.

A.N.Leontyev özünüdərketmə problemini yüksək həyati əhəmiyyətli, şəxsiyyətin inkişafının psixoloji zirvəsi kimi səciyyələndirərək mövcud fenomeni elmi-psixoloji tənqidə müyəssər olmayan həll olunmaz problem kimi qiymətləndirmişdir (11,s.15).

Şəxsiyyətin özünüdərkinin formalaşmasına nəinki onun daxil olduğu mezo və mikro mühitin hətta daxil olduğu etnosun özünüdərk prosesi ona təsir göstərir. İrəlidə qeyd ediyimiz kimi hər bir xalq və ya etnos özünü düzgün qiymətləndirmək və tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır. Yəni etnos və ya xalq kim olduğunu, özünü nə zaman və necə dərk etdiyini hansı mənəvi-psixoloji keyfiyyətlərə, adət-ənənələrə, streotip və yönümlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını da yaxşı bilməlidir. Bu isə xalqın etnik-psixoloji xüsusiyyətlərin tarixi planda araşdırmadan, onu ətraflı öyrənmədən mümkün deyildir. Çünki etnosun təşəkkülü etnik-psixoloji xüsusiyyətlərdən kənarda götürülə bilməz. Nəzərə almaq lazımdırki, xalqa məxsus etnik-psixoloji xüsusiyyətlərin məcmusu təmərküzləşmiş formaları ilk növbədə həmin xalqın folklor və bədii ədəbiyyat materiallarında maddiləşir. Odur ki, xalqın ümumi etnik simasını, etnik xarakterini, digər etnik-psixoloji xüsusiyyətlərini, ilk növbədə etnosun özünüdərketməsinin xüsusiyyətlərini, araşdırmaq üçün yazılı abidələr, folklor materialları xüsusi əhəmiyyət kəsb edir (4, s.51).

Etnik psixoloji xüsusiyyətlər içərisində, ilk növbədə diqqəti cəlb edən cəhət etnosun özünüdərketməsi və etnik şüur səviyyəsidir. Yəni etnik özünüdərketmə və etnik mənsubiyyətin anlamı etnik əlamətlər sırasında başlıca yer tutur. ”Kitabi-Dədə Qorqud” dastanlarının sosial psixoloji və etnopsixoloji təhlilindən aydın olur ki, dastanda təsvir olunan oğuz etnosunda özünüdərketmə, yəni müəyyən etnosa mənsubiyyətin anlaşılması aydın sürətdə nəzərə çarpır. Başqa sözlə, oğuz etnosunun formalaşması sosial-psixoloji mexanizim etibarı ilə biz və onlar münasibətlərinin dərk edilməsi və qiymətləndirilməsi səviyyəsində cərəyan edir. Burada etnosun özü haqqında biliyi, şüur səviyyəsini isə özü ilə bərabər daha çox başqaları yəni digər etnos haqqında bilik kimi xarakterizə edilir. Deməli, etnik özünüdərketmə əsasən öz birliyi haqqında, etnik şüur isə həm də başqa birliklər haqqında olan bilikdir.

Xalq özünüdərk edəndə daha güclü olur. Özünüdərk edəndə onda bəşəri hisslər daha qabarıq şəkildə əksini tapır. Özünüdərk etmə çoxsahəli, çoxplanlı, mürəkkəb, və uzun sürən bir prosesdir. Onun özünün qanunauyğunluqları vardır. Bu qanunauyğunluqlar isə bir tərəfdən bəşəri xüsusiyyət kəsb edir, bütün insanlığa xalqlara aid olur, digər tərəfdən fərdi xarakter daşıyır, müəyyən bir xalqdan, onun psixologiyasından, həyat şəraitindən asılı olur (10, s.83).

Çox böyük tarixi keçmişə malik olan, ciddi tarixi qəhrəmanlıqlar nümunəsi göstərən xalqımız müxtəlif sosial psixoloji amillərin təsiri ilə müəyyən dövrlərdə mütiləşir, öz hüquqlarını, sosial mövqeyini qoruyub saxlaya bilmir. Bu halda etnosda qeyri-adekvat özünüqiymətləndirmə üstünlük kəsb edir. Nəticədə xalq mütiləşir, tez təsirə qapılır. Burada sosial sirayət mexanizmi mühüm rol oynayır. Yəni xarici və daxili təzyiqlər asanlıqla geniş kütlələrə sirayət edir, xalqda özünəinam azalır.

Məlumdur ki, etnos da milli mənlik şüurunun formalaşması ilk növbədə xalqın özünü düzgün dərk etməsi və adekvat qiymətləndirməsi ilə əlaqədardır. Bunun üçün etnosun ümumən xalqın öz nöksan və qəbahətlərini də görməsi, onlardan xilas olmaq yolları üzərində düşünməsi çox zəruridir. Bu halda xalqın özünüdərki və özünüqiymətləndirməsi daha yüksək səviyyəyə qalxmış olar

Məhz indiki şəraitdə xalqın hər bir üzvünün, ümumən bütün xalqın özünüdərk etməsi və adekvat özünüqiymətləndirməsi çox ciddi sosial əhəmiyyət kəsb edir.

NƏTİCƏ

Ümumiləşdirilmiş informasiyalar, eləcə də elmi ədəbiyyatın nəzəri təhlili nəticələrə gəlməyə imkan verir.

1. Müasir şəraitdə özünüdərketmənin və özünüqiymətləndirmənin tədqiqi çox mühüm məsələdir. Şəxsiyyətin özünüdərketməsi və özünüqiymətləndirməsi hər zaman psixoloqların diqqət mərkəzində olmuşdur. Aparılan tədqiqatlar özünüdərketməyə və özünüqiymətləndirməyə şəxsiyyətin mühüm komponenti kimi baxmağı düzgün hesab etmişlər. Onun vasitəsilə insan nəinki xarici aləmi dərk edir, həmçinin o sosial təcrübəni mənimsəməyir. Ancaq bu problem araşdırsada gənclik yaş dövrünün özünüdərki və özünüqiymətləndirməsi, milli özünüdərk məsələləri araşdırılmamış qalır.

2. Gənclik dövründə gənclərdə böyüklük hissi yüksəlir. Gənclər özlərinin artan imkanlarını dərk etməyə başlayırlar. Bütün bunlar həmin dövrdə özünüdərketmə meylinin daha sürətlə inkişaf etdiyini göstərir. Bu dövrdə gənclər özlərini, öz şəxsiyyətlərini yaxşı anlamağa başlayır, özünüqiymətləndirmə meylləri güclənir, mənlik şüurları, özləri haqqında təsəvvürləri dəyişir. Onlar bir növ öz mənlərini dərk edirlər. Bu dövrdə gənclərdə özünüdərketmənin inkişafı ilə yanaşı mənlik şüurunun məzmunu da dəyişir, özləri haqqında təsəvvürləri artır. Bu formalaşma prosesi müxtəlif amillərin-ailə, genişlənən sosial mühit və.s təsiri ilə baş verir.

3. Müəyyənləşdirilmişdir ki, fərdin özünüdərkinin formalaşmasına nəinki onun daxil olduğu mikro mezo və makro mühitin hətta daxil olduğu etnosun özünüdərk prosesi ona təsir göstərir. Hər bir xalq və ya etnos özünü düzgün qiymətləndirmək və tərəqqiyə nail olmaq üçün yalnız özünün sosial-iqtisadi tarixi keçmişinə deyil, həm də öz psixoloji keçmişinə dərindən bələd olmalıdır. Etnosun özünüqiymətləndirməsi isə mürəkkəb proses olub onun özünü necə dərk etməsi ilə əlaqədardır.

4. Şəxsiyyətin özünüqiymətləndirməsi sosial şəraitlə birbaşa əlaqədardır. Belə ki, şəraitdən asılı olaraq özünüqiymətləndirmə səviyyəsi aşağı orta və yüksək ola bilər. Onların təzahür etməsində ailə, mühit və tərbiyə mühüm rol oynayır.

ƏDƏBİYYAT SİYAHISI

1. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı, “Avropa” ,2005, 286s.

2. Ağayev Ş. S., Mehdizadə Z. M., Fərəcov. İ.A. Yaş və pedaqoji psixologiya. I hissə. Bakı, ADPU, 1974, 120 s.

3. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Sosial Psixologiya. Bakı, “Qapp-Poliqraf”, 2003, 355s.

4. Bayramov Ə. S. Etnik psixologiya məsələləri. Bakı, “Renessans”, 2001, 374s.

5. Bayramov Ə. S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri. Bakı, “Azərnəşr”, 1981, 188s.

6. Bayramov Ə.S. Gənclik və özünütərbiyə haqqında. Bakı, “Birləşmiş”, 1961, 39s.

7. Bayramov Ə.S Gənclik və özünütərbiyə haqqında söhbət. Bakı, “Gənclik”, 1969, 135s.

8. Baxşəliyev Ə.T. Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti. Bakı, “Zərdabi LTD” 2008, 528s.

9. Cabbarov R.V. Yeniyetmələrdə özünüdərketmə prosesinin psixoloji təhlili. diss.psixol.e.n.dər.al. üçün. Bakı, 2004, 167 s.

10. Əliyev R.İ. Şagird şəxsiyyətinin formalaşmasının milli xüsusiyyətlərinin nəzərə alınması. Bakı, “Maarif”, 1995.

11. Əliyeva.V.A. Kiçik məktəblilərdə özünüqiymətləndirənin təşəkkül xüsusiyyətləri, diss.psixol.e.n.dər.al.üçün. Bakı,1999, 199s.

12. Mirzəyeva S.S. Psixologiyada şəxsiyyət problemi və onun tədqiqi isiqaməti. Psixologiya jurnalı №4, 2007, 12-16s

13. Бернс Р.Развитие «Я-концепции” и воспитание, М., 1989,422 с.

14. Сеидов С.И. Социальная психология творчества,Баку, 1994. 275

15. http://mills-soc116.wikidot.com/notes:james-self-and-its-selves

MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA TƏNQİDİ TƏFƏKKÜRÜN TƏZAHÜR FORMALARI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

MANIFESTATION FORMS AND DEVELOPMENT CHARACTERISTICS OF CRITICAL THINKING IN PRESCHOOL CHILDREN

dos. Heydərova Simnarə Nadir qızı

Azərbaycan Dövlət Pedaqoji Universiteti

Pedaqoji psixologiya kafedrasının müəllimi

XÜLASƏ

Məktəbəqədər yaşlı uşaqlarda tənqidi təfəkkür onun ətraf aləmdə baş verən hadisələrə intellektual münasibətini təmin edir. Bu halda uşaq ona təsir edən hadisələri qarşısına çıxan məsələləri kor-koranə deyil, məntiqi düzgün anlamağa çalışır və öz tənqidi mülahizəsini də deyir. Alman psixoloqu tənqidi təfəkkürün üç növünü (etik, estetik və intellektual) qeyd edir. Təbii ki, məktəbəqədər yaşlı uşaqların bir şəxsiyyət kimi formalaşmasında həmin tənqidi təfəkkürün növləri birgə fəaliyyət göstərir. Ən əhəmiyyətlisi isə onlarda intellektual tənqidi təfəkkürün inkişaf etdirilməsidir. Uşaqlarda təfəkkürün inkişafı ilə İsveçrə psixoloqu J.Piajenin tədqiqatları daha çox diqqəti cəlb edir. Təfəkkürün keyfiyyətləri, təşəkkül və təzahür formaları ilə bağlı onun yazdığı "Təfəkkür və nitq" adlı əsərində qeyd edir ki, məktəbəqədər yaşlı uşaqlarda ziddiyyətli fikirlərə münasibət tələbatı fərdi həyatın içərisindən öz-özünə əmələ gəlmir, əksinə o ictimai həyatın məhsuludur.

Təfəkkür və onun keyfiyyətləri anadangəlmə bir psixi proses deyildir. O həyatda, ailədə, bağçada həmyaşıdlılar və yaşlılarla ünsiyyətdə təşəkkül tapıb inkişaf edir. Uşaq dünyaya gələrkən hazır təfəkkür qabiliyyəti ilə doğulmur. Məktəbəqədər yaşlı uşaqlarda tənqidi təfəkkür sadə şəkildə olsa da iki-üç yaş arasında özünü göstərir.

Müşahidələr göstərir ki, uşaqda təfəkkür və onun keyfiyyətləri əsasən iki yaşa girəndə sadə ümumiləşdirmə, hadisələrə tənqidi münasibət, müstəqillik şəklində özünü biruzə verir, həyat şəraiti və tərbiyənin təsiri ilə inkişaf edir. Bir yaşlı uşaq ətraf aləmin cisim və hadisələrini duyur və qavrayır, tədricən həyat təcrübəsi əldə edir, cisimlərlə yaxından tanış olmağa başlayır. Bunun nəticəsində o, təxminən iki yaşa qədəm qoyanda ilk ümumiləşdirmələrdən, müstəqil mühakimələrdən, tənqidi fikirlərdən istifadə edir.

Məktəbəqədər yaşlı uşaqlarda təfəkkür və onun keyfiyyətləri bir sıra amillərin təsiri ilə tədricən inkişaf edir. Əvvəlcə aciz bir məxluq kimi dünyaya gələn uşaq, hər şeydən əvvəl fiziki cəhətdən inkişaf etməyə başlayır. Onun bütün bədən üzvləri ilə yanaşı olaraq sinir sistemi də formalaşır. Hələ ilk vaxtlarından başlayaraq uşağın sinir hüceyrələri təkmilləşir, bu hüceyrələri ətraf sahələrlə əlaqələndirən çoxlu əsəb telləri yaranır; beyin qabığının ali şöbələri xeyli dərəcədə inkişaf edir, nəticədə onun rəhbər və tənzimedici fəaliyyəti uşağın həyatında getdikcə daha böyük rol oynamağa başlayır. Ali sinir fəaliyyətinin bu qayda ilə inkişafı uşağın bütün psixi həyatının, o cümlədən təfəkkürünün əsasını– özülünü təşkil edir. Beyində, ali sinir fəaliyyətindən kənarda uşağın psixi həyatının heç bir cəhəti, o cümlədən təfəkkür prosesi də baş verə bilməz. Deməli, uşaqda təfəkkürün inkişafı onun beyninin, ali sinir fəaliyyətinin, hiss üzvlərinin inkişafı ilə, başqa sözlə, onun ümumi fiziki inkişafı ilə sıx əlaqədardır.

Açar sözlər: məktəbəqədər, şagird, təfəkkür, psixoloq, xüsusiyyət, yaş.

ABSTRACT

Critical thinking in preschool children ensures their intellectual attitude to the events happening in the surrounding world. In this case, the child does not blindly try to understand the issues that affect him, but logically, and gives his critical opinion. The German psychologist mentions three types of critical thinking (ethical, aesthetic and intellectual). Of course, these types of critical thinking work together in

the formation of preschool children as a personality. The most important thing is to develop intellectual critical thinking in them. With the development of thinking in children, the studies of the Swiss psychologist J. Piaget attract more attention. In his work entitled "Thinking and speech" about the qualities, formation and manifestation of thinking, he notes that the need for conflicting ideas in preschool children does not arise by itself from within individual life, but rather is a product of social life.

Thinking and its qualities are not an innate mental process. It develops and develops in life, in the family, in the kindergarten, in communication with peers and elders. A child is not born with ready thinking ability. Critical thinking in preschool children appears between the ages of two and three, albeit in a simple way.

Observations show that a child's thinking and its qualities mainly manifest themselves in the form of simple generalization, critical attitude to events, independence when they reach the age of two, and develop under the influence of life conditions and upbringing. A one-year-old child feels and perceives the objects and events of the surrounding world, gradually gains life experience, and begins to get to know objects closely. As a result, he uses the first generalizations, independent judgments, and critical thoughts when he is about two years old.

Preschool children's thinking and its qualities develop gradually under the influence of a number of factors. First born as a helpless creature, the child begins to develop physically first of all. Along with all his body parts, the nervous system is also formed. From the very beginning, the child's nerve cells are developing, many nerve fibers are formed that connect these cells to the surrounding areas; the higher branches of the cerebral cortex develop significantly, as a result of which its guiding and regulatory activity begins to play an increasingly large role in the child's life. The development of higher nervous activity in this way forms the basis of the child's entire mental life, including his thinking. In the brain, no aspect of the child's mental life, including the thinking process, can take place outside of higher nervous activity. Therefore, the development of thinking in a child is closely related to the development of his brain, higher nervous activity, sense organs, in other words, his general physical development.

Key words: preschool, student, thinking, psychologist, characteristic, age.

Real aləmin dərk edilməsi duyğu və qavrayışla başlasa da, onlarla bitmir və idrak prosesləri təfəkkür prosesi ilə davam edir. Duyğu və qavrayışdan alınan məlumatlar hissi idrakın səviyyələri kimi təfəkkürün dərketmə sərhədlərinin genişlənməsində həm prosesual, həm də informasiya dayaqları rolunu oynayır. Təfəkkür prosesinin gücündə idrak prosesi həm dərinləşir, həm də genişlənir. Təfəkkür duyğu və qavrayışın köməyi ilə əldə edilmiş biliklərin ayrı-ayrı hissələrini müqayisə edir, qarşılaşdırır, fərqləndirir, münasibətləri ayırd edir, yeni bilikləri kəşf edir və hissi idrakdan verilən şeylərin əlamətlərini mücərrədləşdirir, qarşılıqlı əlaqələri aydınlaşdırır və gerçəkliyin mahiyyətinə vararaq onu dərk edir. Təfəkkür reallığı onun münasibət və əlaqələrində onun çoxobrazlı vasitəli tərəfləri ilə birlikdə əks etdirir.

Təfəkkür- insanın psixi, idraki fəaliyyətinin ən yüksək pilləsi olub, gercəkliyin onun mühüm əlaqə və münasibətlərini keçmiş təcrübə və ümumiləşmiş nitq vasitəsi ilə əks etdirir. Ona görə də təfəkkürü cism və hadisələr arasındakı qanunauyğun əlaqə və münasibətlərin ümumiləşmiş və vasitəli inikasından ibarət olan idrak prosesi adlandırılır.

İnsanın biliyi və keçmiş təcrübəsi hissi idrakla və hafizə ilə qarşılıqlı əlaqəyə girərək onları dəyişdirir. L. S. Vıqotski bu prosesi hafizə və qavrayışın intellektuallaşması prosesi adlandırırdı. Qavrayış idrakı nöqteyi nəzərindən kateqoriya və düşünmə xüsusiyyətləri, hafizə isə sözlü- məntiqi xarakter daşıyır.

Təfəkkür prosesində insan özündə olan bilikləri praktik təcrübə yolu ilə uyğunlaşdırır və bu insana imkan verir ki, o mahiyyətin daha dərin qatlarına varid ola bilsin. Praktik fəaliyyət gerçəkliyin dərk edilməsinin həqiqət ölçüsü kimi çıxış edir. Təfəkkür vasitəsi ilə insan dünyanı dərk edir, ona təsir edərək dəyişir. Təfəkkür insanın əmək fəaliyyətindən doğmuşdur və məqsədə çatmaq yolunda, müvəffəqiyyət qazanmada qarşıya çıxan maneələri aradan qaldırmağın yollarını arayır.

Psixologiyada təfəkkürü konkret subyektin real psixi fəaliyyəti kimi, təfəkkürün necə inkişaf etməsini, necə yaranmasını,onun strukturunu, digər fəaliyyət növü ilə qarşılıqlı əlaqələrini öyrənir. Təfəkkürün

təbiətini açan A. N. Leontyev qeyd edirdi ki, təfəkkürün quruluşu praktik fəaliyyətin quruluşuna yaxınlığı ilə prinsipial xarakter daşıyır. Təfəkkürün motivi tez-tez fəaliyyətin motivi ilə üst-üstə düşür. Fikri fəaliyyət praktik fəaliyyətdən fərqli olaraq özünün spesefik xüsusiyyətlərinə malikdir. O daxilidir, qisaldılmışdır və avtomatlaşmışdır.

Uşaqlarda təfəkkürün inkişafı nitqə, onun lüğət ehtiyatına və qrammatik quruluşuna tədricən yiyələnməsi prosesi ilə ayrılmaz sürətdə bağlıdır. Lakin, uşaq bu idrak prosesini də dünyaya gələrkən, özü ilə hazır şəkildə gətirmir.

Uşaqlarda təfəkkür bir sira amillərin təsiri ilə tədricən formalaşır. Aciz bir varlıq kimi dünyaya gələn uşaq, ilk növbədə fiziki cəhətdən inkişaf etməyə başlayır. Bu prosesdə onun sinir sistemi də inkişaf edir. İlk aylardan başlayaraq,uşağın sinir hüceyrələri formalaşır və beyin qabığı xeyli dərəcədə təkmilləşir. Baş beyin qabığının bu qayda ilə inkişafı uşağın bütün psixi həyatının, o cümlədən təfəkkürün də özülünü təşkil edir, deməli, uşaqda təfəkkürün inkişafı onun ali sinir fəaliyyətinin, hiss üzvlərinin inkişafı ilə sıx sürətdə əlaqədardır.

Uşaqlarda hökmlər sadə formadan mürəkkəbə doğru tədricən inkişaf edir.Bu prosesdə uşaqların müntəzəm biliyə və ana dilinin qrammatik quruluşuna dərindən yiyələnmələri mühüm rol oynayır. Uşaqlar ətraf varlığı daha əhatəli və dərindən dərk etdikcə, onların hökmləri də dəqiq və mənalı olur.

Məfhum və hökmlərin inkişafı ilə yanaşı uşaqlarda əqli nəticə də formalaşmağa başlayır. Uşaqlar təcrübəyə və biliklərə yiyələndikcə onlarda həm induktiv,yəni ayrı-ayrı faktlardan ümumi nəticə çıxarmaqdan ibarət olan istidlaldan,həm də deduktiv,yəni ümumi nəticəni ayrı-ayrı hallara tətbiq etməkdən ibarət olan istidlaldan istifadə edirlər. Doğrudur, uşaqların düşüncəsi hələ məntiqin bütün qanunlarına uyğun olaraq inkişaf etmir. Onların çıxardığı nəticələr öz formasına görə çox sadə və qısa olur.

Uşaqlarda psixi və eləcə də təfəkkür inkişaf etdikcə onlarda təfəkkürün tənqidiliyi də özünütəzahür etdirməyə başlayır. Təfəkkürün tənqidiliyi ağlın bir keyfiyyətidir. Ağlın tənqidiliyi dedikdə- fikri fəaliyyəti qiymətləndirmə və irəli sürülmüş fərziyyələrin analiz sintez edilərək ya qəbul, ya da inkar edilməsidir. Təfəkkürün tənqidiliyi inkişaf etməyən insan ağlına gələn ilk fikri ən yararlı fikir kimi qəbul edir. İnsanda təfəkkürün tənqidiliyinin olduğunu sübut edən əsas göstərici onda söylədiyi, düşündüyü hər fikri fərziyyə kimi qəbul etməsi, onun üstündə çalışması və sonda ən sərfəli qərarın qəbul edilməsidir. Rubinşteyn S. L deyirdi ki, tənqidilik- yetkinləşmiş ağlın göstəricisidir.

Bayramov Ə. S öz elmi işlərində təfəkkürün tənqidiliyini müəyyən etməyə, onu elmi cəhətdən izah etməyə çalışmış ilk şəxslərdən biridir. Onun fikrincə tənqidilik- formalaşmış şəxsiyyətin məsələni optimal həll edilməsinə yönəlmiş əqli qabiliyyətidir. O, qeyd edirdi ki, tənqidilik insanın sadəcə qoyulmuş faktları qiymətləndirməsi deyil, eyni zamanda daxil olan informasiyaların daim yoxlanılması və təkrarən yoxlanılmasına əsaslanan keyfiyyətdir. Məhz tənqidilik sayəsində insan ən qısa, müsbət nəticə verən və rasional davranış fəaliyyətini seçə bilir.

Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların tərbiyəli, ağıllı, zəkalı, hərtərəfli inkişaf edib formalaşması dövlət əhəmiyyətli bir problem kimi qarşıda durur.

Çünki insanın bir şəxsiyyət kimi formalaşmasının əsası məhz məktəbəqədər yaş dövründən başlayır. Məktəbəqədər yaş dövründən başlayaraq uşaqlar ümumiləşdirmə, təhlil – tərkib bacarığına yiyələnməli, müstəqil fikir yürütməyə səy etməli, hadisələrə tənqidi münasibət bəsləməyi öyrənməli və buna bir növ vərdiş etməlidir. Elm də, təhsil də, ümumiyyətlə həyatda uşaqların uğurlu fəaliyyət göstərmələri əqli düşüncə ilə, intellektual bacarıqlarla bağlıdır. Məktəbəqədər yaşlı uşaqlarda isə bu intellektual bacarıq və vərdişlər (əqlin müstəqilliyi, tənqidiliyi, dərinliyi, çevikliyi, genişliyi, konkretliyi və s.) təlim – tərbiyə prosesində təşəkkül tapıb formalaşır və həm də həmin proseslərə əsaslı təsir göstərir. Ona görə də əqli keyfiyyətləri araşdırmaq, onların müxtəlif yaş dövrlərində inkişaf dinamikasını müəyyənləşdirmək təlim və psixi inkişaf arasındakı qarşılıqlı əlaqələri aydınlaşdırmaq baxımından da əhəmiyyətlidir. Təfəkkür keyfiyyətlərinə malik olan uşaqlar onlara tapşırılan işin öhdəsindən asanlıqla gələ bilir. Müəyyən kiçik problem haqqında müstəqil düşünə bilir. Hər hansı bir fikrə tənqidi münasibət bəsləyə bilirlər. Ağlın müstəqilliyi, tənqidiliyi zəif olan uşaqlar tərbiyəçinin, valideynlərin köməyi olmadan onlara tapşırılan işin öhdəsindən gələ bilmirlər. Belə uşaqların həmişə köməyə ehtiyacları olur. Bir sözlə ağıllı uşaqlar həyatda həmişə özünə yer tapır, öz gələcək həyatlarını qura bilirlər.

Məktəbəqədər yaşlı uşaqlarda təfəkkürün, xüsusi ilə onun keyfiyyətlərinin inkişafı problemi pedaqoq və psixoloqların diqqətini cəlb etmiş və bu sahədə müəyyən tədqiqatların əmələ gəlməsinə səbəb olmuşdur. (L.S.Vıqotski, A.V.Zaparojets, E.İ.Zeyliqer, V.İ.Loqinov, N.M.Poddyakov, A.L.Venqner və başqaları). Onlar qeyd edirlər ki, məhz məktəbəqədər yaşda təsəvvürlərin və yaddaşın fundamenti qoyulur, hansı ki, bu, uşağın uğurlu əqli inkişafını təmin edir. Məktəbəqədər yaş dövrü mərhələsi ümumiləşdirmə, nəticə çıxarmaq, abstraksiyanın başlanğıc formasının yaranmasında mühüm rol oynayır. Uşaq həyatının ilk 6 ili təkcə elmi biliklərin, faktların, ümumiləşdirmələr aparmağın sadəcə aşkarlanması mərhələsi deyil, həm də başa düşülməsi, dərk edilməsi üçün mühüm mərhələdir (L.S.Vıqotski, E.İ.Zeyliqer, O.Şerbo).

L.S.Vıqotski ilk dəfə belə bir fikri irəli sürmüşdür ki, "uşağın intellektual cəhətdən məktəbə hazırlığı təsəvvürlərin kəmiyyət göstəriciləri ilə deyil, uşaqlarda gedən intellektual proseslərin inkişaf səviyyəsi, uşaq təffəkürünün xüsusiyyətləri ilə müəyyən olunur. L.S. Vıqotskiyə görə məktəb təliminə hazır olmaq hər şeydən əvvəl ümumiləşdirmək, ətraf aləmin cisim və hadisələrini müvafiq kateqoriyalarda qruplaşdırmaq bacarığına yiyələnmək deməkdir."

Həmçinin L.S.Vıqotski yazırdı: "Məktəbəqədər yaşlı uşaq öz imkanlarına görə əvvəl müvəffəq ola bilmədiyi təlimin hər hansı bir yeni mərhələsinə başlamaq qabiliyyətinə malikdir. O, bu təlimi hər hansı bir proqram üzrə mənimsəməyə qabildir, eyni zamanda həmin proqramı oz təbiətinə, maraqlarına, təcrübəsinin zənginliyinə, təfəkkürünün səviyyəsinə görə o dərəcədə mənimsəyə bilər ki, bu onun öz proqramı çərçivəsində olsun".

Bir çox tədqiqatçılar uşaqlarda anlayışların formalaşması məsələsini geniş işıqlandırmışlar. Məsələn, P.Y.Qalperin göstərir ki, " Məktəbəqədər yaşlı uşağa mücərrəd təfəkkürün sadə formaları məxsusdur. Əqli proseslərin tədricən formalaşdırılması nəzəriyyəsinə əsaslanaraq o, belə bir qənaətə gəlmişdir ki, məktəbəqədər yaşlı uşağın əqli inkişafı və tərbiyə prosesini təlim zamanı idarə etmək olar." A.L.Venqerin, N.N. Podyakovun tədqiqatlarında məktəbəqədər yaşlı uşaqları gerçəkliyin ümumiləşdirilmiş şəkildə dərk edilməsi üçün əyani əşya modelləri əsasında öyrətməyin xüsusi yer tutduğu qeyd olunur

Rus psixoloqu A.V. Zaporojets qeyd etmişdir ki, subyekti gerçəkliyi dərk etməyə yönəldən fəal proseslər mürəkkəb üzvi və fizioloji funksiyalarla bağlıdır. Bu baxımdan təfəkkür və onun formaları, xüsusiyyətləri, keyfiyyətləri, uşağın həyatı, təlimi və tərbiyəsi prosesində meydana gələn mürəkkəb fəaliyyətdir. Təfəkkürün təzahürü uşaqda gerçəkliyə düşüncəli münasibət yaradır. Onları cisim və hadisələrin daxili mahiyyətini üzə çıxarmağa sövq edir.

Avstriya alimi K.Büler belə hesab edirdi ki, sözün həqiqi mənasinda inkişaf dedikdə, əvvəla, tibbi imkanları, ikincisi isə onların həyata keçirilməsi istiqaməti yaxud məqsədi başa düşülür. Onun fikrincə, orqanizmdə lap əvvəldən hazır şəkildə mövcüd olan məqsədin həyata keçirilməsi psixi həyatın təkmilləşməsinə səbəb olur. Hər bir fərd öz inkişafında ardıcıl olaraq instinkt, vərdiş və intellekt mərhələlərini keçir. Psixikanın inkişafında daxili ritm, mənəvi yetkinlik təzahür edir. Xarici təsirin rolu ondan ibarətdir ki, həmin daxili ritmi ya sürətləndirir, ya da ləngidə bilir. Bulerin fikrincə orqanizmdə daxili məqsəd vardır ; inkişafın istiqamətini də məhz o təyin edir.

Təfəkkür və onun keyfiyyətləri anadangəlmə bir psixi proses deyildir. O həyatda, ailədə, bağçada həmyaşıdlılar və yaşlılarla ünsiyyətdə təşəkkül tapıb inkişaf edir. Uşaq dünyaya gələrkən hazır təfəkkür qabiliyyəti ilə doğulmur. Məktəbəqədər yaşlı uşaqlarda tənqidi təfəkkür sadə şəkildə olsa da iki-üç yaş arasında özünü göstərir.

Uşaqların tənqidi təfəkkürünü inkişaf etdirmək üçün onlara təbiət və cəmiyyət haqqında dolğun məlumat verilməlidir. Onlarda həyat təcrübəsi məhdud olduğu üçün təfəkkürləri də konkret xarakter daşıyır. Ona görə də onlara verilən hər hansı bir məlumat konkret olmalıdır. Tərbiyəçi bilməlidir ki, uşaqlara ayrı-ayrı faktlar haqqında məlumat vermək, tənqidi təfəkkürün inkişafını hələ təmin etmir. Təfəkkür məqsədəyönəlmiş bir psixi proses olduğu üçün uşaqların qarşısına müəyyən konkret vəzifələr qoymalı və onun həllinə nail olmaq lazımdır. Bunun üçün uşaqların tənqidi təfəkkürünü inkişaf etdirmək üçün onların bütün psixi xüsusiyyətlərini səfərbər etmək lazımdır. Uşaqlarda tənqidi təfəkkürü inkişaf etdirmək üçün valideynlərdən tərbiyəçilərdən o qədər də ciddi əmək tələb olunmur. Onların yaşına uyğun mətnlərdən, şəkillərdən, nağıllardan, atalar sözlərindən istifadə etmək olar.

Məktəbəqədər yaşlı hər hansı bir mətndə, şəkildə uyğunsuzluğu taparkən, həmin uyğunsuzluğun "nə üçün" düzgün olmadığının izahını verməkdə çətinlik çəkir. Çox vaxt onlar mətndəki uyğunsuzluğu taparkən "düzdür" və "düz deyil" ifadələri ilə yekunlaşdırırlar. Belə tənqidi təfəkkür çox bəsit və ya intuitiv tənqid adlanır. Burada səhvin nədən ibarət olması açılmır. Nəyin necə olması, düzəldilməsi göstərilmir. Bunun üçün tənqidi təfəkkürlə bağlı bacarıqları inkişaf etdirmək məkətəbəqədər yaşlı uşaqlarla aparılmış mətnlərdəki, şəkillərdəki uyğunsuzluqlar aydınlaşdırılmalı və onlarda bu barədə konkret təsəvvürlər yaradılmalıdır. Təbii ki, uşaqların yaş xüsusiyyətləri, bilik səviyyələrindən, təcrübələrindən asılı olaraq təfkkür sahəsində də fərdi fərqlər özünü göstərir. Tənqidi təfəkkür orta (3-4) və böyük (5-6) qruplarda olan uşaqlarda mövcüddür. Lakin onun təzahürü və inkişafı üçün qarşıya ümumi xarakterli məqsədin qoyulması kifayət deyildir. Həmin imkanları gerçəkləşdirmək üçün daha konkret xarakter daşıyan suallara, vasitələrə əl atmaq lazımdır. Bu yaşda uşaqlarda özünütənqid, yoldaşlarının, başqalarının fikirlərini ölçüb biçməyə daha çox meyl göstərirlər. Lakin, uşaqlar bilməlidirlər ki, bir hadisəni, fikri, tərbiyəçinin, ananın, atanın, yoldaşlarının dediklərini tənqid etmək üçün oradakı fikirləri dərindən öyrənmək, onlara intellektual cəhətdən yanaşmaq lazımdır. Tənqidi təfəkkür uşaqları həqiqətə yaxınlaşdırır. Onlarda düzlük, doğruçuluq, ədalət, elmilik kimi əxlaqi keyfiyyətləri formalaşdırır. Uşaqlar bilməlidirlər ki, tənqid qərəzsiz, heç kəsin şəxsiyyətinə toxunmadan həyata keçirilməlidir. Tənqidlə təhqir arasındakı fərqlər nəzərə alınmalıdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Azərbaycan respublikasında ümumi təhsilin milli kurrikulumu. Bakı 2015
2. A. Zamanov, Hökümə Əliyeva. Özünü tanı. Bakı, 2016, 332s
3. Ağayev Ə.A. Fərhad Ağazadənin pedaqoji görüşləri, Bakı-1987.
4. Ağayev Ə.A., Talıbov Y.R., Eminov A, İsayev İ. Pedaqogika, Bakı-2006.
5. Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika, Bakı-2000.
6. Ağayev M.H. Humanitar fənlərin tədrisiprosesində məktəblilərin vətənpərvərlik tərbiyəsi, Bakı-2004.
7. Ağayev M.H. Kiçik yaşlı məktəblilərin tərbiyəsi, Bakı-2006.
8. Ə.Baxşəliyev, Azərbaycanda psixoloji fikrin təşəkkülü, inkişafı və müasir vəziyyəti, Bakı, 2008, 319s
9. Ə.Baxşəliyev, Azərbaycan milli-mənəvi dəyərlərinin sosial-psixoloji mahiyyəti, Bakı, 2011, 410s
10. Ə.Ə.Əlizadə, İstedadlı uşaqlar psixopedaqoji məsələlər, Bakı, 2005
11. http://psixologiya.net/?p=516
12. www.kayzen.az

ATALAR SÖZLƏRİNİN İŞIĞINDA

IN THE LIGHT OF PROVERBS

Rəhilə Hümmətova, f.ü.f.d. dosent

Azərbaycan Dövlət Pedaqoji Universiteti

XÜLASƏ

Həm lirik, həm də epik növlərdə araya-ərsəyə gətirilən atalar sözünün ifadə etdiyi mətləb bəzən onlarla misranın və ya mətnin deyəcəyindən daha qüvvətli olur. Atalar sözü lakonik olsa da, onlarda kitablar dolusu ağıl, hiss və müdriklik vardır. Atalar sözündə xalqın poetik təfəkkürü, əxlaqi görüşləri, əsrlərdən bəri əldə etdiyi həyat təcrübələri qorunub-saxlanılır. Atalar sözü onu yaradan xalqın ən gözəl duyğularını, mənəvi zənginliyini özündə əks etdirən, fəlsəfi dünyagörüşün hakim olduğu ən qiymətli poetik abidədir. Onlardakı dərin düşüncələr həmin mənəvi dəyərlərin o zamankı əxlaqi görüşləri, yaşanan gündəlik həyat hadisələrini fəlsəfi istiqamətdə türkün həyat təcrübəsini inikas etdirdiyindən soraq verir. Bu hikmət xəzinəsi zamanın sosial-mədəni həyatı haqqında əvəzsiz məlumat, etibarlı mənbədir. Xalqımızın coşub-çağlayan söz çeşməsinin nadir incilərindən olan atalar sözlərində mənəvi saflıq, mərdlik, düzlük, qürur, cəsarət, qürbət acısı, el-obaya bağlılıq kimi xarakterik elementlər bədii boyalarla əbədiyyət qazanmışdır. Bir çox funksional üslublarda atalar sözlərindən geniş şəkildə istifadə edilir. Xüsusən bədii üslubda atalar sözlərindən istifadə poetik vasitə kimi mühüm əhəmiyyət kəsb edir. Söz ustaları poetik niyyətlərinə təbii rəng qatmaq, fikirlərinə mənəvi dayaq, güc qazandırmaq üçün atalar sözlərindən yerli-yerində istifadə etmişlər. Söz xiridarları hikmət xəzinəsindən götürdükləri hər bir söz incisini misralarının şah damarına hopduraraq üslubi niyyətlərinin sanbalını tamamlamışlar. Təbii ki, atalar sözündən istifadə xalq deyim tərzi, təkrarsız ifadə imkanları ilə yoğrulmuş əsərlərin ruhundakı canlılığı, xəlqi və milli koloriti daha da gücləndirir. Xəlqilik böyük sənətlərin ən böyük meyarıdır, ölçüsüdür. Xəlqiliyin estetik siqləti, atalar sözləri ilə ifadə olunan ideya böyük sənət əsərlərinin ürəyinin, fəlsəfəsinin, gözəl əxlaqi keyfiyyətlərinin xalqın ürəyi, həyat fəlsəfəsi, zəngin mənəviyyatı ilə həmahəng səsləşdiyinin bariz göstəricisidir.

A.Mikayıl Azaflı atalar sözünün hikmətini, dəyərini bu cür qiymətləndirir: “Min əsər öyrəndim, tarix oxudum, Hikməti atalar sözündə gördüm”.

Xalq təfəkküründün nadir sənət incilərindən olan atalar sözlərində dilimizin tarixi, onun keçdiyi inkişaf yolu da öz əksini tapır. Bu baxımdan atalar sözü ən etibarlı mənbələrdən biri kimi köməyimizə çatır. Atalar sözlərində müasir ədəbi dilimiz üçün arxaikləşmiş, lakin dialektlərdə öz izlərini qoruyub-saxlamış dil vahidləri mühafizə olunur, saxlanılır. Məqalədə müasir ədəbi dil üçün arxaikləşən, yaxud mənası daralan, canlı danışıq dilində, dialektlərdə aktiv fəaliyyət göstərən və atalar sözlərində qorunub-saxlanılan *abbası, arşın, allaf, batman, bəy, don, dinar, cida, ulu, tümən, şahı,çarıq, çarvadar* kimi sözlər tədqiqata cəlb edilib.

Açar sözlər: folklor, atalar sözü, arxaik sözlər, atalar sözlərindəki köhnəlmiş ifadələr

ABSTRACT

In both lyrical and epic genres, the meaning expressed by proverbs is sometimes stronger than dozens of lines or texts. Although proverbs are laconic, they contain books of reason, feeling and wisdom. In proverbs, the people's poetic thinking, moral views, and life experiences gained over the centuries are preserved. Proverbs is the most valuable poetic monument, which reflects the most beautiful emotions and spiritual richness of the people who created it, and is dominated by a philosophical outlook. The deep thoughts in them question the moral views of those spiritual values, the daily life events experienced in a philosophical direction, because they make the life experience of the Turk philosophical. This treasure of wisdom is a reliable source of invaluable information about the socio-cultural life of the time. Characteristic elements such as spiritual purity, bravery, honesty, pride, courage,

grief of exile, attachment to the family have been immortalized in the proverbs, which are rare pearls of our people's lively word fountain. Proverbs are widely used in many functional styles. The use of proverbs is especially important as a poetic tool in artistic style. Wordsmiths used proverbs locally to add natural color to their poetic intentions, to give moral support and strength to their ideas. The poets of words have absorbed every pearl of words they took from the treasure of wisdom into the jugular vein of their verses and completed the symbiont of their stylistic intentions. Of course, the use of proverbs strengthens the liveliness, folk and national color in the spirit of the works, which are woven with folk idioms and unique expressive possibilities. Humanity is the biggest criterion and measure of great arts. The aesthetic quality of humanity, the idea expressed in proverbs is a clear indication that the heart, philosophy, and beautiful moral qualities of great works of art resonate harmoniously with the heart, life philosophy, and rich spirituality of the people.

A. Mikayil Azaflı evaluates the wisdom and value of proverbs in this way: "I studied a thousand works, read history, I saw wisdom in proverbs."

The history of our language and the path of its development are reflected in proverbs, which are rare pearls of folk art. In this regard, proverbs come to our aid as one of the most reliable sources. In proverbs, language units that have become archaic for our modern literary language, but have preserved their traces in dialects, are preserved. In the article, abbasi, arshin, allaf, batman, bey, don, dinar, jida, ulu, tuman, shahi, charik, charvadar, which have become archaic or narrowed in meaning for the modern literary language, are active in living spoken language, dialects and are preserved in proverbs. such words were included in the study

Key words: folklore, proverb, archaic words, obsolete expressions in proverbs

GİRİŞ

Atalar sözü folklor ədəbiyyatının ən geniş yayılmış, həcmcə kiçik, ancaq dərin mənalar ifadə edən janrıdır. Həm lirik, həm də epik növlərdə araya-ərsəyə gətirilən atalar sözünün ifadə etdiyi mətləb bəzən onlarla misranın və ya mətnin deyəcəyindən daha qüvvətli olur. Atalar sözü və məsəllər həcmcə lakonik olsa da, onlarda kitablar dolusu ağıl, hiss və müdriklik vardır. “Əvvəlki nəsillərin bir ərmağan kimi sonrakı nəsillərə ötürdükləri bu qısa və mənalı sözlər, fikirlər toplumların dəyərlərini, inanclarını, həyat, insan, təbiət haqqındakı düşüncələrini ortaya qoyur. Elə sözügedən toplumların da sadəcə atalar sözlərinə diqqət yetirərək onların necə bir millət olduğunu, hansı dünyagörüşə, hansı bir xarakterə müvafiq olduğunu təsbit etmək olar”. [9, 141]

Atalar sözü və məsəllərdə xalqın poetik təfəkkürü, əxlaqi görüşləri, onun əsrlərdən bəri əldə etdiyi həyat təcrübələri qorunub-saxlanılır. Atalar sözü onu yaradan xalqın ən gözəl duyğularını, mənəvi zənginliyini özündə əks etdirən, fəlsəfi dünyagörüşün hakim olduğu ən qiymətli poetik abidədir. Atalar sözlərindəki dərin düşüncələr həmin mənəvi dəyərlərin o zamankı əxlaqi görüşləri, yaşanan gündəlik həyat hadisələrini fəlsəfi istiqamətdə türkün həyat təcrübəsini inikas etdirdiyindən soraq verir. Bu müdrik kəlamlar zamanın sosial-mədəni həyatı haqqında əvəzsiz məlumat, ən etibarlı mənbədir. Xalqımızın coşub-çağlayan söz çeşməsinin nadir incilərindən olan atalar sözlərində ata-anaya sevgi, böyüyə hörmət, mənəvi saflıq, mərdlik, düzlük, qürur hissləri, cəsarət, qürbət acısı, el-obaya bağlılıq kimi xarakterik elementlər bədii boyalarla əbədiyyət qazanmışdır. Bir çox funksional üslublarda (məişət, publisistik, bədii) atalar sözlərindən geniş şəkildə istifadə edilir. Xüsusən bədii üslubda atalar sözlərindən istifadə poetik vasitə kimi mühüm əhəmiyyət kəsb edir. “Folklor poetik təfəkküründən bəhrələnmək şəraiti formalaşdırır. Folklor sənətkarlıq qüdrətini əks etdirən bir məhək daşıdır ki, ondan istifadə etməyi bacaranlar həm əsərlərin təsir qüvvəsini artırır, həm də onların uzun müddət yaşamasını təmin edirlər”. [11, 122] Şair və yazıçılarımız, aşıqlarımız poetik niyyətlərinə təbii rəng qatmaq, fikirlərinə mənəvi dayaq, güc qazandırmaq, oxucunu düşündürmək üçün atalar sözlərindən yerli-yerində istifadə etmişlər. Söz ustaları hikmət xəzinəsindən götürdükləri hər bir söz incisini misralarının şah damarına hopduraraq üslubi niyyətinin sanbalını tamamlamışlar. Təbii ki, atalar sözündən istifadə xalq deyim tərzi, təkrarsız ifadə imkanları ilə yoğrulmuş əsərlərin ruhundakı canlılığı, xəlqi və milli koloriti daha da gücləndirir. Xəlqilik böyük sənətlərin ən böyük meyarıdır, ölçüsüdür. Xəlqiliyin estetik siqləti, atalar sözləri ilə ifadə olunan ideya böyük sənət əsərlərinin ürəyinin, fəlsəfəsinin, gözəl əxlaqi

keyfiyyətlərinin xalqın ürəyi, həyat fəlsəfəsi, zəngin mənəviyyatı ilə həmahəng səsləşdiyinin bariz göstəricisidir.

Onu da qeyd edək ki, bir çox əsərlərin adları (təbii ki, əsərin mövzu və ideyası ilə bağlı olaraq) məhz atalar sözləri ilə verilib: " Yeyərsən qaz ətini, görərsən ləzzətini " (Ə.Haqverdiyev), "Sonrakı peşmançılıq fayda verməz ", " Daldan atılan daş topuğa dəyər " , "Yağışdan çıxdıq, yağmura düşdük" (Nəcəf bəy Vəzirov).

A.Mikayıl Azaflı atalar sözünün hikmətini, dəyərini bu cür qiymətləndirir: "Min əsər öyrəndim, tarix oxudum, Hikməti atalar sözündə gördüm".

Atalar sözü həm həqiqi, həm də məcazi məna daşıyır. Folklorun bu ecazkar incisindəki assonans, alliterasiya, təkrir, anastrofa, metafora, epitet, təşbeh poetikliyi qüvvətləndirən üslubi faktorlardır. Xalqımızın poetik çeşməsindən uzaq-uzaq əsrlərdən bəri süzülüb gələn atalar sözlərinin hikməti saydıqlarımızla bitmir. Şifahi xalq ədəbiyyatının ən qiymətli janrlarından olan atalar sözlərində dilimizin tarixi, onun keçdiyi inkişaf yolu da öz əksini tapır. Bu baxımdan atalar sözü ən etibarlı mənbələrdən biri kimi köməyimizə çatır. Atalar sözlərində müasir ədəbi dilimiz üçün arxaikləşmiş, lakin dialektlərdə öz izlərini qoruyub-saxlamış dil vahidləri mühafizə olunur, saxlanılır. Müasir ədəbi dil üçün arxaikləşən, yaxud mənası daralan, canlı danışıq dilində, dialektlərdə aktiv fəaliyyət göstərən və atalar sözlərində qorunub-saxlanılan leksik vahidlərə aid nümunələri nəzərdən keçirək:

ARAŞDIRMA. " **Ulu** sözünə baxmayan ulaya-ulaya qalar ". *Ulu* sifəti XVIII əsrə qədərki yazılı abidələrin və folklor ədəbiyyatının dilində intensiv işlənən dil vahidi olub.

Ulu " böyük, uca, yaşlı, ahıl, qoca " anlayışlarını bildirməklə "Orxon-Yenisey " abidələrində "uluğ" fonetik tərkibində işlək olmuşdur: ... birğarü Tapğac tapa ***uluğ*** sü eki yəgirmi... (sünüşdim, anta)... Tərcüməsi: Tabğaca tərəf ***böyük*** bir qoşun çəkdim, on iki dəfə (vuruşdum, ondan). [8, 230, 236]

"Kitabi-Dədə Qorqud" dastanının dilində: ***Ululuğa*** həddin yox, Sənin boyun-qəddin yox. Ya cismilə cəddin yox, Urduğun ulatmayan ***ulu*** tənqri [2, 122]; Üçlər uğrına, bir-biriniz dəminə, ***ulular,*** kiçilər, eyülər... [10, 86]

Klassik ədəbiyyatda: Bundan ***uludur*** ayətim, ayətü şanə sığmazam (İ. Nəsimi). Baqdı, Gördi ol qövmi ***ulu***-kiçi, Gördilər qamu dutmış meydan içi. [10, 111] Mən bir qulam, ol bir ***ulu*** sultan. (Ş.İ.Xətai)

Çarıq. " İtdən çox **çarıq** oğurlayan yoxdur, yenə də ayağı yalındır ". **Çarıq** leksik vahidi tarixizmdir. Geyim adı bildirir. Çox qüvvətli məcazi xüsusiyyətə malikdir. **Çarıq** vahidi ilə real həyat, gerçəklik öz əksini tapır. Tarixizmlərin meydana gəlməsi müxtəlif ictimai-siyasi formasiya və quruluşların, iqtisadi-siyasi sistemlərin bir-birini əvəz etməsi, elm və texnikanın inkişafı, insanların əmək və məişət şəraitinin yeniləşməsi və digər səbəblərlə bağlıdır. Tarixizmlər, adətən, ümumişləkliyini itirib dilin pasiv lüğət fonduna keçərək bədii ədəbiyyatda, tarixi filmlərdə həyat həqiqətlərini, yaşanmış tarixi prosesləri, keçmiş dövrü doğru, düzgün əks etdirmək, tarixi kolorit yaratmaq məqsədilə istifadə olunur. Bədii əsərlərdə köhnəlmiş sözlərdən istifadə yalnız gerçəkliyin real təsvirini və tarixi kolorit yaratmaq deyil, həm də yeri gəldikcə bədii dilin ifadəliliyini, məna yükünü artırmaq məqsədilə üslubi vasitə kimi istifadə edilmişdir. Lakin atalar sözlərində real həyatın, yaşanmış maddi tarixin izləri və əlamətləri, eləcə də dil elementləri olduğu kimi verildiyi üçün ən qiymətli mənbə rolunu oynayır. Atalar sözlərində *köhnəlmiş üsuli-idarə, vəzifə, peşə, titul, ölçü, geyim, silah-sursat, pul və s.* adı bildirən tarixizmlər müşahidə edilir. Tarixizmlərin semantik qrupları xalqımızın keçdiyi həyat yolunu, məişət tərzini, etnoqrafiyasını, ictimai quruluşun səciyyəvi xüsusiyyətlərini doğru, düzgün açmağa yardım edir.

Arşın. "Söz sözü çəkər, bez ***arşını*** ". ***Arşın*** (türk) sözü də tarixizmdir, ölçü bildirir (71-75 sm.). ***Arşın*** metrik ölçü sistemi qəbul olunanadək Rusiya, Əfqanıstan, İran, Türkiyə, Bolqarıstan və s. ölkələrdə işlədilən uzunluq ölçüsü idi. Qərb şivələrində ***arşın*** tarixizmi aktiv işlənir. Əsasən, emosional xarakter daşıyaraq, zarafat, qarğış kontekstində istifadə edilir (Boyunu arşınnıyım; Qolunu nə arşınnıyırsan – niyə ölçürsən? Daha çox əl-qol hərəkətləri ilə danışan adama ünvanlanır).

Arşın vahidi qədim abidələrin, "KDQ"-nin dilində, folklor ədəbiyyatında intensiv şəkildə işlənmişdir. "Qazılıq Qoca oğlu Yeynəyin boyu" nda deyilir: "O qələnin bir təkuru var idi, adına ***Arşun*** oğlu Dirək təkur derlərdi. O kafirin altmış ***arşın*** qaməti vardı " [2, 118] Onu da qeyd edək ki, dilin passif fonduna keçmiş bu cür tarixizmlərin əksəriyyəti qərb şivələrində müxtəlif üslubi çalarlarda intensivdir.

"***Allafın*** işi alaf satmaqdır, istər ata tök, istər itə ". ***Allaf*** ərəb mənşəli köhnəlmiş sözdür: *saman, ot, yem satan satıcıya, alverçiyə* deyilirdi; tarixizmdir.

" Anlayana ***qul*** ol, anlamayana ***ağa*** olma "; " Sən ***ağa,*** mən ***ağa***, inəkləri kim sağa ". ***Ağa, qul*** tarixizmləri semantikasına görə əks mövqedə dayanır. ***Qul*** sözü semantikasına görə "kölə, nökər, heç bir hüququ olmayan" şəxs, ***ağa*** sözü isə "yüksək titul, idarə edən, hakim, istismarçı, mülkədar, zadəgan; sahib, sahibkar, yiyə anlayışlarını bildirirdi. Müasir dilimizdə sözünə, özünə hakim olmaq ifadələrində "ağa" tarixizmindən istifadə olunur: *Mən sözümün ağasıyam.*

"***Bəy*** verən atın dişinə baxmazlar"; "***Bəy*** dediyin nədir, bəyənmədiyin nədir"; "***Bəylə*** bostan əkənin tağı çiynində bitər". Orxon-Yenisey abidələrinin dilində *bəg, bəglik, bəgilig* sözləri işlənmişdir. Mənası "bəy", "bəylik, bəyliyə layiq, ləyaqətli" deməkdir: Tokuz oğuz *bəgləri*, bodunı, bu sabımın edgüti esid, katığdı tınla – Doqquz oğuz *bəyləri*, bu sözlərimi yaxşıca eşidin, diqqətlə dinləyin. [8, 218-219] …*bəgilik* urı oğlın kul boltı – əyilməz kişiliyin, nəslin qul oldu. [8, 230, 235]

Bəy titulu türkdilli xalqlarda əvvəllər tayfa başçılarına (Ünüm ünlən, *bəylər*, sözüm dinlən *bəylər!* ... Yürüyəlim, a *bəylər*! Av avlayalım, quş quşlayalım... [2, 40]), sonralar feodal əyanlarına verilirdi. Türkiyədə mahal hakimlərinə (sancaqbəyi), yüksək rütbəli zabitlərə (alaybəyi – polkovnik), bəylərbəyi – general-qubernatora və s. ***bəy*** rütbəsi verilirdi. İranın bəzi yerlərində tayfa başçıları ***bəy*** titulu daşıyırlar. Azərbaycanda Sovet hakimiyyəti qurulandan əvvəl hakim, istismarçı siniflərə mənsub adamlara ***bəy*** deyilirdi. Atalar sözlərində məhz həmin bəylərdən söhbət gedir. Xanlıqlar dövründə irsi bəylər və bu adı Xan fərmanına əsasən alan bəylər olmuşdur. Müasir Azərbaycan dilində ***bəy*** ifadəsi müraciət forması kimi işlənir, həm də yeni evlənən oğlana deyilir.

"**Abbasını** bəyənməyən beş **şahı** çıxardar". Hər iki söz tarixizmdir, pul vahidi kimi işlənmişdir. **Abbası** XVII-XVIII əsrlərdə İran və Zaqafqaziyada istifadə olunan *gümüş sikkə* deməkdir. Səfəvi şahı I Abbasın (Şah Abbas) hakimiyyəti dövründə təsis olunmuş və onun adı ilə adlandırılmışdır. Azərbaycan xanlıqlarının (XVIII əsrdə) pul dövriyyəsində də *abbası* əsas pul vahidi rolunu oynamışdı. Azərbaycan Rusiyanın tərkibinə birləşdirildikdən sonra öz çəkisinə görə 20 qəpiyi ifadə etmişdir.

Şahı fars mənşəlidir – *şaha mənsub* deməkdir. Azərbaycanda XVI əsrdə Səfəvilər dövlətində kəsilmiş sikkədir; səfəvi pul-sikkə sisteminin ən çox yayılmış gümüş sikkə vahidlərindən biridir. Nominal dəyəri 50 mis dinara bərabər idi. I Şah Abbasın pul islahatına əsasən 4 şahı 1 abbasıya bərabər idi. Səfəvilər dövlətində 5 şahılıq, Nadir Şah Əfşarın hakimiyyəti dövründə 6 şahılıq gümüş sikkələr kəsilirdi. *Abbası* və *şahı* pul vahidləri (20 və 5 qəpik) xalq arasında işlədilir. [1, 477. X cild]

"Qəribə bir salam min ***tüməndən*** yaxşıdır". ***Tümən*** tarixizmi fars mənşəli alınma pul vahididir: *on riala* bərabər olan İran puludur. 1930-cu ildən bəridir ki, işləkliyini itirmişdir. Atalar sözündə pul vahidi mənasındadır. "Tümən (monqolca on min) XII-XIV əsrlərdə monqol-tatar qoşununda təşkilat vahidi olmuşdur. 10 min döyüşçüdən ibarət idi. Tümən minliklərə, minliklər yüzlüklərə, yüzlüklər isə onluqlara bölünürdü. Tümənə tümənbaşı başçılıq edirdi". [1, 390. IX cild]

"***Cidanı*** çuvalda gizlətməzlər ". ***Cida*** köhnəlmiş sözdür (tarixizmdir), ərəb mənşəlidir, *süngü, mizraq, dəmirdən hazırlanmış itiuclu uzun nizə* anlamlarındadır. Daş və sümük uclu cidalardan daha əvvəlki dövrlərdə (Üst Paleolit) istifadə edilmişdir. Atalar sözünün semantik yükündən ***cida*** tarixizminin çox yüksək bədii siqlətə, məcaziliyə malik olduğu qabarıq şəkildə hiss olunur.

"Aydan ***arı***, sudan duru". ***Arı*** leksemi arxaik sözdür. Mənası *saf, təmiz, xalis, duru, pak* deməkdir. XVIII əsrə qədərki yazılı abidələrin, klassik ədəbiyyatın və folklorun dilində üstün mövqedə olmuşdur. *Arı (təmiz, saf)* əsli sifəti Qədim türk yazılı abidələrində (Tonyukukun şərəfinə yazılmış abidə) *arığ* fonetik tərkibdə müşahidə edilir: *Arığ obutı yiğtidi*. Tərcüməsi: Təmiz xəcalət (məğlubiyyətdən) yaxşıdır. [8, s.252]

"Kitabi-Dədə Qorqud" dastanında *arı* şəklində işlənmişdir: *Aydan* ***arı,*** *gündən görklü qız qardaşın Banıçiçəyi Bamsı Beyrəğə diləməgə gəlmişəm! Ölüm vaxtı gəldiyində* ***arı*** *imandan ayırmasın! [2, s. 62, 168]*

"Oğuznamə " də *arı* morfemi eyni məzmuna (təmiz, saf) malikdir: ***Arı*** *suya yayxandıqda abdəstlü Oğuz, Alın yerə qoyduqda namazlu Oğuz!* ***Arı*** *dinli görklü Məhəmmədi yada gətürdüm.* [Orxan Şaiq Gökyay. Dedem Korkudun Kitabı. İstanbul, 1978]

Əhməd Yəsəvinin "Divani-hikmət" ində ***arığ*** (*Ol* ***arığlar*** *kimgə turur bilgil munı, Tövbə kılğan aşıklarğa içrür anı)*, Mahmud Kaşğarinin " Divanü lüğat -it türk" əsərində ***arığ*** *(arığ nənq – təmiz (tərtəmiz) nəsnə)* fonetik tərkibində işlənmiş və "təmiz, saf" mənalarını bildirmişdir.

Arı leksik vahidi müasir Azərbaycan ədəbi dilinin əsas lüğət fondundan çıxmışdır. Lakin dialektlərdə (xüsusən qərb qrupu dialektində) *arıtlamaq* (artdamağ) felində öz əvvəlki semantik xüsusiyyətini qoruyub-saxlayır. Eləcə də nümunə kimi verdiyimiz "Aydan **arı**, sudan duru" atalar sözündə arxaik mənanın izləri mühafizə olunmaqdadır.

Klassik ədəbiyyatda: Hüsnü camalə baxmağa ***ari*** səfa nəzər gərək, Düşməsin ***arisiz*** nəzər ayinənin səfasinə. (İ. Nəsimi)

" ***Suç*** kiçiyin, yol böyüyündür"; "Ağacı götür, ***suçlu suçunu*** bildirəcək". ***Suç*** leksik vahidi də müasir ədəbi dil üçün arxaik söz sayılır. Qədim türk leksik layında ümumişlək xarakter daşıyan *suç* ifadəsi *günah, səhv, qəbahət* anlayışlarını bildirmişdir. Müasir Türkiyə türkcəsində dilin aktiv fondunda yer alır.

"Gözdən ***iraq*** olan könüldən də iraq olar"."Kitabi-Dədə Qorqud" dastanında, eləcə də klassik ədəbiyyat və folklorumuzda aktiv işlənən dil vahidi (sifət) olmuşdur: Mərə çoban, ***irağından***-yaqınından bərü gəlgil! Baş endirib bağır basgil" [2, 42]. Ənbərin sünbül zülfün düşəli məndən ***iraq***, Qəti aşüftəyəm, ey zülfi-pərişan, bəri gəl! (İ.Nəsimi)

Xalq danışıq üslubunda ***iraq*** arxaizminin fəaliyyəti üstün mövqedədir: Allah *irağ* eləsin; *İrağ* üzününzdən; Evdən-eşikdən *irağ* və s.

"***Çarvadara*** yol göstərməzlər". *Çarvadar* fars mənşəlidir. Arxaik alınma sözlər cərgəsindədir. "Yük heyvanları (at, qatır, dəvə və s.) ilə satlıq mal (yük) daşınması və alveri ilə bağlı peşə növü mənasında işlədilirdi. Bir sıra Yaxın və Orta Şərq ölkələrində yayılmışdır. Çarvadarlar ölkə daxilində neft, duz, zəy, boyaq və sənətkarlıq məmulatlarını satırdılar. Abşeron neft yataqlarına yaxın olan Qobustan kəndlərinin əhalisinin başlıca məşğuliyyəti uzun müddət çarvadarlıq olmuşdur. Azərbaycanda dəmiryol çəkiləndən və nəqliyyat vasitələrinin inkişafından sonra tədricən çarvadarlıq əhəmiyyətini itirmişdir". [1, 307]

Atalar sözündə izlərini qoruyub-saxlayan *çarvadar* sözü həm həqiqi, həm də məcazi məna ifadə edir.

"El yumruğunu görməyən öz yumruğunu ***batman*** sanar "; "Ağır otur, ***batman*** gəl ". ***Batman*** müasir dil baxımından arxaikləşmiş köhnə çəki, ölçü (8 kiloqram) vahididir. "Oğuznamə" də: Altı *batman* som dəmürü ayağında qıran... [10, 78] Mahmud Kaşğarinin "Divanü lüğat-it-türk" əsərində ölçü vahidi kimi *batman* leksik vahidinin adı çəkilir. [I c., 435] Canlı danışıqda daha çox belə ifadələr müşahidə edilir: Bir *batman* başını tərpədincə, bir misqal dilini tərpət.

"Gözəllik ondur, doqquzu ***dondur***". ***Don*** sözü semantik arxaizmdir. Mənası müasir ədəbi dilimiz üçün daralmışdır. Bu leksik vahid türk dilinin qədim leksik layında "geyim", "paltar" anlayışlarını ifadə edirdi. "Orxon-Yenisey" abidəsində "ton" (don, paltar, geyim), tonlığ (paltarlı, geyimli, donlu) fonetik tərkibdə, eləcə də "KDQ" də, digər qədim yazılı abidələrdə aktiv dil vahidlərindən olmuşdur. Müasir ədəbi dilimizdə semantik dəyişikliyə uğrayaraq, yalnız qadına məxsus üst geyimlərdən birinin adını bildirir. Atalar sözlərində əvvəlki semantik yükün izləri qalmaqdadır. Onu da qeyd edək ki, dünya dillərində sözün mövcud mənasının dəyişməsi ümumi qanunauyğunluq kimi özünü göstərir. Dildəki sözlər qeyri-sabit xarakterə malikdir. Buna görə də istər onun formasında, istərsə də mənasında tarixi dəyişiklik baş verir. Hər bir sözün ilk mənasından sonra əmələ gələn dəyişiklik onun semantikasının dəyişilməsi hesab olunur. Dildə sözün mənasında baş verən dəyişiklik prosesinin özünü göstərməsi bir sıra linqvistik və ekstralinqvistik səbəblərlə bağlı olur. Mənanın dəyişməsi daha çox ictimai-siyasi inkişaf ilə əlaqədardır. Cəmiyyət müxtəlif fəaliyyət sahələri üzrə inkişaf etdikcə dildəki sözlərin mənasında da dəyişiklik hadisəsi meydana gəlir. Hər hansı bir leksik vahidin, sözün semantikasında az və ya çox dərəcədə fərqləndirici dəyişiklik prosesi baş verə bilir. Bu zaman bəzən ilk məna itir, yeni məna yaranır. Bununla bərabər, mənanın daxili prosesində müəyyən əlamətlər, çalarlıqlar da meydana çıxır. Bütün dünya dillərində mənanın dəyişməsinin iki bir-birinə əks olan ənənəsi vardır. Bunlardan biri mənanın daralması, digəri isə mənanın genişlənməsidir. Tədqiqata cəlb etdiyimiz atalar sözündə *don* leksik vahidinin müasir ədəbi dilimizdə məna dəyişikliyinə məruz qaldığını müşahidə etdik.

“ Hesab var ***dinarla***, bəxşiş var xalvarla ”. *Dinar* ərəb mənşəli söz olub, “qızıl pul vahidi” [3,57] deməkdir, tarixizmdir. Yaxın Şərqin bir çox ölkələrində istifadə olunur. Azərbaycan folklorunda işlənməsi ərəblərin ölkəmizə gəlişi (islam dinini yaymaq üçün) ilə bağlıdır. Həm də böyük İpək yolu Azərbaycandan keçirdi. İstər klassik ədəbiyyatda, istərsə də folklorda *dinar* və *dirhəm* sözlərinin işlənməsi təbii idi: Padişahi-mülk *dinarü dirhəm* rüşvət verib, Fəthi-kişvər qılmağa eylər mühəyya ləşkəri (M. Füzuli). Müasir Azərbaycan ədəbi dili üçün hər iki söz arxaik alınmadır.

Nəticə. Həcmcə kiçik, lakin mənası olduqca dərin olan atalar sözlərində onu yaradan xalqın həyat tərzi, bədii və fəlsəfi təfəkkürü qabarıq şəkildə üzə çıxır. Tədqiqat nəticəsində bir daha atalar sözlərinin ədəbi dilimizin keçdiyi inkişaf yolunu araşdırmaq baxımından ən qiymətli mənbə olduğu öz təsdiqini tapır. Nəzər yetirdiyimiz atalar sözlərindən məlum olur ki, bəzi leksik vahidlər müasir ədəbi dil baxımından işləkliyini itirsə də, dildən tamamilə çıxmır. Həm xalqın poetik təfəkküründə əbədi yaşayır, həm də dialektlər onları qoruyub-saxlayır.

ƏDƏBİYYAT (kaynakca)

1. Azərbaycan Sovet Ensiklopediyası. X cilddə. Bakı, 1976-1987
2. Azərbaycan ədəbiyyatı inciləri. “Yazıçı”. Bakı, 1987. 571 s.
3. Azərbaycan klassik ədəbiyyatında işlənən ərəb və fars sözləri lüğəti. “Maarif” nəşriyyatı. Bakı, 1981
4. Azərbaycan folkloru. “Şərq-Qərb”. Bakı, 2005
5. Azərbaycan folkloru antologiyası. Şirvan folkloru. Bakı, 2005
6. Azərbaycan dilinin izahlı lüğəti. IV cilddə (I cild). Bakı, 2011
7. Xalqımızın deyimləri və duyumları. Tərtib edən: M.İ.Həkimov. “Maarif” nəşriyyatı. Bakı, 1988
8. Ə. Şükürlü. Qədim türk yazılı abidələrinin dili. “Maarif” nəşriyyatı. Bakı, 1993. 336 s.
9. Kazımov İ. Mahmud Kaşğari “Divan” ı və cağdaş türk dilləri. “Elm və təhsil”. Bakı, 2014. 224 s.
10. T.İ.Hacıyev, K.H.Vəliyev. Azərbaycan dili tarixi. “Maarif”. Bakı, 1983. 187 s.
11. Hüseynov M. Poetik frazeologiya. “ Elm və təhsil”. Bakı, 2013. 166 s.

KİTABİ- DƏDƏ QORQUD" DASTANI VƏ PSİXOLOJİ FİKİR TARİXİMİZ

THE EPIC OF "KITABI DADA GORGUD" AND HISTORY OF OUR PSYCHOLOGICAL THOUGHT

Nurəngiz Tofiq qızı Rzayeva

Psixologiya üzrə fəlsəfə doktoru, dosent

ADPU-nun Ümumi Psixologiya kafedrası

ABSTRACT

The epic of Kitabi Dada Gorgud is a rich source and is of great importance. The values, ethnic-psychological thoughts, ideas that become spiritual monuments in the saga and sink into our souls provide a basis for creating new theories. In the epic, ethno-psychological characteristics, stereotypes and orientations, feelings, traditions, family relations, women's specific characteristics and attitudes and most importantly, lessons of our people are vividly reflected . The materials reflected in the saga are important from 3 aspects: 1; people's self-awareness, 2; it allows to get to know other ethnic groups well, 3; to get to know our own ethno-psychological background.

Endurance, pride, modesty and honesty are typical ethnic-psychological features of the heroes of Kitabi Dada Gorgud. In the epics, based on deep psychological observation, not only the moral-ethical behavior and attitude of the ethnos, ethnic stereotypes, as well as individual typological characteristics of the personality are described with ethnic shades. The fact about the characteristics of female types is very significant in this respect. Women are divided into four parts; One is withering the generation; the second one is wedding filler; third is the support of the house; the fourth is described as trivial to talk about. On the other hand, the lessons in the epic are mentioned in a psychological context.

Açar Sözlər: türk xalqları**,** dastan, psixoloji fikir, xalq ruhu, dəyər, ibrət dərsləri

Keywords: Turkish people, epic, psychological thought, folk's spirit, value, instructive lessons

Psixoloji fikirlərin yaranması tarixi çox qədimdən, eramızdan əvvəldən başlanır. O bir tərəfdən şərq fəlsəfi fikrindən, digər tərəfdən xalq yaradıcılığından bəhrələnmişdir. O bir tərəfdən həyatın özündən ictimai-tarixi proseslərdən asılı olaraq inkişaf etmiş, digər tərəfdən isə baş verən proseslər psixoloji fikrə öz təsirini göstərmişdir. Məlumdur ki, yaradılışdan üzü bəri bəşəriyyət spesifik psixoloji çalarlarla xarakterizə olunan tarixi özündə birləşdirir. Bu tarixdə məzmun və mündəricə etibarı ilə əsrlərin təfəkkür süzgəcindən süzülüb gələn fikirlər, güzəran psixologiyası, xalq yaradıcılığı, dastanlar, xalqın inkişafı, və s. məsələlər cəmlənir. Bu kontekstdə Türk xalqlarının psixoloji fikir tarixi də məhz bu axarda qədimliyi və zənginliyi ilə seçimlidir və özünəməxsusluğu ilə xarakterizə olunur. Hər bir xalqın, etnosun tarixini öyrənmək onun psixologiyasını, etnik xüsusiyyətlərini dərk etmək üçün önəmlidir. Vaxtilə Şteyntal və Latsarius özlərinin "Xalqlar psixologiyası" əsərini də bu zəmində yazmışlar. Xalq ruhu hər bir xalqa, millətə xas olan "ümumiləşmiş mənəvi birlik" kimi anlaşılır və tarixdə qalır. Xalqın tarixini öyrənmək, onun keçmişi, bu günü və sabahı haqqında məlumatlanmaq və gələcək perspektivlərə yol açmaq nöqteyi nəzərincə prioritet istiqamətdir. Qərinələr, illər bir-birini əvəz edir, dünya insan nəsilləri ilə bir yandan dolur, bir yandan boşalır, ancaq tarix, faktlar, deyimlər heç vaxt itmir və silinmir, unudulmur. Mənəvi abidələrə çevrilən və ruhumuza çökən həmin ideyalar yeni nəzəriyyələr yaratmaq üçün əsas verir. Zaman dəyişir, münasibətlər də yeni forma və məzmun kəsb edir. Amma yaddaşlarda xalqın adət ənənələrinin inkişafı, dəyərləri qalır və gündəmə gəlir. Və bütün bunlar hər bir elm sahəsinə öz təsirini göstərir. Çünki elmin tarixi həm də xalqın tarixidir. Onun dünyagörüşünün inkişaf mərhələlərinin güzgüsüdür. Tarixi inkişafının məhsuludur. Bayronun belə bir fikri var: "Keçmişi oxumaq gələcəyi öyrənmək üçündür". Gələcək üçün ən yaxşı peyğənbər keçmişdir. Bu kontekstə elm özündən qabaqkı nəsillərin qoyub getdiyi biliklərlə və informasiyalarla mütənasib sürətdə irəliləyib. Odur ki, bəşəriyyət yarananda bu günə kimi elmin bu və ya digər sahələri ilə bağlı fikirlər və

məlumatlar mövcud olmuşdur. Bu mənada hər bir elmin özünün tarixi var. O cümlədən psixoloji fikrin təşəkkülü, inkişafı və mərhələləri də bu sıraya daxildir. Geniş xalq kütləsi tərəfindən yaradılan şifahi söz sənəti olan folklor nümunələrində, dastanlarımızda, mütəfəkkirlərin əsərlərində xalqımızın mənəviyyatı, dəyərləri, təfəkkürü və psixologiyası toplanmışdır.. Bu məsələlər psixoloji fikrin əsas qayəsini təşkil edir. KDQ dastanı da bu mənada xalqımızın milli birlik, döyüş ruhu, məğrurluq, kökə bağlılıq, namus, qeyrət, mənəviyyat və s dəyərləri özündə birləşdirən zəngin mənbədir, zəngin məxəzdir və önəmli əhəmiyyət kəsb edir. Dastanda mənəvi abidələrə çevrilən və ruhumuza çökən dəyərlər, etnik-psixoloji fikirlər, ideyalar yeni nəzəriyyələr yaratmaq üçün əsas verir. KDQ dastanında xalqımızın əcdadlarına məxsus etnik-psixoloji xüsusiyyətlər, stereotip və yönümlər, hislər, adət-ənənələr, ailədaxili münasibətlər, qadına münasibət, tərbiyə məsələləri, etnik özünüdərk, və ən əsası ibrət dərsləri canlı şəkildə öz əksini tapmışdır. Dastanda əks olunan materiallar 3 aspetkdən önəmlidir: 1; xalqın özünüdərketməsinə, 2; başqa etnosları yaxşı tanımağa, 3; öz etnik-psixoloji keçmişimizə yaxından bələd olmağa imkan verir. Professor Ə.Bayramov bu aspektləri ğeniş təhlil etmiş və qeyd etmişdir ki, ”etnos və ya xalq kim olduğunu, özünü nə zaman və necə dərk etdiyini, hansı mənəvi-psixoloji keyfiyyətlərə, adət-ənənələrə, stereotip və yönümlərə malik olduğunu, necə tərəqqi etdiyini, tarix boyu nə kimi psixoloji dəyişikliklərə məruz qaldığını bilməlidir.”Dözümlülük, məğrurluq, təvazökarlıq və namusluluq KDQ qəhrəmanlarının səciyyəvi etnik-psixoloji əlamətləridir.

“ Kitabi- Dədə Qorqud “ da qadınlar xarakterizə edilir, onların “dörd cür “ olduqları bildirilir. Yaxşı qadın evin dayağı kimi səciyyələndirilir, və onun bu səciyyəsi qonağa yaxşı, mehriban münasibəti, qonaqpərvərlik göstərməsi ilə müəyyənləşdirilir. Qadının başqa adama, qonağa münasibətinə görə səciyyələndirilməsi Azərbaycan ictimai fikir tarixində psixoloji xarakteristikanın ilk nümunələri kimi qiymətlidir. Bu cəhət öz əksini ilk dəfə Dədə Qorqud dastanında tapır. Bu məsələlər sonralar da dahilərin əsərlərində “yaxşı qadın”, “pis qadın” dixotomiyası kimi əks olunmuşdur.

Dastanlarda dərin psixoloji müşahidə əsasında nəinki etnosun əxlaqi- etik davranış və rəftarının, etnik stereotiplərinin, eləcə də şəxsiyyətin fərdi tipoloji xüsusiyyətlərinin etnik çalarlarla təsvirinə geniş yer verilmişdir. Qadın tiplərinin xarakteristikası ilə əlaqədar fakt bu cəhətdən çox əlamətdardır. İnsanın fərdi- psixoloji xarakteristikasına aid olan bu faktın dərin psixoloji mə’nası vardır.

Dastanda oxuyuruq: Qadınlar 4 cürdür:

Birisi soysoldurandır (nəsli korlayan); birisi toy doldurandır; birisi evin dayağıdır; birisi necə desən bayağıdır.

xarakteristikanı əks etdirməklə kifayətlənəcəyik: “Oazan, evin dayağı odur ki, çöldən- bayırdan evə bir qonaq gəlsə, əri evdə olmasa, o gələn adamı yedirir, içirir, əzizləyir, oxşayır, yola salır. O cür arvad Ayişə, Fatimə cinsidir, xanım onun uşaqları sağ olsun. Ocağına bu cür arvad gəlsin.“

“Gəldin ki. necə deyəsən bayağıdır. Əri evdə olanda çöldən- bayırdan evinə bir abırlı qonaq gəlsə əri desə ki, dur çörək gətir, yeyək, qonaq da yesin. Arvad deyər: Neyləyim. Bu yıxılacaq evdə un yox, ələk yox. Dəvə də dəyirmandan gəlmədi. Beləsinə min söylərsən birisini eşitməz- ərin sözünü qulağına almaz. Xanım, ondan da sizi Allah saxlasın. Ocağınıza belə arvad gəlməsin…” bunlar bütün dövrlər üçün aktuallıq kəsb edən və ailədaxili münasibətlərdə prioritet olan məsələlərdir.

KDQ dastanında ümumilikdə öğuzlara məxsus etnik-psixoloji xüsusiyyətlər kompleks halada təsvir olunmuşdur. Dastanda xüsusilə türk xalqınaməxsus olan xüsusiyyətlər ibrət dərsləri kimi qruplaşdırılmışdır. Psixoloji ədəbiyyatlarda bu cəhətlərin hər biri fəlsəfi-psixoloji çalarları ilə təsvir olunur.

❖ Ulu əcdadlarımızın igidliyi, döyüş ruhu. Bu ruru əyilməz türk xalqının mübarizliyində, qorxmazlığında həmişə səciyyələnib. Buna biz bütün dünyaya səs salan və nümunə olan 44 günlük savaşda rəşadətli ordullarımızın döyüş ruhunda, igidliyində və düşmənə verdiyi dərslərdə şahid olduq. Salur Qazanın ikiüzlü və sarqın düşmənin təklifinə verdiyi “qılıncından qorxan deyiləm! öz əslimə,öz kökümə xain çıxan deyiləm! ifadələrinə rəğmən əsir düşən öğulların qorxmadan, sınmadan düşmənə əyilməməyi və Vətəni canından önəmli bilmələri bir daha sübut etdi ki, əcdadların qoyub getdiyi yol dönməzdir.

❖ Namus və qeyrət. İnsanın dəyərlər sistemində mənəvi-psixoloji çalarlarla xarakterizə olunan bu cəhət nəinki şəxsiyyətin daxili aləminə, həm də onun münasibətlər sistemində, rəftar və davranışında da

təzahür edir. Bu fakt düşmənin Salur Qazanın var-yoxunu talan edən ailəsini əsir götürdüyü səhnədə ona verilən tutarlı cavablarda aydın görünür. Oğlunun anasına dediyi sözlərin psixoloji dəyəri də elə bunda idi: "Saqın üzərimə gəlməyəsən! Qoy məni çəngələ sancsınlar, ətimdən çəksinlər,qara qovurma edib qırx bəy qızının önünə aparsınlar. Onlar bir yeyəndə,sən iki ye! Kafirlər duymasınlar" beləliklə öğuz ləyaqəti, ailə namusu və şərəfi qorunur.

❖ Valideynin şərəf və ləyaqətini, həm də onun rəmzi olan müqəddəs vətən torpağının şərəf və ləyaqətini qorumaq. Dastanda Salur Qazan görür ki, yurdunda hər şey düşmən tərəfdən talanıb.eyni zamanda ailəsi,anası da əsir götürülüb. Psixoloji kontekstdə o hər şeyi xatırlayaraq bir assosiasiya yaradır ."qohum qəbiləli komam-yurdum!, "uca evimin tikilisi yurdum"!, "səni düşmən haradan talayıb,gözəl yurdum!", "qoca anamın oturduğu yer"! və s bənzətmələr həm də insana bir enerji verir, daxili güc ggətirir. Bunlar Qazanın düşmənə əmrlə, psixoloji təsirlə söylədiklərində aydın görünür.

"Ay şöklü Məlik!

Qızıl taclı uca evlərimi götürüb gəlmisən,

Sənə kölgəlik olsun!

Qiymətli xəzinəmi, bol gümüşümü götürmüsən,

Sənə xərclik olsun!

Qırx igidlə oğlum Uruzu gətirib gəlmisən,

Sənin qulun olsun!

..... Qoca anamı gətimisən ay kafir,

Anamı ver mənə!

Savaşmadan, vuruşmadan qayıdım geri,

dönüm gedim".

Göründüyü kimi, ananın şərəf və ləyaqəti, eyni zamanda vətən torpağının müqəddəsliyi oğuzlar üçün ən böyük dəyər sayılır.

❖ Ailə dəyərləri, ailənin möhkəmliyi. Ulu əcdadlarımızda bu məsələ qarşılıqlı fədakarlıq, hörmət, sədaqət kontekstində ailədaxili münasibətlərdə önəmli əhəmiyyət kəsb edirdi. Xüsusilə də müasir gənclik üçün nümunə olan ailə dəyərləri, ər-arvad münasibətləri, ana haqqı və s məsələlərin mənəviyyat üzrə psixoloji təhlili maraq doğurur.

❖ Dostluq və sədaqət. Dastanda düşmənlərin Beyrəyi yaxın dostu Qazana xəyanətə məcbur etdikləri epizod buna misaldır. "Mən Qazana dönük çıxmaram, qəti bilin!" ifadələri və öldürülməsinin psixoloji kökləri aydındır.

❖ Daxilən törəyən bəlaya,şər qüvvələrə qarşı mübarizə aparmaq. Dastanda xalqın içərisində olan şər qüvvələrin törətdikləri bəlalar və onlara qarşı mübarizələr bu mənada açıq təsvir edilib.

❖ Öz tarixi köklərimiz üzərində ucalaraq inkişaf. Öz tarixi köklərimiz üzərində ucalaraq inkişaf etməyimiz, psixoloji mənəvi irsimizdə nə varsa onu qoruyub saxlamaqla yanaşı mənfi və mühavizəkar cəhətlərimizdən uzaqlaşmağımız olmalıdır. Müsbət keyfiyyətlər xalqımızın qan yaddaşından zaman-zaman bu günə kimi gəlmiş və dəyərlər sistemində yer almışdır.

❖ Adət-ənənələr və onların rəftar və davranışda təzahürü. Öğzlarda bu məsələlər bir neçə aspektdə verilmiş və tənzimləyici rolda açıqlanmışdır. Belə ki, ilk ailə məsələləri ilə bağlı evlilik adətləri (oğlan və qızın igidliyi nəzərə alınır), toy və yas mərasimlərinin özünəməxsusluğu (ölən adamın sağlığında mindiyi ata münasibət, tədarüklər), dini hisslərin təzahürü, yuxuya inam(qaza xan və Qaraca Çobanın yuxuları), alqışlar(əsasən Dədə Qorqudun dili ilə ifadə olunur) və qarqışlar (şəxsiyyətlərarası münasibətlərdə gərginliyin təzahürü kimi), adqoymaq (Dədə Qorqudun xüsusi adqoyma məraimləri ilə ifadə olunur) dastanda əks olunan bu ənənələr müasir günümüzə kimi psixoloji fikir tariximizdə səslənməkdədir.

Qeyd etdiyimiz fikirlər və təhlillərdən aydın olur ki, xalqın, millətin psixoloji fikir tarixinin öyrənilməsi üçün ən yaxşı vasitələr sözsüz ki, xalq yaradıcılıq nümunələri, dastanlar, zaman –zaman gəlib çıxan əsərlərdir. Çünki, bu mənbələrdə yer alan xüsusiyyətlər xalqın yaradıcılığında, yaradıb yaşatdığı maddi və mənəvi nümunələrdə öz əksini tapır. Folklor ədəbiyyatını, yazılı ədəbiyyat nümunələrini araşdırdıqda, təhlil etdikdə xalqın məişət həyatında, adət-ənənlərində , rəftar və davranışında bu xarakter xüsusiyyətləri, açıq şəkildə görürük. Və bu materiallar formalaşmaqda olan şəxsiyyətin inkişafında çox mühüm əhəmiyyətə malikdir. Çünki, insan bir şəxsiyyət kimi cəmiyyətdə formalaşır və bu milli xarakter xüsusiyyətlərini mənimsəyir, özünüdərk edir. Bu mənada "Kitabi-Dədə Qorqud" dastanı Türk xalqlarının dəyərlər sistemini, fəlsəfi-psixoloji fikir tarixini, güzəran psixologiyasını, ailə və idarəçilik qanunlarını, türkçülük məfkurəsini özündə birləşdirən küçmiş, indi və gələcək zamanların məcmusudur, bütöv bir konsepsiyadır və xalqın varlığını, psixologiyasını əks etdirən tarixi abidədir. Sosial-psixoloji hadisələrin vüsət aldığı, qloballaşan dövrümüzdə, inteqrasiya prosesinin nəticəsi olaraq hər gün yeni xüsusiyyətlər, yeni dəyərlər qazanırıq. Bu xüsusiyyətlər olduğu kimi hər hansısa bir millətin, xalqın xarakterinə çevrilmir, müəyyən dərəcədə dəyişikliklərə məruz qalaraq həmin xalqa uyğunlaşır. Bu mənada türk xalqlarına məxsus spesifik çalarları ilə sıəciyyələnən və özünəməxsus dəyərlər sisteminə malik KDQ dastanı və onunla yanaşı digər istər şifahi, istərsə də yazılı xalq ədəbiyyatı nümunələrinin tədqiq olunması prioritetliyi ilə seçimli olmuş və olacaqdır. Əsrləri özündə birləşdirən KDQ dastanlarında xalqın psixologiyası incəliyi ilə əks olunmuşdur. Bu materiallar bütöv bir insan-şəxsiyyət konsepsiyasını özündə ehtiva edir və formalaşdırır. Bunları öyrənmək təkcə indiki zaman üçün deyil gələcək üçün də çox əhəmiyyətlidir və önəmlidir.

NƏTİCƏ

Kitabi Dədə Qorqud dastanı zəngin məxəzdir və önəmli əhəmiyyət kəsb edir. Dastanda mənəvi abidələrə çevrilən və ruhumuza çökən dəyərlər, etnik-psixoloji fikirlər, ideyalar yeni nəzəriyyələr yaratmaq üçün əsas verir. Eposda xalqımızın əcdadlarına məxsus etnik-psixoloji xüsusiyyətlər, stereotip və yönümlər, hislər, adət-ənənələr, ailədaxili münasibətlər, qadınlaraməxsus xüsusiyyətlər və münasibət və ən əsası ibrət dərsləri canlı şəkildə öz əksini tapmışdır. Dastanda əks olunan materiallar 3 aspetkdən önəmlidir:1;xalqın özünüdərketməsinə, 2; başqa etnosları yaxşı tanımağa, 3;öz etnik-psixoloji keçmişimizə yaxından bələd olmağa imkan verir.

Dözümlülük, məğrurluq, təvazökarlıq və namusluluq KDQ qəhrəmanlarının səciyyəvi etnik-psixoloji əlamətləridir. Dastanlarda dərin psixoloji müşahidə əsasında nəinki etnosun əxlaqi- etik davranış və rəftarının, etnik stereotiplərinin, eləcə də şəxsiyyətin fərdi tipoloji xüsusiyyətlərinin etnik çalarlarla təsvirinə geniş yer verilmişdir. Qadın tiplərinin xarakteristikası ilə əlaqədar fakt bu cəhətdən çox əlamətdardır. Qadınlar 4 cür; Birisi soysoldurandır; ikinci toy doldurandır; üçüncü evin dayağıdır; dördüncü necə desən bayağı kimi təsvir olunur. Digər tərəfdən dastanda ibrət dərsləri psixoloji kontekstdə qeyd olunub

ƏDƏBİYYAT SİYAHISI

1. Kitabi-Dədə Qorqud Ensiklopediyası. 2 cilddə, I cild., Bakı: Yeni nəşrlər evi, 2000, 623 s.

2. Dədə Qorqud Kitabı. Ensiklopedik lüğət. Bakı: Öndər, 2004, 368 s.

3. Bayramov Ə.S. Etnik psixologiya “Renessans”. Bakı, 2001, 374 s.

4. Bayramov Ə.S. Kitabi- Dədə- Qorqud dastanında etnik-psixoloji məsələlər.Bakı;2012,123 s

5. Ergin M. Dede Korkut Kitabı. İstanbul: Milli Egitim Basımevi, 1971, 254 s.

6. Gökyay O.Ş. Dedem Korkutun kitabı. İstanbul: Milli E'ğtim Basımevi. 2000, 1531 s.

7. Kitabi-Dədə Qorqud. Əsil və sadələşdirilmiş mətnlər. Tərtib edəni S Əlizadə. Bakı: Öndər, 2004, 376 s.

8. Kırzıoğlu M.F. Dede Korkut Oğuznameleri. I kitab, Ankara: Atatürk Kültür Merkezi Başkanlığı Yayınlan. 2000,114 s.

9. Рашид ад-Дин Фазлаллах. Огуз-Наме. Перевод с персидского , предисловие, комментарии примечания и указатели Р.М.Шукюровой. Баку: Элм, 1987. 128 с.

İLK FARSDİLLİ LÜĞƏTLƏRİN TÜRKSOYLU LEKSİKOQRAFLARI

TURKISH LEXICOGRAPHERS OF THE FIRST PERSIAN LANGUAGE DICTIONARIES

Ziyafət Əhəd qızı MƏMMƏDOVA

Bakı Dövlət Universiteti,Şərqşünaslıq fakültəsi,

İran filologiyası kafedrası, Baş müəllim, Bakı, Azərbaycan.Baş müəllim

XÜLASƏ

Tarixi mənbələrdə qeyd olunduğu kimi ilk farsdilli lüğət Azərbaycanın məşhur şair və filoloqu Qətran Təbrizinin “Təfasir fi-loğət-ol fors” adlı əsəridir. XI əsrin əvvəllərində (1012-ci ildə) Təbriz şəhəri yaxınlığında anadan olan, tədqiqatçılar tərəfindən daha çox bir şair, böyük bir söz sənətkarı kimi tanınan Qətran Təbrizinin lüğət tərtibatı sahəsindəki fəaliyyəti arxa planda qalmışdır. Təbriz şəhərində 1046/47-ci illərdə yazılan bu əsərin elmi mənbələrdə biri İranda Sepəhsalar mədrəsəsinin kitabxanasında, digəri isə Əli Əkbər Dehxoda Lüğətnaməsi kitabxanasında olmaqla cəmi iki əlyazma nüsxəsinin mövcudluğu haqqında məlumat verilir. Cəmi 300 sözdən ibarət olan bu izahlı lüğət leksikoqrafiya sahəsində atılan ilk addım kimi dəyərləndirilir.

Fars leksikoqrafiyası tarixində ikinci izahlı lüğət kimi tanınan “Loğət-e fors” adlı əsər isə, XII əsrin görkəmli şairi və leksikoqrafı Əsədi Tusi tərəfindən Naxçıvanda tərtib olunmuşdur. “Loğət-e fors” müxtəlif müəlliflər tərəfindən çap olunub; ilk dəfə 1897-ci ildə alman alimi P.Horn tərəfindən Vatikan əlyazması əsasında, ikinci dəfə1940-cı ildə A.Eqbal tərəfindən dörd əlyazma əsasında və axırıncı dəfə 1957-ci ildə İran alimi Dəbir Siyaqi tərəfindən nəşr edilmişdir.

XIII əsrin sonu, XIV əsrin əvvəllərində fars leksikoqrafiyası tarixində üçüncü izahlı lüğət kimi qiymətləndirilən əsər Məhəmməd ibn Hinduşah Naxçıvaninin ”Sihah-ol-fors”udur. M.Naxçıvaninin şeir dilinə həsr olunan və fars leksikoqrafiyası tarixində mühüm yerlərdən birini tutan ”Sihah-ol-fors” lüğəti tədqiqatçılar tərəfindən yüksək qiymətləndirilmişdir.

M.Naxçıvani əsərin müqəddiməsində bu lüğətin 728 (1327-1328)-ci ildə Təbrizdə yazıldığını qeyd edir. Sözlərin düzülüş prinsipində və mənalarının izahı və təsviri üsullarında leksikoqrafiya elminə yeniliklər gətirən bu əsərin dörd əlyazma nüsxəsi mövcud olmuşdur. 2300 müxtəlif növlü söz, ifadə, ibarə, və kinayələrdən (məcazi mənalı sözlərdən) ibarət olan bu lüğətdə dilçiliyin müxtəlif sahələrinə aid, faydalı məlumatlara rast gəlirik.

Açar sözlər: leksikoqrafiya, farsdilli lüğətlər, Qətran Təbrizi, Əsədi Tusi, Məhəmməd Naxşıvani, əlyazma nüsxələri.

ABSTRACT

As mentioned in the historical sources, the author of the first Persian language dictionary was the famous Azerbaijani poet and philologist Getran Tabrizi. Qatran Tabrizi, who was born near the city of Tabriz in 1012, wrote the work "Tafasir fi-loghat-ol fors" in 1046/47 in the city of Tabriz. There are only two manuscript copies of this work, which contains only 300 words. The work called "Loghat-e fors", known as the second explanatory dictionary in the history of Persian lexicography, was compiled by Asadi Tusi, a poet and lexicographer of the 11th century, in Nakhchivan. The dictionary of the Turkish Azerbaijani Asadi Tusi, who is the author of the famous work called "Gershaspname", consisted of 1700 words.

After a gap of about two centuries, at the end of the 13th and the beginning of the 14th century, "Sihah-ol-fors" dictionary of Muhammad ibn Hindushah Nakhchivani was valued as the third explanatory dictionary in Persian language lexicography. M. Nakhchivani was a great linguist, historian, and translator of his time. His dictionary, which consists of 2300 words full of various words, phrases, expressions, and sarcasm, was evaluated as one of the most valuable works of his time. There are four manuscript copies of this dictionary compiled in Tabriz in 728 (1327-28). The famous Iranian scholar

A. Taati published a critical text of the "Sihah-ol-fors" dictionary (1963) based on three manuscripts in use in 1341.

Key words: lexicography, Persian language dictionaries, Getran Tabrizi, Asadi Tusi, Muhammad Nakhchivani, manuscript copies

İLK FARSDİLLİ LÜĞƏTLƏRİN TÜRKSOYLU LEKSİKOQRAFLARI

Giriş:

Müəyyən üslubda düzülən sözlərin mənası, tərcüməsi, tələffüzü əks olunan lüğətlər funksionallıq baxımından praktik xarakter daşısa da, qeyd etmək lazımdır ki, eyni zamanda ədəbiyyat nəzəriyyəsinin inkişafını da əks etdirməklə elmin normativ vəziyyətininin göstəricisinə çevrilmişlər. Qədim tarixə malik lüğətlər əsasən ensiklopedik və filoloji (izahlı, ikidilli, terminoloji, orfoqrafik, orfoepik, etimoloji və s.) olmaqla iki növə ayrılır.

Məlum olduğu kimi, X-XI əsrlərdə İranda ədəbiyyat nümunələri dəri dilində yazılmışdır. Bu səbəbdən də klassik farsdilli lüğətlərin müəlliflərinin lüğət yazmaqda əsas məqsəd və məramı fars nəzm əsərlərində işlədilən çətin anlaşılan, mürəkkəb söz və ifadələrin izahını və mənalarını göstərmək olmuşdur.

1.1 Qətran Təbrizi və onun fars leksikoqrafiyasının ilk farsdilli izahlı lüğəti "Təfasir fi-loğət-ol fors" əsəri

Tarixi mənbələrdə qeyd olunduğu kimi fars leksikoqrafiyası tarixində ilk farsdilli lüğətin müəllifi Azərbaycanın məşhur şair və filoloqu Qətran Təbrizi və ilk izahlı lüğət isə onun "Təfasir fi-loğət-ol fors" adlı əsəridir. XI əsrin əvvəllərində 1012-ci ildə Təbriz şəhəri yaxınlığında Şadiabad kəndində anadan olan (4,səh.3) Qətran Təbrizinin lüğət yazmaqla məşğul olması haqda məlumata onun müasiri olan məşhur İran şairi və səyyahı Nasir Xosrov Ələvinin "Səfərnamə" əsərində rast gəlirik. Belə ki, müəllif Hicri 438 (1046/47)-ci ildə səyahətdə olarkən Təbriz şəhərində Qətranla görüşünü belə təsvir edir:

"Təbrizdə Qətran adlı bir şair gördüm, gözəl şeir deyirdi, amma fars dilini yaxşı bilmirdi, mənim yanıma gəldi, Məncikin, Dəqiqinin divanlarını gətirdi və mənə oxudu, başa düşmədiyi sözlərin mənasını məndən soruşdu, ona dedim, onların izahını yazdı və öz şeirlərini mənə oxudu" (8, səh.7)

Buradan aydın olur ki, Qətran hələ ilk dövrlərdə fars dilini kifayət qədər səlis bilmirdi. Şübhəsiz, bu onun Azərbaycan türkü olduğunu sübut edən ən qiymətli mənbədir. Qətranın fars dilini yaxşı bilməməsi qeydi 1305-ci ildə tərtib edilmiş "Fərhəng-e nezam" əsərinin müəllifi Seyid Məhəmməd Əli Daiyyülislam tərəfindən belə aydınlaşdırılır ki, "o dövrdə Xorasan dili ədəbi dil olduğundan, Qətran isə Azərbaycanlı olduğundan bəzi ədəbi və xalq danışıq dilində olan sözlərin mənasını bilmirdi. Odur ki, onun izahlı lüğəti Azəbaycan dilində olmayan 300 Xorasan və Turan sözlərindən ibarət qeydlər olmuşdur (12, səh.dal).

Nasir Xosrovun bu qeydinə müxtəlif rəylər və münasibətlər oldu. Məsələn, məşhur Rus şərqşünası İ.M.Oranski yazır: "Ola bilməzdi ki, Qətran kimi fars (tacik) şeirinin ustadı öz poetik yaradıcılığının dilini bilməmiş olsun. Onların hər ikisi fars dilində danışsalar da, adı çəkilən şairlərin şeirlərində rast gələn söz və ifadələr Orta Asiyadan çıxmış Nasir Xosrov üçün tanış idi, lakin ömrü boyu Təbrizdən çıxmayan Qətran üçün isə anlaşılmaz" (9,səh.27). Bu sətirlər Qətranın lüğət yazması haqda şübhələri aradan qaldırır və həmçinin məlum olur ki, müəllif lüğəti elə həmin ildə və Təbriz şəhərində tərtib etmişdir. Beləliklə, mənbələrdə XI əsrin 50-ci illərində (1046/47) yazılan bu əsərin cəmi iki əlyazma nüsxəsi, biri İranda Sepəhsalar mədrəsəsinin kitabxanasında, digəri isə Əli Əkbər Dehxoda Lüğətnaməsi kitabxanasında mövcud olduğu göstərilir (6,səh.9; 2səh.118). Cəmi 300 sözdən ibarət olan bu izahlı lüğətin əiyazma və ya çap şəklində nüsxəsinin əldə olmamasına baxmayaraq onun haqqında məlumatlara sonrakı leksikoqrafik əsərlərin müqəddimələrində və ya lüğətlərin ayrı-ayrı söz maddələrində təsadüf olunur. Məsələn, Əsədi Tusi öz lüğət kitabının müqəddiməsində qeyd edir ki, "Şair Qətran sözlərinin çoxusu tanış olan bir kitab hazırladı" (3,səh.4). Daha sonra XIV əsrin əvvəllərində tərtib olunmuş M.Naxçıvani də "Sihah-ol-fors" lüğətinin müqəddiməsində yazır: "İlk dəfə fars dilində sözləri toplayıb kitab halına salan Həkim Qətran Urməvi olmuşdur" (5,səh.8)

Qətran Təbrizinin lüğətinin mövcud olmasını sübuta yetirən ən inandırıcı mənbələrdən biri də məşhur İran alimi Doktor Əli Əsgər Hüquqinin 1959-cu ildə Tehran Universitetinin elmi jurnalında Rudəki yaradıcılığına həsr etdiyi məqalədir (2,səh.118-180) Burada müəllif Rudəkinin nəzmində işlətdiyi 316 dil vahidini, çap və ya əlyazması şəklində olan müxtəlif növlü lüğətlərdə işlədildiyini araşdırarkən, Qətranın da Sepəhsalar mədrəsəsinin kitabxanasında olan nüsxəsinə müraciət etmişdir. Bu zaman lüğətin söz maddələrindən 30 dəfədən çox sitat gətirmişdir.

1.2. Azərbaycanda tərtib olunan, ikinci izahlı lüğət kimi tanınan "Loğət-e fors"

Fars leksikoqrafiyası tarixində ikinci izahlı lüğət kimi tanınan "Loğət-e fors" adlı əsər XI əsrin görkəmli şairi və leksikoqrafı Əsədi Tusi tərəfindən Naxçıvanda tərtib olunmuşdur. Əsədi Tusi İranın Tus şəhərində anadan olub, onun doğulduğu və ölüm tarixi dəqiq məlum deyil. Gənclik dövrü Xorasan inqilabları zamanına düşdüyündən oradan köçüb Azərbaycana gəlir. Naxçıvan əmiri Əbu Doləf onu öz himayəsi altına alır və onun vəziri Ə.Tusiyə "Gerşaspnamə" əsərini yazmağı təklif edir (6,səh.11)

Ə.Tusinin "Loğət-e fors" əsərinin yazılma tarixi dəqiq məlum deyildir. Yalnız Səid Nəfisinin qeydindən (11,s.186) görünür ki, müəllif onu "Gerşaspnamə"dən sonra, yəni Hicri 458(1066)-ci ildən sonra yazmışdır. Əsərin əsas hissəsi X-XI əsrlərdə fars dilində işlədilən əmək və məişətə aid olan sözlərdən, müxtəlif növlü dialekt və məhəlli sözlərdən ibarətdir. Bu lüğətdə ayrı-ayrı dil vahidlərinin izahı zamanı yüzdən artiq şairin əsərlərindən illüstrativ vasitə şəklində sitatlar gətirilmişdir. Cəmi 1700 sözün izahına həsr edilmiş bu lüğət kitabı öz dövrünün dəyərli əsərlərindən biri kimi qiymətləndirilərək, Səid Nəfisi bu kitab haqda yazır: "Bu kitab Əsədidən sonra yaşamış bütün lüğət yazanlar üçün əsas istifadə mənbəyi olan çox maraqlı və faydalı bir əsərdir" (11,səh.187)

"Loğət-e fors"un tənqidi mətni müxtəlif müəlliflər tərəfindənn üç dəfə çap olunub; ilk dəfə 1897-ci ildə alman alimi P.Horn tərəfindən Vatikan əlyazması əsasında, ikinci dəfə1940-cı ildə A.Eqbal tərəfindən dörd əlyazması əsasında və axırıncı dəfə 1957-ci ildə İran alimi Dəbir Siyaqi tərəfindən nəşr edilmişdir (1,səh.39; 11,səh.186). Qeyd etmək lazımdır ki, Əsədi Tusi milliyyətcə Azərbaycan türkü olmasa da bu lüğətini (qeyd etdiyimis kimi) Azərbaycanda yazmışdır.

1.3. fars leksikoqrafiyası tarixində şeir dilinə həsr olunmuş və tərib prinsiplərinə görə yenilik gətirmiş üçüncü izahlı lüğət - "Sihah-ol-fors"

Fars leksikoqrafiyası tarixində üçüncü izahlı lüğət kimi tanınan "Sihah-ol-fors" lüğəti də Azərbaycanlı müəllif Şəmsəddin Məhəmməd ibn Hinduşah Naxçıvani tərəfindən tərtib edilmişdir. XIV əsrin əvvəllərində yaşamış böyük Azərbaycan alimi, dilçisi, dövlət xadimi və leksikoqrafı olan H.Naxçivaninin həyatı və yaradıcılığı haqda məlumatlara çoxsaylı məxəzlərdə rast gəlmək olur. Bu məlumatlardan aydın olur ki, M.Naxçıvaninin atası dövrünün tanınmış dövlət xadimi,tarixçisi, mütərcimi, münşisi, şairi və dilçisi, bir sıra elmi əsərlərin müəllifi olmuş, həmçinin "Əs-sihah-əl-əcəmiyyə" adlı farsca-türkcə ikidilli lüğətin müəllifi olan Mövlana Fəxrəddin Hinduşah ibn Abdulla sahibi Naxçivani olmuşdur (10,səh.96; 11,səh187)

"Sihah-ol-fors" əsərinin müəllifi Məhəmməd ibn Hinduşah Naxçıvani Azərbaycanın Naxçıvan şəhərində anadan olmuş və Hicri 684 (1285-1286) – 776 (1374-1375)-cı illər arasında yaşamışdır. O, ilk təhsilini atasından almış, uşaq yaşlarından alimlər arasında gedən ədəbi, elmi, fəlsəfi söhbətlərdə yaxından iştirak etmiş və elm aləmində "Şəmse Monşi" adı ilə şöhrət qazanmışdır. Atasından yaxşı təhsil və tərbiyə almış M.Naxçıvani orta əsrlərdə yaranmış qiymətli əsərlər sırasına daxil olan "Dəstur-əl katib fi təyin əl-məratib" kimi məşhur əsərin də müəllifidir (10,səh.96; 11,səh187).

Azərbaycan dilində isə feilin indiki zamanı bildiyimiz kimi, -ır[4] (-yır[4]) şəkilçisinin feil kökünə artırılması yolu ilə düzəlir. /Mozare-ye əxbari/ qrammatik normasının semantik xüsusiyyətlərinə nəzər saldıqda əvvəldə dediyimiz kimi bu normanın konteksdən asılı olaraq həm indiki, həm gələcək, hətta bəzi hallarda keçmiş zamanın ifadə vasitəsi olduğunu demişdik. Bu baxımdan bu kateqoriyanı Azərbaycan dilində feilin təsriflənən formaları arasından Xəbər şəkli ilə uyğunlaşdıra bilərik. Lakin Azərbaycan dilində yazılan çağdaş qrammatika kitablarında, dərs vəsaitlərində feilin xəbər şəklinə daxil olan 3 zaman formasından – indiki, gələcək, keçmişdən bəhs olunur (11, 86). Belə ki, bu zaman formalarının müxtəlif altformaları da qeyd edilməkdədir. Məsələn, keçmiş zamanda nəqli və şühudi keçmiş zamanın, gələcək zamanda isə qəti, qeyri-qəti gələcək zaman növlərindən bəhs olunur. Halbuki fars dilindəki "mozare-ye əxbari" qrammatik kateqoriyasının zaman çərçivəsinə başlıca olaraq indiki zaman və gələcək zamanın qeyri-qəti forması daxildir. Qəti gələcək zaman "mozare-ye əxbari" kateqoriyasının semantik tərəfləri içərisində yer alsa da, bu nisbi xarakter daşıyır və qəti gələcək zamanın fars dilində ayrıca qrammatik forması mövcuddur. Bu baxımdan qəti gələcək zamanı tam olaraq "mozare-ye əxbari" qrammatik normasının bütünləşmiş tərkib hissəsi olaraq vermək tərəfimizdən məqsədəuyğun hesab edilmir.

Fars dilində "mozare-ye əxbari" norması mütəmadi baş verməkdə olan situasiyaların, təbii hadisələrin və mövcudluğu daimi xarakter almış varlıqların ifadəsində də istifadə olunur.

هوا گرم است. (Hava istidir)

زمین گرد است. (Yer yumrudur)

Azərbaycan dilində feilin xəbər şəklinin təsnifləndirmələrinə isə bunlar daxil deyil. Eyni zamanda fars dilindəki indiki və qeyri-qəti gələcək zamanın morfoloji quruluşu da Azərbaycan dilindən fərqli olaraq eynidir və kontekstə görə dəyişir.

Mozare-ye əxbarinin tarixi aspektdə və feillərin növlərinə görə qrammatik quruluşu

Müasir fars dilində düzəltmə fellərdə mozare-ye əxbari می /mi/ hissəciyinin ön şəkilçinin əvvəlinə artırılması yolu ilə düzəlir: کتاب را بر می دارم. Klassik fars dilində isə düzəltmə fellərdə bu proses می hissəciyinin ön şəkilçinin qarşısına keçməsilə düzəlirdi: کتاب را می بردارم . Lakin bu qrammatik formada eynilə "می" hissəciyinin funksiyasını yerinə yetirən همی "həmi" hissəciyi düzəltmə fellərdə hər iki halda – həm felə qoşulan ön şəkilçinin əvvəlində, həm də ondan sonra gələ bilirdi: "همی بر خورم ya بر همی خورم"

"mozare-ye əxbari"-nin mürəkkəb fellərdə işlənmə formasında klassik fars dili ilə müasir fars dili arasında fərqlilik nəzərə çarpır. Belə ki, müasir fars dilində mürəkkəb fellərdə می hissəciyi köməkçi feil ilə əsas fel arasında işlənir: کمک می کند

Klassik fars dilində isə həm همی və həm də می hissəcikləri köməkçi fellərlə ifadə olunmuş mürəkkəb fellərdə köməkçi feillə əsas fel arasında işlənir:

کمک همی کند – همی کمک کند, کمک می کند - می کمک کند

می و همی hissəciklərinin "mozar-ye əxbari"də müxtəlif məqamlarda işlənmə yerlərindəki fərqliliklər inkar formasında da özünü göstərməkdədir. Müasir fars dilində "mozare-ye əxbari"də işlənən felin inkarı نه /nə/ inkar hissəciyinin می /mi/ hissəciyinin əvvəlinə qoşulması yolu ilə formalaşır: **می روم – نمی روم.** Klassik fars dilində, qədim mətnlərdə isə biz bu tendensiyanın başqa formada təzahür etdiyinin şahidi oluruq. Belə ki, bu zaman "mozare-ye əxbari"də işlənən feldə inkar hissəciyi, qrammatik normanın özünün düzəlməsində aparıcı rol oynayan می hissəciyi ilə ondan sonra gələn fel kökü arasına girərək fel kökünə birləşirdi: می نروم; bu forma eynilə bu funksiyanı yerinə yetirən - همی hissəciyi ilə digərindən fərqli olaraq hər iki şəkildə işlənirdi: همی نروم = نهمی روم

Fars dilində olan klassik mətnlərdə eyni mənalı cümlələrdə işlənən, qrammatik baxımdan demək olar ki, hansısa bir fərqlilik təşkil etməyən مضارع التزامی "feilin iltizam şəkli" fellərinin də özünə məxsus işlənmə formaları var idi. Belə ki, köhnə mətnlərdə bəzi hallarda bir-birinin davamı olan eyni mənalı

cümlələrdə müəyyən, eyni səpkili fikrin, məfhumun çatdırılmasında rol oynayan fellər مضارع التزامی “feilin iltizam şəkli” də işlənən zaman qrammatik mövqelərində hər hansı bir fərqliliyin olmamasına baxmayaraq müxtəlif quruluşlarda işlənmişlər:

او به سفر **همی رود**. علی را **می بیند** و از او **خواهد** که برایش نامه نویسد. (3, 510)

Fars dilində bitməmiş keçmiş zaman və feilin iltizam şəklinə məxsus olan qrammatik normalardan biri də ی “ya-ye məchul” hissəciyidir. Amma bəzən, xüsusilə tarixdə Monqol hakimiyyətinin başlanmasından bu günə qədər olan fars dilinin inkişaf dövründə bu norma felin şərt şəkli, felin bir sıra asılı işlənən formaları və felin iltizam şəklinə aid olmayan digər formalarında, “mozare-ye əxbari”dən sonra işlənmişdir. Lakin fars dilçiliyinin inkişafında əvəzsiz rolu olmuş bir çox ənənəvi dilçilər bu tendensiyanı qəbul etməmiş, bunun işlənməyinə baxmayaraq dilin qrammatik normasına səhv bir yanaşma olduğunu qeyd etmişlər.

Bəzən “mozar-ye əxbari”də keçmiş zamanda icrası başlanan, lakin indiki, danışılan zamanda da icrası davam edən bir hərəkətin mahiyyətindən də bəhs edilə bilir. Belə olduqda bu situasiyaların cümlədə ifadə edilməsi üçün konkret olaraq bir sıra sözlərdən istifadə olunur:

از دیروز، از دیرباز، از صبح، از شب و غیر - من از دیرباز منتظر شما هستم.

Yeniliklər

/Mozare-ye əxbari/ qrammatik kateqoriyası İranda dərc olunan müasir ədəbiyyatlarda, dərs vəsaitlərində əsas etibarilə qeyri-qəti, qəti gələcək və indiki zamanın ifadə vasitəsi kimi göstərilələr زمان حال اخباری “Xəbər şəklinin indiki zamanı” şəklində adlandırılır. (1, 17). Burada qəti gələcək zaman indiyə nəzərən gələcək zaman kimi ifadə edilir və işlənməsi daha çox danışıq dilində aktivdir. Lakin keçmiş zamanı ifadə etməsi ilə bağlı da müəyyən iddialar mövcuddur. Bəzən bu keçmiş zamanla əlaqə orfoqrafik quruluş baxımından indiki zamanı xatırlatsa da hadisənin yaşandığı real zaman, ümumi mahiyyət baxımından keçmiş zamanda nəql olunan bir hadisənin ifadəsində işlədilə bilir. Buna mahiyyət baxımından “keçmiş zamanın rəvayəti” deyə bilərik. Burada hətta fars dilindən sırf bu qrammatik normanın ifadəsi baxımından ən çox işlənən felləri də ortaya çıxara bilərik ki, ən birinci nümunə olaraq گفتن “demək” feili və onun müxtəlif sinonimləri göstərilə bilər:

صعدی گوید، حضرت علی می فرماید، در عهد غزنویان سیلی عظیم می آید و سراسر نیشابور را ویران می سازد. (4, 189)

Bu baxımdan biz “Mozare-ye əxbari”nin keçmiş zamanı ifadə tərəfini Azərbaycan dilində xəbərlik şəkilçisinin təsnifatına daxil olan nəqli keçmiş zamanla eyniləşdirə bilsək də, fars dilindəki xüsusiyyət müəyyən, istisna hallar üçün xarakterikdir. Azərbaycan dilində feilin xəbər şəklinin bir parçası olan nəqli keçmiş zamanın və fars dilindəki müvafiq zamanın da özünəməxsus morfoloji quruluşları vardır. Burada oxşarlıq yalnız semantik konteksdə təzahür edir.

“Mozare-ye əxbari”də می hissəciyin müasir fars dilinin inkişaf dövrünün başlanğıcından bu günə qədər bir sıra işlənmə formaları:

l. می hissəciyi fel kökündən əvvəl gələrək aid olduğu fellə birgə işlənir:

ما **می بینیم و می خوانیم** (10, 132).

2. می hissəciyi klassik fars dilində fel kökündən bir sıra hallarda əvvəl gəlsə də özündən sonra birbaşa aid olduğu fel kökü gəlmir, hissəciklə felin özü arasına feldən əvvəl işlənən söz daxil olur: (klassik mətnlər)

چگونه می کافر شوید شما؟ (10, 119)

3. Önşəkilçi + می+ fel:

پیاز خشک را **بر می کنند** (10, 198).

4. می + önşəkilçi + fel (Klassik mətnlər):

چشم های ایشان **می فروریزد** (10, 87).

5. əsas fel + می+ köməkçi fel:

المقدسی نیز ... **نام می برد** (10, 175).

6. می+ əsas fel + köməkçi fel:

ایشان .... **می سوگند خورند** (10, 67).

7. می+ məsafə + mürəkkəb fel:

او **می** خود را **یاد کند** (6, 131).

8. می + ب+ fel:

می بگردانند خلق را از راه دین (10, 165).

9. می + məsafə + ب+ fel:

شما **می** بار را از راه **ببرید** (7, 322).

10. ب+ می+ fel:

ایشان را **بمی اوکنی** (10, 56).

11. می hissəciyi cümlənin əvvəlində gəlib, cümlə sonundakı است xəbərlik şəkilçisinə aid olur:

می خدای شما مهربان **است** (10, 99).

Nəticə

Fars dilindəki /mozare-ye əxbari/ qrammatik normasının Azərbaycan dilində yekun nəticə olaraq feilin xəbər şəkli ilə eyniləşdirilə bilsə də, sözügedən şəkil Azərbaycan dilində daha geniş qrammatik anlayışı ifadə edir. Biz onun tərkibində faktiki olaraq morfoloji quruluşa sahib üç fərqli zamanı və onun altformalarını görürük. Lakin fars dilində bu fərqlilik yalnız semantik çərçivədə təzahür edir və bu təzahürlər konteksdən asılı olaraq istisna xarakteri daşıyır. Həmçinin əlavə olaraq qeyd edilən həmin semantik xüsusiyyətləri özündə ehtiva edən keçmiş zaman, qəti gələcək zaman kimi zaman formalarının fars dilində ayrıca morfoloji quruluşları vardır. Bu baxımdan biz "mozare-ye əxbari" kateqoriyasının semantik nöqteyi-nəzərdən Azərbaycan dilində daha çox indiki və qeyri-qəti gələcək zamanla uyğunluq təşkil etdiyini qeyd edirik. Lakin burada nəzərəçarpan əsas fərqli cəhət adıçəkilən zamanların quruluş formalarındadır. Belə ki, fars dilində eyni forma ilə əmələ gələn indiki və qeyri-qəti gələcək zaman Azərbaycanda dilində fərqli quruluşa malikdir. Lakin buna baxmayaraq qrammatik ekvivalent kontekstində yanaşsaq, kateqoriyaların uyğunlaşdırılmasında semantik təzahürlərin etalon kimi götürülməsi tərəfimizdən daha məqsədəuyğun hesab edilmişdir. Morfoloji quruluş iki fərqli dil ailəsinə mənsub dildən danışdığımız təqdirdə bir o qədər də mühüm əhəmiyyət kəsb etmir və təbii qəbul edilməlidir. Lakin məna xüsusiyyətlərindəki oxşarlıq bu iki - indiki və qeyri-qəti gələcək zamanla fars dilindəki /mozare-ye əxbari/ qrammatk normanı ekvivalent kateqoriya olaraq vurğulamağımıza imkan verir.

Ədəbiyyat siyahısı

1. Cəfəri Fateme. (1398) Dəstur-e Karbordi, celd-e dovvom, Tehran: Moəssəse-ye loğətname-ye Dexhoda və mərkəz-e beyn-ol meləli-ye amuzeş-e zəban-e farsi, 248 s.

2. Ensari Məhəmməd ben Hoseyn ben Məsud ben Əbdulrəhim. (1298) Ketab-e Tənbih-ol Səbyan: Sərf və Nəhv-e farsi, Qum: Mətbə-e Əxtər, 25 s.

3. Givi Həsən Əhmədi. (1380) Dəstur-e tarixi-ye fel, celd-e əvvəl, Tehran: Nəşr-e qətre, 1119 s.

4. Givi Həsən Əhmədi. (1380) Dəstur-e tarixi-ye fel, celd-e dovvom, Tehran: Nəşr-e Qətre, 853 s.

5. Homayun Fərrox Əbdolrəhim. (1364) Dəstur-e came-e zəban-e farsi, Tehran: Əli Əkbər Elmi, 1256 s.

6. Meybədi Əbülfəzl Rəşidəddin, Kəşf-ol əsrar, celd-e əvvəl, Tehran: Daneşqah-e Tehran, 1338, 321 s.

7. Meybədi Əbülfəzl Rəşidəddin. (1338) Kəşf-ol əsrar, celd-e dovvom, Tehran: Daneşqah-e Tehran, 445 s.

8. Pənc ostad. (1366) Dəstur-e zəban-e farsi, Tehran: Enteşarat-e Tehran, 278 s.

9. Rampuri Nəcəm-ol Qənixan. (1396) Nəhc-ol ədəb, celd-e əvvəl, Esfahan, 546 s

10. Təbəri Məhəmməd ben Cərir. (1388) Tarix-e Təbəri, celd-e əvvəl, Tehran: Enteşarat-e Əsatir, 284 s.

11. Zeynalov N, Məmmədli İ, İsmayılov E. (2020) Azərbaycan dili, Bakı, AMEA, 292 s.

DEDE KORKUT KİTABI'NDA TANRICILIK İDEOLOJİSİ VE İFADE BİÇİMLERİ

THE THEORY OF THEISM IDEOLOGY AND FORMS OF ITS EXPRESSIONS IN THE BOOK OF DEDE KORKUT

Prof.Dr. Sevinç ALİYEVA

Azerbaycan, Bakü, Azerbaycan Cumhuriyeti Devlet Dil Komisyonuna bağlı İzleme Merkezi Başkanı

ORCID ID: https://orcid.org/0000-0001-8118-5147

ÖZET

Tarihi kaynaklar Dede Korkut Kitabı'nın oluşmaya başladığı dönemde, destan olaylarının gerçekleştiği alanlarda ateşperestliğin mevcut olduğunu ortaya koyar. Ancak halkımıza mahsus mifolojik dünya modelinin ciddi biçimde incelenmesi bütün bir dünya görüşü, bir mifik buluşmalar sistemi olarak türk mifolojisinin esasının ve üst konusunun kesinlikle Tanrıcılık olduğu sonucuna varar. Dede Korkut Kitabı'nda "***Həq yandıran çırağın yana tursun" – "Haq yandıran çırağın daim yansın!"*** ifadesinde ateşe tapma inancının ilkel izlerini aramak yanlış olmaz. Lâkin İslamiyet'in kuruluşundan çok önce oluşmaya başlayan bir destanın temel ideolojik motifini, tek Allahlılık ve Tanrıcılık olduğu kesin bilinmektedir. Bu ise eski Oğuzların dedelerine çok yakın olduğuna kuşku koymaz. Dede Korkut Kitabı ve ya destanlarda yer alan Tanrıcılık fikrinin ifade edilme yöntemlerinin tahlili sonucunda, Türk dinî düşünce tarihi boyunca bilinen en eski kavram olarak Tanrı olduğu bilinmektedir. (Kazak, Tenri, Türkmen, Tanrı, Kırgız, Tenir, Başkurt, Tenre, Uygur, Tenri, Özbek, Tangri, Altay, Tengri, Xakas. Tiqir, Yakut. Tangara) "Proto-Türklerin etno-kültürel tarihinin en alt katmanında bile var olan bu kavram" "KDQ'da İslam'daki Tanrı anlamının karşılığı olarak da kullanılmıştır": ***"Yazılıb-düzilib gögdən endi Tənri elmi Quran görklü".*** Bu anlamda, gündelik hayatı, kahramanlık vakayinameleri destanlara yansıyan eski Türkleri'nin, İslam'ın Tanrı kavramını bu kadar kolay benimsemişler, Protürk mifsel dünya modelinde tek olan, ortağı ve şeriki bulunmayan Tanrı-Allahın varlığıyla ile bağlamak mümkün olabilir. Bu nedenledir ki İslami terim ve proto-terim (Yunancada Proto, protos, yani epik metnin Arapçadan ödünçlemeler içermemesi bağlamında, diğer ortaçağ metinlerine kadar "ilk, başlangıç" kelimesinden oluşmuştur.") yeterince geniş bir şekilde kullanılması mümkün olabilmiştir.

"İlk tümcesi Resûlullah'ın adıyla başlayıp da son tümcesi yine bu kutsal varlığın –Hazreti Muhammed Mustafa sallallahi alaihi ve alihi sellem'in adıyla biten Dede Korkut boylarında İslami görüş ve geleneklerin kolayca en üst katmanda tezahürü şu etkinin hangi zamana ait olduğu konusunun oldukça gizemli bir konu olduğunu ve tam olarak da çözülememiş olmasını ortaya koymaktadır.

Anahtar Kelimeler: Dede Korkut Kitabı, mifoloji, Tanrıcılık, İslamiyet, gelenek, eski Oğuzlar.

ABSTRACT

Historical sources reveal that in the period when the Book of Dede Korkut began to form, there was Fire-worship in the areas where the events took place. However, a serious examination of the myphological model of the world peculiar, a whole worldview of our people concludes that the basis and top subject of Turkish miphology, as a system of mific encounters is definitely Theism. It would not be wrong to look for the primitive traces of the belief in Fire-worship in such statements from the Book of Dede Korkut "May the light of truth stand beside you" – "May the light of truth always burn!". However, it is definitely known that the basic ideological motif of the book is monotheism and theism, which began to form long before the foundation of Islam. This leaves no doubt that the ancient Oghuzs were very close to their grandfathers. As a result of the analysis of the methods of expression of the idea of God in the Book of Dede Korkut or epics, it is known that God is the oldest concept known throughout the history of Turkish religious thought. (Kazakh, Tenri, Turkmen, Tanri, Kyrgyz, Tenir, Bashkir, Tenre, Uyghur, Tenri, Uzbek, Tangri, Altay, Tengri, Xakas. Tiqir, Yakut. Tangara) ***"This concept, which exists even in the lowest layer of the ethno-cultural history of the Proto-Turks" "was also used in KDQ as***

the equivalent of the meaning of God in Islam": "God's knowledge written and descended from the sky and appeared in Quran". In this sense, it may be possible to connect daily life with the existence of Tanri-God, who is the only one in the Proturk mythical world model and has no partner as the ancient Turks, whose heroic chronicles are reflected in the epics, adopted the concept of God so easily in Islam. It is for this reason that the Islamic term and the proto-term (in Greek Proto, protos, formed from the word "first, beginning" until other medieval texts, in the context that the epic text does not contain borrowings from Arabic) has been possibly used wide enough.

"The first sentence which begins with the name of the Messenger of Allah and the last sentence ends with the name of this holy being - the Prophet Muhammad Mustafa sallallahi alaihi and alihi wa sallam" of Dede Korkut the manifestation of Islamic views and traditions at the top layer reveals that the time period of this effect is a rather mysterious issue and has not been fully resolved.

Keywords: Dede Korkut, miphology, Theism, Islam, tradition, old Oghuzes.

GİRİŞ

"Kitabi-Dədə Qorqud" dastanlarının dilində yer alan ərəb və fars alınmalarının mütləq əksəriyyəti islam amili ilə bağlı olduğundan onların abidənin lüğət tərkibinə daxilolma səbəb və şəraitini xalqımızın VII-X əsrlərdəki tarixi keçmişindən təcrid edilmiş şəkildə izləmək olmaz. "Ərəb işğallarının başlaması. Azərbaycana ilk yürüş və onun nəticələri"ni tarixi mənbələrə nəzərən araşdırmış N.Vəlixanlı yazır: "Fəaliyyətinin ilk dövründə yeni dini etiqadın - İslamın qəbulunu hər kəsin öz vicdanına həvalə edən, yalnız inandırma, təlqin yolunu seçən Məhəmməd, siyasi üstünlüyü də əldə etdikdən sonra bütpərəstliyə qarşı qəti mübarizə elan etmişdi" (15). Məhz bu səbəbdən, tək olan Tanrıya deyil, oda-atəşə etiqad edən Cənubi Qafqaz əhalisinin islamiyyətin gəlişindən sonrakı qısamüddətli imtiyazlarına baxmayaraq, zamanla məcburi şəkildə islamlaşdırılması gözlənilən idi. Tarixi mənbələr Azərbaycana ilk ərəb basqınlarının təxminən 639-640-cı illərdə gerçəkləşdiyini, lakin dağlıq ərazilərin ram edilməsi kifayət qədər vaxt almasından ərəb "fütuhat"ının uzun onilliklər davam etdiyini ortaya qoyur (7). Həmin mərhələdə "Azərbaycanda dini proseslər və onların yerli əhali üçün nəticələri"ni araşdıran tarixçi alimlər Z.Bünyadov və N.Vəlixanlının da haqlı olaraq qeyd etdikləri kimi, "işğal prosesində bağlanılmış müqavilələrə görə, ərəblərin siyasi hakimiyyətini qəbul etmiş "əhli Kitab" yerli əhali könüllü olaraq istədiyi dini seçə bilərdi; lakin ilk ərəb təcavüzündən bir neçə il keçmiş, xəlifə Əlinin dövründə Azərbaycanın işğal edilmiş torpaqlarında yerləşdirilmiş ərəblər yerli əhalini islama dəvət etmək tapşırığını aldılar(7) və tez bir zamanda yerli əhalinin "islamlaşdırılması" başa çatdı. "Çox yerdə sülh yolu ilə (sülhən), bəzi yerlərdə isə silah gücünə (ənvətən) həyata keçirilən İslam fütuhatı" Z.Bünyadovun göstərdiyi kimi, "... islamın Azərbaycanda hakim din olması" ilə nəticələndi. (4). Heç şübhəsiz, zamanla hakim mövqe qazanmış yeni ideoloji, əxlaqi-etik doktrina xalqın mənəviyyatına, onun milli mentallığına ciddi şəkildə sirayət etməyə başlayır. Bu səbəbdən də yalnız həmin mərhələdən sonra meydana gələn əsərlərə deyil, daha öncəki dövrlərdə formalaşmış şifahi xalq abidələrinə də təsir edirdi, sonuncuların islam ideologiyası standartları çərçivəsində "təkrar oxunuşu", yeni redaktəsi aparılırdı.

"Kitabi-Dədə Qorqud" dastanlarının tarixi ilə bağlı bir çox görkəmli qorqudşünas alimlərin, habelə tarixçi tədqiqatçıların, demək olar ki, etiraz tanımayan ortaq rəyinə görə, bu abidənin formalaşması tarixi islamiyyətdən daha öncəki dövrə gedib çıxır. Xalqımızın tarixinə dair fundamental araşdırmalarda da bu abidənin, məhz, ərəb işğalından əvvəlki mərhələdə mövcud olan epik düşüncə məhsulu olmasına şübhə yeri qoyulmur. "Azərbaycan tarixi (III - XIII əsrin ilk rübü)" əsərində oxuyuruq: "Məzmun və deyim etibarilə müsəlmanlıqdan əvvələ aid atalar sözləri, zərbi-məsəllər və başqa ədəbi nümunələr sırasında el ozanı Dədə Qorqudun dili ilə söylənilən dastanlar daha çox şöhrət qazanmışdı. Tədqiqatçıların "Azərbaycan şifahi və yazılı ədəbiyyatının babası" adlandırdığı bu oğuz dastanı şifahi şəkildə VI-VIIl əsrlərdə formalaşmağa başlamış, VII-IX əsrlərdə tam təşəkkül tapmışdır". Bu fakt isə, dolayı şəkildə, dastan mətnlərində ərəb və fars alınmalarının daha sonrakı əsrlərə aid yazılı abidə və müəllif əsərləri ilə müqayisədə azsaylılığının səbəblərini açıqlamış olur. Digər tərəfdən, həmin alınmaların irəlidə araşdırmaya cəlb ediləcək nümunələrdən də aydın şəkildə görünəcəyi kimi, əksər hallarda dini tematikanı əhatə etməsinin hansı amillə şərtləndiyini ortaya qoyur.

ARAŞTIRMA VE BULGULAR

DƏDƏ QORQUD KİTABINDA TANRIÇILIQ İDEOLOGİYASI VƏ ONUN İFADƏ FORMALARI

Tarixi mənbələr "Kitabi-Dədə Qorqud"un formalaşmağa başladığı dövrdə dastan süjetlərinin gerçəkləşdiyi ərazilərdə atəşpərəstliyin mövcud olduğunu ortaya qoysa da, xalqımızın "mifoloji dünya modelinin ən ciddi şəkildə araşdırılması da bu qənaətə gətirir ki, bütöv bir dünya baxışı, mifik görüşlər sistemi kimi türk mifologiyasının özülünü və başlıca məzmununu məhz tanrıçılıq təşkil etmişdir". "Kitabi-Dədə Qorqud"un dilindəki "Həq yandıran çırağın yana tursun" – "Haq yandıran çırağın daim yansın!" (KDQ,41,138) ifadəsində atəşpərəstlik inancının rudiment izlərini axtarmaq yanlış deyil. Bununla belə, islamiyyətin bərqərar olmasından çox öncələr formalaşmağa başlayan bir eposun əsas ideoloji leytmotivini təkallahlılıq və Tanrıçılığın təşkil etməsi bu anlayışların qədim oğuzların əcdadları üçün çox yaxın olduğuna şübhə yeri qoymur.

"İlk cümləsi Rəsuləleyhissəlamın adıyla başlayıb" (KDQ, 31), son cümləsi də məhz bu müqəddəs şəxsin - Həzrət Məhəmməd Mustafa səllallahi əleyhi və alihi vəsəlləmin adıyla qurtaran (KDQ,126) "Kitabi-Dədə Qorqud" boylarında islami görüş və ənənələrin asanlıqla seçilən üst qatda" təzahür tapmasına xüsusi diqqət çəkən B.Abdulla həmin təsirin hansı vaxta aid olması məsələsinin kifayət qədər müəmmalı məsələ olduğunu və bu məsələdə birmənalı həllin tapılmadığını vurğulamışdır (2). Məhz həmin təsirin özünü üst qatda biruzə verməsi, dərin arxetip, eləcə də dastan poetikasının semantik struktur özülünə nüfuz etməməsi və bizim üçün maraqlı olan məqama görə, ərəb alınmalarının müəyyən limit həddini aşmaması islam təsirinin və dolayısı ilə də, ərəb leksikasının təsirinin nisbətən sonrakı dövrlərə aid olması fa-ktını, zənnimizcə, təkzibedilməz edir. Dastan süjetlərində islam dini kanon və doqmaları ilə səsləşən məqamların Tanrıçılıqla paralelliyi də bir çox halda mifik dünya modeli paradiqmalarının paralelliyindən başqa bir şey deyil. "Dəli Domrul" boyunda Allahla, onun ölüm mələkəsi olan Əzraıyılla "çəkişən" qəhrəman davranışını bu paralellik prizmasından təhlil edən tədqiqatçılar da analoji mövqe nümayiş etdirirlər. "Dəli Domrul" boyunda əks olunan süjetdə islami düşüncənin şüurlarda dərin kök sala bilmədiyini, ölümə qarşı çıxmaqla, ruhu geri qaytarmağa çalışan insanın buna inamının şamançılıqdan qaynaqlana biləcəyinə diqqət çəkən S.Şıxıyeva burada islam təsirinin deyil, şamançılığın ön plana çıxdığını vurğulayır. Alim ruhun geridönüşü ilə bağlı inamı şamanlığın qüvvətli olduğu bir düşüncənin ifadəsi kimi də dəyərləndirir və insanın ölümə qarşı çıxıb, ona qalib gələ bilməsini, tamamilə haqlı olaraq, islami alın yazısı və qədər anlayışı ilə uyuşmadığını vurğulayır (14).

"Başqırdların tanrıçılığı məsələsinə dair" araşdırmasında R.Sultanqareyeva, inanclara görə, "Tanrıçılığın mənəvi atası sayılan, "Kitabi-Dədə Qorqud" epik abidəsinin müəllifi olan ... Dədə Qorqudun III əsrdə yaşamış real tarixi şəxs olduğunu" qeyd edir və onu da xüsusi olaraq, vurğulayır ki, "bununla bərabər, Qorqud Tanrıçılığın banisi deyil, lakin o, tanrıçılığı, demək olar ki, bütün türklər arasında yaymışdır" (17).

Bu mənada, istər Tanrıçılıq ideologiyası ilə bağlı məlumatlar, istərsə də KDQ mətnlərinə islam ideologiyası. ərəb və fars leksikasının "interferensiya" - müdaxilə spesifikasının təhlili fonunda N.Cəfərovun aşağıda iqtibas gətirdiyimiz fikri ilə tam mənası ilə razılaşa bilmərik. Dədə Qorqud eposunun təşəkkülü (VII-X əsrlər) və son əlyazmaların (XV-XVI əsrlər) arasında təxminən min ilə qədər bir məsafə" olması faktına diqqət çəkən görkəmli dilçi alim yazır: "Kitabi-Dədə Qorqud"da İslam dini motivləri də, bir sıra araşdırıcıların dönə-dönə qeyd etdikləri kimi, sonradan edilmiş əlavə (katib əlavəsi!) deyildir, əksinə, "Kitab"ın ideya-estetik, poetik əsaslarından biridir. Və hətta müqayisələr, təhlillər göstərir ki, müxtəlif dövrlərdə (görünür, təxminən I-V əsrlərdə), oğuz türklərinin yaşadıqları müxtəlif ərazilərdə (xüsusilə Türküstanda) yaranmış süjetlər həm də İslamın qəbulu ehtiyacı, yaxud İslam ideologiyası əsasında bir yerə yığılmış, bütöv bir dastana çevrilmişdir" (8). Biz, həmin tarixi mərhələdə qədim türklərin istər mifik dünyagörüşü modelinin uyarlılığı baxımından, istərsə də ümumi ictimai-siyasi proseslərin sanksiyalaşdırıcı gücü baxımından islamın qəbulunun tarixi ehtiyac və zərurət olduğunu qəbul etsək də, KDQ mətnlərindəki islamla bağlı anlayışların, o cümlədən müvafiq leksik vahidlərin sonradan əlavə edilməsi fikrinin tənqidi yanaşması ilə razılaşa bilmirik. Maraqlıdır ki, özünün digər araşdırmasında "Kitabi-Dədə Qorqud"da islama keçidin poetikası"nı izləmiş olan görkəmli dilçi alim məsələyə, məhz bu prizmadan yanaşaraq tam haqlı şəkildə qeyd edir: "Qədim türklərin dini-mifoloji sistemləri içərisində monoteist xarakterə malik tanrıçılıq özümlü mövqeyə malik olmuşdur. Tədqiqatlar sübut edir ki, qədim türkün Tanrı haqqında təsəvvürü, müsəlmanın Allah təsəvvürlərindən

prinsip etibarilə bir o qədər fərqlənmirdi. Tanrıçılıqdan islama keçid dövrünün abidəsi olan KDQ-da da islamı qəbul etmiş oğuzların Allaha inamı, səmimi bağlılıqları bütün boylarda görünməkdədir" (9).

Zənnimizcə, islami termin və prototerminlərin işləkliyinə rəğmən, bu dildə fərqli semantik sahələrə dair alınmaların çoxsaylı olmaması, dastanın formalaşmasının başa çatmasının islamiyyətin qəbulunun ikinci mərhələsi ilə, yəni ərəblərin dini azlıqlara tolerant münasibətinin azaldığı, məcburi (islamı) qəbul direktivinin verildiyi ənvətən mərhələsinə qədər yekunlaşmışdır. Heç şübhəsiz, dastanın formalaşma tarixinin ikinci mərhələdə yekunlaşması onun daha kütləvi ərəb və fars leksik interferensiyaları ilə yüklənməsini qaçılmaz edəcəkdir. Müqayisə üçün qeyd edək ki, orta əsrlər klassik ədəbiyyatımızda ərəb və fars mənşəli alınmaların çəkisinin müəyyən tarixi mərhələlərə görə paylaşdığını diqqətdən qaçırmayan dilçi tədqiqatçılar, hətta, "XIII-XVI əsr yazılı abidələrimizə nəzər saldıqda diqqəti cəlb edən budur ki, bu abidələrin dilində ərəb və fars mənşəli sözlər, həmçinin ərəb və fars mənşəli izafət birləşmələrinin yox dərəcəsində" olduğunu, "yalnız XVI əsrin əvvəllərində Şah İsmayıl Xətainin divanına baxdığımız zaman artıq ərəb və fars mənşəli sözlərə və izafət birləşmələrinin ara-sıra təsadüf olunduğunu" vurğulayırlar (10). Məhz islamın hakim mövqeyə qalxması və ərəb dilinin elm dili kimi nüfuz qazanması ilə türk dillərinə axın edən alınmaların orta əsrlərdəki çoxsaylılığı fonunda KDQ-dakı alluziya xarakterli lokal diqlossiya (yunan dilində di "iki", qlossa isə "dil" deməkdir. Diqlossiya eyni bir dilin çərçivəsində iki dilin və ya eyni bir dilin iki variantının müştərək şəkildə istifadə edilməsini nəzərdə tutur. Bilinqvizm və ya polilinqvizmdən fərqli olaraq, diqlossiya sosiolinqvistik fenomendir) (19) faktları, islam termin və prototerminləri və az sayda kənar (qeyri-dini) semantikalı sözləri nəzərə almasaq, abidənin təmiz-saf türkcədə yazılması aydın görünəcək.

İstər dastan süjetlərində, istər dastan mətni boyu işlədilən müqəddəs "Qurani-Kərim" sitat və alluziyaları, istərsə də burada yer alan ayrı-ayrı əlaqəli ifadə, teonim və antroponimlər dastanın yazıya alınma dövründə oğuzların İslama etiqad etmələri faktına heç bir şübhə yeri qoymur. "Kitabi-Dədə Qorqud və islam dini" mövzusuna xüsusi monoqrafik araşdırma həsr etmiş folklorşünas alim B.Abdulla yazır: "KDQ-da oğuzlar da İslamı qəbul edib Rəsuləleyhissəlama iman gətirdikləri üçündür ki, bütün əməllərində Allahdan sonra məhz bu müqəddəs şəxsə arxalanırlar. Abidənin on iki boyundan on birinin sonunda dualar "Günahınızı Məhəmməd Mustafa yüzi suyına bağışlasun", "Günahınızı adı görklü Məhəmməd Mustafa hörmətinə bağışlasun! və s. şəkildə bitir" (1).

Dastanda Kərbəla hadisələrinə alluziyanın yer alması da mətnin yazıya alınma tarixinin təqribən ...dövrdən sonraya təsadüf etməsini əyani şəkildə təsdiqləyir:

Əlinin oğulları – peyğəmbər nəvələləri –

Kərbəla yazısında yəzidilər əlində şəhid oldu (KDQ,32).

Arxaikləşmiş yazı sözü burada "çöl, düz, düzənlik" mənalarına uyğun semantik mövqedə işlədilmişdir. Yəni burada ...ildə Kərbala yaxınlığındakı düzəngahda baş verən qanlı hadisələrə alluziya, "bədii eyham" vurulur. Maraqlıdır ki, "Kitabi-Dədə Qorqud" mətnində yer alan ərəb leksikası sırasında alluziya növü olan kvazisitatlara da təsadüf etmək mümkündür. Hər hansı bir mətnə autentik eyham, yəni iqtibas xarakterli adekvat müraciətdən başqa, təhrif edilmiş istinadlar da mümkündür ki, buna da intertekstuallıq nəzəriyyəsində kvazisitatlar deyilir (16). Dastanın "Qazılıq qoca Yeynək boyu"nda yer alan aşağıdakı parçanı tərəddüdsüz olaraq, tipik kvazisitat nümunəsi kimi dəyərləndirə bilərik. Burada orijinal mənbənin tam autentiklikdən kənar, təxmini iqtibası yer alır. Müqəddəs "Qurani-Kərim"dən kvazisitatı təcəssüm etdirən həmin parçanın mənbəyi ilə, yəni mübarək "İxlas" surəsi ilə müqayisəsinə nəzər salaq:

"Yucalardan yucasan,

Kimsə bilməz necəsən, əziz tənri?!

Anadan toğmadın, sən atadan olmadın

Kimsə rizqin yemədün

Kimsəyə güc etmədin.

Qamu yerdə əhədsən, allahu səmədsən!

Adəmə sən tac urdun, Şeytana lənət qıldın (KDQ,96)

"İxlas" surəsinin tərcüməsində oxuyuruq: 1. (Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim Rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur). 2. Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O, əzəlidir, əbədidir!). 3. O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!). 4. Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!. Maraqlıdır ki, "Qamu yerdə əhədsən, allahu səmədsən" ifadəsi surənin orijinal mətnin təhrifindən başqa bir şey deyil, ərəb dilində: "Allahu əhəd, Allahu səməd".

Dastanın "Basatın Təpəgözü öldürdüyü boyu"nda isə islam aləmində bu dinin başlıca şərti kimi tanınan kəlimeyi-şəhadətin təhrif və ixtisar edilmiş iqtibasına, yəni müqəddəs kəlamın kvazisitatına yer verilir. Belə ki, oxunuşu: "Əşhədu ən la ilahə illəllah və əşhədu ənnə Muhəmmədən abduhu və Rasuluhu"; mənası isə: "Şahidlik edirəm ki, Allahdan başqa ibadətə layiq olan haqq ilah yoxdur və şahidlik edirəm ki, Hz. Məhəmməd (s) Allahın qulu və rəsuludur" olan kəlimeyi-şəhadətin (11) aşağıdakı iqtibasına yol verilir: "Basatın dilində bu gəldi kim, "La ilahə ilallah, Məhəmməd Rəsulallah!" - dedi" (KDQ, 101). Bu mətn nümunəsində kəlimeyi-şəhadətin ixtisarlı variantına müraciət edilmişdir: lā ilāha illā -llāh, muḥammadun rasūlullāh (13). KDQ-da yer alan kvazisitatda Peyğəmbərin (ə.s.) adının təsirlik hal göstəricisi olan tənvin (Ərəb dilində tənvinli isimlərin üçhallı hallanması zamanı təsirlik hada olan isim (-ən) sonluğunu qəbul edir) (12) (Mühamməd-ən) hallanma reduksiyaya uğramışdır. Bu kifayət qədər kobud xətanın özü belə dastanın ilkin formalaşma mərhələsinin ərəb işğalı və islamın qəbulundan çox öncələrə gedib çıxmasını dolayısı ilə təsdiqləyə bilən faktlardan sayılmalıdır.

Onu da əlavə edək ki, hal-hazırda danışıq dilində ümumişlək söz mövqeyində aktiv işləkliyini itirmiş ərəb alınmaları (əhəd, səməd) dilimizin onomastik bazasını zənginləşdirmişlər. Ərəb dilində tənvinli isimlərin üçhallı hallanması zamanı təsirlik hada olan isim (-ən) sonluğunu qəbul edir (3). Yeri gəlmiş-kən qeyd edə bilərik ki, "Kitabi-Dədə Qorqud"un dilində işlədilən ərəb mənşəli bir çox antroponimlər günümüzədək istifadə dairəsindən çıxmamışlar: Məhəmməd, Həsən, Hüseyn, Məlik, Fatma.

Müqayisə üçün qeyd edək ki, Tanrıya müraciətdə "Qurani-Kərim" kəlamlarının alluzial istifadəsi halları digər yazılı abidələrimizdə də yer alır. Məsələn, Qul Əlinin "Qisseyi-Yusif" əsərində oxuyuruq:

Sən kərimsən, həm rəhimsən, bu zəlilə,

Rəhmət qılğıl, əya rəhim, qul Əliyə (Qul Əli, s.153).

SONUÇ

İslam ile ilgili kelimeler ve bileşimler, bazı sureler destana yansımıştır. Destanın ana ideolojik leitmotifi, eski Oğuzlara ve dedelerine kesinlikle çok yakın olan tekallahlılık ve tanrıdır. Hatta ilk ve son cümlelerin mübarek kişi - Resulullah laihissalam'ın ismiyle bağlantısı bile bunun açık bir delilidir. Tanrıcılıktan İslam'a geçiş döneminin bir abidesi olan "Kitabi Deda Korkut"ta, İslam'ı kabul eden Oğuzların Allah'a olan inanç ve bağlılıkları tüm boyutlarda görülmektedir.

KAYNAKÇA

1. Abdulla B. İslam dini (s. 176-178) //"Dədə Qorqud" kitabı. Ensiklopedik lüğət, Bakı: Öndər nəşriyyatı, 2004, s.368

2. Abdulla B. "Kitabi-Dədə Qorqud"un poetikası. Bakı: Elm, 1999, s.146

3. Adilov V.M. Azərbaycan dilində ərəb alınmaları əsasında yaradılmış şəxs adları, filol.elm.nam. ...disser.avtoref., Bakı, 1996, s.29

4. Azərbaycanda din /Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası http://files.preslib.az/projects/remz/pdf/atr_din.pdf

5. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü). Bakı, "Elm", 2007, s.204, (24 səh. illüstrasiya)

6. Azərbaycan tarixi. Yeddi cilddə. II cild (III-XIII əsrin I rübü), Bakı, " Elm". 2007, s.168

7. Bünyadov Z. I Varaz Tiridatın hakimiyyəti və Azərbaycanın qəti olaraq Xilafətin tərkibinə qatılması // Azərbaycan tarixi. Yeddi cilddə, II cild (III-XIII əsrin I rübü). Bakı, " Elm", 2007, s.181-185, (24 səh. illüstrasiya)

8. Cəfərov N. Azərbaycanşünaslığın əsasları. Bakı: Pedaqogika, 2005, s.256

9. Cəfərov N. Allah // "Dədə Qorqud" kitabı. Ensiklopedik lüğət., Bakı: Öndər nəşriyyatı, 2004, s.368

10. İsmayilova T. R. Azərbaycan ədəbi dilinin inkişafinda Füzuli mərhələsi // Dilçilik İnstitutunun Əsərləri, № 2, Bakı, "Elm və təhsil", 2012, s.90-94

11. Kəlimeyi-şəhadət
http://az.wikipedia.org/wiki/K%C9%99limeyi%C5%9F%C9%99had%C9%99t

12. Məmmədov Ə. Ərəb dili, Bakı: Maarif, 1998, s.620

13. Shahada http://en.wikipedia.org/wiki/Shahada

14. Şıxıyeva S. Dəli Domrul boyundakı bir motivin analoqları / "Ortaq türk keçmişindən ortaq türk gələcəyinə", III uluslararası folklor konfransının materialları, Bakı: Səda, 2005, s.339

15. Vəlixanlı N. Ərəb işğallarının başlanması. Azərbaycana ilk yürüş və onun nəticələri // Bünyadov Z., Vəlixanlı N. Azərbaycanda dini proseslər və onların yerli əhali üçün nəticələri //

16. Фатеева Н.А. Типология интертекстуальных элементов и связей в художественной речи // Известия РАН. Серия литературы и языка. 1998,т. 57, № 5, s.25-38. Супрун А.Е. Текстовые реминисценции как языковое явление // Вопросы языкознания, 1995, №6, s.17-Слышкин Г.Г.Лингвокультурные концепты прецедентных текстов. Автореф. дисс. ... канд. филол. наук. Волгоград: Волгоградский госуниверситет, 1999, s.18

17. Султангареева Р.А.Тенгрианство башкир в динамике времени // I–я Международная научно-практическая конференция «Тенгрианство и и эпическое наследие народов Евразии: истоки и современность», 21-22 июня 2007 г., Якутск,

18. http://tengrifund.ru/konferencii/1-aya-konferenciya/tengrianstvo-bashkir-v-dinamike-vremeni

19. http://tapemark.narod.ru/les/136c.html

1908 İLHAK KRİZİNDEN 1914 DÜNYA SAVAŞI'NA BOSNA-HERSEK VE MÜSLÜMANLAR

BOSNİA-HERZEGOVİNA AND MUSLİMS FROM THE 1908 ANNEXATİON CRİSİS TO THE 1914 WORLD WAR

Fahriye Emgili

Doç. Dr. Fahriye Emgili, Mersin Üniversitesi, Tarih Bölümü

ORCID ID: 0000-0002-3805-7358

ÖZET

Avusturya-Macaristan, Balkanlar'da siyasî ve iktisadî hakimiyet planlarını gerçekleştirmede büyük bir adım olan Berlin Kongresi'nde, 1878'de, Bosna-Hersek'i işgâl etmek için diplomatik olarak bir yetki aldı.

Bosna-Hersek'in 1908'de ilhak edilmesinden sonra ise, Bosna toprakları Avusturya-Macaristan Monarşisinin bir parçası oldu ve Bosna-Hersek'teki dört yüz yıllık Osmanlı hakimiyeti sona ermiş oldu. İşgal rejimine karşı Bosna-Hersek halkı sempati duymuyordu fakat olumlu değişiklikler (kurumların, okulların, yolların vb. inşaatı) ve modern, verimli yönetim ve mevzuatın kurulması da bu dönemde olmuştur.

Bu işgâl ve yeni yönetim, ülkenin idaresinde ve organizasyonunda birçok reforma ve değişikliğe gitmiştir. Bosna-Hersek'te yaşayan gerek Müslüman gerek diğer dinden olan topluluklar Osmanlı hakimiyeti ve kültürü sonrası çok farklı bir siyasî, sosyal ve iktisadî koşullar ile karşı karşıya kalmışlardır. Bu arada, Balkanlar iki Balkan savaşıyla sarsılmıştı ve nüfus hâlâ şokta iken de bir felaketle karşı karşıya kaldı: 1914'te Avusturya-Macaristan tahtının varisi Franz Ferdinand Saraybosna'da öldürüldü. Bu durum da Avrupa'da ve dünyada yankı uyandıran ve Birinci Dünya Savaşı'nın ana sebeplerinden biri olacak bir olaydır. Çalışmamızda da Avusturya-Macaristan'ın Bosna'yı ilhakı ve ardından Balkan savaşları sırasında ve 1. Dünya savaşı karşısında Bosna-Hersek ve Boşnakların içinde bulunduğu durumu, geçirdikleri dönüşümleri ortaya koymak amaçlanmaktadır.

Çalışmamız 1908'den 1914'te Birinci Dünya Savaşı'nın başlangıcına kadar olan süreçte Bosna-Hersek ve Boşnaklar ile ilgili önemli olayları ele almaktadır. Bu araştırma ilgili literatür gözden geçirilerek oluşturulmuştur.

Anahtar Kelimeler: Avusturya-Macaristan, Bosna-Hersek, İlhak, 1. Dünya Savaşı

ABSTRACT

Austria-Hungary received a diplomatic authorization to invade Bosnia-Herzegovina in 1878 at the Berlin Congress, which was a major step in realizing its plans for political and economic domination in the Balkans. After the annexation of Bosnia and Herzegovina in 1908, Bosnian lands became part of the Austro-Hungarian Monarchy and the four hundred years of Ottoman rule in Bosnia and Herzegovina came to an end. The people of Bosnia and Herzegovina were not sympathetic to the occupation regime, but positive changes (construction of institutions, schools, roads, etc.) and the establishment of modern, efficient administration and legislation also took place during this period.

This occupation and the new administration made many reforms and changes in the administration and organization of the country. Communities living in Bosnia-Herzegovina, both Muslims and other religions, faced very different political, social and economic conditions after the Ottoman domination and culture. Meanwhile, the Balkans had been shaken by two Balkan wars, and while the population was still in shock, it faced a disaster: in 1914 Franz Ferdinand, heir to the Austro-Hungarian throne, was murdered in Sarajevo. This is an event that has repercussions in Europe and the world and will be one of the main causes of the First World War. In our study, it is aimed to reveal the situation and

transformations of Bosnia-Herzegovina and Bosnians during the annexation of Bosnia by Austria-Hungary and then the Balkan wars and the First World War. Our study deals with the important events related to Bosnia-Herzegovina and Bosnians in the period from 1908 to the beginning of the First World War in 1914. This research was created by reviewing the relevant literature.

Key Words: Austria-Hungary, Bosnia and Hercegovina, Annexation, WWI

GİRİŞ: BOSNA İLHAK KRİZİ

19. yüzyılın ikinci yarısında Avrupa, zamanın büyük diplomatik ve askerî güçlerinin etkisiyle bir dizi siyasî, bölgesel ve kültürel değişime uğradı. Bu çerçevede Avusturya-Macaristan'ın Balkanlar'daki siyasî ve iktisadî hedeflerine ulaşmak için Bosna-Hersek topraklarını fethetme ve Osmanlı İmparatorluğu'nu Güneydoğu Avrupa topraklarından çıkarma eğilimi arttı. Avusturya-Macaristan, Berlin Kongresi'nin neticesinde Bosna-Hersek'i 1878'de işgâl etmiş ve bu yaklaşık 30 yıl sürmüştür. Monarşinin 1878'de uygulamaya koyduğu Balkanlar'daki siyaseti 1908'de Bosna'nın ilhakı ile rayına oturacaktı.

İlhak öncesi, Avusturya-Macaristan'ın Balkanlar'a yönelik siyaseti, Monarşinin tepesindeki bazı anlaşmazlıklar sebebiyle bir süredir durağındı. Bu, 8 Ekim 1907'de Monarşi için yeni bir malî anlaşma imzalanmasıyla değişecekti. Böylece bu anlaşmanın sonuçlandırılmasıyla, Avusturya-Macaristan'ın Balkanlar'daki aktif dış siyasetinin önündeki iç engel de ortadan kalkmıştı. Sıra Avusturya-Macaristan'ın, Güneydoğu Avrupa'daki konumunu sağlamlaştırmaya gelmişti (Šidak, 1968: 238).

Yeni bir malî anlaşmanın ardından, Avusturya Dışişleri Bakanı Aloys Aehrenthal ve Genelkurmay Başkanı Franz Conrad von Hötzendorf, Bosna-Hersek'in ilhakı için hazırlıklara başladı ve ilhakın uygulanması yakın görünüyordu.

Kısa bir süre sonra, 1 Aralık 1907'de, Monarşi Karma Bakanlar Konseyi, Bosna-Hersek'in ilhakının ilk fırsatta gerçekleştirilebileceğine karar verdi, öncesi de Hırvatistan'daki siyasî meseleleri ele alarak gerekli destek için verimli bir zemin yarattı (Gross, 1971: 19-20).

Bosna'nın ilhakının Avusturya-Macaristan'ın kendisini sözde saldırılara karşı savunduğu bir eylem olarak sunulması gerektiğini belirtmek önemliydi. Aehrenthal, 17 Aralık 1907'de Genelkurmay Başkanı Conrad ile yaptığı bir görüşmede: "Balkan siyasetinin amacının Bosna-Hersek'in ilhakı ve Sırbistan'ın Avusturya-Macaristan ile Bulgaristan arasında bölünmesi olduğunu" (Gross, 1962: 154) ifade etmişti.

Böylece, Aehrenthal, kendisinin büyük desteği olan Izvoljski ile müzakerelere başladı. 1908'in ilk yarısında, Rusya ile Avusturya-Macaristan temsilcileri arasında birçok mektup ve muhtıra alışverişi yapıldı. Nihayetinde, 2 Temmuz 1908'de Izvoljski bir memorandumda; Avusturya-Macaristan'ın Bosna-Hersek'i ilhakını kabul ettiğini, ancak bunun karşılığında Avusturya-Macaristan'ın Rusya'nın İstanbul Boğazı ve Çanakkale Boğazı'na inme isteğini destekleyeceğini kabul etmiştir (Imamović, 1997: 419).

Bosna-Hersek üzerinde bu pazarlıklar yaşanırken, Osmanlı Devleti'nde ise Jön Türkler, 24 Temmuz 1908'de, 1876'daki anayasayı yenilediler. Bu anayasa, Jön Türk Birlik ve İlerleme Komitesi'nin Osmanlı İmparatorluğu'nu liberalleştirmeyi ve Avrupalı zalimlerden uzaklaşmayı planladığı eylemlerin bir parçasıydı. Jön Türk hareketinin merkezi Selanik'teydi ve tüm Balkanlara yayılması planlanmıştı. Osmanlı Devleti topraklarında yaşanan yeni Anayasa coşku dalgası, Avusturya-Macaristan'ı tedirgin etmişti ve Bosna-Hersek'e karşı harekete geçme zamanının gelindiği düşüncesi netleşti. Jön Türklerin oy hakkını ve diğer reformları Bosna ve Hersek'e kadar genişletebileceğinden korkuyorlardı ve Bosna'nın ilhakı kaçınılmaz bir hâl almıştı.

Ağustos 1908'in ilk günlerinde, Aehrenthal, ortak bakanlarla birlikte bir ilhak hazırlamak için imparatordan izin aldı. Dikkat edilmesi gereken tek şey Bosna-Hersek'in Avusturya'ya mı Macaristan'a mı katılacağıydı. Tek çözüm Bosna-Hersek'i tüm Monarşinin idaresi altında, ayrı bir alan (Reichsland) olarak ilhak etmekti (Gross, 1962: 241).

İlhak sorunu 19 Ağustos 1908'de Karma Bakanlar Kurulu toplantısında karara bağlandı. Daha önce olduğu gibi, Aehrenthal ilhakı Jön Türk devriminden sonra Bosna-Hersek'te bir anayasa yapılması

gereğiyle haklı çıkardı, çünkü Avusturya-Macaristan aksi takdirde bu alandaki hedeflerine ulaşamazdı (Imamović, 1997: 419).

Kısa bir süre sonra, 10 Eylül 1908'de Ortak Hükümet toplantısı yapıldı. Aehrenthal'a ilhakın bir an önce tamamlanması için gerekli her önlemi alması ve uygulaması söylendi. Aehrenthal hemen Rusya Dışişleri Bakanı Izvoljski ile bir görüşme ayarladı ve 15 ve 16 Eylül 1908'de Aehrenthal'in Moravya Buchlau'daki malikanesinde bir araya geldiler.

İlhak eylemi, Habsburg monarşisinde yaşayan halkı şaşırtmadı. Sırplar hariç, tüm milletlerin yönetici sınıflarının temsilcilerinin çoğu, pek çok doğal kaynağa sahip olan koloninin ilhakını onaylıyordu (Gross, 1962: 257).

Saraybosna'nın ilhakı bir gün öncesinden 6 Ekim 1908'de biliniyordu. Buna karşın her şey sakindi. 7 Ekim sabahı erken saatlerde, önce karakollara ve ardından ilçe ve ilçe merkezleri ile ilçe müdürlüklerine duyuru yapıldı. Bildiri, ülkedeki tüm önemli şahsiyetlere gönderilmek ve önemli binalara asılmak üzere 6.200 kopyaya basıldı. Ayrıca bildiri, haberciler aracılığıyla duyuruldu (Imamović,1997: 424).

Avusturya-Macaristan'ın 7 Ekim 1908 tarihinde Bosna'yı ilhak etmesi her ne kadar uygulamanın hukukileştirilmesi işinden ibaret idiyse de bir bütün olarak Berlin Antlaşması'na taban tabana aykırı idi. Bu yüzden de ilhak hem Bosna'da hem Balkanlar'da hem de dünya çapında olumsuz tepkilere yol açmıştır. Nihayetinde Avusturya-Macaristan'ın Berlin kararlarını aşarak yaptığı bu ilhak büyük bir diplomatik krize sebep oldu (Imamović, 1997: 422).

İlhak Bosna-Hersek'te iki farklı görüşlerle karşılandı; Sırplar ve Müslümanlar ilhakı protesto etti, Hırvatlar ise memnuniyetle karşıladı. Bosna-Hersek'teki milliyetçi gençlik de ilhakı protesto etti (Malbaša, 1933: 48).

Bununla birlikte Sırbistan'da ilhak şiddetli bir direnişle karşılaştı- Sırp milliyetçileri, Sırbistan'ın bu topraklarda hakkı olduğunu ifade eden Avusturya-Macaristan'a karşıtı mitingler düzenlediler. Belgrad'da düzenlenen bu mitingler daha sonra iki gizli cemiyetin kurulması ile sonuçlanacaktı: biri Halk Savunması, ikincisi de Birleşme veya Ölüm (Kara El olarak bilinir)'dür (Malcolm, 1995: 203.-204).

Bu protestolara rağmen Bosna'da büyük bir isyan çıkmadı. Aslında bunlar, önde gelen partilerin halka; hukuk düzenine ve hükümete saygı duymalarını tavsiye etmesi sebebiyle olmadı. Bosna-Hersek'teki yetkililer halkın ruh halini yakından izledi ve durumun tırmanmamasına özen gösterdi. Böylece, telgraf ve telefon bağlantıları Saraybosna'da 7-11 Ekim 1908 tarihleri arasında kesilerek Bosna'nın dünyanın geri kalanıyla diyalog kurması önlendi (Imamović, 1997: 424-425). Bosna'nın ilhakını Osmanlı Devleti, 26 Şubat 1909'da tanıdı ve Avusturya Macaristan Yenipazar sancağından vazgeçti ve Osmanlı Devleti'ne iki buçuk milyon lira ödeme sözü verdi.

Bosna'nın ilhakı sonrası özellikle Sırbistan'daki ve Sırbistan'ın denetiminde olan Bosna'daki açık ve örtülü siyasî teşekküller ciddi mücadele içerisine girmişlerdir. Bu mücadele, en sonunda 1. Dünya Savaşı felaketini doğurmuştur. Hırvatlar ise, Bosna'nın ilhakını ya Hırvatistan ile birleşmenin başlangıcı veya Avusturya içerisinde üçüncü bir özerk birim oluşturmanın başlangıcı olarak görmüşler ve bu yüzden hadiseyi her bakımdan desteklemişlerdir. Hırvatların çok az bir kısmı ise Macaristan'ın Macarlaştırma siyasetinden fazlasıyla rahatsız oldukları için Bosna'nın Sırbistan ile bileşilmesini istiyorlardı (Fredmen, 1996:74).

Avusturya Sırbistan'ın tepkisini ve Bosna'daki açık ve örtülü faaliyetini ciddiye almış ve muhtemel bir Sırp isyanına veya Sırbistan'ın müdahalesine karşı teferruatlı bir askerî harekât planı hazırlamıştır. Bu bağlamda Avusturya Genel Kurmay Başkanlığı sadece tasarılar hazırlamakla kalmamış niyetini kamuoyu önünde açıkça ifade etmiştir (Fredmen, 1996: 75).

Türkiye'deki siyasî çalkantılar Avusturya'yı ilhak konusunda cesaretlendirmiş ve müteakip günlerdeki işini kolaylaştırmıştır zîrâ Türkiye ilhak olayında kayda değer bir siyasî bir muhalefet sergilemediği gibi Avusturya ile uzlaşma yolunu tutmuştur. Bu durum karşısında, Boşnakların dayanacağı siyasî merci kalmamıştı. Böylece asırlar boyunca Bosna'ya hükmeden Boşnaklar hükmedilen ve aşağılanan bir toplum haline resmen sokulmuşlardır. Bu yüzden, Boşnaklar kendilerinin Türkler tarafından ihanete

uğramış oldukları duygusuna kapılmışlardır. Asırlar boyunca Türkler ile beraber Avusturya ile dövüşen ve en az 132 büyük savaşta kan döken Boşnakların bu durumu hazmetmesi kolay olmamıştır.

Öte yandan Başlangıçta ilhaka karşı şiddetle karşı duran Boşnaklar kısa bir süre sonra maddi ve manevi faydalar elde etmeye başlayınca tavırlarını değiştirmişler ve idare ile uzlaşma yoluna girmişlerdir. Özellikle 15 Nisan 1909 tarihinde yayınlanan imparatorluk iradesiyle Müslümanlara verilmiş olan din, eğitim ve vakıf alanlarındaki özerklik hakları, Boşnaklar üzerinde çok olumlu etkiler yaratmıştır. Kabûl edilen bu yönetmelik Boşnak partisinin Avusturya ile yürütmüş olduğu uzun süreli ve çetin müzakerelerden sonra ortaya konulmuştur.

1910 yılında yayınlanan Bosna Anayasası ise Müslümanlar için müsbet bir adım daha teşkil etmiştir. Bu anayasaya göre Bosna'da bir meclis kurulmuş ve bu meclis için Müslümanlar 24 temsilci, Ortodokslar 31 temsilci ve Katolikler de 16 temsilci seçmişlerdir (Fredmen 1996: 76).

Toprak konusunda Boşnaklar eski hakların ve durumun devamını talep ederken Hıristiyanlar derebeylik olarak gördükleri eski uygulamanın kaldırılmasını ve toprağın onu işleyen çiftçilere dağıtılmasını talep etmekteydiler. Avusturya her ne kadar büyük toprak sahiplerini yanında tutmak amacıyla köklü bir değişimi uygun görmemişse de 1906 yılında toprağı işleyenlerin bunu satın almasını kolaylaştıran bir kanun çıkarmıştır. Yeni oluşturulan Bosna meclisinde Boşnaklar günün şartlarına göre değişmek kaydı ile Sırplar ile veya Hırvatlar ile koalisyona girmişlerdir.

Aslında Bosna'nın ilhakı ile 1.2 milyon İslâv Avusturya vatandaşlığına girmiş olmakla Avusturya'daki halkların dengesi ciddi bir şekilde bozulmuştur. Bu sıkıntının bir nebze olsun azaltılması için veliahd Franz Ferdinand İmparatorluğun Avusturya, Macaristan ve Hırvatistan ile birleşmiş Bosna olmak üzere üç özerk bölgeye ayrılmasını ciddi bir şekilde tasavvur etmiştir (Fredmen, 1996: 80).

1.BALKAN SAVAŞLARI VE BOSNA

Balkan savaşları modern tarihin dönüm noktalarından birini temsil etmektedir. Bu savaşlar modern Avrupa'nın siyasî haritasını ve bütün Balkan halkının kaderini şekillendirmeye kararlı idi. Saraybosna'da bazı hükümet yetkilileri 1913 yılı başında vatandaşların bütün düşüncesi, duruşu ve etkinliğinin Balkanlar'da gerçekleşen olayların şaşkınlığının etkisi altında olduğunu gözlemlemekteydiler. Bununla birlikte özellikle Müslümanlar ve Sırplar olaylardan etkilendiler ve onların siyasî temsilcilerine de bu durum kaçınılmaz olarak yansıdı. Balkan Savaşları'na giden olayların ise hem Bosna hem de Balkanların kaderini şekillendirmesi kaçınılmazdı.

Bosna'nın 1908'de Avusturya-Macaristan tarafından İlhakı krizi ve Balkanlar'daki durumun kademeli olarak istikrara kavuşmasından sonra, pan-Slavistler daha yüksek hedeflere yönelmişlerdi. Balkan Hristiyan devletlerinin çabaları, Osmanlı İmparatorluğu üzerinde hakimiyet sağlanacak olan ittifakların oluşturulması yönünde oldu. Mağlup Osmanlı İmparatorluğu'nun Balkanlar'da kalan toprakları milliyetler ilkesine göre bölünmeliydi. Bu planların gerçekleşmesi için uygun bir zeminin oluşturulması biraz daha zaman alacaktı.

